**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# QIRX YEDDİNCİ KİTAB

## İYUL 2011 - SENTYABR 2011

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Rusiya Federasiyasına və Polşaya səfərləri, həmçinin Polşa, Türkiyə və Monteneqro prezidentlərinin Azərbaycana səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektouna aid bağlanan müqavilələrdən, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsindən və genişləndirilməsindən bəhs olunur. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Erəmənistanın işğalçılıq siyasəti, Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları təşkil edir.

Azərbaycanın uğurla aparılan daxili və xarici siyasətinə, iqtisadi potensialının möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərinə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Bu cilddə, həmçinin ölkəmizə gələn bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri də yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{0801000000}{\text{М} - 651(07) - 2017}$$

**ББК - 32**

© Azərnəşr, 2017

## NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*12 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezindenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir.Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

– 2011-ci ilin birinci yarısı arxada qalıb. Biz ənənəvi olaraq, Nazirlər Kabinetinin iclasında ilin altı ayının yekunlarını müzakirə edəcəyik. Bütövlükdə altı ayda ölkə qarşısında duran bütün iqtisadi və sosial məsələlər uğurla həll olunubdur. Ümumi iqtisadi artım o qədər də yüksək olmamışdır. Ümumi daxili məhsul cəmi 0,9 faiz artmışdır. Bunun səbəbi isə neftin hasilatının azaldılmasıdır. Bu amilin də bizdən asılı olmayan səbəbləri vardır.

Sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda qeyri-neft sektoru artaraq 7,2 faiz təşkil etmişdir. Bu, son illər apardığımız islahatların nəticəsidir. Çünki əsas məqsədimiz qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsidir. 7,2 faiz səviyyəsində artan qeyri-neft sektorunun göstəriciləri bizi çox sevindirir. Bu onu göstərir ki, ölkə dinamik inkişaf edir. İqtisadiyyatın enerji amilindən asılılığı

---

* Назирляр Кабинетинин 2011-ъи илин биринъи йарысынын сосиал-игтисади инкишафынын йекунларына щяср олунмуш иъласында Верэиляр назири Фазил Мяммядов, Бакы Şящяр İъра Накимиййятинин башчысы Щаъыбала Абуталыбов, Рабитя вя Информасийа Технолоэийалары назири Яли Аббасов, «Азярсу» Ачыг Сящмдар Ъямиййятинин сядри Горхмаз Щцсейнов чыхыш етдиляр.

azalır. Bu bizə ümid verir ki, növbəti aylarda və illərdə iqtisadiyyatın şaxələndirilməsi üçün əlavə imkanlar yaradılacaqdır.

Kənd təsərrüfatında artım yaxşıdır – 6,2 faiz. Bu da yaxşı göstəricidir. Əhalinin pul gəlirləri 17 faiz artmışdır. İnflyasiya isə cəmi 8,8 faiz olmuşdur. Bu da onu göstərir ki, insanların rifah halının yaxşılaşdırılması üçün yaxşı şərait yaradılmışdır. Bir sözlə, ölkənin ümumi inkişafı bu altı ayda çox uğurlu, dinamik olmuşdur. İlin birinci yarısında büdcəyə düzəlişlər edilmişdir. İlk dəfə olaraq büdcə xərclərimiz 20 milyard dollara çatmışdır ki, bu da rekord göstəricidir. Bu bizə imkan verir ki, ilin axırına qədər vacib olan infrastruktur və sosial məsələlərin həlli üçün əlavə maddi imkanları ortaya qoyaq.

Ölkəmizin strateji valyuta ehtiyatları ilin əvvəlindən 9 milyard dollar artmışdır. Həm əldə edilmiş gəlirləri ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan sahələrə məqsədyönlü şəkildə xərcləyirik, həm də ehtiyatları artırırıq. Hazırda ölkəmizin strateji valyuta ehtiyatları 38 milyard dollar səviyyəsindədir. Bu çox böyük rəqəmdir və əminəm ki, bu rəqəm ilin sonuna qədər artacaqdır. Bu bizə imkan verir ki, ölkə iqtisadiyyatının inkişafını təmin edək, insanların sosial problemlərinin həlli üçün əlavə maliyyə resursları cəlb edək.

Bu ilin birinci yarısında həmişəki kimi, sosial məsələlərin həlli də diqqət mərkəzində olmuşdur və bu istiqamətdə çox vacib addımlar atılmışdır. Bəzi kateqoriya üzrə – büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqları qaldırılmışdır. Ən böyük nailiyyət pensiyaların artımı ilə bağlıdır. İyulun 1-dən 2006-cı ilə qədər olan pensiyaçıların orta pensiyası təxminən 40 faiz artmışdır. İndi dəqiqləşmə gedir, hesablamalar aparılır, çox böyük artımdır. Deyə bilərəm ki, bəlkə də dünya miqyasında bu illər ərzində buna bənzər hadisə olmamışdır. Çünki bəzi ölkələrdə – harada ki, maliyyə və iqtisadi böhran özünü büruzə verir, nəinki pensiyalar artırılır, əksinə, azaldılır, maaşlar, sosial proqramlar kəsilir, büdcədən

maliyyələşən təşkilatlarda işləyən insanların maaşları və sosial təminatı aşağı düşür.

Azərbaycanda isə 900 minə qədər pensiyaçının pensiyası 40 faiz artmışdır. Bu onu göstərir ki, Azərbaycan iqtidarının siyasəti sosialyönümlüdür. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün iqtisadi uğurlar bizə imkan verir ki, sosial sahədə daha da ciddi addımlar ataq.

Ünvanlı sosial yardım proqramı aparılır. Bu proqram hazırda 125 min ailəni əhatə edir. Hər ay orta hesabla hər bir ailəyə 104 manat kömək göstərilir. Bu da yoxsul təbəqəyə göstərilən qayğıdır. Bu məqsədi bir neçə il əvvəl qarşıya qoymuşdum ki, Azərbaycanda yoxsulluq kimi sosial bəla aradan qaldırılsın. Son illərin təcrübəsi göstərir ki, biz bu məqsədə çatırıq. Son 7 il ərzində yoxsulluq şəraitində yaşayanların sayı 5 dəfə aşağı düşmüşdür. Ümid edirəm ki, bu ilin yekunlarına görə bu rəqəm yenə də aşağı düşəcəkdir.

Bu məqsədlərə çatmaq üçün son illər çox gərgin işləmişik. Azərbaycanda bir neçə proqram icra edilir. Hər bir proqram konkret məna daşıyır, hər bir proqramın təməlində icra mexanizmləri, maliyyə resursları və düşünülmüş iş cədvəli vardır. Regionlarda, o cümlədən regional inkişaf proqramının icrası nəticəsində təkcə bu ilin altı ayında 38 min yeni iş yeri açılmışdır və bu proses davam edir. Son illər ərzində 1 milyona qədər yeni iş yeri açılmışdır.

Bu ilin birinci yarısında iki vacib proqram qəbul edilmişdir. Onlardan biri bu yaxınlarda qəbul edilmiş «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» proqramıdır və konkret xarakter daşıyır. Əminəm ki, proqramın icrası nəticəsində mühüm məsələlər öz həllini tapacaqdır.

Gənclərlə görüşlərim zamanı onlar tərəfindən qaldırılan məsələlərin, demək olar ki, hamısı o proqrama daxil edilibdir. Yerlərdən gələn təkliflər də təhlil edilibdir. Əminəm ki, proqramda nəzərdə tutulmuş bütün məsələlər 2015-ci ilə qədər həllini tapacaq və beləliklə, gənclərin həm məşğulluğu, həm təhsillə bağlı olan problemləri, asudə vaxtlarının təşkili, gənclər

üçün xüsusi fondun formalaşması və o fondun xətti ilə müxtəlif proqramların keçirilməsi təmin olunacaqdır.

İkinci vacib proqram Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı proqramıdır. Bu proqram 2011–2013-cü illəri əhatə edir. Nəzərə alsaq ki, 2011-ci ilin yarısı artıq arxada qalıb, 2 il ərzində Bakıda və bütün ətraf qəsəbələrdə çox böyük quruculuq, abadlıq işləri aparılacaqdır. Bu işlərə başlamışıq. İndi qəsəbələrdə yeni su xətləri çəkilir, kanalizasiya xətlərinin çəkilişi üçün tədbirlər görülür. O qəsəbələrdə əksər yollar torpaq idi, yararsız vəziyyətdə idi. Yağış, qar yağan kimi, o yollardan keçmək mümkün deyildi. İndi hər bir qəsəbədə gözəl yollar çəkilir, yeni məktəblər, tibb məntəqələri, poliklinikalar, xəstəxanalar tikilir, mövcud olanlar təmir edilir. Qəsəbələrin bütün infrastrukturu 2013-cü ilə qədər yenilənməlidir. Bu çox böyük hədəfdir, böyük proqramdır və iki il yarım ərzində bunu icra etmək çox çətindir. Hədəf qoyulub ki, bu işləri qısa müddətdə görək. Bütün imkanları səfərbər etsək, buna nail olmaq mümkündür. Qəsəbələrdə yaşayan insanların məşğulluğu üçün konkret tədbirlər nəzərdə tutulub. O cümlədən Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə Bakıətrafı qəsəbələrə də kreditlərin verilməsi prosesi başlanmışdır. Növbəti illərdə bunu daha da böyük məbləğdə edəcəyik ki, orada kiçik emal müəssisələri, kiçik zavodlar, fabriklər yaradılsın və kənd təsərrüfatının inkişafı üçün lazımi layihələr icra edilsin. Bu iki proqram 2011-ci ilin məhsuludur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı gedən son danışıqlar haqqında Azərbaycan ictimaiyyətinə məlumat vermək istərdim. Çünki danışıqlar uzun illərdir gedir və biz danışıqların, demək olar ki, həlledici mərhələsindəyik. Son müddət ərzində baş verən hadisələr haqqında istərdim ki, Azərbaycan xalqını məlumatlandırım.

Birincisi, onu demək istəyirəm ki, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının son birgə bəyanatı çox ümidvericidir. Bəyanatda Helsinki Yekun Aktının müddəalarına istinad edilmişdir. Helsinki Yekun Aktı münaqişənin həlli üçün

əsas kimi göstərilmişdir. Orada ölkələrin ərazi bütövlüyü prinsipləri xalqların öz müqəddəratını müəyyənetmə prinsipləri ilə ziddiyyət təşkil etmir və münaqişələrin ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunması məsələləri də açıq-aydın göstərilir.

İkinci vacib məqam ondan ibarətdir ki, bəyanatda və ondan sonrakı bəyanatlarda deyilmişdir ki, yaranmış status-kvo qəbuledilməzdir. Bu o deməkdir ki, status-kvonun dəyişdirilməsi Azərbaycan torpaqlarının işğal altından çıxmasını təmin edəcəkdir. Çünki Ermənistan tərəfi son 20 il ərzində çalışıb və çalışır ki, status-kvo dəyişdirilməsin və vəziyyətdə heç bir dəyişiklik edilməsin.

Üçüncü vacib məqam, bütövlükdə Minsk qrupunun həmsədr ölkələrinin bu məsələ ilə bağlı fəallığıdır. Kazan görüşü ərəfəsində mənim Amerika prezidenti cənab Obama ilə telefon söhbətim olmuşdur. Kazan görüşü ərəfəsində Fransa prezidenti cənab Sarkozi mənə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məktub göndərmişdir. Bildiyiniz kimi, Kazan görüşü Rusiya prezidenti cənab Medvedevin təşəbbüsü ilə keçirilmişdir. Görüşdən sonra ABŞ Dövlət katibi xanım Klinton mənə məktubla müraciət etmişdir və ondan sonra mənim xanım Klintonla telefon söhbətim olmuşdur. Kazan görüşündən sonra Xarici İşlər nazirimiz Fransa Xarici İşlər naziri ilə görüş keçirmişdir və nəhayət, prezident Medvedev öz Xarici İşlər nazirini Bakıya göndərmiş və prezident Medvedevin məktubunu mənə təqdim etmişdir. Ümid edirik ki, bu fəallıq real nəticələrə gətirib çıxaracaqdır. Həmsədr ölkələr indi çox çalışırlar ki, baza prinsipləri tezliklə razılaşdırılsın və beləliklə, sülh müqaviləsinin hazırlanması üçün şərait yaradılsın. Biz də bunu istəyirik. Çünki bu bizim torpaqlarımızdır və erməni işğalçıları torpaqlarımızı 20 ilə yaxındır ki, işğal edibdir.

Danışıqların son mərhələləri haqqında bəzi reallıqları bir daha Azərbaycan ictimaiyyətinə çatdırmaq istəyirəm. Azərbaycan bütün dövrlərdə maksimum dərəcədə konstruktivlik nümayiş

etdirmişdir. 2004-cü ildən Praqa prosesi adlandırılan bir danışıqlar formatı yaranmışdır və bu proses çətinliklə olsa da, irəliyə gedir və çətin olan məsələlər haqqında fikir mübadiləsi, danışıqlar aparılaraq bəzi vacib məsələlər razılaşdırılmışdır. Praqa prosesinin davamı olaraq, tərəflərə Madrid prinsipləri təqdim edilmişdir. Bu prinsiplər bir neçə abzasdan ibarət idi və ümumi xarakter daşıyırdı. Azərbaycan çox kiçik istisnalarla o prinsipləri bütövlükdə qəbul etmişdir. Bu prinsiplər əsasında 2009-cu ilin sonuna qədər Minsk qrupunun həmsədrləri, yəni üçü birlikdə, mən bunu xüsusilə vurğulamaq istəyirəm, Amerika, Fransa və Rusiya hər iki tərəfə yenilənmiş Madrid prinsiplərini təqdim etmişdir.

Bu, 2009-cu ilin sonunda idi. 2010-cu ilin yanvarında Rusiya prezidenti cənab Medvedev Ermənistan və Azərbaycan prezidentlərini Soçiyə dəvət etmiş və orada üçtərəfli görüş keçirilmişdir. O görüşdə Azərbaycan birmənalı şəkildə bildirmişdir ki, yenilənmiş Madrid prinsiplərini qəbul edir. Bu prinsipləri biz yazmamışdıq. Amerika, Fransa və Rusiyanın birgə təqdim etdikləri və uzun illər üzərində çalışdıqları prinsiplər idi. Ermənistan tərəfi bu prinsipləri qəbul etmədi və ondan sonra, demək olar ki, danışıqlarda müəyyən durğunluq yarandı. Çünki növbəti görüş altı aydan sonra, 2010-cu ilin iyun ayında Sankt-Peterburqda keçirilmişdir.

Yenilənmiş Madrid prinsipləri nədən ibarətdir? İlk növbədə işğal edilmiş torpaqlardan Ermənistan işğalçı qüvvələrinin çıxarılması nəzərdə tutulurdu. Beş rayondan dərhal, iki rayondan 5 ildən sonra Ermənistan qoşunlarının çıxarılması və Azərbaycan vətəndaşlarının öz doğma torpaqlarına qayıtması nəzərdə tutulurdu. Dağlıq Qarabağa müvəqqəti statusun verilməsi də o təkliflərdə var idi. Dağlıq Qarabağla Ermənistan arasında olan dəhlizin fəaliyyət göstərməsi də o prinsiplərdə var idi.

Bölgəyə həm Ermənistan, həm Azərbaycan əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün sülhməramlı qüvvələrin gətirilməsi zəruri idi. İşğaldan əziyyət çəkmiş bütün insanların əvvəlki məskunlaşma yerlərinə qayıtması da təmin edilməli idi.

Prinsiplər bundan ibarət idi. Ermənistan ilə Dağlıq Qarabağı birləşdirəcək dəhlizin parametrləri də o prinsiplərin tərkib hissəsi idi. Bu variant qəbul edilə bilər. Əlbəttə, bu, baza prinsipləridir. Bunun əsasında danışıqlar aparılmalıdır və danışıqların sonunda sülh müqaviləsi hazırlanmalıdır. Sülh müqaviləsi hazır olanda son qərarı Azərbaycan xalqı verəcəkdir. Danışıqların davam etdirilməsi üçün həmsədr ölkələr tərəfindən irəli sürülmüş yenilənmiş Madrid prinsipləri qəbul oluna bilərdi. Əfsuslar olsun ki, Ermənistan tərəfi bu prinsipləri qəbul etmədi, onlardan imtina etdi və ondan sonra danışıqlar prosesində 2010-cu ilin ortalarına qədər durğunluq yarandı. Sonra yeni təkliflər verilməyə başlandı. Bəzi hallarda bu təkliflər danışıqların mahiyyətinə və son 7 il ərzində apardığımız danışıqların əsas prinsiplərinə dəyişiklik etmişdir. İndi yeni vəziyyətlə üzləşirik. Bir daha demək istəyirəm ki, Azərbaycan danışıqların konstruktiv şəkildə aparılmasında maraqlıdır. Azərbaycan 2009 və 2010-cu ilin əvvəlində öz niyyətini bir daha göstərmişdir ki, sülh danışıqlarına sadiqdir və bu danışıqlar mütləq sülh müqaviləsinə gətirib çıxarmalıdır.

Biz danışıqları imitasiya və görüntü yaratmaq naminə aparmırıq. Azərbaycan ilə Ermənistan arasında fərq kifayət qədərdir. Ermənistan çalışır ki, status-kvo dəyişməz qalsın və guya danışıqlarda iştirak edir, konstruktivlik nümayiş etdirir. Halbuki bütün dövrlərdə çalışıblar ki, danışıqlar prosesini pozsunlar. Azərbaycan isə birmənalı şəkildə konstruktivliyini göstərmişdir. Dağlıq Qarabağın hüquqi statusunun müəyyən edilməsinə gəlincə, 2009-cu ilin prinsiplərində göstərilmişdir ki, bu, gələcəyin məsələsidir və tərəflər razı olduğu təqdirdə məsələ öz həllini tapa bilər. Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağın heç bir hüquqi statusu ola bilməz. Dağlıq Qarabağın Azərbaycandan ayrılması, Dağlıq Qarabağa müstəqilliyin verilməsi, yaxud da Ermənistana birləşməsi heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Nə Azərbaycan rəhbərliyi, nə Azərbaycan xalqı heç vaxt bunu qəbul etməyəcəkdir.

Bu yaxınlarda Avropa İttifaqına səfərim bütövlükdə çox uğurlu olmuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında

əlaqələrin möhkəmlənməsi üçün, gələcək əməkdaşlığın istiqamətlərinin düzgün seçilməsi üçün bu səfər çox əhəmiyyətli idi. Biz gələcək birgə əməkdaşlıq haqqında mövqelərimizdə kifayət qədər yaxınlıq hiss edirik. Biz Avropa İttifaqı ilə uzunmüddətli əməkdaşlıq etmək fikrindəyik. Ona görə hər bir məsələ açıq-aydın göstərilməlidir. O cümlədən, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri müzakirə edilmişdir.

Minsk qrupuna həmsədrlik edən ölkələrin rəhbərlərinin məktubları, telefon zəngləri – bu fəallığın, müsbət ab-havanın olduğu təqdirdə Ermənistan rəhbərliyinin bu yaxınlarda verdiyi qeyri-adekvat, cəfəng, isterik bəyanatları danışıqlar prosesinin ruhuna ziddir. Çalışırıq ki, indiki mərhələdə addımları elə ataq ki, baza prinsiplərini razılaşdıra bilək.

Ermənistan rəhbərliyinin bu yaxınlardakı bəyanatları onların niyyətini göstərir. Onlar əslində bizi müharibə ilə hədələyirlər. Bizə qarşı müharibə aparan, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini aparan, Xocalı soyqırımını törədən vəhşilər Azərbaycanı yenə də müharibə ilə hədələyirlər. Bəlkə də son aylar beynəlxalq fəallığın səbəblərindən biri də odur ki, Azərbaycan dövləti və ordusu güclü dövlətdir və güclü ordudur. Bunu hamı bilir, yoxsulluq içində çabalayan, xarici ianələr ilə yaşayan Ermənistan bilir ki, Azərbaycan müqayisəedilməz səviyyədədir. Biz inkişaf edirik, güclənirik, onlar isə aclıq içindədirlər. Son altı ayda 70 min erməni ölkəni birdəfəlik tərk edib. 5–10 ildən sonra bizim əhalimiz 11 milyon, onların əhalisi 1 milyon olacaq. Bunun nə demək olduğunu hamı yaxşı başa düşür. Biz məsələni bu yollarla öz xeyrimizə həll edə bilərik. Ona görə bu fəallığın səbəblərindən biri də məhz ondan ibarətdir ki, tezliklə məsələ həll olunsun.

# YEKUN NİTQİ

Beləliklə, ilin birinci yarısında görülmüş işlərlə bağlı bu gün aparılan müzakirələr onu göstərir ki, altı ayda Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmişdir. Ölkədə bütün proseslər müsbət istiqamətdə inkişaf edir və bu bir daha onu göstərir ki, həm bizim seçdiyimiz yol düzgün yoldur, həm də apardığımız siyasət uğurlu inkişafı təmin edir. Dünyanın müxtəlif yerlərində yaşanan gərginlik, qarşıdurmalar, müharibələr, maliyyə və iqtisadi böhranlar göstərir ki, düzgün siyasət aparılan zaman bütün sosial və iqtisadi məsələlər uğurla öz həllini tapa bilər. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır, heç bir yerdən yardım almır. İndi buna ehtiyac da yoxdur.

Uzun illər ərzində Azərbaycan iqtisadi inkişaf templərinə görə dünyada birinci yerdə idi. Bu bizə imkan verdi ki, maliyyə resursları toplayaq, iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalar qoyaq. Dünya İqtisadi Forumunun hesabatlarına görə, Azərbaycan bu gün rəqabət qabiliyyətinə görə – hesab edirəm ki, bu hər bir ölkənin iqtisadiyyatı üçün vacib olan göstəricilərdən biridir – MDB məkanında birinci yerdədir. İnsan inkişafı indeksi ilə əlaqədar verilən bəyanatlar və aparılan hesablamalar onu göstərir ki, ən böyük irəliləyişi Azərbaycan etmişdir. Hesab edirəm ki, bu, MDB məkanında ən birinci göstəricidir və dünya miqyasında da biz inkişaf etmiş ölkələrin meyarlarına yaxınlaşırıq.

Azərbaycanda icra edilən infrastruktur layihələri nəinki ölkəmiz üçün, bölgə üçün də böyük əhəmiyyət daşıyır. Uğurla icra edilən Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisini misal kimi gətirmək olar. Bildiyiniz kimi, birinci mərhələdə Azərbaycan Gürcüstana 200 milyon dollar kredit ayırmışdı. Ondan sonrakı mərhələdə 575 milyon dollar əlavə kredit ayrılmışdır. Yəni biz bu imkanları əldə etmişik. Əgər bu imkanlar olmasaydı, heç vaxt Bakı–Tbilisi–Qars dəmir yolu

tikilməzdi. Çünki bir tərəfdən, dünya erməniliyi, erməni lobbisi bunun əleyhinə çıxırdı, digər tərəfdən, onların himayəsində olan və erməni lobbisinin, necə deyərlər, sərəncamında olan bəzi siyasi dairələr bu layihənin əleyhinə çıxmışdılar. Burada həlledici amil ilk növbədə, Azərbaycanın maliyyə resurslarının cəlb edilməsi idi və beləliklə, üçtərəfli format formalaşdı. Əminəm ki, bu layihə gələn ilin sonuna qədər reallaşacaqdır. Bu layihənin əhəmiyyəti sadəcə, dəmir- yol layihəsi olmaqdan qat-qat üstündür. Bu, geosiyasi addımdır, geosiyasi təşəbbüsdür. Bundan sonra uzun illər Azərbaycanı nəqliyyat baxımından bölgə mərkəzinə çevirən bir layihədir və ölkəmiz onilliklər ərzində bu yolun istismarından həm siyasi, həm də iqtisadi dividendlər alacaqdır. Güclü siyasi iradə, düşünülmüş addımlar və bölgədəki mövqelərimizin güclənməsi bu reallıqları yaratmışdır.

İndi nəinki Yaxın Şərqdə, Şimali Afrikada da yaşanan olaylar göz qabağındadır. Avropa ölkələrində, Avropa İttifaqına üzv olan ölkələrdə çox böyük sıxıntılar, çətinliklər yaranmışdır, maliyyə-iqtisadi böhranlar yaşanır və xaricdən, beynəlxalq maliyyə qurumlarının yardımı olmadan bunların aradan qaldırılması qeyri-mümkündür. Bir neçə ölkə xaricdən maliyyə resursları alınması üçün müraciət etmişdir və əgər o resurslar ayrılmasa, bu ölkələri defolt gözləyir, milli valyutanın ucuzlaşması prosesi gedir. Hələ təbii fəlakətləri demirəm. Bütün qitələrdə daşqınlar, yanğınlar baş verir. Azərbaycanda keçən il bu olaylar yaşandı, görülən tədbirlər nəticəsində qısa müddətdə fəsadlar aradan qaldırıldı və bu gün cox ciddi iş aparılır ki, gələcəkdə biz bu bəladan özümüzü yüz faiz sığortalaya bilək. Burada həlledici məsələlərin birincisi siyasi iradədir, ikincisi peşəkarlıqdır. Peşəkarlıq olmadan bu məsələləri biz lazımi səviyyədə icra edə bilmərik.

Bu gərginliklərin fonunda Azərbaycan bir sabitlik adası, inkişaf məkanı kimi, özünü dünyaya təqdim edir. Mən şübhə etmirəm ki, nəzərdə tutulmuş bütün layihələr, proqramlar ilin sonuna qədər uğurla icra ediləcəkdir. Biz çalışmalıyıq ki,

makroiqtisadi sabitliyə daha da çox üstünlük verək. Son illər ərzində inflyasiyanın artımı qəbuledilən ölçüdə idi. Bu ilin altı ayında əhalinin pul gəlirləri 17 faiz artmışdır, inflyasiya isə 8,8 faizdir. Büdcəyə edilən dəyişiklik, dürüstləşmə büdcə xərclərini artırır və bu xərclər həm infrastruktur layihələrinə, həm sosial məsələlərin həllinə yönəldilir. Bu barədə mən giriş sözümdə bildirmişəm, 900 minə qədər pensiyaçının pensiyası təxminən 40 faiz artacaqdır. Vətəndaşların bir neçə kateqoriyasının əmək haqları qaldırılıbdır. Bu da inflyasiyaya təkan verəcəkdir. Böyük infrastruktur layihələrinin həyata keçirilməsi və bu məqsədlər üçün əlavə vəsaitin cəlb edilməsi istər-istəməz inflyasiyaya gətirib çıxaracaqdır. Əvvəlki dövrdə bəlkə də daha çox infrastruktur layihələrinə lazım olan ləvazimat, avadanlıq, materiallar xaricdən gətirilirdisə, indi lazım olan inşaat materialları və digər ləvazimat, avadanlıq yerli sənayenin sürətli inkişafı hesabına Azərbaycanda istehsal olunur. Bu çox müsbət haldır. Amma eyni zamanda, bu da inflyasiya yaradan amilə çevrilir. Bütün diqqəti ona yönəltməliyik ki, inflyasiya birrəqəmli səviyyədə qalsın. Belə olarsa, heç bir çətinlik olmayacaqdır. Nəzərə alsaq ki, iqtisadi inkişaf, xüsusilə qeyri-neft sektorundakı iqtisadi inkişaf kifayət qədər böyükdür.

Vacib məsələlərdən, yəni ilin sonuna qədər həllini gözləyən məsələlərdən biri büdcə xərclərini yüz faiz icra etməkdir. Vaxt gəlib çatıb və biz bu barədə də düşünürük. Vaxt vardı büdcədə pul az idi, pulların xərclənməsi məsələsi ilə də ciddi məşğul olmurduq. Amma indi görülən işlər nəticəsində maliyyə imkanlarımız o qədər artıb ki, xüsusilə dürüstləşdirmə zamanı edilən əlavələr tələb edir ki, ilin sonunadək bu işlər görülsün.

Çıxışlarda göstərildi ki, təkcə Bakı şəhərində nə qədər məktəb təmir ediləcəkdir. Sentyabr ayına və ilin sonuna qədər 40-dan yuxarı məktəb təmir ediləcək, tikiləcəkdir. Nə qədər xəstəxana, poliklinika tikiləcəkdir. Yol tikintisinə, digər infrastruktur layihələrinə əlavə vəsait ayrılıbdır. İlin sonuna cəmi altı ay qalıb və çalışmalıyıq ki, nəzərdə tutduğumuz layihələr icra olunsun. Ona görə çalışmaq lazımdır ki, biz büdcə

xərclərini 100 faiz təmin edək. Bu yaxınlarda mənə verilən məlumata görə, biz həmin rəqəmə yaxınıq.

Bakıətrafı qəsəbələrdə işlər gedir, daha da sürətləndirilməlidir. Bakı Şəhər İcra Hakimiyyəti bu işlərlə məşğuldur, İqtisadi İnkişaf Nazirliyi bütün işləri əlaqələndirir, rayon icra hakimiyyətləri də, əlbəttə ki, bu işlərlə məşğuldur və müvafiq qurumlar – Azərbaycan Dövlət Neft Şirkəti, bəzi hallarda Nəqliyyat Nazirliyi, «Azərsu» şirkəti bu işlərdə fəal çalışır. Elə etməliyik ki, nəzərdə tutduğumuz məsələlər qısa müddət ərzində öz həllini tapsın.

Hazırda ölkəmizdə bir neçə vacib, böyük infrastruktur layihələri həyata keçirilir. O layihələrin icrası ilə bağlı mütəmadi qaydada mənə məruzələr edilir. Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən qurulması, yeni zolaqların tikintisi uğurla gedir və aerovağzal kompleksinin yeni möhtəşəm, müasir binasının tikintisi də gedir. İşlər qrafik üzrə gedir və 2013-cü ildə biz Heydər Əliyev Beynəlxalq Aeroportunun açılışını qeyd edəcəyik.

Bu ilin sonuna qədər Qəbələdə daha bir beynəlxalq aeroport istifadəyə verilməlidir. Qəbələ ölkəmizin turizm mərkəzlərindən birinə çevrilibdir. Orada böyük infrastruktur layihələri həyata keçirilir. Çoxlu otellər tikilib, istirahət zonaları yaradılıb və xarici turistləri cəlb etmək üçün əlavə infrastruktur layihələri icra olunur. Orada beynəlxalq aeroportun tikilməsi lazım idi. İşlər gedir və ilin sonuna qədər o aeroport istismara veriləcəkdir. Artıq Naxçıvan, Gəncə və Lənkəran aeroportları beynəlxalq uçuşları təşkil edir və o şəhərlərdə yaşayan insanların rahatlığı üçün bu çox müsbət bir haldır. Xüsusilə Lənkəran aeroportuna beynəlxalq statusun verilməsi bir yenilikdir və hazırda Lənkərandan digər ölkələrin şəhərlərinə müntəzəm uçuşlar təşkil edilir. Beləliklə, Qəbələ Beynəlxalq Aeroportunun tikintisi ilə biz bu proqramı başa vurmuş oluruq.

Ələt qəsəbəsində dəniz ticarət limanının tikintisi başlanmışdır. Bu da çox böyük layihədir. Xüsusilə Bakı–Tbilisi–Qars dəmir yolunun 2012-ci ilin sonuna qədər istifadəyə verilməsi ilə

bu ticarət limanının tikintisi uzlaşmalıdır. Bu, Xəzər hövzəsində ən böyük, ən müasir, ən gözəl və ən möhtəşəm dəniz ticarət limanı olacaqdır. Onun gücü imkan verəcək ki, biz həm Şərqdən Qərb istiqamətinə, həm də əks istiqamətə istənilən həcmdə yükləri ötürə bilək.

Müasir, yenə də dünya səviyyəsində olacaq gəmiqayırma zavodunun tikintisi başlanmışdır və daim diqqət mərkəzində olmalıdır. Dövlət tərəfindən həyata keçirilən mühüm layihələrdən biri də Azərbaycanda böyük gübrə zavodunun tikintisi layihəsidir. Hazırlıq işləri gedir və ümid edirəm ki, yaxın zamanlarda bu zavodun da təməli qoyulacaqdır. Şübhəsiz ki, bu zavodun tikilməsi kənd təsərrüfatının inkişafına və məhsuldarlığın artırılmasına çox müsbət təsir göstərəcəkdir.

Vacib olan infrastruktur layihələri arasında mən metro tikintisini də vurğulamaq istəyirəm. Bu sahədə də bütövlükdə böyük layihə icra edilir. Son 3 il ərzində 3 yeni stansiya istifadəyə verilmişdir. 2015-ci ilə qədər əlavə 6 stansiya istifadəyə veriləcəkdir. Bu çox müsbət göstəricidir. Metro birinci növbədə ən ucuz, ən rahat nəqliyyat növüdür. Biz bunu insanların rahatlığı üçün edirik və dünyada ən aşağı metro tarifləri Azərbaycandadır – 15 qəpikdir. Nə MDB məkanında, nə də dünyanın digər ölkələrində buna bənzər tariflər yoxdur. Metro sırf sosial layihədir və onun öz xərclərini ödəməsi üçün gediş tarifi bəlkə də indikindən 5-6 dəfə yüksək olmalıdır. Biz isə buna heç vaxt getməyəcəyik, çalışmalıyıq ki, nə qədər mümkündür, tarifləri bu səviyyədə saxlayaq. Onu da demək istəyirəm ki, nə qədər çox stansiya tikilirsə, bir o qədər də xərclər artır. Bizim 22, ondan da az stansiyamız var idi, xərclər də təxminən bir səviyyədə idi. 4 ildə stansiyaların sayı 30-a çatacaq və əlbəttə ki, istismar xərcləri də artacaqdır. Buna, əlbəttə ki, baxacağıq. Azərbaycanda metro tikintisi gedir, tariflər sabitdir və son 3 ildə 3 stansiyanın istismara buraxılması artıq onu göstərir ki, bizim kifayət qədər imkanımız vardır. Tunel tikintisi üçün alınmış yeni avadanlıq dünya səviyyəsindədir, bu bizə imkan verəcək ki, bu işləri daha da sürətlə aparaq.

Həmişə olduğu kimi, ordu quruculuğuna diqqət çox yüksək səviyyədədir və bu ilin iyununda keçirilmiş hərbi parad bizim gücümüzü, Azərbaycan dövlətinin, ordusunun qüdrətini göstərdi. Silahlı Qüvvələr güclənir və bildiyiniz kimi, bu məqsədlər üçün böyük vəsait ayrılır. Bütövlükdə hərbi xərclərimiz 3,3 milyard dollara bərabərdir. Bu, yoxsulluq içində yaşayan Ermənistanın dövlət büdcəsindən 50 faiz çoxdur. 3,3 milyard dollar böyük rəqəmdir. Bu həm çoxdur, həm də azdır. Çoxdur ona görə ki, bu, böyük rəqəmdir. Azdır ona görə ki, biz diqqətimizi bu məsələlərə daha da çox yönəltməliyik. İlin sonuna qədər biz çalışıb vəsait tapmalıyıq ki, hərbi xərclərimizi daha da artıraq. Bu barədə bu gün mən Nazirlər Kabinetinə göstəriş verirəm.

Azərbaycanda indi sənayeləşmə prosesi uğurla gedir. Yeni şirkətlər, fabriklər, zavodlar açılır. Elə fabrik, zavodlarımız var ki, onların sayı da artmaqdadır, onların istehsal etdiyi məhsul da dünya səviyyəsindədir. Elə etməliyik ki, bu məhsullar, ilk növbədə ölkə daxilində satılsın və xüsusilə, dövlət şirkətləri bu məhsullardan istifadə etsinlər. Bəzi hallarda Azərbaycanda istehsal edilən ən yüksək keyfiyyətə malik olan hansısa avadanlıq, yaxud digər məhsul kənarda qalır, dövlət şirkətləri gedib xaricdən onun analoqunu alır. Baxmayaraq ki, bəlkə keyfiyyəti də aşağıdır, qiyməti də bahadır. Nəzarətedici orqanlar bu məsələ ilə ciddi məşğul olmalıdır. Mən dövlət şirkətlərinin rəhbərlərinə dəfələrlə göstəriş vermişəm ki, lazım olan avadanlıq, məhsul, boru, yaxud da hər hansı digər mal əgər Azərbaycanda istehsal olunursa, ilk növbədə Azərbaycanda alınmalıdır. İndi bizdə böyük, nəhəng, dünya miqyaslı müəssisələr yaradılıb ki, orada istənilən məhsul istehsal oluna bilər. Onların məhsulu qalır kənarda, onlar daha çox ixraca işləyir, dövlət şirkətləri isə eyni məhsulu xaricdən alır. Nə maraqları var? Məsələ araşdırılmalıdır. Mən bu məsələ ilə bağlı dəfələrlə fərdi qaydada öz göstərişlərimi vermişəm, ancaq əfsuslar olsun, hələ tam şəkildə nail ola bilməmişik ki, bu reallaşsın. Bu mənim son xəbərdarlığımdır. Bu məsələ ilə bağlı

hesab edirəm ki, İqtisadi İnkişaf Nazirliyi xüsusi bir toplantı keçirsin, dünya səviyyəli, rəqabətqabiliyyətli məhsullar istehsal edən şirkətlər dəvət olunsun, onların istehsal etdikləri məhsulların bir daha təqdimatı keçirilsin.

Böyük inşaat işlərində Azərbaycanda istehsal edilən məhsullar istifadə olunmalıdır. Daxili tələbatımızı 100 faiz ödəyən müəssisələr qalır kənarda, eyni məhsul xaricdən gətirilir. Nə üçün? Biz gərək öz bazarımızı qoruyaq. Ona görə istehsal olunan məhsulların – dünya standartlarına uyğun olan məhsullardan mən söhbət açıram – siyahısı, spesifikasiyası verilməlidir, bizim bütün gömrük orqanları bunu bilməlidir və bütün bu işlər əlaqələndirilmiş şəkildə aparılmalıdır. Bu məsələyə birdəfəlik son qoyulmalıdır.

Azərbaycanda bir neçə böyük sənaye mərkəzi yaradılır. Bu barədə mən əvvəlki iclaslarda da demişəm. Bakı şəhərində, Sumqayıtda, Gəncədə və Bakının Qaradağ rayonunda müasir sənaye komplekslərinin yaradılması nəzərdə tutulur. Bu istiqamətdə önəmli addımlar atılmışdır və ölkəmizdə sənayeləşmə siyasəti aparılır. Əgər bu olmasaydı, bu gün yerli istehsaldan o qədər danışmazdıq. Kimya sənayesinin inkişafı üçün tədbirlər görülür, müəssisələr modernləşdirilir, yeni texnologiyalar tətbiq edilir. Bu yaxınlarda Sumqayıt şəhərində olarkən göstəriş vermişəm ki, orada kimya sənayesi şəhərciyi yaradılsın. İndi Sumqayıtda böyük texnopark yaradılır. Orada 10-a qədər yeni müasir müəssisə fəaliyyət göstərir. Kimya kompleksinin ətrafında sırf özəl sektora aid olan, bir növ, müəssisələr şəhərciyi də yaradılmalıdır. İnkişaf etmiş ölkələrdə, MDB məkanında belə təcrübə var. Biz də ondan istifadə etməliyik ki, son məhsulun istehsalına qədər bütün texnoloji proses Azərbaycanda öz həllini tapsın. Bu, birinci növbədə bəlkə də yüzlərlə yeni kiçik və orta şirkətin yaradılmasına, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaq və artıq son məhsula qədər istehsal prosesi Azərbaycanda təşkil ediləcəkdir. Mənə verilən məlumata görə, Sumqayıtda ərazi də, yəni torpaq sahəsi də ayrılıb və tezliklə

Dövlət Neft Şirkəti, İqtisadi İnkişaf Nazirliyi və digər aidiyyəti qurumlar bu məsələ ilə bağlı konkret addımlar atmalıdır.

İKT sektorunun inkişafı ilə bağlı burada məruzə edildi. Bu sahəyə biz çox böyük diqqət göstəririk. Həm MDB, həm də dünya miqyasında götürsək, Azərbaycanda İKT-nin inkişafı ilə bağlı çox böyük addımlar atılmışdır. Burada deyilən rəqəmlər onu göstərir ki, biz dünya miqyasında da qabaqcıl ölkələr sırasındayıq. Azərbaycanda süni telekommunikasiya peykinin orbitə çıxarılması da tarixi hadisə olacaq və burada nazir məlumat verdi. Biz çalışırıq ki, birinci peykin buraxılması ilə məhdudlaşmayaq. İkinci peykin orbitə buraxılması layihəsi də işlənilir. Bütövlükdə bu sahədə indi bizdə təcrübə yaranır. Xarici mütəxəssisləri də cəlb etmişik. Aparıcı xarici şirkətlərlə işləyirik və Azərbaycanda güclü kosmik sənayenin yaranmasına nail olacağıq.

Azərbaycanda mobil rabitə və internet xidməti də inkişaf edir. Azərbaycan o ölkələrdəndir ki, burada internet azaddır, ona heç bir məhdudiyyət yoxdur. Bu onu göstərir ki, biz mətbuat azadlığına çox böyük diqqət veririk və mətbuat azadlığı Azərbaycanda tam şəkildə tətbiq olunur. O beynəlxalq təşkilatlar ki, bu sahədə Azərbaycanda problem görmək istəyir, getsinlər öz tövsiyələrini internetin azad olmadığı ölkələrə versinlər. Yaxud da öz ölkələrində azad mətbuatın necə sıxışdırılmasından – bu yaxınlarda biz bunun əlamətlərini görmüşük – danışsınlar.

Bu ilin sonuna qədər kənd yollarının tikintisinə böyük vəsait ayrılacaqdır. Dövlət büdcəsində bu vəsait nəzərdə tutulub və elə etməliyik ki, kənd yollarının tikintisi ilə daha da ciddi məşğul olaq.

Əvvəlki dövrdə prezidentin ehtiyat fondundan ayrılan vəsaitin hesabına bəzi rayonlarda kənd yolları tikilmişdir. Onların əksəriyyəti torpaq yolları idi, çox yararsız vəziyyətdə idi. İndi isə ilin sonuna qədər böyük kənd yolları layihəsi icra ediləcəkdir. Çalışmalıyıq ki, bütün kəndlərdə yollar yaxşı səviyyədə olsun. Bu ilin sonuna qədər bir neçə rayonda bu layihələr icra olunacaqdır.

İçməli su təchizatı və kanalizasiya layihələrinin icrası ilə bağlı burada məruzə edildi. Bu çox böyük layihədir. Həm Bakı, Bakıətrafı qəsəbələrdə, həm də bütün başqa rayonlarda, kənd yerlərində icra edilir. Burada da çox sadə bir hədəf qoyulmuşdur ki, Azərbaycan əhalisi 100 faiz, özü də gecə-gündüz, fasiləsiz, 24 saat su ilə təmin edilməlidir. Çox sadə bir hədəfdir, ancaq bunu icra etmək o qədər də asan olmayacaqdır. Əfsuslar olsun ki, içməli su təchizatı və kanalizasiya problemləri bütün dövrlərdə bizdə çox aktual olmuşdur. Oğuz–Qəbələ–Bakı su kəmərinin istifadəyə verilməsi və layihə gücünə çatdırılması nəticəsində bu məsələnin bir hissəsi öz həllini tapacaqdır. Elə etməliyik ki, hər bir yaşayış məntəqəsində 24 saat təmiz içməli su olsun. Həm rayonlarda, həm də Bakıda böyük layihələr vardır və onları icra etməliyik. Azərbaycanda içməli su problemi və kanalizasiya problemi yaxın 4-5 il ərzində, bəlkə də ondan da tez birdəfəlik həll olunmalıdır.

Kənd təsərrüfatının inkişafı ilə bağlı bütün müvafiq göstərişlər verilmişdir. Ötən dövrdə kənd təsərrüfatının inkişafı 6 faiz təşkil etmişdir. Yaxşı göstəricidir. Taxılçılıq sahəsində bütün müvafiq göstərişlər verildi və təkrarlamağa ehtiyac yoxdur. İndi üzümçülük üzrə xüsusi proqram hazırlanır. O da müvafiq qurumlarda baxılmalıdır və üzümçülüyün inkişafı üçün biz konkret əlavə tədbirlər görməliyik. Bütövlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində bizim konkret planımız, proqramımız var. Bu da ümumi bir məqsəddir və bəzi sahələrdə biz bu məqsədə çatmışıq. Harada ki, çatmamışıq, Sahibkarlığa Kömək Milli Fondunun kreditləri hesabına və bəlkə də digər dövlət vəsaiti hesabına biz bunu təmin etməliyik.

Bu il Azərbaycanda «Turizm ili»dir. Bu barədə ilin əvvəlində danışmışıq. Həm Bakıda, həm də bölgələrdə yeni müasir otellər istismara verilir. Bakıda bu il altı beşulduzlu, dünya brendləri sırasında olan otellər istismara veriləcəkdir. Onlardan birinin – «Kempinski Badamdar» otelinin açılışı olmuşdur və yaxın vaxtlarda o, tam fəaliyyətə başlayacaqdır. İlin sonuna qədər, növbəti altı ayda təkcə Bakıda beş yeni beşulduzlu otel açılacaqdır. Gələcəkdə turizm Azərbaycan iqtisadiyyatında çox vacib yer

tutacaqdır. Ümumi daxili məhsulda turizmin də, İKT-nin də payı artacaqdır.

Bu gün burada məruzə edildi ki, İKT-dən əldə ediləcək gəlirlər neftdən əldə ediləcək gəlirlərə bərabər olmalıdır. Əli Abbasov bunun 2025-ci ildə olacağını deyir. Yəqin ki, bunu neft hasilatının aşağı düşəcəyi barədə köhnə hesablamalar əsasında deyirsiniz. Amma bilin ki, 2025-ci ilə qədər neft hasilatı aşağı düşməyəcəkdir. Ona görə İKT sektoru neft hasilatının indiki səviyyəsindən əldə olunan gəlirlərin səviyyəsinə çatmalıdır. Çünki əvvəlki hesablamalara görə 2025-ci ildə Azərbaycanda neft gəlirlərinin kəskin şəkildə aşağı düşəcəyi bildirilirdi. İndi isə biz görülən tədbirlər nəticəsində nail olmuşuq ki, hasilatın indiki səviyyəsi o vaxta qədər sabit qalsın. Bu da çox böyük rəqəmdir. On milyardlarla ölçülən rəqəmdir. Çalışmalısınız ki, İKT-nin də gəlirləri o səviyyəyə çatsın.

Ölkəmizdə islahatların aparılması və şəffaf maliyyə sisteminin gücləndirilməsi sahəsində böyük işlər görülür. Onların arasında korrupsiya və rüşvətxorluqla mübarizə çox mühüm yer tutur. Bu istiqamətdə çox təsirli addımlar atılmışdır. Həm inzibati tədbirlər, cəza tədbirləri tətbiq olunur, həm də fikrimcə, institusional metodlardan da istifadə etməliyik. Mənim tərəfimdən imzalanmış bəzi sərəncamlar məhz bu məqsədi güdür.

Çalışmalıyıq ki, nə qədər mümkündür, məmur–vətəndaş təmaslarını aradan qaldıraq. İndi internet vasitəsilə, elektron xidmət vasitəsilə müxtəlif məlumatları da, arayışları da əldə etmək olar. Qeydiyyat məsələləri də internet vasitəsilə aparılmalıdır. Mənim tərəfimdən imzalanmış xüsusi sərəncamda bütün bu məsələlər göstərilibdir. Hər bir nazirlik və dövlət qurumu həmin sərəncama uyğun olaraq təkliflər verməlidir ki, onların nəzdində hansı xidmətlər elektron variantda aparılmalıdır. Bunu heç kim yubatmasın və uzatmasın. Tezliklə təkliflər verilməlidir, sonra daha da ciddi addımlar atılacaqdır.

Həmişə olduğu kimi, bu ilin altı ayında da sahibkarlığın inkişafı üçün böyük tədbirlər görülmüşdür, kreditlər verilmişdir. Nəzərdə tutulan kreditlərin 60 faizə qədəri artıq verilmişdir. İlin

sonunadək qalan hissə də veriləcəkdir. Bu il özəl sektora güzəştli şərtlərlə 125 milyon manat kredit veriləcəkdir ki, bu da özlüyündə növbəti illərdə yeni istehsalların, iş yerlərinin açılmasına və qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir.

Çıxışımın sonunda qeyd etməliyəm ki, gələn ilin dövlət büdcəsi üzərində işlər başlamışdır. Bu həm investisiyayönümlü, həm də sosialyönümlü olmalıdır. Bu il başlanan proqramların icrası əlavə vəsait tələb edəcəkdir. Bu məsələlər gələn ilin büdcəsində öz həllini tapmalıdır. Gələn ilin planları haqqında indidən düşünməliyik və düşünürük. Yaxın vaxtlarda bütün dövlət qurumlarından təkliflər verilməlidir. O təkliflərə baxacağıq.

Bir daha demək istəyirəm ki, ilin altı ayının nəticələri çox ümidvericidir. Başqa cür ola da bilməzdi. Biz bunu elə ilin əvvəlindən bilirdik. Çünki bütün qəbul olunmuş proqramlar ona gətirib çıxarır ki, Azərbaycan sürətlə, uğurla inkişaf edir və yaxın zamanlarda dünyanın inkişaf etmiş ölkələri sırasına daxil ediləcəkdir. Beləliklə, biz ölkəmizin uzunmüddətli və dayanıqlı inkişafına nail olacağıq.

Sağ olun.

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident!

Qardaşınız Əhməd Vali Kərzainin qətli xəbərindən son dərəcə kədərləndim.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2011-ci il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLYANTA MOYSES UMALA TASSOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasında təşəkkül tapmış münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2011-ci il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT
VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Milli bayramınız – Taxt-tac günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan–Mərakeş dostluğu və əməkdaşlığı daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2011-ci il*

## BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SURAXANI RAYONUNDA GÖRÜLMÜŞ ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*14 iyul 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr edilmiş müşavirədə verdiyi tapşırıqların icrası ilə yerində tanışlıq çərçivəsində iyulun 14-də Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsində olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qəsəbənin sxemi əsasında görülmüş işlər barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirdi ki, müşavirədə dövlət başçısının verdiyi tapşırıqlara uyğun olaraq, Suraxanı rayonunda da genişmiqyaslı abadlıq və quruculuq işləri aparılır. Yeni Suraxanı qəsəbəsində 150 min kvadratmetr yola yeni asfalt örtüyünün döşənməsi artıq başa çatdırılır. Qəsəbələrarası yollar boyunca işıqlandırma sistemi dəyişdirilmiş, 300-ə yaxın işıq dirəyi quraşdırılmışdır. Piyadaların rahat hərəkəti üçün səkilər təmir olunmuşdur. Qəsəbədə çirkab və qrunt sularının axıdılması üçün nəzərdə tutulan kanal bərpa edilmişdir.*

*Qəsəbədə görülmüş işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İlham Əliyev:** Qəsəbədə işlər yaxşı gedir.

**Sakin:** Cənab Prezident, Suraxanı əhli adından Sizi salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Mən bu kənddə 74 ildir yaşayıram. Amma belə güclü abadlıq işlərini, infrastrukturun inkişafını heç vaxt görməmişəm. Düzdür, 1999-cu ildə ulu öndər Heydər Əliyev burada olub, xoşbəxt bir adamam ki, onu qarşılamaq mənə də nəsib olmuşdur. Onun şərəfinə burada

Heydər parkı salınıb və Heydər məscidi tikilib. Mən özümü xoşbəxt hesab edirəm ki, bu gün onun varisi, işinin davamçısı İlham Əliyevdir. Mən Sizə uzun ömür, cansağlığı arzulayıram. Ancaq bir xahişim də var. Yeni Suraxanıda vaxtilə mənim oxuduğum 101 nömrəli məktəbin – 1941–1945-ci illərdə hərbi hospital olub – zirzəmisi su ilə doludur. 400 nəfərlik məktəbdə 800 nəfər oxuyur. İmkan daxilində yeni məktəb binası tikilsin, idman kompleksi də olsa yaxşı olar. Mədəniyyət sarayı da bərbad vəziyyətdədir. İndiki tələblərə heç cür uyğun gəlmir. Əgər Mədəniyyət sarayı da təmir edilsəydi əla olardı. Sizə bu yolda uğurlar, cansağlığı arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Nazirlər Kabinetinin srağagünkü iclasında bir daha bu il ərzində görülmüş işlər təhlil edildi və ilin sonuna qədər görüləcək işlər haqqında da müvafiq göstərişlər verildi. Ölkəmizdə çoxsaylı proqramlar icra edilir. Bu proqramlar bütün sahələri əhatə edir və onların arasında böyük əhəmiyyətə malik olan «Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı» da vardır.

Bütün qəsəbədaxili yollar çəkilib. Gözəl, keyfiyyətli yollardır. Burada yeni məktəbin tikintisi də nəzərdə tutulubdur. Proqram çox dəqiqdir, çox konkretdir və hər qəsəbə üzrə orada konkret tapşırıqlar verilmişdir.

Əvvəlki dövrdə Suraxanı qəsəbəsində işlər görülmüşdür. Burada işıq, qaz problemi, hətta içməli su problemi də həll edilmişdir. Qalıb kənd yolları. Yollar bərbad vəziyyətdə idi. Əksər yollar torpaq yollar idi. Artıq bu xəritədə göstərilir ki, qəsəbədaxili yolların 50 faizi asfaltlanıb. Bir də kanalizasiya sisteminin yaradılması qalır. Əfsuslar olsun ki, bu iş nəinki bu qəsəbədə, heç Bakı şəhərində və ümumiyyətlə, ölkəmizdə lazımi səviyyədə qurulmamışdır.

2013-cü ilə qədər bütün qəsəbələrdə, bax, bu infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində, demək olar ki, əsas sosial-iqtisadi məsələlər öz həllini tapacaqdır.

O ki qaldı Suraxanı qəsəbəsinə, əminəm ki, burada işlər daha da qısa müddət ərzində başa çatacaq və biz lazım olan, həllini

gözləyən məsələlər haqqında da əlavə göstərişlər verəcəyik. Proqram qəbul edilən zaman, əlbəttə ki, yerlərdən təkliflər verilmişdi, müraciətlər olunmuşdu, bütün məsələlər təhlil edilmişdi. Qəsəbə sakinlərinin məşğulluğu məsələləri də diqqət mərkəzindədir və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə artıq qəsəbə sakinləri üçün də kreditlərin verilməsi başlanmışdır. Suraxanı qəsəbəsində də bu işlər lazımi səviyyədə görüləcəkdir.

Mən gəlmişəm ki, bu gün sizinlə görüşüm, ilk növbədə, görüm ki, işlər necə gedir. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı mənə mütəmadi qaydada məlumat verir. Ancaq öz gözümlə görmək istədim ki, işlər necə gedir və biz əlavə nə etməliyik.

**S a k i n:** Hörmətli Prezident, bizim qəsəbəmiz köhnə qəsəbədir. Bu on gün müddətində elə gözəlləşib, elə abadlaşdırılıb ki. Mən Sizə təşəkkür edirəm, uzun ömür, cansağlığı arzulayıram.

Bizim əsas problemimiz odur ki, aşağı məhəllələrdə kanalizasiya yoxdur, məktəbin təmirə ehtiyacı var. Xahiş edirik, bunları nəzərə alasınız.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Məktəb məsələsi ilə bağlı mənə məlumat verilib. İndi gedib baxacağam, orada işlər görüləcəkdir. Kanalizasiya məsələsi də proqramın tərkib hissəsidir və bütün qəsəbələrdə, o cümlədən bu qəsəbədə də kanalizasiya məsələsi öz həllini tapacaqdır.

Əvvəlki dövrdə işıq problemi var idi, qaz yox idi, su yox idi. İndi bütün bunlar həll edilib və belə də olmalıdır. Bunlar elə məsələlərdir ki, nəinki Bakıda və ətraf qəsəbələrdə, respublikamızın hər bir yerində öz həllini tapmalıdır, tapır və tapacaqdır. İndi sürətlə qazlaşdırma layihəsi həyata keçirilir. Kanalizasiya, su problemlərinin həlli üçün böyük layihələr həyata keçirilir. Bunlar bir daha göstərir ki, Azərbaycan dövləti bu məsələlərin həlli üçün həm iradəyə, həm də ki, imkanlara malikdir. Bugünkü Azərbaycan xalqımızın zəhməti hesabına yaradılmışdır.

Bu gün Azərbaycanın tarixində çox əlamətdar bir gündür – iyulun 14-dür.

**S a k i n:** 1969-cu il.

**İ l h a m  Ə l i y e v:** Bəli, 42 il bundan əvvəl ulu öndər Azərbaycanda rəhbərliyə gəlmişdir. O dövrdə respublika, demək olar ki, Sovet İttifaqında ən geridəki yerlərdə idi. Onun işlədiyi dövr ərzində bütün göstəricilərə görə birinci sıralara gəlib çatdı. Sovet İttifaqında cəmi iki respublika var idi ki, öz hesabına yaşayırdı və hətta ümumittifaq büdcəsinə də töhfələr verirdi. Onlardan biri Azərbaycan idi. Oxşar vəziyyət keçən əsrin 90-cı illərinin əvvəllərində də yaranmışdı. Müstəqilliyimizin ilk illərində Azərbaycan, demək olar ki, uçurum kənarında idi. Yenə də Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlməsi nəticəsində biz bu inkişafa nail ola bildik.

Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, dünya miqyasında son 5 ildə ən sürətlə inkişaf edən ölkə Azərbaycandır. Ölkəmiz öz hesabına yaşayır və gündən-günə daha da yaxşı yaşayır – həm iqtisadi məsələlər həll olunur, həm də sosial məsələlər. Bu qəsəbədə görülən işlərin hamısı sosialyönümlüdür. Yol çəkilişi – bu, böyük vəsait tələb edir. Siz Mədəniyyət evinin tikintisi ilə bağlı məsələ qaldırdınız. Buna da baxacağıq. Bütün bunlar sosial xarakter daşıyır. Bu o investisiya deyil ki, sonradan gəlir gətirsin. Bunu edirik ki, insanlar yaxşı, rahat, təhlükəsizlik şəraitində və gözəl, necə deyərlər, abad qəsəbələrdə yaşasınlar.

*Prezident İlham Əliyev sonra qəsəbədəki parkda görülmüş abadlıq və yenidənqurma işləri ilə tanış oldu. Burada sakinlərin asudə vaxtlarını səmərəli keçirmələrindən ötrü lazımi şərait, uşaqlar üçün əyləncə yerləri yaradılmışdır.*

*Dövlətimizin başçısı daha sonra Yeni Suraxanı qəsəbəsinin mərkəzində yerləşən 14 İyul küçəsinə gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycana ilk dəfə siyasi rəhbərliyə gəlməsinin şərəfinə ucaldılmış memorial abidə kompleksi ilə tanış oldu, bu küçənin sakinləri ilə söhbət etdi.*

* * *

*Prezident İlham Əliyev ötən dəfə Yeni Suraxanı qəsəbəsində olarkən qəsəbə sakinləri 85 saylı orta məktəbin bir korpusunun tamamilə yararsız vəziyyətdə olduğunu bildirmiş və bu tədris ocağının yenidən qurulmasına kömək göstərilməsini xahiş etmişdilər. Dövlət başçısının bununla əlaqədar verdiyi tapşırığa uyğun olaraq, məktəbin qəza vəziyyətində olan korpusu sökülərək yerində 480 şagirdlik yeni korpusun inşası nəzərdə tutulur.*

**İ l h a m Ə l i y e v:** Məktəbin təməl daşı qoyulur. Çox gözəl məktəb olacaqdır. İndi mənə deyirlər ki, bəlkə bu məktəbi böyüdək, burada uşaqlar çoxdur. Bu, 480 şagirdlikdir. Bəlkə də daha da böyük məktəbə ehtiyac vardır. Ona görə hesab edirəm ki, bu məsələyə də baxmaq olar.

**S a k i n**: Hörmətli İlham müəllim! Məktəbimizə xoş gəlmisiniz! Bizim məktəbimizin binası 1883-cü ildə tikilib, 1902-ci ildən isə məktəb kimi istifadə olunur. 260 şagird üçün nəzərdə tutulan bu binada iki növbədə 800-dən artıq şagird oxuyur. 2006/2007-ci tədris ilindən Təhsil Nazirliyinin göstərişi ilə iki yardımçı bina tikilib istifadəyə verilmişdir. Amma onlar yararsızdır, çatdır. Sizə zəhmət olmazsa, gedib baxarıq.

**İ l h a m Ə l i y e v:** Mən mütləq baxacağam. Birinci dəfə deyil ki, bir neçə il əvvəl tikilmiş məktəblər yararsız vəziyyətə düşmüşdür. Mərdəkan qəsəbəsində də oxşar vəziyyətlə üzləşmişdik. Bu yolverilməzdir. Göstəriş verilmişdir ki, Bakı Şəhər İcra Hakimiyyəti Bakıda qəzalı vəziyyətdə olan bütün məktəblərin tikintisi ilə bağlı işlər görsün. «Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı» qəbul edilmişdir. O proqramda qəsəbələrin, demək olar ki, bütün məsələlərinin həlli nəzərdə tutulur, o cümlədən məktəb tikintisi. Qəzalı vəziyyətdə olan məktəblər hələ ki, həm Bakıda, ətraf qəsəbələrdə, həm də digər şəhər və rayonlarda vardır. Onların bərpası və yenidən qurulması mütləq olacaqdır. Bu məktəbin təmiri ilə bağlı da müvafiq göstərişlər veriləcəkdir.

**S a k i n:** Eşitdiyimizə görə, məktəb 480 şagird üçün nəzərdə tutulub. Mümkündürsə 640 şagird yerlik olsun. İstəyirik orada idman, akt zalları, kompyuter otaqları da olsun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mənə məruzə edildi ki, məktəbin tikintisi ilə bağlı əlavə təkliflər var ki, məktəbdə oxumaq istəyən bütün uşaqlar burada oxusunlar. Biz məktəbi genişləndirəcəyik. Yəqin ki, layihəyə müvafiq düzəlişlər edilməlidir. Elə etməliyik ki, Azərbaycanda bütün məktəblər yaxşı səviyyədə olsun. Həm gözəl olsun, həm də ki, avadanlıqla təchiz edilsin. Bu istiqamətdə böyük işlər görülmüşdür. İki mindən artıq məktəb tikilib, ancaq hələ görüləsi işlər çoxdur. Əlbəttə, burada idman zalı da, akt zalı da olmalıdır. Bununla bağlı bütün lazımi göstərişlər veriləcəkdir. Gedək, bir yerdə təməlqoymada iştirak edək.

* * *

*Prezident İlham Əliyev məktəbin kollektivi ilə birlikdə yeni tədris korpusunun təməlqoyma mərasimində iştirak etdi, beton qarışığı tökən qurğunu işə saldı. Dövlət başçısı daha sonra məktəbin qəzalı vəziyyətdəki digər korpusu ilə də tanış oldu və müvafiq tapşırıqlarını verdi.*

*Məktəbin kollektivi və inşaatçılar dövlətimizin başçısı ilə xatirə şəkilləri çəkdirdilər.*

## «*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN RƏHBƏRİ RƏŞİD CAVANŞİR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də «bp–Azərbaycan» şirkətinin rəhbəri Rəşid Cavanşiri qəbul etmişdir.*

*bp ilə Azərbaycan arasında uzun illər davam edən uğurlu əməkdaşlığın önəmini qeyd edən prezident İlham Əliyev bu əməkdaşlığın qarşılıqlı etimad prinsipinə əsaslandığını vurğuladı. Dövlətimizin başçısı ötən dövr ərzində bp ilə birgə həyata keçirilmiş layihələrin dünya miqyasında tanındığını bildirərək, bu əməkdaşlığın gələcəkdə də uğurla davam etdiriləcəyinə əminliyini söylədi.*

*Rəşid Cavanşiri yubileyi münasibətilə təbrik edən prezident İlham Əliyev Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinə görə onun ölkəmizin ən yüksək dövlət mükafatlarından olan «Şöhrət» ordeninə layiq görüldüyünü bildirdi və ordeni yubilyara təqdim etdi.*

*bp-nin Azərbaycanda həyata keçirdiyi layihələrin böyük əhəmiyyətindən danışan Rəşid Cavanşir bp–Azərbaycan əməkdaşlığının strateji xarakter daşıdığını vurğuladı və təmsil etdiyi şirkətin ölkəmizdəki fəaliyyətinə prezident İlham Əliyevin verdiyi dəstəyi yüksək dəyərləndirdi. O, Azərbaycan Respublikasının yüksək mükafatı ilə təltif olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASININ PREZİDENTİ TOMAŞ AYAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayanı qəbul etmişdir.*

*Tomaş Ayan Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən ağır atletikanın inkişafına yaradılan şəraiti yüksək qiymətləndirərək, göstərilən dövlət qayğısına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Federasiyanın prezidenti 2010-cu ildə Sinqapurda keçirilmiş Yeniyetmələrin I Yay Olimpiya oyunlarında Azərbaycan idmançılarının əldə etdiyi qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Sinqapurda keçirilmiş Yeniyetmələrin I Yay Olimpiya oyunlarında idmançılarımızın əldə etdiyi uğurları ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən diqqətin nəticəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanda məşhur olan idmanın bu növünün daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Beynəlxalq Ağır Atletika Federasiyasının Azərbaycanda ağır atletikanın inkişafına göstərdiyi dəstəyə görə Tomaş Ayana təşəkkürünü bildirdi.*

## ÇİNİN KOMMERSİYA NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN–ÇİN HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ CONQ ŞAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Çin Xalq Respublikasının kommersiya nazirinin müavini, Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Conq Şanı qəbul etmişdir.*

*İki ölkə arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlığın razılıq doğurduğunu söylədi. İqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı energetika, kənd təsərrüfatı, turizm və infrastruktur layihələrinin reallaşdırılması sahələrində əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*Conq Şan Çin Xalq Respublikasının sədri Hu Szintaonun salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq ölkəmizdəki yüksək iqtisadi inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını söylədi. Azərbaycanın Cənubi Qafqazda Çin üçün çox mühüm tərəfdaş olduğunu vurğulayan Conq Şan ölkəsinin Azərbaycanın müxtəlif sahələrinə, o cümlədən qeyri-neft sektoruna investisiya qoyuluşunda maraqlı olduğunu dedi.*

*Prezident İlham Əliyev Çin Xalq Respublikasının sədri Hu Szintaonun salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını Çinin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## XIZI RAYONUNA SƏFƏR

*19 iyul 2011-ci il*

*İyulun 19-da Azərbaycan prezidenti İlham Əliyev Xızı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzində salınmış Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə parkda görülmüş abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev prospektində yerləşən parkda yaşıllıq zolaqları salınmış, 6 mindən çox dekorativ kol və ağac əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmış, bayraq meydanı yaradılmışdır. Parkda sakinlərin istirahəti üçün hər cür şərait var. Heydər Əliyev Mərkəzinin binası parka xüsusi gözəllik verir.*

*Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, bina ilə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Mərkəzin tikintisinə bu ilin mayında başlanılmışdır. Burada ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini, xarici ölkələrə və regionlara səfərlərini əks etdirən 14 fotoguşə yaradılmış, ulu öndərin büstü qoyulmuşdur.*

*Mərkəzin kitabxanasında ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərindən, görkəmli alim, akademik Zərifə xanım Əliyevanın oftalmologiya elminə verdiyi töhfələrdən, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətlərindən bəhs edən nəşrlər vardır.*

*Dövlətimizin başçısı Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.*

## Yeni Azərbaycan Partiyası Xızı rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*İyulun 19-da prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası (YAP) Xızı rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Ümumi sahəsi 120 kvadratmetrə yaxın olan inzibati binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ümummilli liderin və prezident İlham Əliyevin fəaliyyətlərini, o cümlədən YAP-la bağlı gördükləri işləri əks etdirən fotoguşələr yaradılmışdır. 50 nəfərlik iclas zalı, bütün otaqlar lazımi avadanlıqlarla təchiz olunmuş, təşkilatın daha səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Müalicə-Diaqnostika Mərkəzinin açılışı mərasimi

*İyulun 19-da prezident İlham Əliyev Xızı rayonuna səfəri çərçivəsində Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişdir.*

*Açılış mərasiminə toplaşan rayon ictimaiyyətinin nümayəndələri və Mərkəzin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına məlumat verdi ki, şirkət tərəfindən inşa olunmuş bu müasir səhiyyə ocağı dördmərtəbəli əsas korpusdan və yardımçı binalardan ibarətdir.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdikdən sonra Mərkəzlə tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin səhiyyənin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılmışdır.*

*Prezidentə məlumat verildi ki, Mərkəzdə qəbul və hemodializ, əməliyyat bloku, stasionar və reanimasiya şöbələri, konsultativ diaqnostika poliklinikası vardır. Mərkəzin laboratoriyasında biokimyəvi, mikrobioloji, hematoloji və immunoloji-seroloji analizlərin aparılması mümkündür.*

*Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirən prezident İlham Əliyev əhaliyə yüksək tibbi xidmətin göstərilməsi ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

*Dövlətimizin başçısı Mərkəzin açılışı münasibətilə sakinləri və kollektivi təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun! Sizi təbrik edirəm. Xızıda belə gözəl Müalicə-Diaqnostika Mərkəzinin açılışı əlamətdar hadisədir. Burada bütün standartlar dünya səviyyəsindədir və belə də olmalıdır. Azərbaycanda, bölgələrdə yeni tikilmiş və təmir edilmiş bütün səhiyyə ocaqları ən yüksək standartlara cavab verməlidir.

Bildiyiniz kimi, Xızı rayonu əhali baxımından o qədər də böyük deyildir. Buna baxmayaraq, qərar verilmişdi ki, Dövlət Neft Şirkəti Xızıda müasir Müalicə-Diaqnostika Mərkəzi tiksin. Mən bu gün çox şadam ki, sizinlə bərabər bu Mərkəzin açılışında iştirak edirik. Mənə verilən məlumata görə, Xızı Rayon Xəstəxanası o qədər də yaxşı vəziyyətdə deyil və göstəriş verəcəyəm ki, bəlkə bu Mərkəzdə rayon xəstəxanası da fəaliyyət göstərsin. Azərbaycanda səhiyyə sisteminin möhkəmləndirilməsi istiqamətində növbəti gözəl addım atılmışdır. Artıq Xızıda da yüksək səviyyədə tibbi xidmətin göstərilməsi üçün bütün şərait var.

Bütövlükdə ölkəmizin bütün bölgələrində müasir müalicə-diaqnostika mərkəzləri tikilir. Həm Dövlət Neft Şirkətinin xətti ilə eyni zamanda, Səhiyyə Nazirliyinin xətti ilə təmir-bərpa işləri aparılır, yeni xəstəxanalar, diaqnostika mərkəzləri tikilir və artıq biz bu işlərin nəticələrini də görürük. İnsanların sağlamlığı bizim

üçün birinci dərəcəli məsələdir, prioritet məsələdir. Son illər Azərbaycanda – həm Bakıda, həm də bölgələrdə yaradılmış imkanlar yeni vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Müalicə-diaqnostika mərkəzlərində bütün xidmətlər pulsuzdur və mən bir daha hər bir vətəndaşımıza tövsiyə edirəm ki, ildə bir dəfə müayinədən keçsin. Müalicə-diaqnostika mərkəzlərində ən müasir avadanlıqlar quraşdırılıb, bunu etmək üçün bütün imkanlar var.

Bildiyiniz kimi, bu yaxınlarda Bakı şəhərində yeni böyük Sağlamlıq Mərkəzinin təməli qoyulmuşdur. Ondan əvvəlki dövrdə həm Bakıda, həm də bütün bölgələrdə yeni səhiyyə ocaqları tikilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında da növbəti illərdə yeni xəstəxanaların tikintisi nəzərdə tutulur. Bir neçə ildən sonra, demək olar ki, bütün bölgələrimizdə yüksək səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün şərait yaradılacaqdır.

Bütövlükdə ölkəmizdə bütün istiqamətlər üzrə işlər yaxşı gedir. İqtisadi inkişaf sürətlidir, Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkə kimi, artıq özünü tanıtdırıb və qəbul edilmiş proqramlar, xüsusilə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bizə imkan verir ki, ölkəmiz hərtərəfli inkişaf etsin.

O cümlədən Xızı rayonunda da müsbət dəyişikliklər göz qabağındadır. Rayonun infrastrukturunun inkişafı üçün çox vacib tədbirlər görülmüşdür, yol çəkilmişdir. Həm magistral yol – Bakı–Rusiya sərhədi magistral yolunun bir hissəsi xızılılara da xidmət edir, eyni zamanda, trasdan Xızıya çəkilmiş yeni yol da yüksək səviyyədədir. Mənə indi verilən məlumata görə, Xızıda işıq-qaz problemi yoxdur, qazlaşdırma, demək olar ki, 100 faizə çatıbdır. Bu, böyük uğur, böyük nailiyyətdir. İndi içməli su-kanalizasiya layihələri icra edilir, əminəm ki, yaxın vaxtlarda bu məsələ də öz həllini tapacaqdır. Məktəblərin tikintisi, təmiri gedir, gözəl Müalicə Diaqnostika Mərkəzi tikilibdir. Yəni insanların sağlamlığı, normal yaşaması üçün bütün şərait var.

Azərbaycanda kənd təsərrüfatının inkişafı, turizmin inkişafı sürətlə gedir, o cümlədən Xızı rayonunda da gedir və daha da sürətlə getməlidir. Hesab edirəm, növbəti illərdə biz çalışmalıyıq ki, burada yeni mehmanxanalar, turizm obyektləri tikilsin ki, həm rayon daha da sürətlə inkişaf etsin, həm də Azərbaycan vətəndaşları və xarici qonaqlar gəlib burada istirahət etsinlər.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram və arzu edirəm ki, Xızıda həmişə işlər yaxşı getsin.

**J a l ə  H ü s e y n o v a** (*tibb işçisi):* Möhtərəm cənab Prezident, biz də rayon ictimaiyyəti, xızılılar, səhiyyə işçiləri adından Sizi ürəkdən salamlayırıq, «Xoş gəlmisiniz!» – deyirik.

İndiki Xızını tanımaq mümkün deyildir. Yeni parklar salinib, binalar tikilir. Çıxışınızda dediyiniz kimi, yeni yollar çəkilir, abadlaşdırma işləri görülür. Açılışında iştirak etdiyimiz, müasir avadanlıqlarla təchiz olunmuş möhtəşəm Müalicə-Diaqnostika Mərkəzinin istifadəyə verilməsi də Sizin Xızıya olan diqqətinizin nümunəsidir. Fürsətdən istifadə edərək, Milli Məclisin deputatı, Sizinlə çiyin-çiyinə çalışan, hamımızın sevimlisi, bizim həmkarımız Mehriban xanıma salamlarımızı çatdırmağınızı xahiş edirik. Körpədən tutmuş qocaya qədər hamımıza göstərdiyi xüsusi diqqət və qayğıya görə ona dərin minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Burada həm xəstələr üçün, həm də həkimlər üçün yaxşı şərait yaradılıbdır. Həkimlərin iş yeridir və belə gözəl binada işləmək, əlbəttə ki, çox xoş olacaqdır.

## NƏRİMANOV RAYONUNDA DƏDƏ QORQUD PARKININ SALINDIĞI ƏRAZİ İLƏ TANIŞLIQ

*19 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Bakının Nərimanov rayonunda Dədə Qorqud parkının salındığı ərazidə olmuşdur.*

*Ümummilli lider Heydər Əliyev 2000-ci ilin aprelində 7,5 hektarlıq bu ərazidə «Dədə Qorqud heykəli və Dədə Qorqud dünyası tarixi-etnoqrafik kompleksinin yaradılması haqqında» fərman imzalamışdı. Prezident İlham Əliyevin göstərişi ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və abadlaşdırılması ilə bağlı ardıcıl tədbirlər görülür. Dövlət başçısının «Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» 2007-ci il 2 aprel tarixli Sərəncamı ilə Nazirlər Kabinetinə həmin fərmanın icrasını təmin etmək üçün müvafiq tədbirlər görmək tapşırılmışdı.*

*Prezident İlham Əliyev ərazidəki mövcud vəziyyətlə yaxından tanış oldu. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, burada əsaslı yenidənqurma və abadlaşdırma işləri aparılacaq, paytaxt sakinlərinin istirahəti üçün lazım olan şərait yaradılacaqdır.*

# AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonaqları salamladı.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz! Çox şadam ki, ölkəmizə səfər edirsiniz. Bu, münasibətlərimizə aid ciddi məsələləri müzakirə etmək fürsətidir. Biz çox məmnunuq ki, Azərbaycan ilə Avropa strukturları arasında münasibətlər inkişaf edir. 10 ildən çoxdur ki, Azərbaycan Avropa Şurasının fəal üzvüdür. Bildiyiniz kimi, biz Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramında iştirak edirik. Avropa İttifaqının təsisatları ilə Azərbaycan arasında olan təmaslar çox dinamikdir.

Bu ilin əvvəlində sədr Barrozunun Azərbaycana çox uğurlu səfəri baş tutdu. Olduqca mühüm sənədə imza atdıq. Ötən ay mən Brüsselə səfər etdim və Avropa Komissiyasının sədri Barrozu, Avropa İttifaqının sədri Van Rompey və Avropa parlamentinin sədri Buzeklə görüşlərim oldu. Bu, görülmüş işləri bir daha nəzərdən keçirmək imkanı yaratdı və ən vacibi isə gələcək üçün məqsədlər müəyyən edildi.

Çox şadam ki, bu gün Avropanın əsas siyasi partiyalarının nümayəndələri qonaqlarımız arasındadır. Bu, əməkdaşlığın yaxşı formatıdır. Azərbaycan ilə Avropa təsisatları arasında əməkdaşlıq müxtəlif formatlarda inkişaf edir. Əminəm ki, gələn illər ərzində olduqca mühüm nailiyyətlər əldə ediləcəkdir.

Sizin səfəriniz həm də Azərbaycanı daha yaxşı tanımaq, ölkəni real şəkildə görmək üçün çox yaxşı fürsətdir. Çünki hər hansı nəticəyə gəlmək üçün həmişə şəxsi təəssüratlara arxalanmaq ən münasib yoldur. Azərbaycan müstəqillik baxımından gənc ölkədir. Lakin ölkəmizin böyük tarixi və adət-ənənələri vardır. Müxtəlif tarixi mərhələlərdə biz digər ölkələrin və imperiyaların hissəsi olmuşuq. Yalnız 20 il öncə müstəqilliyimizi əldə etmişik. Həmin illər dünyəvi, demokratik və inkişaf etmiş ölkənin qurulmasında çox mühüm olmuşdur. 20 il uzun dövr deyil, lakin həmin vaxt ərzində əsas çətinliklərin aradan qaldırılmasına nail olduq.

Müstəqilliyimizin ilk illərində vətəndaş müharibəsi, Ermənistanın işğalı ilə üzləşdik. Buna baxmayaraq, siyasi sistemi və demokratik təsisatları qura bildik, bir sıra Avropa təsisatlarına qəbul olunduq, region ölkələri ilə güclü əlaqələr qurduq və çox perspektivli iqtisadi inkişafa nail olduq.

Son 7 il bizim üçün çox uğurlu olub, iqtisadiyyatımız 3 dəfə artıbdır. Azərbaycan BMT-nin İnsan İnkişafı İndeksində ən sürətli artıma nail oldu. Bu ən sürətli inkişaf tempi idi.

Əlbəttə ki, bütün Avropa təsisatları ilə əlaqələrimizi siyasi partiyalar formatında, Avropa parlamenti–Azərbaycan, Avropa Şurası–Azərbaycan səviyyəsində inkişaf etdirməliyik. İnsanlar arasında da təmasları sıx etməliyik. Çünki biz özümüzü hələ də təqdim etməyə ehtiyac duyuruq. Bizi Avropanın ictimai rəyində o qədər tanımırlar. Bu, obyektiv səbəblərlə bağlıdır. 20 il o qədər də uzun dövr deyil. Buna görə bizə vaxt lazımdır.

Avropalı qonaqlarımızı Azərbaycana səfərə dəvət etməkdə olduqca maraqlıyıq. Burada nəinki paytaxt şəhərlə, həm də rayonlarla da tanışlıq, eləcə də uzunmüddətli tərəfdaşlıq münasibətlərinin qurulması nəzərdə tutulur. Avropa İttifaqına üzv olan bütün ölkələrlə, demək olar ki, güclü siyasi və iqtisadi münasibətlərimiz var. Bu da çox əhəmiyyətlidir.

NATO-nun tərəfdaşı kimi, Azərbaycan nəinki öz hərbçiləri ilə, o cümlədən daşıma marşrutları ilə Əfqanıstanda sülhməramlı əməliyyatlara töhfə verir. NATO üçün daşımaların dörddə bir

hissəsindən çoxu Azərbaycan vasitəsilə həyata keçirilir. Bu bizim məramımızı nümayiş etdirməklə yanaşı, Azərbaycan ilə Avroatlantik təsisatları arasında münasibətlərin göstəricisidir.

*Avropa Şurası Parlament Assambleyasında Avropa Xalq Partiyasının sədri, prosedur qaydaları, toxunulmazlıq və təsisat məsələləri, monitorinq, sosial, səhiyyə və ailə məsələləri komitələrinin üzvü təmsil etdiyi partiyanın Azərbaycanla əməkdaşlığına toxundu.*

**Luka Volonte:** Siz Avropa Xalq Partiyasının sədri cənab Martenslə görüşmüsünüz. Yeni Azərbaycan Partiyası ilə Avropa Xalq Partiyası arasında sıx dostluq münasibətlərinin qurulması arzusu vardır. Avropa Şurasında apardığımız iş göstərir ki, birgə işləmək mümkündür. Xristian Demokrat Partiyası və bir sıra digər partiyalar əməkdaşlıq etmək fikrindədir, çünki bizim insan hüquqları, ailə dəyərləri, azad cəmiyyət, liberal iqtisadiyyat kimi mühüm meyarları müdafiə və təşviq etməkdə maraqlarımız eynidir. Təbii ki, biz cənab Martensə təklif edə bilərik ki, Avropa Xalq Partiyası ilə Avropadan kənarda fəaliyyət göstərən siyasi partiyalar arasında güclü dostluq əlaqələri yaratmaq imkanını dəyərləndirsin.

*Azərbaycan prezidenti ölkədə həyata keçirilən siyasi, sosial-iqtisadi islahatlardan danışdı.*

**İlham Əliyev:** Həyata keçirdiyimiz istər siyasi, istərsə də iqtisadi islahatlar artıq uğurlu inkişafa aparmaqdadır. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə həyata keçirilir. Əminəm ki, Avropa Şurasına üzvlüyümüz siyasi sistemimizin meyarlarını Avropa İttifaqına üzv olan və demokratiya ənənələri tarixi ilə seçilən dövlətlərdə olan meyarlara daha da yaxınlaşdırmaqda bizə çox yardım etdi. Əslində bu bizim məqsədimizdir.

*Dövlət başçısı Azərbaycanda qəbul edilən qanunların ölkədə yeni siyasi mühit yaratdığını bildirdi. Ölkədə mətbuat azadlığının və internetə azad çıxışın təmin olunduğunu, internet istifadəçilərinin əhalinin 50 faizini təşkil etdiyini dedi. Siyasi və demokratik inkişafın Azərbaycan qarşısında duran əsas*

*prioritetlərdən biri olduğunu deyən dövlət başçısı genişmiqyaslı uğurlu siyasi islahatların aparıldığını xatırlatdı. Azərbaycanda əsas azadlıqların tam təmin olunduğunu, bütün millətlərin və dinlərin nümayəndələrinin azad şəraitdə yaşadıqlarını vurğuladı.*

*Dövlət başçısı daha sonra Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs etdi.*

**İ l h a m  Ə l i y e v:** Dağlıq Qarabağ münaqişəsinin uzun tarixi vardır. Bu nəinki Azərbaycan üçün, bütövlükdə region üçün əsas problemdir. Əslində bu münaqişə Sovet İttifaqının son illərində başlandı. Müstəqilliyimiz belə bir ağır və qanlı münaqişə ilə çətinləşdi və Azərbaycan ərazilərinin 20 faizinin işğalı ilə nəticələndi. Azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkünümüz vardır. Dağlıq Qarabağ tamamilə monoetnik struktura çevrilib, orada bir nəfər də azərbaycanlı qalmayıbdır. Münaqişədən əvvəl isə orada əhalinin 25 faizini azərbaycanlılar təşkil edirdi. Onların hamısı qovulub, Dağlıq Qarabağın heç vaxt hissəsi olmayan və ermənilərin heç vaxt yaşamadıqları ətrafdakı 7 rayondan təxminən 700 min azərbaycanlı didərgin düşübdür.

Bu il ATƏT-in missiyası həmin yerlərə aid qiymətləndirmə hesabatı hazırlayıbdır. Həmin missiya işğal olunmuş ərazilərə səfər edib və hər şeyin – binalarımızın, qəbiristanlıqlarımızın, məscidlərimizin viran qoyulduğunu qeyd edibdir. Orada həyat yoxdur. Beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul edibdir. Ən ali beynəlxalq orqan – BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin çıxarılmasını tələb edən 4 qətnamə qəbul edibdir. Avropa Şurası da 2005-ci ildə qətnamə qəbul edib, Avropa parlamentinin və ATƏT-in qərarları olubdur. Lakin məsələ hələ də həll edilməyibdir.

Əsas səbəb isə odur ki, Ermənistan status-kvonu daim saxlamaq istəyir. İşğal etdiyi ərazilərdən çəkilmək istəmir və danışıqlar prosesi zamanı Dağlıq Qarabağ üçün müstəqillik əldə etməyə çalışır. Lakin Dağlıq Qarabağ tarixən heç vaxt

Ermənistanın hissəsi olmayıb və Azərbaycanın mərkəzində yerləşir. Hazırda ora nəzarətsiz bir ərazidir. Vasitəçilərin və Azərbaycanın təkliflərinə gəldikdə, bu, güzəştlərə əsaslanan ədalətli yanaşmadır. Bunun nəticəsində Dağlıq Qarabağda yaşayanlara yüksək özünüidarə statusu verilə bilər və eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü bərpa olunar. Ümidvarıq ki, Ermənistan bu səslərə, xüsusən də ən qüdrətli dövlətlərin liderlərinin status-kvonun qəbuledilməz olması haqqında çağırışlarına qulaq asacaqdır.

* * *

*Görüşdə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri ilə fikir mübadiləsi aparıldı.*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 iyul 2011-ci il*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Oslo şəhərində törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisələrdən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Norveç xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2011-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Əlamətdar yubileyiniz – anadan olmağınızın 50 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri bu gün hərtərəfli və dinamik inkişaf yolundadır. Enerji təhlükəsizliyinin təmin edilməsi, qlobal təhdidlərə və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində fəal qarşılıqlı işimiz münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir.

Biz Birləşmiş Ştatların regionumuza diqqətini yüksək qiymətləndiririk. Bu mənada torpaqlarımızın işğalına və soydaşlarımızın doğma yurd-yuvalarından didərgin düşməsinə səbəb olmuş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə aradan qaldırılması üçün ölkənizin və şəxsən Sizin, cənab Prezident, ardıcıl səyləriniz çox əhəmiyyətlidir. Ümidvaram ki, bu səylər ən yaxın vaxtlarda öz bəhrəsini verəcək və münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli həlli ilə nəticələnəcəkdir.

Belə bir əlamətdar gündə, cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2011-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SELLAPAN RAMANATANA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasında təşəkkül tapmış münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2011-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2011-ci il*

## MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GYORGE İVANOVA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Makedoniya arasındakı dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Makedoniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2011-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM MİŞELİN KALMİ-REYƏ**

Hörmətli xanım Prezident!

Milli bayramınız – Konfederasiyanın yaranması günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–İsveçrə münasibətləri özünün dinamik inkişafı ilə səciyyələnir. Əminəm ki, dost ölkələrimizi və xalqlarımızı birləşdirən çoxşaxəli əlaqələrin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da fəal şəkildə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2011-ci il*

## POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*25 iyul 2011-ci il*

*İyulun 25-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Polşa prezidenti Bronislav Komorovskini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Polşa prezidentinə raport verdi. Polşanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Polşa prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Bronislav Komorovskiyə, Polşa nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*25 iyul 2011-ci il*

*İyulun 25-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Polşa münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrin bundan sonra da genişlənəcəyi bildirildi. İkitərəfli münasibətlərin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı baxımından da əhəmiyyəti vurğulandı.*

*Polşa prezidenti Bronislav Komorovskinin Azərbaycana rəsmi səfərinin əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 iyul 2011-ci il*

*İyulun 25-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Mən Sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminik ki, Sizin səfəriniz Polşa–Azərbaycan əlaqələrinin inkişafına çox böyük töhfə verəcəkdir. Bizim əlaqələrimiz bir çox sahələri əhatə edir. Əminəm ki, səfər zamanı əldə edilmiş razılaşmalar əməkdaşlığa yeni təkan olacaqdır.

Siyasi əlaqələr yüksək səviyyədədir, eyni zamanda, iqtisadi sahədə əlaqələrin yaxşı perspektivləri var. Bu gün biz Sizinlə enerji sektorundakı əməkdaşlıq haqqında da fikir mübadiləsi apardıq. Bir sözlə, biz istəyirik ki, əlaqələrimiz bütün sahələri əhatə etsin və Polşa–Azərbaycan dostluğu uğurla davam etdirilsin. Bir daha xoş gəlmisiniz!

**Bronislav Komorovski:** Hörmətli cənab Prezident!

Bu gün biz Azərbaycanda Sizin qonağınız olmaqdan çox şadıq və olduqca məmnunuq.

Biz Sizin ölkənizi yerləşdiyiniz regionda olduqca mühüm, əhəmiyyətli rol oynayan ölkə kimi qəbul edirik. Təbii ki, bizim münasibətlərimiz bu səfərdən sonra daha da inkişaf edəcəkdir.

Hər iki xalq 20 il öncə əsl müstəqilliyini əldə etdi və bu mühüm dəyərdən lazımınca bəhrələnir. Bu, iqtisadi sahədə də hiss olunur və hər iki ölkədə əldə edilmiş iqtisadi göstəricilər bunu sübut edir.

Azərbaycanın iqtisadi sahədəki nailiyyətləri Sizin ölkənizə böyük hörmət qazandırır. Bu baxımdan işgüzar dairələrdə ölkənizə maraq get-gedə artır. Biz Sizin əldə etdiyiniz bütün bu nailiyyətləri çox yüksək qiymətləndiririk.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*25 iyul 2011-ci il*

*İyulun 25-də prezident İlham Əliyevin və prezident Bronislav Komorovskinin iştirakı ilə Azərbaycan–Polşa sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İsmət Abasov və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı nazirinin müavini Yaroslav Voytoviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Polşa Respublikasının Mədəniyyət və Milli İrs Nazirliyi arasında 2011–2013-cü illər üçün Əməkdaşlıq Proqramı»nı Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Polşa Respublikasının Xarici İşlər nazirinin müavini Yeji Pomyanovski imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslər üçün viza tələbinin ləğv edilməsi haqqında Saziş» Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Polşa Respublikasının Xarici İşlər nazirinin müavini Yeji Pomyanovski imzaladılar.*

# POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*25 iyul 2011-ci il*

*İyulun 25-də Azərbaycan–Polşa sənədlərinin imzalanması mərasimindən sonra prezidentlər İlham Əliyev və Bronislav Komorovski birgə mətbuat konfransı keçirmişlər.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Bu gün keçirdiyimiz görüşlərdə və apardığımız danışıqlarda bir daha əmin olduq ki, Polşa–Azərbaycan əlaqələri strateji xarakter daşıyır və Sizin səfəriniz bu əlaqələrin inkişafı üçün yeni imkanlar açacaqdır.

Bizim əlaqələrimizin çox yaxşı tarixi var. Biz siyasi sahədə daim uğurlu əməkdaşlıq aparmışıq və ikitərəfli əlaqələrin gündəliyinə baxanda görürük ki, bu gündəlik çox zəngindir. Əminəm ki, siyasi sahədə əməkdaşlığımız uğurla davam etdiriləcəkdir.

Bu gün iqtisadi sahədə əməkdaşlığın perspektivləri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Müxtəlif fikirlər, müxtəlif ideyalar var. Əminəm ki, bu gün keçiriləcək Polşa–Azərbaycan

biznes-forumu da bu istiqamətdə növbəti addımların atılması üçün əhəmiyyətli olacaqdır.

Biz iqtisadi sahədə qarşılıqlı ticarətin artırılması və gələcəkdə qarşılıqlı investisiya layihələrinin icrası istiqamətində daha da fəal siyasət aparmalıyıq. İqtisadi əlaqələr, əlbəttə ki, bütün digər sahələrdə olan əlaqələrə də güclü təkan verəcəkdir.

Bu gün eyni zamanda, enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır. Bir müddətdir ki, bu istiqamətdə bizim qurumlarımız arasında fikir mübadiləsi, danışıqlar aparılır, Azərbaycan neftini və qazını dünya və Avropa bazarlarına çıxarmaq üçün yeni imkanlar araşdırılır. Bu sahədə Polşa–Azərbaycan əlaqələrinin mühüm yeri var. Əminəm ki, hazırda Avropa İttifaqının sədri olan Polşa bizim bütövlükdə Avropa İttifaqı ilə apardığımız danışıqlarda öz sözünü deyəcəkdir.

Azərbaycanın çox zəngin neft-qaz ehtiyatları vardır, çoxşaxəli ixrac infrastrukturu – nefti və qazı dünya və Avropa bazarlarına çıxara biləcək 7 kəmər mövcuddur və bunlar fəaliyyətdədir.

Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələr sürətlə inkişaf edir və əminəm ki, Polşa Avropa İttifaqında sədrliyi dövründə öz tərəfindən bu əlaqələrin inkişafına dəyərli töhfəsini verəcəkdir. Bu ilin yanvar ayında Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri zamanı imzalanmış bəyannamə əminəm ki, gələcəkdə bu sahədə əməkdaşlığa çox güclü təkan verəcəkdir.

Bütövlükdə Avropa İttifaqı – Azərbaycan əlaqələri bu gün geniş müzakirə edildi və bu məsələ ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Biz maraqlıyıq ki, bu əlaqələrə yeni təkan verilsin. Çünki bu əlaqələrin həm Avropa üçün, həm də Azərbaycan üçün çox böyük əhəmiyyəti var və hazırda formalaşmaqda olan tərəfdaşlıq strateji xarakter daşıyır. Biz istəyirik ki, Avropa qurumları ilə tərəfdaşlıq əlaqələrimiz daha da inkişaf etsin.

Regional məsələlər haqqında da fikir mübadiləsi aparılmışdır. Polşa öz regionunda, Azərbaycan isə öz regionunda

Xəzər dənizi – Baltik dənizi əməkdaşlığının inkişafı üçün çox ciddi mövqelərə malikdir. Hər iki dövlət yerləşdiyi regionda çox güclü geosiyasi mövqelərə və iqtisadi potensial baxımından həlledici sözə malikdir. Biz elə etməliyik ki, Xəzər dənizi–Qara dəniz–Baltik dənizi ölkələri arasında əməkdaşlıq daha da intensiv aparılsın və bu sahədə Polşa–Azərbaycan əlaqələrinin çox mühüm yeri vardır.

Regional əməkdaşlıqla bərabər, biz bu gün regional təhlükəsizlik məsələlərini də nəzərdən keçirdik. Xüsusilə mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və danışıqların indiki vəziyyəti haqqında cənab Prezidentə məlumat verdim. Bu münaqişə bölgə üçün ən böyük təhlükədir, ən böyük ədalətsizlikdir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü uzun illərdir ki, Ermənistan tərəfindən pozulub, torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır və bir milyondan artıq azərbaycanlı öz doğma torpağından didərgin düşərək qaçqın-köçkün həyatı yaşayır. Məsələ ilə bağlı beynəlxalq təşkilatlar öz mövqelərini bildirmişlər. BMT, Avropa İttifaqı, Avropa parlamenti, Avropa Şurası, ATƏT qətnamələr və qərarlar qəbul etmişlər. Bu qərar və qətnamələr məsələnin həlli üçün hüquqi bazanı yaradır.

Cənab Prezident, ümid edirəm ki, Azərbaycana ilk rəsmi səfəriniz çox uğurla keçəcək. Səfərin çox zəngin proqramı var. Bu gün və sabah biz görüşləri davam etdirəcəyik və əminəm ki, bütövlükdə səfərin gözəl nəticələri olacaq və bu nəticələr Polşa–Azərbaycan əlaqələrini yeni müstəviyə çıxaracaqdır.

## Polşa prezidenti Bronislav Komorovskinin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli xanımlar və cənablar!

Mən ilk növbədə, Azərbaycana səfər etmək barədə dəvətə görə Sizə öz təşəkkürümü bildirirəm. Polşanın ünvanına söylədiyiniz xoş sözlərə görə minnətdaram. Mən xüsusi vurğulamaq istəyirəm ki, təmaslarımız sürətlə inkişaf edir. Əslində bu təmaslar həm siyasi, həm digər səviyyələrdə baş verir və hesab edirəm ki, ictimai həyatın bütün sahələrində inkişaf edəcəkdir. Əminəm ki, Polşa və Azərbaycan öz regionlarında mühüm, getdikcə əhəmiyyəti artan rol oynamaqdadır. Bu o faktla sübut olunur ki, biz hamımız həm Azərbaycanda, həm də Polşada sürətli iqtisadi artımın şahidiyik. Ötən il Azərbaycanın iqtisadi artımı çox yüksək səviyyədə olmuşdur. Əslində bu sizin ölkənizə böyük hörmət qazandırır və biz bundan çox şadıq. Əminik ki, bu əməkdaşlığın, bu əlaqələrin təbii xarakteri vardır və biz indi əməkdaşlığımızın yeni sahələrini araşdırmalıyıq. İqtisadi sahədə Polşa ilə Azərbaycan arasında əlaqələr inkişaf etməlidir. Hesab edirik ki, bugünkü iqtisadi forum çox vacibdir. Bu tədbirdə nəinki Polşa ekspertləri, həm də Polşa nazirliklərinin və müvafiq qurumların təmsilçiləri iştirak edəcəklər. Bu gün Azərbaycanın siyasi elitasının nümayəndələri ilə də görüşlərimiz baş tutacaqdır.

Bizim münasibətlərimiz iki dövlət arasında olan münasibətlərdir. Demək olar ki, hər iki ölkə müstəqilliyini eyni vaxtda əldə etmişdir və bu bizə azadlıq gətirdi. Əslində bu, standart deyil, standartlardan daha yüksək bir əməkdaşlıqdır. Mən sizin diqqətinizi bir sıra faktlara yönəltmək istəyirəm, bu faktlar Polşa–Azərbaycan münasibətlərinə təsir edir. Çünki həmin faktlar sırf bu münasibətlərin çərçivəsindən də kənara çıxır. Bu həmçinin Azərbaycanın Avropa İttifaqı, Avropa ilə münasibətlərinə aiddir. Hazırda Polşa Avropa İttifaqında sədrlik edir. Beləliklə, Polşa Avropa İttifaqının gündəliyini müəyyən edir və həmçinin bu, Avropa İttifaqına üzv olmayan dövlətlərlə münasibətlərin istiqamətlərini müəyyən edir.

Biz bilirik ki, sentyabrda Varşavada keçiriləcək sammitdə cənab Prezident də iştirak edəcəkdir. Bu zirvə görüşü «Şərq Tərəfdaşlığı» Proqramında iştirak edən dövlət başçılarının

toplantısı olacaqdır. Biz istərdik ki, Azərbaycan ilə Avropa İttifaqı arasında assosiativ üzvlük Sazişi haqqında danışıqlar uğurla keçsin. Bu, Qərblə Azərbaycan arasında münasibətlərin gələcək inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Bunun Polşa–Azərbaycan münasibətləri üçün də çox böyük əhəmiyyəti vardır.

Biz bir çox məsələləri nəzərdən keçirdik, müzakirə etdik, regiondakı siyasət, böyük qonşularımızın regionda gedən proseslərə təsiri haqqında danışdıq. Həmçinin enerji sahəsində əməkdaşlığa toxunduq. Polşa bir daha maraqlı olduğunu bəyan edir ki, enerji resurslarının çatdırılmasına öz töhfəsini verməyə hazırdır. Hesab edirəm ki, bu nəinki bizim ölkə üçün, bütövlükdə Avropa İttifaqı üçün vacibdir. Avropa İttifaqı tərəfindən təsdiq edilmiş bir layihə var. Bu, Odessa–Brodı–Plotsk–Qdansk boru kəmərinə aiddir. Bu layihə aktual hesab olunur və bugünkü dünyada əgər əhəmiyyətdən söhbət gedirsə, bu layihənin biznes baxımından əhəmiyyəti artır.

Burada ən vacibi nəinki siyasi məsələlərdir, eyni zamanda, biznes üçün də əsaslandırılmış məsələlər olmalıdır. Ona görə də mən bildirmək istəyirəm ki, Azərbaycan nefti artıq neftayırma zavodlarına daxil olur, bunlar Polşa kapitalı əsasında işləyən zavodlardır. Bir milyon ton Azərbaycan nefti ilbəil neftayırma zavodlarına daxil olur. Bu o deməkdir ki, siz artıq bizim sərhədlərimizə yaxınsınız. Bu o deməkdir ki, biz indi elə bir təsir göstərməliyik ki, öz regionumuzun enerji məsələlərinin həllinə nail olaq. Hesab edirik ki, bu, tam əsaslandırılmış formada olmalıdır.

Çox sağ olun.

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

* * *

**S u a l: Mənim sualım cənab prezident Komorovskiyədir. Siz bildirdiniz ki, əməkdaşlığı davam etdirəcəksiniz,**

**Odessa–Brodı–Qdansk boru kəməri haqqında danışdınız. Bu barədə məlumat verə bilərsinizmi?**

**B r o n i s l a v K o m o p o v s k i:** Mən xahiş edərdim ki, bu sualı forumda verəsiniz. Bu gün saat beşdə keçiriləcək bu forumda diskussiyanı o insanlar aparacaqlar ki, onlar birbaşa bu istiqamətdə, bu layihə üzrə işə başlayıblar. Onlar mənim nümayəndə heyətimin üzvləridir. Polşanın «Sarmatia» şirkətinin təmsilçisi də var və əslində onlar bu layihədə iştirak edən tərəfdir. Siyasi baxımdan biz bu layihəyə dəstək veririk. Lakin qərarın qəbul edilməsinə, infrastrukturun daha da təkmilləşdirilməsinə gəldikdə, bizim dəqiq biznes planımız olmalıdır. Biz bilməliyik ki, nə qədər, hansı həcmdə neft həmin sistemə daxil edilə bilər və nə qədər neft bizim tərəfimizdən qəbul olunacaqdır.

**S u a l: Mənim sualım cənab Komorovskiyədir. Ermənistan Azərbaycan ərazilərinin 20 faizinə qədərini indiyədək işğal altında saxlayır. BMT-nin Ermənistan silahlı qüvvələrinin bu ərazidən çıxmasını tələb edən dörd qətnaməsinə, Avropa İttifaqının qətnaməsinə, Avropa Şurasının qətnaməsinə baxmayaraq, ATƏT-in və cənab prezident İlham Əliyevin bayaq sadaladığı digər sənədlərin dərhal bu tələblərin yerinə yetirilməsi barədə çağırışlarına məhəl qoymayan Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması təkcə Azərbaycan üçün yox, həm də region üçün, bütövlükdə Avropa üçün çox böyük təhlükədir. Cənab Prezident, Polşa olaraq sizin mövqenizi bilirik. Amma təkliflərinizi eşitmək istərdik. Yaranmış vəziyyətdən Azərbaycan necə çıxa bilər? Təşəkkür edirəm.**

**B r o n i s l a v K o m o p o v s k i:** İlk növbədə, mən sizin dərdinizə şərik çıxıram. Elə problemlər var ki, regionun bütöv, funksional olmasına maneçilik törədir. Dünya xəritəsinin bu hissəsində Azərbaycan məhz sabitliyə töhfə verən bir ölkə kimi tanınır, sabitlik amili rolunu oynayır. Mən cənab Prezidentə dedim ki, hər hansı bir formula olaydı ki, biz bu çətin sualdan bir növ kənara çəkilək. Dağlıq Qarabağ məsələsinə gəldikdə,

Ermənistan və Azərbaycan arasındakı bu münaqişə sülh yolu ilə həll olunmalıdır. Lakin bizim özümüzün mürəkkəb təcrübəmiz var. Biz bilirik ki, ərazi bütövlüyü məsələsi nə qədər vacibdir, müqəddəs məsələdir. Eyni zamanda, xalqların öz müqəddəratını təyin etməsi hüququ da vacibdir. Harada ki münaqişələr mövcuddur, bu prinsiplər təsdiq edilmişdir. Ən təhlükəlisi odur ki, kimsə coğrafiyadan, siyasi şəraitdən asılı olaraq, buna fərqli mövqelərdən yanaşıbdır.

Bizim Polşada özümüzün ağrılı təcrübəmiz var. Bizim çox çətin, mürəkkəb tariximiz, keçmişimiz olub. Tarixi torpaqlarımız olub ki, orada etnik və dini azlıqların nümayəndələri yaşayıblar. Mənim nəslimdən, «Solidarnost» nəslindən olan insanların ən böyük nailiyyəti ondan ibarətdir ki, biz nifrətin və dözümsüzlüyün aradan qaldırılmasına nail olmuşuq. Çox güclü qonşumuzla münasibətdə Polşanın çox kəşməkəşli tarixi olubdur. Almaniya, Rusiya, Ukrayna ilə olan münasibətlərimizə xələl gətirən proseslər olubdur. Amma biz müvəffəqiyyət əldə etdik, bu tarixi çətinliklərdən çıxdıq. İndi isə inteqrasiya mühitində addımlar atırıq. Bu, Avropaya inteqrasiya mühitidir və tam yeni həyat şəraitidir. Təbii ki, onun tərəfdarıyıq və istərdik ki, bu münaqişə, ümumiyyətlə, aradan qaldırılsın, həll olunsun və bu region xalqları sakit şəraitdə layiqincə yaşasınlar. Bu məqsədlə Minsk qrupu yaradılıb. Lakin bu münaqişəyə aidiyyəti olan şəxslər əziyyət çəkiblər və istərdim ki, məhz həmin şəxslər özləri desinlər ki, hansı yolla getməliyik. Onlar münaqişənin tənzimlənməsində fəal şəkildə iştirak etsinlər. Bizim üçün olduqca vacibdir ki, bu regionda yaşayan insanların qəlbinə daha yaxın olaq.

**S u a l: Cənab prezident Komorovski burada təhlükəsizlik məsələsinə toxundu. Norveçdə baş vermiş hadisələrdən irəli gələrək, Avropa İttifaqı çərçivəsində təhlükəsizlik məsələlərinə necə yanaşırsınız? Bir növ daha da təcridolunma şəraiti yaradılmalıdırmı?**

**Bu sualım isə cənab prezident Əliyevədir. Varşavada «Şərq Tərəfdaşlığı» sammitində iştirak edəcəksiniz. Siz bu sahədə əməkdaşlığı necə görürsünüz?**

**B r o n i s l a v   K o m o r o v s k i:** Mən istərdim ki, Azərbaycana səfərimə aid sualları daha çox verəsiniz. Amma siz indi mənə elə bir sual ünvanladınız ki, bu, başqa məsələyə aiddir. Bu, təhlükəsizliyə və regionumuzdakı demokratiya prinsiplərinə aiddir. Norveçdə baş verənlər görünməmiş hadisələr xarakteri daşıyır. Burada düşmənçilik səviyyəsi nəinki xalqlar, etnik azlıqlar arasında, həmçinin müəyyən qruplar arasında olan mühüm amildir və aradan qaldırılmalıdır. Mən Norveçin Baş nazirinin tutduğu mövqeyə tərəfdaram, onun dərdinə şərikəm. Belə bir ağır vəziyyətdə bildirdim ki, biz açıq demokratiyanın qurulması istiqamətində işləməliyik. O demokratiyadan söhbət gedir ki, digər xalqların, millətlərin təmsilçiləri üçün də açıqlıq şəraiti təmin edilsin. Bizi gələcəyə aparan mövqe budur. Biz bunun həll yolunu öz daxilimizdə tapmalıyıq. Beləliklə, əgər biz bu yolla getsək, belə hadisələrin, faciələrin gələcəkdə də təkrarlanmasından yan keçə bilərik.

**İ l h a m   Ə l i y e v:** Bildirmək istəyirəm ki, Azərbaycan dövləti Norveçdə baş vermiş dəhşətli terror aktını qətiyyətlə pisləyir. Terrorizmin bütün formalarını qətiyyətlə pisləyir. Norveçdə həlak olanların yaxınlarına, qohumlarına Azərbaycan dövləti adından bir daha başsağlığı verirəm, yaralananlara şəfa diləyirəm.

Azərbaycan terrorizmdən əziyyət çəkmiş ölkə kimi, Norveç xalqının acılarını çox yaxşı dərk edir. Bizə qarşı erməni terrorist təşkilatları tərəfindən 30-dan artıq terror aktı törədilmişdir. Bu aktlar nəticəsində 2000-dən artıq dinc Azərbaycan vətəndaşı həlak olmuşdur və bizə qarşı terror bu gün də davam edir.

O ki qaldı Avropa İttifaqı–Azərbaycan əlaqələrinə və xüsusilə «Şərq Tərəfdaşlığı» Proqramına, Azərbaycan bu proqrama çox böyük ümidlərlə qoşulmuşdur. Bu proqrama qədər Yeni Qonşuluq Proqramı icra edilirdi. Bütövlükdə Avropa İttifaqı–Azərbaycan əlaqələrinin artıq böyük tarixi

vardır. Bu il Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri, keçən ay mənim Belçikaya səfərim bu əlaqələri yeni səviyyəyə çıxarır.

Biz ümid edirik ki, «Şərq Tərəfdaşlığı» Proqramı konkret məna daşıyacaqdır. İndiyədək kifayət qədər xoş niyyətlər ifadə olunmuşdur. Müvafiq siyasi bəyanatlar verilmiş, çərçivələr müəyyən edilmişdir. Hesab edirəm ki, vaxt gəlib çatıb ki, «Şərq Tərəfdaşlığı» Proqramı konkret mahiyyət daşımalıdır. Həm Avropa, həm də Azərbaycan açıq-aydın görməlidir ki, bu proqramın faydası nədən ibarət olacaqdır. Biz proqramdan konkret nəticələr gözləyirik ki, Avropa ilə Azərbaycan arasında əlaqələr daha da güclənsin. Azərbaycan Avropaya daha da yaxın olsun və Azərbaycan vətəndaşları öz həyatlarında bu proqramın nəticələrini görsünlər. Bizim ümidlərimiz bundan ibarətdir. Avropa strukturları ilə əməkdaşlıqda daim bərabərlik prinsipini gözləmişik. Bir daha demək istəyirəm ki, biz Avropa İttifaqı ilə bərabər- hüquqlu tərəfdaş kimi, öz rolumuzu görürük və hər iki tərəf maraqlarına cavab verə biləcək töhfələr verə bilər və verməlidir.

**S u a l: Mənim sualım Polşa prezidentinədir. Polşa ilə Azərbaycan arasında qarşılıqlı sərmayə qoyuluşuna dair konkret hansı layihələr müzakirə olundu?**

**B r o n i s l a v K o m o r o v s k i**: Həmin sərmayə layihələri haqqında biz forum çərçivəsində danışacağıq. Demək istəyirəm ki, bu gün Azərbaycan Polşanın mühüm ticarət tərəfdaşıdır. Bu onunla bağlıdır ki, Polşa Azərbaycanın enerji resurslarının alıcısıdır. Azərbaycanın maliyyə imkanları, sərmayə imkanları vardır və hesab edirik ki, Polşada iqtisadi inkişaf daha da artır və Polşa da xaricdə öz sərmayələrini yatırmaqdadır və biz artıq yeni səviyyəyə çıxırıq. Əslində, bu səviyyə nəticəsində biz sərmayələrin qoyulması imkanlarını əldə edəcəyik. Hesab edirəm ki, emal sənayesinə, kənd təsərrüfatı məhsulları sahəsinə böyük sərmayələr qoyula bilər. Ətraf mühitin qorunması sahəsində işbirliyi qura bilərik. Polşada bu sahədə təcrübə mövcuddur. Əfsuslar olsun ki,

əvvəlki illərdə ekologiyaya böyük ziyan dəymişdir. Amma bu gün biz fərəh hissi ilə demək istəyirik ki, Polşa bu sahədə Avropa meyarlarını həyata keçirir. Polşada çox gözəl təbiət var və bu təbiət bizim böyük sərvətimizdir. Baxmayaraq ki, bu sahədəki əməkdaşlıqda hələ ki, böyük nailiyyətlər, nəticələr yoxdur.

Bir sıra digər sahələr də var. Amma nümayəndə heyətində işgüzar dairələrin təmsilçiləri vardır və onlar danışıqlar apardıqdan sonra zənnimcə, müəyyən addımlar atılacaq ki, sərmayələr qoyulsun. Burada bir sıra şəxslər iştirak edə bilər. Polşa bu sahədə işbirliyinin qurulmasında maraqlıdır və artıq bu sahədə işləyir. Həmçinin sənayenin digər sahələrində də Azərbaycanla əməkdaşlıq edə bilərik. Biz nəinki gördüyümüz işi dəyərləndirməliyik, eyni zamanda, mövcud qarşılıqlı sərmayə imkanlarını araşdırmalıyıq ki, biznes sahəsində bu işə birgə baxaq.

## AZƏRBAYCAN–POLŞA BİZNES-FORUMUNDA İŞTİRAK

*Bakı Biznes Mərkəzi*

*26 iyul 2011-ci il*

*İyulun 25-də Bakı Biznes Mərkəzində Azərbaycan prezidenti İlham Əliyevin və Polşa prezidenti Bronislav Komorovskinin iştirakı ilə Azərbaycan–Polşa biznes-forumu keçirilmişdir.*

*Dövlətimizin başçısı Polşa prezidenti Bronislav Komorovskini qarşıladı.*

*Kənd təsərrüfatı və qida sənayesi, maliyyə, sənaye, bankçılıq, sığorta və digər sahələrdə fəaliyyət göstərən hər iki ölkə sahibkarlarının iştirak etdiyi biznes-forumun keçirilməsində məqsəd Azərbaycan və Polşanın iş adamları arasında müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək, respublikaların iqtisadi potensialından yararlanaraq, ticarət dövriyyəsinin səviyyəsini artırmaqdır.*

*Dövlət başçıları forumda çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Polşa prezidentinin Azərbaycana rəsmi səfəri günüdür. Deyə bilərəm ki, səfər çox uğurla keçir və bu gün səhər apardığımız danışıqlar və etdiyimiz qarşılıqlı təkliflər əminəm ki, gələcəkdə Polşa–Azərbaycan əlaqələrinin uzunmüddətli inkişaf strategiyasını müəyyən edəcəkdir.

Bizim əlaqələrimiz çox gözəl tarixə malikdir və çoxşaxəlidir. Bu gün biz iqtisadi sahədə əlaqələr haqqında da geniş fikir mübadiləsi apardıq. Hesab edirəm ki, iqtisadi sahədə, biznes sahəsində qarşılıqlı əməkdaşlıq üçün çox gözəl perspektivlər vardır. Biznes dairələri ilk növbədə siyasi cəhətdən məqbul olan ölkələrə üz tuturlar. Azərbaycan biznesmenləri də işə bu mövqedən yanaşırlar və siyasi əlaqələrimiz yüksək səviyyədə olduğu halda, biznes dairələrinin də əməkdaşlığı uğurlu ola bilər. Biz çox maraqlıyıq ki, həm dövlət, həm də özəl biznes strukturları bir-biri ilə əlaqədə olsunlar. Bu

gün keçirilən biznes-forumun məqsədi bundan ibarətdir ki, bir-birimizi daha da yaxından tanıyaq, imkanlarımızı bilək, araşdıraq. Əlbəttə, ciddi təhlil aparılmalıdır, əminəm ki, bunun nəticəsində konkret biznes layihələri də üzə çıxacaqdır. Bu layihələrin icrası nəticəsində həm iqtisadi əlaqələrimiz möhkəmlənəcək, həm də bütövlükdə bu təşəbbüslərin bizim əlaqələrimizə də çox böyük xeyri olacaqdır.

Biz çox istərdik ki, Polşa şirkətləri Azərbaycanda daha da geniş təmsil olunsunlar. Bunu etmək üçün imkanlar var və mənə verilən məlumata görə, bu gün artıq burada müxtəlif layihələrin təqdimatı keçirilmiş, Azərbaycan və Polşanın iqtisadi göstəriciləri ifadə edilmişdir. Beləliklə, hesab edirəm ki, mövcud vəziyyət biznes-forumda iştirak edən iş adamları üçün daha da aydın olubdur. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox mühüm addımlar atılmışdır. İqtisadi sahədə liberallaşma siyasəti aparılır, Azərbaycanda biznes strukturları güclənir. Həm böyük şirkətlər, həm də kiçik və ortahəcmli şirkətlər öz fəaliyyətlərini gücləndirir. Özəl sektorun Azərbaycanın ümumi daxili məhsulundakı payı 80 faizə çatıbdır. Nəzərə alaq ki, cəmi 20 il əvvəl Azərbaycanda özəl sektor faktiki olaraq mövcud deyildi. Qısa müddət ərzində siyasi və eyni zamanda, iqtisadi islahatlar nəticəsində Azərbaycanda liberal iqtisadiyyat tam formalaşıb, bazar iqtisadiyyatı prinsipləri tam qüvvəyə minibdir. Bu bizə öz iqtisadi imkanlarımızı əhəmiyyətli dərəcədə artırmağa imkan verdi.

Əlbəttə ki, müstəqilliyimizin ilk illərində iqtisadi inkişafın təkanvericisi neft-qaz sektoru olmuşdur. Bu da təbiidir və indi də belədir. Enerji sahəsində apardığımız təşəbbüslər nəticəsində qeyri-neft sektorunun inkişafına da nail ola bilmişik və bu gün Azərbaycan iqtisadiyyatı artıq çoxşaxəlidir. 2-3 il əvvəl dünyada neftin qiyməti kəskin şəkildə aşağı düşəndə biz böyük çətinliklərlə üzləşmədik. Hətta o illərdə ki, dünyada neftin qiyməti 4-5 dəfə aşağı düşmüşdü, Azərbaycan iqtisadiyyatı 8-9 faiz artmışdı. Nəyin hesabına? Məhz qeyri-neft sektorunun

inkişafı hesabına. Bu bizim siyasətimizdir və gələcək illərdə çalışacağıq ki, qeyri-neft sektorunun inkişafına daha da güclü təkan verək. Deyə bilərəm ki, bunu etmək üçün dövlət proqramları həlledici rol oynayır. 2004-cü ildən bu günə qədər artıq ikinci Dövlət Proqramı icra edilir. Xarici investorların Azərbaycana olan marağı və qoyulan investisiyalar da az rol oynamır. Xüsusilə keçən əsrin 90-cı illərinin ortalarında iqtisadi inkişafımızın təmin edilməsi üçün həlledici rolu xarici sərmayələr oynamışdır.

Biz bu gün də xarici sərmayələrin cəlb edilməsinə çalışırıq. Azərbaycan birbaşa xarici sərmayələrin həcminə görə MDB məkanında ənənəvi olaraq birinci sıralardadır. Təkcə keçən il ölkə iqtisadiyyatına 16 milyard dollardan çox vəsait qoyulmuşdur. Onun əksəriyyəti daxili sərmayələrdir, ancaq xarici sərmayələr də mühüm yer tutur. Xarici sərmayələr Azərbaycanda lazımi səviyyədə qorunur, o cümlədən qanunvericilik bunu təmin edir. Bu gün biz xarici sərmayələri qeyri-neft sektorunda da görürük. Azərbaycanda kənd təsərrüfatının inkişafında xarici sərmayələr rol oynayır, turizmin inkişafında onların rolu kifayət qədər böyükdür. Deyə bilərəm ki, bütövlükdə Azərbaycanda turizmin inkişafı prioritet məsələlərdən biridir. Təkcə bu il Bakıda 6 beşulduzlu otelin açılışı nəzərdə tutulur və bu özlüyündə bir göstəricidir.

Biz Polşa şirkətlərini investorlar kimi görmək istərdik. Azərbaycanda müxtəlif mənbələr, o cümlədən dövlət vəsaiti hesabına reallaşan böyük infrastruktur layihələrinin icrasında Polşa şirkətləri fəal iştirak edə bilər. Əminəm ki, bu gün bu barədə də danışıldı. Artıq Azərbaycan şirkətləri də xarici bazarlara çıxır. Dövlətimizin siyasəti də bundan ibarətdir. Özəl sektorun inkişafına diqqət verməklə, çalışırıq ki, özəl qurumlar xarici bazarlara da çıxsın. Azərbaycanın dövlət şirkətləri də xarici bazarlara böyük həcmdə investisiya qoyulmasına başlamışdır və bu investisiyalar artıq milyardlarla dollar səviyyəsindədir.

Azərbaycanın enerji resurslarının işlənilməsi nəticəsində əldə edilən gəlirlər ədalətli şəkildə bölünür və ölkə iqtisadiyyatının inkişafına xidmət göstərir. Azərbaycan Dövlət Neft Fondu da xarici bazarlara investisiya qoyulması ilə məşğuldur və mən hesab edirəm ki, bu imkanlar da nəzərdən keçirilməlidir.

Əlbəttə, prezidentlər kimi, biz özəl qurumlara ancaq tövsiyə verə və öz fəaliyyətimizlə elə şərait yarada bilərik ki, qarşılıqlı biznes maraqları daha da artsın. Ümid edirəm ki, bu biznes-forumun nəticələri yaxın vaxtlarda özünü göstərəcək və Polşa–Azərbaycan iqtisadi əlaqələri də sürətlə inkişaf edəcəkdir.

Qeyd etdiyim kimi, Azərbaycanda biz qeyri-neft sektorunun inkişafına xüsusi əhəmiyyət veririk. Azərbaycanda kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Hazırda Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizə çatmışdır, gələn il biz birinci telekommunikasiya peykini orbitə buraxacağıq. Müxtəlif sahələrdə də böyük planlarımız var.

Ancaq enerji sektoru da bizim üçün ənənəvi olaraq həmişə çox vacibdir və Polşa–Azərbaycan əlaqələrinin inkişafında neft-qaz sahəsindəki əməkdaşlıq mühüm yer tutur. Bu gün bu barədə də geniş fikir mübadiləsi apardıq. Əminəm ki, bizim şirkətlərimiz yaxın vaxtlarda bu sahədə yeni təşəbbüslər irəli sürəcəklər.

Azərbaycanın zəngin neft və qaz yataqları vardır, bu resursların, layihələrin regional əməkdaşlığın dərinləşməsi üçün də böyük əhəmiyyəti var. Azərbaycan enerji siyasəti baxımından çox etibarlı tərəfdaşdır. Avropa İttifaqı ilə bu istiqamətdə əməkdaşlıq formatımız var və bu ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi haqqında bəyannamə imzalanmışdır. Bizim qaz ehtiyatlarımızın hazırda təsdiq edilmiş səviyyəsi 2,2 trilyon kubmetrdir və bu, imkan verir ki, bundan sonra ən azı 100 il ərzində Azərbaycan özünü və qonşu ölkələri, Avropa ölkələrini təbii qazla lazımi səviyyədə təmin edə bilsin. Bu sahədə də biz əməkdaşlığın

dərinləşməsinə çalışırıq. Müəyyən nəticələr var və əminəm ki, biznes qurumları da bu işlərə fəal şəkildə qoşulacaqlar.

Bir daha deməak istəyirəm ki, biz Polşa–Azərbaycan əlaqələrinin inkişafına çox böyük əhəmiyyət veririk və özəl sektorun bu əlaqələrin inkişafında xüsusi rolu var. Mən bir daha əminliyimi ifadə etmək istəyirəm ki, bugünkü biznes- forum yaxın vaxtlarda gözəl nəticələrə gətirib çıxaracaqdır.

**Polşa prezidenti Bronislav Komorovskinin çıxışı**

Hörmətli xanımlar və cənablar!

Bizi qəbul edən tərəfə, xüsusən də prezident İlham Əliyevə burada birgə çıxış etmək imkanı yaratdığına görə təşəkkürümü bildirmək istəyirəm. Gördüyünüz kimi, burada, sizin qarşınızda iki prezident – Polşa və Azərbaycan prezidentləri çıxış edir. Siz biznes dairələrinin nümayəndələrisiniz və biz sizin qarşınızda çıxış edirik.

Son illər Azərbaycan və Polşa eyni yolları keçmişdir və bütün səylərimizi göstəririk ki, əldə olunmuş azadlıqdan lazımi şəkildə istifadə edək. Bu gün Azərbaycanda lazımi səviyyədə fəaliyyət aparılır və bu, əsasən biznes inkişafının perspektivlərinə yönəlibdir. Biz əslində Avropa İttifaqında yeganə ölkəyik ki, 20 il ərzində böhrandan heç bir əziyyət çəkməmişik, bizim ölkədə resessiya müşahidə olunmayıbdır. Bizim bütün göstəricilərimiz yalnız və yalnız yüksələn xətlə artıbdır. Əgər siz bizim iqtisadi göstəricilərə nəzər salsanız görərsiniz ki, onlar Avropa İttifaqının digər ölkələrindən müsbət mənada fərqlənir. Əslində bu iqtisadi nailiyyətləri bir də ona görə qeyd edirik ki, bu gün Polşa həm də Avropa İttifaqında sədrlik edən ölkədir. Bu onu göstərir ki, bizim ardıcıl addımlarımız bütün xalqların rifahına xidmət edir.

Mən çox şadam ki, Azərbaycan ilə Polşa arasında olan əlaqələr lazımi şəkildə inkişaf edir. Biz tez-tez siyasi səviyyədə, ən yüksək səviyyədə görüşlər keçiririk. Görürük ki, fəaliyyətimizin yeni sahələrini müəyyən etmək üçün daha çox imkanlar var.

Cənab Prezident, Siz burada bildirdiniz ki, enerji sektoru hələ də çox mühüm rol oynayır. Bu onu göstərir ki, biz növbəti, digər əməkdaşlıq vektorlarını araşdırmalıyıq, müəyyən etməliyik və bunlar əsasən Polşa biznesinin Azərbaycanda və Azərbaycan biznesinin Polşada inkişafına xidmət etməlidir. Çalışmalıyıq o sahələrdə fəaliyyət göstərək ki, onlar yeni olsun, biz yeni istiqamətlərə çıxaq, yeni üfüqlər, yeni imkanlar açaq. Bu baxımdan Polşa nümayəndə heyətində bütün biznesə yardım təşkilatlarının təmsilçiləri vardır. Burada özəl sektorların nümayəndələri, işəgötürənlər federasiyasının nümayəndələri əyləşiblər, bunlar çox cəsarətli, irəliyə çox böyük addımlar atan şəxslərdir və bilirlər ki, zəhmət çəkib böyük imkanlar, maliyyə vəsaitləri əldə ediblərsə, bunları itirmək olmaz, bunu inkişaf etdirmək istəyirlər. Bu gün gələcəkdən danışırıqsa, kiçik və orta sahibkarlığa xüsusi diqqət yetirməliyik. Bu gün biz tamamilə yeni imkanlar əldə etmiş oluruq və bütün bunlar əslində böyük bir sıçrayışın, irəliyə doğru addımın bir rəmzidir.

Azərbaycan iqtisadiyyatı irəliyə doğru böyük bir addım atmışdır. Bu nəinki enerji sektoruna aiddir, həm də biz bilirik ki, Azərbaycanda yeni sahələrdə yeni imkanlar yaradılır. Bu, Azərbaycan ilə Polşa arasında olan gözəl münasibətlərin daha da güclənməsinə xidmət edir. Biz istəyirik ki, nəinki Azərbaycan ilə Polşa arasında əməkdaşlıq, həm də Avropa İttifaqı ilə Azərbaycan arasında işbirliyi daha da artsın. Bunlar yeni biznes təmaslarına, işgüzar dairələrin bir-biri ilə əlaqə saxlamasına əsaslanacaqdır. Bu bizim əməkdaşlığımızın yeni bir mənbəsi olacaqdır. Bizi əlaqələrimizin daha yeni sahələri gözləyir.

Bəlkə də burada çox az sayda insanlar bilir ki, Azərbaycan xam nefti artıq Çexiya Respublikasının ərazisindəki bizim, Polşanın emal zavodlarına daxil olur. İldə bir milyon ton neft emal edilir, bu proses Polşa kapitalına məxsus olan müəssisələrdə baş verir. Biz çalışırıq ki, Azərbaycanın xam nefti daha çox həcmdə daxil olsun.

Bu, əməkdaşlığımızın bir hissəsidir, biz istəyirik ki, digər sahələrdə də işbirliyi qurulsun. Bəzi Polşa şirkətləri var ki, onlar artıq Azərbaycanda fəaliyyət göstərir. Mən öz tərəfimdən bəyan

etmək istəyirəm ki, biz Polşa ilə Azərbaycan arasında nəinki iqtisadi təmaslarımızı, həm də siyasi təmaslarımızı daha da gücləndirməliyik ki, işgüzar dairələrin işini daha da asanlaşdıraq. Aviaşirkətin nümayəndəsini burada görürəm, bir ildən sonra Bakıya uçuşlar başlayacaqdır. Polşa nazirliyinin məlumatına görə, Varşava ilə Bakı arasında uçuşlar baş tuta bilər. Nə qədər tez olsa, bir o qədər yaxşı olar. Belə olan halda, biz bu təmasların, işgüzar münasibətlərin məhz Polşa və Azərbaycan arasında əlaqələrin daha da güclənməsinə yönəldiyini nümayiş etdiririk. Əslində bu, Polşa və Azərbaycan iş adamlarının əldə etdiyi nəticələrdir.

* * *

*Biznes-forum başa çatdıqdan sonra Dənizkənarı Milli Parkda gəzintiyə çıxan prezident İlham Əliyev və prezident Bronislav Komorovski burada bir qrup polşalı tələbə ilə görüşdülər. Dövlət başçılarına məlumat verildi ki, bu ilin yanvar–may aylarında Gənclər və İdman Nazirliyi Azərbaycanın xaricdəki səfirlikləri ilə birgə əcnəbi tələbələr arasında «Mən Azərbaycan haqqında nə bilirəm?» mövzusunda esse-yazı müsabiqəsi keçirmişdir. Bu müsabiqədə Polşa da daxil olmaqla, 9 ölkədən tələbələr iştirak etmişdir. Müsabiqənin əsas mövzuları ümummilli lider Heydər Əliyev, Dağlıq Qarabağ münaqişəsinin reallıqları, Azərbaycanın iqtisadi inkişafı, dili, milli adətləri, mədəniyyəti, beynəlxalq siyasətdəki rolu və digər istiqamətlər olmuşdur. Təmsilçiləri müsabiqədə iştirak edən ölkələrdə yaradılmış münsiflər heyətləri 75 qalibi müəyyən etmişdir. Onlar 40-dan çox universitet, akademiya, lisey və kollecin tələbələridir. Polşadan olan 11 qalib isə artıq Bakıdadır və onlar şəhərin görməli yerləri, muzeyləri, tarixi abidələrilə yaxından tanış olur, insanlarla ünsiyyət qururlar. Polşalı tələbələr bu günlərdə Lahıcda, Qəbələ və Şəki rayonlarında, Naxçıvan MR-də olmuşlar.*

*Tələbələr dövlət başçıları ilə xatirə şəkli çəkdirdilər.*

*Dənizkənarı Milli Parkda gəzinti zamanı Polşanın dövlət başçısına son illərdə Bakıda həyata keçirilmiş yenidənqurma və abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, Avropada ən*

*böyük dənizkənarı bulvarlardan biri olan bu ərazidə bir neçə il öncə başlanmış yenidənqurma işləri buranın simasını tamamilə dəyişibdir.Yenidənqurma işləri zamanı milli üslubla beynəlxalq təcrübə peşəkarlıqla uzlaşdırılıbdır. Hazırda öz gözəlliyi ilə diqqəti çəkən Bakı bulvarı Azərbaycan paytaxtına xüsusi yaraşıq verir, paytaxt sakinlərinin, eləcə də xaricdən gələn qonaqların ən maraqlı istirahət yerinə çevrilibdir. 100 ildən çox yaşı olan Dənizkənarı Milli Parkın genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Ümumiyyətlə, son illərdə Bakıda park və bağların yenidən qurulmasına xüsusi diqqət yetirilir. Təbii ki, şəhərin abadlaşdırılması ilə yanaşı, əsas məqsəd insanların istirahəti üçün rahat şərait yaratmaqdır.*

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*26 iyul 2011-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Bronislav Komorovski iyulun 25-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Burada Polşa dövlətinin başçısını Azərbaycan prezidenti İlham Əliyev qarşıladı.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif social-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Fondla tanışlıq zamanı Polşa prezidentinə məlumat verildi ki, Heydər Əliyevin hakimiyyətdə olduğu illər Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu.*

*Prezident Bronislav Komorovski fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Ona fondun adından xatirə hədiyyəsi təqdim olundu.*

*Ali qonaq fonddan zəngin təəssüratla ayrıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*25 iyul 2011-ci il*

*İyulun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Bronislav Komorovskinin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.*

*Prezidentlər ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, icazə verin, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayım və «Xoş gəlmisiniz!» – deyim. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, Sizin səfərinizin nəticələri Polşa–Azərbaycan əlaqələrinin inkişafında çox mühüm rol oynayacaqdır.

Bizim xalqlarımız əsrlər boyu bir-biri ilə əlaqədə olmuşlar və bu əlaqələr indi çox gözəl mədəni və tarixi zəmin yaradır. Deyə bilərəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində də polyaklar fəal iştirak etmişlər. İlk dəfə 1918-ci ildə müsəlman Şərqində Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır və onun rəhbərliyində polyaklar iştirak etmişlər. Ondan əvvəl Polşadan gəlmiş mütəxəssislər, memarlar Azərbaycanın, Bakının inkişafına çox dəyərli töhfələr vermişlər. 1892-ci ildə məşhur polşalı memar İosif Qoslavski Bakı şəhərinin Baş memarı vəzifəsinə təyin edilmişdi. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə Bakıda bir neçə gözəl bina tikilmişdir. Memar Qoslavski və digər Polşa memarı Ploşko şəhərimizin gözəlləşməsinə çox dəyərli töhfələr vermişlər. Onların irsi bu gün Azərbaycanda, Bakıda görünür və qorunur. Bakıda gedən böyük bərpa işləri onların yaratdıqları binalara yeni həyat bəxş etmişdir.

Polşadan olan vətəndaşlar Azərbaycanın neft sənayesinə də öz töhfələrini vermişlər. Məşhur mühəndis Pavel Pototski Azərbaycanda neft sənayesinin inkişafında fəal iştirak etmişdir və onun xatirəsi Azərbaycanda hörmətlə daim yad edilir.

Bu gün bizim əlaqələrimizin inkişafında Azərbaycanda yaşayan və ölkəmizin dəyərli vətəndaşları olan Polşa əsilli icma nümayəndələri də öz rolunu oynayır. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır və özlərinin tarixi vətənləri ilə də sıx bağlıdırlar. Bir sözlə, bizim əlaqələrimizin inkişafı üçün çox gözəl tarixi əsaslar vardır. Bu gün Polşa–Azərbaycan münasibətləri nəinki iki ölkə arasındakı əlaqələr kimi vacibdir, həmçinin regionun inkişafı üçün, geniş mənada Baltik dənizi – Xəzər dənizi regionlarının əməkdaşlığı üçün vacibdir. Əminəm ki, Sizin səfəriniz və onun gedişində əldə

edilmiş razılaşmalar, imzalanmış sənədlər bizim əlaqələrimizi uğurla irəliyə aparacaqdır.

Biz iqtisadi məsələlərə də kifayət qədər böyük diqqət ayırdıq. Azərbaycan–Polşa biznes-forumunun keçirilməsi özlüyündə gözəl bir hadisədir. Bu onu göstərir ki, iqtisadi sahədə də qarşılıqlı maraq kifayət qədər böyükdür. Ümid edirəm ki, iştirak etdiyimiz forumun yaxşı nəticələri olacaq və yaxın vaxtlarda biz birgə iqtisadi təşəbbüslər haqqında da eşidəcəyik. Hər halda, biz bunu arzulayırıq və ümid edirik ki, buna nail olacağıq.

Bu gün Avropa İttifaqı–Azərbaycan əlaqələri diqqət mərkəzindədir. Polşanın Avropa İttifaqında sədrliyi dövründə Avropa İttifaqı–Azərbaycan əlaqələri daha da sürətlə inkişaf edəcəkdir. Bunu deməyə kifayət qədər əsaslar vardır. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edir və müxtəlif sahələri əhatə edir. Əlbəttə ki, bu əlaqələr enerji sahəsində başlanmışdır və başqa sahələrə də müsbət təsir göstərir. Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynamağa hazırdır. Bu barədə kifayət qədər danışıqlar aparılmış, bəyannamələr və digər sənədlər imzalanmışdır. Ümid edirəm ki, bu ilin sonuna qədər lazım olan bütün sənədlər, o cümlədən tranzit anlaşması imzalanacaq və beləliklə, Azərbaycanın qaz resursları üçün Avropa bazarı da öz imkanlarını təqdim edəcəkdir. Bu, qarşılıqlı surətdə faydalı təşəbbüsdür və onun reallaşmasından hər iki tərəf ancaq fayda görəcəkdir.

Bu gün biz regional təhlükəsizlik məsələlərinə də diqqət yetirdik. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı Azərbaycanın mövqeyini bir daha ifadə etdim. Prezident Komorovskiyə danışıqların indiki mərhələsi haqqında məlumat verdim. Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı o torpaqlarda yaşamışdır, yaratmışdır. «Qarabağ» sözünün özü də Azərbaycan mənşəlidir, orada mövcud olan abidələrin və toponimlərin hamısının Azərbaycan kökləri vardır.

Beynəlxalq hüquq normaları baxımından da Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv qəbul ediləndə onun bir hissəsi olan Dağlıq Qarabağ da Azərbaycanın tərkibində olmuşdur. Hesab edirəm ki, bu gün məsələnin həlli üçün imkan var, beynəlxalq hüquq normaları tam şəkildə bərqərar olunmalıdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir, Avropa İttifaqının, Avropa parlamentinin, ATƏT-in qərar və qətnamələri icra edilməli və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Cənab Prezident, mən bir daha Sizi səmimiyyətlə salamlayıram. Biz bu səfərə çox böyük diqqət və əhəmiyyət veririk. Mən çox şadam ki, səfər çox uğurlu keçir. Əminəm ki, sabahkı gün də çox uğurlu olacaq, Siz Vətənə xoş təəssüratlarla qayıdacaqsınız.

Bu badəni Polşa prezidenti cənab Komorovskinin şərəfinə, dost Polşa xalqının şərəfinə və Polşa–Azərbaycan əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

Sağ olun.

## Polşa prezidenti Bronislav Komorovskinin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, icazə verin, Azərbaycana səfərə dəvət etdiyinizə və bizə göstərilən yüksək səviyyədə qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirim. Əminəm ki, Azərbaycan ilə Polşa arasındakı strateji əlaqələr bundan sonra da inkişaf edəcək. Ölkələrimizin iqtisadi sahədə əməkdaşlığının genişləndirilməsi üçün mən potensial imkanların olduğunu görürəm. Bu elə bir sahədir ki, biz böyük işbirliyi qura bilərik. Biz ölkələrimizdə bir çox müsbət dəyişikliklərə nail olmuşuq, açıq iqtisadiyyat yaratmışıq, sahibkarlıq inkişaf edir, özəl sahibkarlıq formalaşır. Burada həm enerji layihələri, həm də digər sahələrdəki

layihələr nəzərdə tutulur. Bu layihələr, neft və qaz layihələri Avropa üçün vacib ola bilər. Polşa ilə Azərbaycan arasında bütün sahələrdə birbaşa əlaqələrin qurulmasını vacib hesab edirəm. Bu bizim vətəndaşlarımıza, xalqlarımıza xidmət edən işlərdir, xalqlarımız bir-biri ilə daha da yaxınlaşır.

Biz bu gün, həmçinin regionumuz üçün vacib olan ölkələrlə əməkdaşlığı qurmaq istəyirik. Mən burada Azərbaycanı nəzərdə tuturam. Çünki ölkələrimiz öz regionlarımızda liderdir. Bunun üçün bir çox sübutlar vardır. Uğurlarımız nəinki iqtisadi göstəricilərdə görünür, ölkələrimiz arasında ticarətin həcminin artmasında və digər nailiyyətlərdə də görünür. Burada həmçinin ləyaqətli həyat tərzini sürmək imkanları nəzərdə tutulur. Bu da hər iki xalqa aiddir.

Biz bilirik ki, siz «Eurovision–2011» mahnı müsabiqəsində qələbə qazanmısınız. Əslində bu sizin böyük qələbəniz idi. Gələn il isə siz Bakıda bu tədbiri təşkil edəcəksiniz. Mən şəxsən fəal şəkildə Azərbaycan müğənnilərinə səs verəcəyəm.

Çox sağ olun!

## RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də Rusiyanın Müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğuladı, çoxşaxəli əlaqələr çər-*

*çivəsində hərbi-texniki əməkdaşlığın razılıq doğurduğunu bildirdi. Dövlətimizin başçısı Rusiyanın Müdafiə nazirinin Azərbaycana səfərinin hərbi sahədə əməkdaşlıqla bağlı görülən işlərin müzakirə edilməsi və gələcək əməkdaşlığın istiqamətlərinin müəyyənləşdirilməsi baxımından önəmli olduğunu söylədi.*

*Rusiyanın Müdafiə naziri Anatoli Serdyukov iki ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlığa dair bütün işlərin vaxtında yerinə yetirildiyini və bununla bağlı müdafiə nazirlikləri səviyyəsində məsələlərin uğurla həll edildiyini bildirdi.*

## RUMINİYANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Rumıniyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Nikolae Urekeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Rumıniya arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulmasında Nikolae Urekenin fəaliyyətini yüksək qiymətləndirdi. Onun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə dövlət başçılarının qarşılıqlı səfərlərinin intensiv xarakter aldığını deyən prezident İlham Əliyev Azərbaycan ilə Rumıniya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Nikolae Urekenin «Dostluq» ordeninə layiq görüldüyünü bildirdi və yüksək mükafatı diplomata təqdim etdi.*

*Nikolae Ureke Azərbaycan dövlətinin yüksək mükafatı – «Dostluq» ordeni ilə təltif edilməsindən böyük şərəf duyduğunu dedi. Rumıniya–Azərbaycan əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminliyini söyləyən diplomat Azərbaycanın yüksək mükafatına layiq görüldüyünə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Mərakeş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2011-ci il*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*27 iyul 2011-ci il*

*İyulun 27-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.*

*Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*27 iyul 2011-ci il*

*İyulun 27-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə tam əminlik ifadə olundu. Türkiyənin Baş nazirinin Azərbaycana rəsmi səfərinin iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəyi bildirildi.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyul 2011-ci il*

*İyulun 27-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Baş nazir, əziz qardaşım! Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! İlk növbədə, rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Seçkilərdən bir ay sonra Azərbaycana etdiyiniz rəsmi səfər əlaqələrimizin nə qədər yüksək səviyyədə olmasını göstərir. Həqiqətən əlaqələrimiz müttəfiqlik səviyyəsindədir, dostluq, qardaşlıq prinsipləri əsasında formalaşıbdır. Hazırda bu əlaqələr bütün sahələri əhatə edir və nəinki ikitərəfli müstəvidə, eyni zamanda, regional məsələlərdə də Türkiyə–Azərbaycan dostluğu və birliyi çox vacib amilə çevrilibdir.

Bu gün biz Sizinlə geniş söhbət etdik, demək olar, gündəlikdə duran bütün məsələləri müzakirə etdik və bir daha gördük ki, bütün məsələlərdə bizim mövqelərimizdə heç bir fərq yoxdur. Çünki bizi birləşdirən tarixi köklər, mədəni köklər o qədər güclüdür ki, bunlar Türkiyə–Azərbaycan əlaqələrinin inkişafında çox mühüm rol oynayır.

Mən Sizi və Sizinlə birgə Bakıya gəlmiş bütün qardaşlarımızı bir daha salamlayıram. «Xoş gəlmisiniz!» – deyirəm.

Qısa da olsa, əminəm ki, səfəriniz çox uğurlu və yaddaqalan olacaqdır.

**Rəcəb Tayyib Ərdoğan**: Mən də hörmətli prezident İlham Əliyevə, dəyərli heyət üzvlərinə şəxsən öz adımdan və nümayəndə heyəti adından çox təşəkkür edirəm.

Bildiyiniz kimi, biz seçkilərdən sonra ənənəmizə uyğun olaraq, ilk səfərlərimizi ya Azərbaycana, ya da Şimali Kipr Türk Respublikasına edirik. Bu dəfə Şimali Kipr Türk Respublikasının yaranmasının 37-ci ildönümü iyulun 20-nə təsadüf etdi və ilk səfərimizi oraya etdik. İkinci xarici səfərimizi də Azərbaycana həyata keçiririk və dəyərli qardaşımla təkbətək görüşdə Türkiyə–Azərbaycan arasındakı əlaqələri müzakirə etdik. Bütün sahələrdə – hərbi, siyasi, iqtisadi, ticari, mədəni – keçmişdən bu günə gələn bütün məsələləri müzakirə etdik, regional məsələləri dəyərləndirmək imkanımız oldu. Gələcəyə istiqamətlənmiş hansı addımlar atacağıq, ata bilərik – bunları da müzakirə etmək imkanımız oldu. Təbii ki, xüsusilə Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurası çox əhəmiyyətlidir, buna çox əhəmiyyət veririk. İnşallah, ilk toplantısı bizdə keçiriləcək günü həqiqətən həyəcanla gözləyirik.

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*27 iyul 2011-ci il*

*İyulun 27-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı olmuşdur.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı inamlı qələbə münasibətilə Sizi bir daha təbrik edirəm. Çox şadam ki, seçkilərdən bir ay sonra Azərbaycana – doğma vətəninizə səfər edirsiniz.

Türkiyə–Azərbaycan əlaqələri indi ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır. Türkiyə–Azərbaycan əlaqələri sürətlə inkişaf edir və hörmətli cənab Baş nazirin səfəri zamanı apardığımız danışıqlar və etdiyimiz söhbətlər bir daha onu göstərir ki, biz bir-birimizə nə qədər yaxınıq.

Bu gün biz gündəlikdəki bütün məsələlərə toxunduq, geniş fikir mübadiləsi apardıq. Bir daha bəyan edirik ki, siyasi əlaqələrimiz ən yüksək səviyyədədir, deyə bilərəm ki, zirvədədir. İqtisadi sahədə

çox gözəl perspektivlər var. Bu il ölkələrimiz arasındakı ticarət dövriyyəsi artmışdır. Yeni planlar, yeni təkliflər var. İnvestisiyayönümlü təkliflər nəzərdən keçirilir. Türkiyə şirkətləri Azərbaycana, Azərbaycan şirkətləri Türkiyəyə sərmayə qoyur. Azərbaycan şirkətləri indiyə qədər Türkiyə iqtisadiyyatına 4 milyard dollardan çox vəsait qoymuşdur. Növbəti illərdə təkcə neft kimyası sənayesinə 6 milyard dollar əlavə sərmayə qoyulması nəzərdə tutulur. Azərbaycanda reallaşan strateji əhəmiyyətli infrastruktur layihələrinin icrasında türk şirkətləri fəal iştirak edir və biz onların fəaliyyətindən çox razıyıq.

Bu gün biz regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə əlaqədar mən hörmətli Baş nazirə Azərbaycanın mövqeyini bir daha ifadə etdim və danışıqların son durumu haqqında məlumat verdim. Bir daha demək istəyirəm ki, Türkiyənin bu məsələ ilə bağlı tutduğu mövqeyə görə Azərbaycan xalqı və Azərbaycan dövləti çox minnətdardır. Bu həqiqətən də dostluq, qardaşlıq münasibətidir.

Bildiyiniz kimi, Azərbaycan torpaqları uzun illərdir ki, işğal altındadır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı doğma torpağından didərgin düşüb və qaçqın-köçkün həyatı sürür. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər azərbaycanlılara qarşı soyqırımı, genosid törətmişlər. Xocalı genosidi törətmişlər. Beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazi bütövlüyü tanınır, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Problemin həlli üçün əsas beynəlxalq təşkilatlar mövqelərini bildirmişlər. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. ATƏT-in, Avropa parlamentinin, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının qəbul etdiyi ədalətli qərar və qətnamələr bu məsələnin həlli üçün əsasdır.

Bu gün biz bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə əlaqədar fikir mübadiləsi apardıq. Türkiyə–Azərbaycan əməkdaşlığının bu sahədəki perspektivləri haqqında danışdıq. Mən fürsətdən istifadə edərək, bu yaxınlarda qanlı terror

hadisələrində qardaşlarımızın həlak olması ilə əlaqədar bütün türk xalqına başsağlığı vermək istəyirəm. Biz PKK terrorçu təşkilatının əməllərini qətiyyətlə pisləyirik, bu məsələ ilə əlaqədar dəfələrlə öz mövqemizi bildirmişik. Azərbaycan rəsmi olaraq PKK-nı terrorçu təşkilat kimi tanıyır və ona qarşı mübarizədə həmişə olduğu kimi, Türkiyə dövlətinin və xalqının yanındadır. Biz terrorizmin bütün formalarını qətiyyətlə pisləyirik və tam əminik ki, terrorçuluğa, terrorizmə qarşı mübarizə ancaq o təqdirdə səmərə verə bilər ki, bütün dövlətlər öz səylərini birləşdirsinlər. Bizim isə Türkiyə ilə bütün sahələrdə olduğu kimi, terrorizmə qarşı mübarizədə də əməkdaşlığımız çox yüksək səviyyədədir.

Təbii ki, enerji məsələlərinə də toxunduq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri uğurla fəaliyyət göstərir. Gələcək perspektivlər haqqında fikir mübadiləsi apardıq. Bu həm Türkiyə, həm də Azərbaycan üçün çox vacib məsələlərdir, ölkələrimizi daha da sıx birləşdirir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə nəqliyyat məsələləri də mühüm yer tutur. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi uğurla gedir. Azərbaycan tərəfi bu dəmir yolunun tikintisi üçün Gürcüstana təxminən 800 milyon dollar kredit ayırmışdır ki, məsələ tezliklə həllini tapsın və gələn ilin sonuna qədər dəmir yolu istifadəyə verilsin.

Bütün sahələrdə əməkdaşlıq yüksək səviyyədədir. Ümid edirik ki, gələcəkdə bu templər saxlanacaq və Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələri yüksələn xətlə inkişaf edəcəkdir.

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli Prezident, dəyərli qardaşım Əliyev!

Dəyərli mətbuat nümayəndələri!

Əvvəlcə Sizi bu mənalı görüşdə ən səmimi hisslərimlə salamlayıram.

Bildiyiniz kimi, 12 iyun 2011-ci il tarixində biz millət vəkili seçkilərini həyata keçirdik. Ənənəvi olaraq seçkilərdən sonra

Türkiyə Respublikasında hakimiyyətə gələn iqtidar ilk səfərlərini ya Azərbaycana, ya da Şimali Kipr Türk Respublikasına edir. Bu bizim ənənəmizdir.

Bu il də biz seçkilərdən sonra 1974-cü ildən bəri 37-ci ildönümünü qeyd etdiyimiz Şimali Kipr Türk Respublikasının müstəqillik mübarizəsinin 20 iyula təsadüf etdiyi üçün ilk səfərimizi oraya, ikinci xarici səfərimizi bu gün Azərbaycana həyata keçirdik.

Dəyərli qardaşımla təkbətək görüşdə ikitərəfli əlaqələrimizi ətraflı nəzərdən keçirmək fürsətimiz oldu, regional məsələləri nəzərdən keçirmək imkanımız oldu. Gündəliyimizin əsas maddələrindən biri olan enerji məsələlərini müzakirə etdik. Ən önəmlisi, təbii ki, Dağlıq Qarabağ mövzusunu təkrar müzakirə etmək fürsətimiz oldu. Azərbaycan üçün Dağlıq Qarabağ mövzusu necə bir qanayan yaradırsa, bilinməlidir ki, bizim üçün də elə qanayan yaradır. Bundan fərqli bir düşüncə bizdə əsla ola bilməz. Bu məsələni də sona qədər təqib edirik və bundan sonra da təqib etməkdə davam edəcəyik.

Təbii ki, hərbi, siyasi, iqtisadi, ticari, mədəni – bütün bu sahələrdən söhbət gedərkən biz burada öz evimizdə, öz Vətənimizdə olduğumuzu hiss edirik və bunları belə dəyərləndiririk. Bundan sonrakı proses istiqamətində atacağımız addımlar içərisində, xüsusilə Türkiyə–Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının toplantısı da həqiqətən həyəcanla gözlədiyimiz toplantı olacaqdır. Xarici işlər nazirlərimiz öz aralarında görüşməklə ilk addımı atacaq, inşallah, genişmiqyaslı bir toplantını həyata keçirmiş olacağıq.

2010-cu ildə xarici ticarət dövriyyəsi təxminən 2,5 milyard dollar olmuşdur. Ancaq bu ilin ilk beş ayında bu göstərici 1,4 milyard dollara çatmışdır. Bu gedişlə, inşallah, bu ilin sonunda 3 milyard dollara çata bilərik.

Bütün bunlarla yanaşı, Türkiyə–Azərbaycan əlaqələrində təbii qaz xətti, Bakı–Tbilisi–Ceyhan neft boru kəməri böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, inşallah, «Şahdəniz-2» ilə bağlı atılacaq addımlar iki qardaş ölkənin strateji addımı

olacaqdır. Bu məsələdə də qardaşımla aramızdakı razılığımız açıq-aşkar ortadadır. Məsələ ilə əlaqədar biz müzakirələr apardıq və enerji nazirlərimiz də fəaliyyətlərini davam etdirəcəklər.

Bununla bərabər, hörmətli Prezidentin ifadə etdiyi kimi, həqiqətən Qars–Tbilisi–Bakı dəmiryol xətti böyük əhəmiyyət kəsb edir. Bunun davamı vardır. Bu, işin ilk mərhələsidir və biz onu daha da irəliyə – Orta Asiyaya çatdırmağı hədəf qoymuşuq. Belə bir hədəf, belə bir böyük layihə, hazırda onun məmnunluq doğuran bir sürətlə həyata keçirilməsi də bizi strateji olaraq bir-birimizə bağlayır.

Bir az əvvəl dəyərli qardaşımın xüsusilə son dönəmdəki şəhidlərimiz və PKK terror təşkilatı ilə bağlı söylədiyi fikirlərinə görə millətim adından təşəkkür edirəm. Bu təbii ki, birliyimizin ən gözəl ifadəsidir. Buna heç kim şübhə etməməlidir. Dünyada terror təşkilatlarına qarşı birgə mübarizə aparılmalıdır. Son günlərdə Norveçdəki hadisəni gördük. Bir nəfərin 93 nəfərin həyatına qəsd etməsini sadəcə, dəlilik və ya adi bir hadisə kimi dəyərləndirmək yanlışdır. İllərlə islamofobiya deyə ortaya çıxanlar, buna əhəmiyyət verməyənlər hazırkı hadisələr qarşısında hələ də deyilməli olanları deyə bilmirlər. Orada bizim də bir qızımız olub. Dünən anası və atası ilə danışdım, hələ də ümidlə qızlarını gözləyirlər. Ümid edirik ki, inşallah, ölməmişdir, inşallah, anasına, atasına, eləcə də millətimizə qovuşar, amma ölmüşdürsə, ona Allahdan rəhmət diləyirəm.

Biz dünyadakı bu hadisələr qarşısında əl-ələ verəcəyik. Türkiyənin bu məsələdəki sıxıntısı, inanıram ki, Azərbaycanın sıxıntısıdır. Azərbaycanın terrorla bağlı belə bir sıxıntısı olarsa, o da bizim sıxıntımızdır. Əl-ələ verərək bu mərhələləri, inşallah, aşacağıq.

Sahibkarlarımızın Azərbaycandakı yatırımları bizdə məmnunluq doğurur. Bu barədə hörmətli Prezidentin fikirləri şübhəsiz ki, buradakı prosesi daha yaxşı əks etdirir.

Mən bugünkü səfərimizin çox səmərəli olduğu firkindəyəm. Heyətlərimiz arasındakı görüşlər də çox səmərəli şəkildə nəticələndi. Qarşıdakı mərhələnin də çox səmərəli olacağı qənaətindəyəm.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Cənab Baş nazir, Ermənistan prezidenti Serj Sarkisyanın «Dağlıq Qarabağı biz aldıq, yeni nəsil də Ağrı dağını ələ keçirsin» sözlərini necə qiymətləndirirsiniz? Bundan başqa, Türkiyənin yeni hökuməti dövründə Ermənistan siyasətində bir fəallıq gözləyə bilərikmi?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Dəyərli yoldaşlar, mən dünən də bununla bağlı açıqlama verdim. Xarici İşlər Nazirliyimizin də bununla bağlı çox sərt bir bəyanatı var. Mən də bu gün sizin bu sualınızla bağlı Azərbaycanda yenə bir açıqlama verim. Bu bir dövlət xadiminə və ya bir prezidentə yaraşan ifadə tərzi, yanaşma forması deyildir.

Gələcək nəsillərə kin və nifrət aşılamaq dövlət xadiminə yaraşmaz. Serj Sarkisyanın etdiyi bir təhrikdir, öz millətinin gənclərinə kin və nifrət hissi aşılamağa səy göstərməkdir. Ermənistan gənclərinin gələcəyi nə olacaqdır? Bu gedişlə qaranlıq olacaqdır, bu hadisələrə hər zaman qara eynəklə baxacaqlar. Bunu mütləq bilməlidirlər. Hazırda Dağlıq Qarabağ ərazisi işğal edilib və işğalçılar məlumdur. Bunu yalnız biz demirik, bütün dünya deyir. Bu problem həll edilməlidir. Bunun həllinə indiyə qədər yanaşma Ermənistan tərəfindədir. Azərbaycan hər zaman müsbət yanaşma ortaya qoymuşdur. «Siz hazırda Dağlıq Qarabağı bizdən təhvil aldınız, biz ölüb gedəcəyik, Ağrını da siz alacaqsınız» – belə bir məntiq olarmı? Belə bir anlayış olarmı? Gəncliyə belə bir istiqamət, belə bir üfüq verilərmi?

Bu nə deməkdir? Ey gənclər, Ermənistan Türkiyə ilə bundan sonra istədiyi kimi, istədiyi şəkildə müharibəyə də girə bilər. Belə bir dövlət xadimi, belə bir diplomatiya olmaz. Sarkisyan burada ciddi bir səhv etmişdir. O, üzr istəməlidir, bu səhvindən dönməlidir.

**İ l h a m   Ə l i y e v:** Mən əlavə etmək istəyirəm ki, əslində Sarkisyandan başqa bir şey gözləmirdim. Çünki dəfələrlə onunla görüşmüşəm.

**R ə c ə b   T a y y i b   Ə r d o ğ a n:** Mən onu Sizin qədər tanımıram.

**İ l h a m   Ə l i y e v:** Onun düşüncə tərzinə yaxşı bələdəm. Əslində bu, Ermənistanın işğalçı mahiyyətini göstərir. Ölkə iqtisadiyyatı böhran içindədir – yoxsulluq, səfalət, ümidsizlik. Xarici ianələr, xaricdən himayədarlıq edənlər olmasa, bu ölkə çökər. Real əhalisi 1 milyon 800 min nəfər olan halda bu adamlar Türkiyənin əzəli, tarixi torpaqlarına iddia edirlər. Onlar hesab edirlər ki, Dağlıq Qarabağ məsələsini həll ediblər. Yanılırlar. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Vaxt gələcək, Azərbaycan Dağlıq Qarabağ üzərində öz suverenliyini ya barış yolu ilə, ya da hərb yolu ilə bərpa edəcəkdir.

Ancaq Türkiyə kimi böyük bir ölkəyə qarşı torpaq iddiasında olmaq? Bu onu göstərir ki, bu adamların başında nəsə çatmır. Onlar real dünyada yaşamırlar. Özlərini Türkiyə ilə heç olmasa, müqayisə etsinlər. Fil ilə qarışqanı müqayisə etmək olmaz.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*27 iyul 2011-ci il*

*İyulun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar, əziz dostlar!

Əziz qardaşım, Sizi bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu gün artıq bir dəfə Sizi təbrik etdim. Rəhbərlik etdiyiniz partiyanın parlament seçkilərində qazandığı çox parlaq qələbə münasibətilə Sizi bir daha bu salonda ürəkdən təbrik edirəm. Sizin rəhbərliyiniz altında Türkiyə son illər ərzində böyük yol keçmişdir. Siz rəhbərliyə gələndə Türkiyə problemlər içində idi – iqtisadi, maliyyə böhranı içində idi. Sizin siyasətiniz nəticəsində Türkiyə bu gün dünyada dinamik inkişaf edən ölkədir. Nə dünyadakı maliyyə böhranı, nə də iqtisadi böhran Türkiyəyə təsir etmədi. Bu Sizin nailiyyətinizdir, Sizin siyasi xəttinizin nəticəsidir. Bu bizi də çox sevindirir. Türkiyə nə qədər güclü olsa, biz də özümüzü bir o qədər güclü hesab edəcəyik.

Biz bu il müstəqilliyimizin 20 illik yubileyini qeyd edəcəyik. Bizim müstəqilliyimizi ilk tanıyan Türkiyə olmuşdur. O addım başqa ölkələrin Azərbaycanın müstəqilliyini tanımasına da yol açmışdır. Biz bu tarixi heç vaxt unutmamışıq və

unutmayacağıq. Bizim xalqlarımızı ortaq tarix, ortaq mədəniyyət birləşdirir. Əsrlər boyu xalqlarımız bir yerdə olmuşlar, bir-birinə dayaq olmuşlar.

Müstəqil dövlətlər kimi, bu gün Türkiyə və Azərbaycan uğurla əməkdaşlıq edir və bu əməkdaşlığın, demək olar ki, bütün sahələrdə çox gözəl nəticələri vardır. Biz eyni köklərə mənsubuq. Tarixdə elə hallar var ki, bir-birinə çox yaxın olan, hətta dili bir olan ölkələr bir-biri ilə o qədər də yaxşı münasibətdə olmur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bu möhkəm tarixi və mədəni köklər üzərində bu gün Türkiyə və Azərbaycan siyasi, iqtisadi və bütün sahələrdə müttəfiqlər kimi çalışır, işləyir. Son 20 il ərzində bu müttəfiqlik böyük sınaqlardan keçmişdir. Azərbaycan daim Türkiyənin dəstəyini, diqqətini hiss etmişdir, bu gün də hiss edir. Bu gün güclənən Azərbaycan Türkiyə üçün də dayaqdır. Azərbaycanın imkanları artdıqca ikitərəfli əlaqələrin inkişafına və maraqlarına öz töhfəsini verməkdədir.

Bizim qarşımızda enerji məsələləri ilə bağlı strateji seçim etmək məsələsi duranda, şübhəsiz və heç bir tərəddüdsüz düzgün seçim edilmişdir və bizim bütün əsas enerji yollarımız Türkiyə ərazisindən keçir. Bu yollar bir dəhlizə çevrilibdir və bu dəhliz artıq nəqliyyat üçün də açılıbdır. Bu gün haqqında söhbət etdiyimiz həm Bakı–Tbilisi–Ceyhan, həm Bakı–Tbilisi–Ərzurum kəmərləri və həm də Bakı–Tbilisi–Qars layihəsi artıq regional müstəvidən çıxıb, beynəlxalq əhəmiyyətə malikdir. Necə ki, bizim dostluğumuz, qardaşlığımız və işbirliyimiz artıq regional müstəviyə sığmır. Bizim birliyimizin, birgə fəaliyyətimizin istənilən sahədə artıq qlobal mahiyyəti var. Əlbəttə, illər keçdikcə və ölkələrimiz güclədikcə bizim təsir imkanlarımız daha da genişlənəcəkdir.

Biz bir yerdə türkdilli dövlətlərin əməkdaşlığına da çox müsbət təsir göstəririk. Bəzi hallarda bizim tərəfimizdən irəli sürülmüş təşəbbüslər türk dünyasının birləşməsinə xidmət göstərir. Bu təşəbbüslər həm siyasi, həm iqtisadi, həm də mədəniyyət sahəsində artıq gözəl nəticələrini verməkdədir.

Türk dünyasının birləşməsi çox müsbət haldır və həm Türkiyədə, həm də Azərbaycanda bu məsələyə çox böyük diqqət göstərilir.

Bugünkü danışıqlarda gündəliyimizin, demək olar ki, bütün məsələləri müzakirə edildi. Diqqətdən kənarda bir dənə də məsələ qalmadı. Bütün istiqamətlər üzrə konkret proqramlar və layihələr icra edilir və təşəbbüslər irəli sürülür.

Ticarət dövriyyəsi, qarşılıqlı investisiyalar artır. Mətbuat konfransında qeyd etdim ki, Azərbaycan Türkiyə iqtisadiyyatına investisiyaların qoyulmasına başlamışdır. Bu vaxta qədər 4 milyard dollardan çox vəsait qoyulmuşdur və növbəti bir neçə il ərzində Türkiyənin neft kimyası kompleksinə 6 milyard dollar sərmayə qoyulacaqdır. Türkiyə şirkətləri də Azərbaycana böyük həcmdə sərmayə qoyurlar. Bu bir daha onu göstərir ki, nə qədər biz bir-birimizə bağlıyıq, nə qədər biz bir-birimizə inanırıq. İnam olmasaydı, şirkətlər bu qədər investisiyaları qoymazdılar.

Dəmiryol layihəsinin icrası nəticəsində bütün türk dünyası yeni Dəmir İpək yolu ilə birləşəcəkdir. Bu yol həm bizim xalqlarımıza xidmət edəcək, həm də qitələri birləşdirəcəkdir.

Biz bu gün Türkiyənin və Avropanın enerji təhlükəsizliyi məsələlərinə də toxunduq. Azərbaycanın zəngin neft-qaz yataqları Türkiyənin enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynayır və gələcəkdə bu rol daha da artmalıdır. Ümid edirəm ki, yaxın vaxtlarda bu istiqamətdə yeni vacib addımlar atılacaqdır. Bir sözlə, bizim münasibətlərimizi və onların tarixini təhlil edərkən bir daha demək olar ki, Türkiyə–Azərbaycan əlaqələri, Türkiyə–Azərbaycan müttəfiqliyi dünya çapında xüsusi yerə malikdir. Bəlkə də dünyada ikinci belə ölkə tapılmaz ki, onların arasında bu qədər oxşarlıq, yaxınlıq, bu qədər qarşılıqlı rəğbət və əməkdaşlıq olsun. Bu bizim böyük sərvətimizdir, böyük qürur mənbəyimizdir. Bu yolu bizə öndərlərimiz göstərmişlər. Onların – türk və Azərbaycan xalqlarının böyük liderləri Mustafa Kamal Atatürkün, Heydər Əliyevin verdiyi bəyanatlar və vəsiyyət etdikləri məsələlər bu

gün bizim üçün bir istiqamətdir. Biz bir millət, iki dövlətik. Bu yolla biz uğurla addımlayırıq və bu yolda Türkiyə ilə Azərbaycana yeni uğurlar arzulayırıq.

Əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Sizə və qardaş türk xalqına yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın çıxışı**

Cənab Prezident, dəyərli qardaşım Əliyev!

Əvvəlcə Sizləri müstəqilliyin 20-ci ildönümündə öz adımdan və nümayəndə heyətim adından ən səmimi hisslərlə salamlayıram.

Bildiyiniz kimi, bizim məlum ənənəmizə uyğun olaraq, seçkilər keçirildikdən sonra ilk işimiz Azərbaycana və ya Şimali Kipr Türk Respublikasına səfər etməkdir. Xarici səfərlərimizi belə başlayır, belə həyata keçiririk. Bu il ilk səfərimi 37-ci müstəqillik ildönümü olması münasibətilə 19–20 iyulda Şimali Kipr Türk Respublikasına həyata keçirdim. Bu gün də 20-ci ildönümü münasibətilə Azərbaycanda həyata keçiririk. Yəni iki xoşbəxtliyi bir yerdə yaşadıq.

Amma həm də ona görə xoşbəxtəm ki, 20 il əvvəlki Azərbaycanı bugünkü ilə müqayisə etsək, həqiqətən, çox fərqli bir dəyişiklik, inkişafın içərisindədir. Hava limanından buraya gələnə qədər həm bütün yolların infrastruktur işləri, həm də bütün binaların fasadlarının yenilənməsi kimi işlər Azərbaycanda bir şeyin siqnalını verir. O da, adətən, mədəniyyət yolunda həm tarixinə sahib çıxmaq, həm də bu günü sabaha hazırlamaq məqamında mühüm bir mesaj verir.

Mənim çox arzuladığım, istədiyim, sevdiyim bir şey vardır. O da şəhərlərin özünəməxsus yerli memarlığına sahib çıxmasıdır. Bakıda bunu gördüm. Azərbaycanın, Bakının öz keçmişinə, tarixinə sahib çıxması, digər tərəfdən də mədəniyyət yarışında Qərbə də bəzi mesajların verilməsidir.

Təbii ki, Qərb bir qərara gəlməlidir. O da budur: bu Bakı, bu da Yerevan. Yerevan olduğu yerdə sayır – təbii ki, «köhnə» sözü

burada fərqli başa düşülür, amma bizdə çox fərqlidir – durumu məlumdur. Amma Bakının durumu da məlumdur. Artıq müqayisə qəbuledilməzdir. Qərb bundan dərs götürərək, başda Minsk qrupu olmaqla, təhlil aparmalıdır. Amma onlar hələ də bu təhlili aparmaqda çətinlik çəkirlər. Haqqı sahibinə təhvil vermirlər və görürsünüz ki, hələ də Dağlıq Qarabağ, bu bölgə işğal altındadır. O da azad olunacağı günü gözləyir.

Bizim qardaşlığımız, bağlılığımız tarixdən, mədəniyyətdən gəlir. Güclü bir bağlılığımız var və bunu heç kimsəyə zədələtməməliyik. Buna heç kimin haqqı yoxdur. Bunu gücləndirərək sabahlara daşıyacağıq və biz bunu bacarırıq. Hərbi, siyasi, iqtisadi, ticari, mədəni sahələrdə atdığımız və inşallah, atacağımız addımlarla bunu bacarırıq.

Bir az əvvəl dəyərli Prezidentimiz ifadə etdi ki, həm Bakı–Tbilisi–Ceyhan neft kəməri, həm Bakı–Tbilisi–Ərzurum qaz kəməri, həm də Qars–Tbilisi–Bakı dəmiryol xətti – bütün bunlar gələcəyə istiqamətlənmiş müjdələr verir.

Bakı–Tbilisi–Ərzurum ilə birgə «Şahdəniz-2»də daha güclü bir iş ortaya qoyulacaqdır. Bunlar təbii ki, bir enerji bazası olaraq Türkiyəyə önəm qazandırır. Amma hamısından vacibi bizim həmrəyliyimiz, qardaşlığımız çox böyük əhəmiyyət kəsb edir.

Bunun təkrar bilinməsini istəyirəm: bilin – Türkiyə olaraq, xüsusilə iqtidarımız olaraq biz bu 9 illik müddətdə hər zaman, hər yerdə, hər toplantıda azərbaycanlı qardaşlarımızın yanında olduğumuz kimi, bundan sonrakı müddətdə də Ədalət və İnkişaf Partiyası iqtidarı bütün gücü ilə, Türkiyə olaraq hər zaman Azərbaycanın, qardaşlarının yanında olacaqdır. Buna heç kim şübhə etməsin.

Mən dəyərli qardaşıma təkrarən çox təşəkkür edirəm. Bu gözəl süfrə ətrafında, bu ziyafətdə şəxsən öz adımdan və heyətim adından ayrıca təşəkkür edirəm. Sağ olun.

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Luqansk vilayətindəki «Suxodolskaya-Vostoçnaya» şaxtasında partlayış nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verirəm. Zərərçəkənlərin tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2011-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 avqust 2011-ci il*

**MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA**

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Malayziya arasındakı münasibətlərin hərtərəfli inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin genişləndirilməsi yolunda bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 avqust 2011-ci il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM ROZA OTUNBAYEVAYA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Dövlət müstəqilliyi günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qırğızıstan arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Qırğızıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 avqust 2011-ci il*

## MOLDOVA RESPUBLİKASI PREZİDENTİNİN VƏZİFƏSİNİ MÜVƏQQƏTİ İCRA EDƏN ZATİ-ALİLƏRİ CƏNAB MARİAN LUPUYA

Hörmətli cənab Lupu!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Moldova arasındakı dostluq və əməkdaşlıq münasibətləri zəngin ənənələrə malikdir. Əminəm ki, bu ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi yolunda atdığımız addımlar daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Moldova xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 avqust 2011-ci il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Ukrayna xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün dost Ukrayna hərtərəfli inkişaf yolu ilə irəliləyərək dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin iqtisadi qüdrətinin artırılması və beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi istiqamətində ardıcıl addımlar atmaqdadır.

Əminəm ki, xalqlarımız arasındakı ənənəvi dostluq, qarşılıqlı inam və etimad münasibətlərindən qaynaqlanan Azərbaycan–Ukrayna tərəfdaşlığını istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində fəal əməkdaşlığımızı müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 avqust 2011-ci il*

# YASAMAL VƏ NƏSİMİ RAYONLARINDA 225 VƏ 35 SAYLI ORTA MƏKTƏBLƏRDƏ APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*8 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Bakının Yasamal rayonundakı 225 saylı və Nəsimi rayonunun ərazisində yerləşən 35 saylı orta məktəblərdə aparılmış əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə Bakının Yasamal rayonundakı 225 saylı məktəbdə həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış oldu. Dövlət başçısına görülmüş işlərlə bağlı məlumat verildi. Bildirildi ki, 38 sinif otağı, 729 şagird yeri olan məktəb binası 1964-cü ildə istifadəyə verilib. Paytaxtın nümunəvi təhsil ocaqlarından sayılan 225 saylı məktəb 2009–2010-cu tədris ilinin ən yaxşı məktəbi adına layiq görülüb. Dörd mərtəbədən ibarət olan bu məktəb binası da Dövlət Proqramı çərçivəsində əsaslı şəkildə yenidən qurulur.*

*Görülmüş işlərlə tanışlıqdan sonra dövlət başçısı paytaxtın Nəsimi rayonu ərazisində yerləşən 35 saylı orta məktəb binasında aparılmış təmir və yenidənqurma işlərinin gedişi ilə də tanış oldu. Bildirildi ki, 450 şagird yeri olan məktəb binası 1930-cu ildə istifadəyə verilib. Məktəbdə dərslər iki növbədə tədris olunur və burada 700 nəfər şagird təhsil alır. Məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı həyata keçirilən proqram çərçivəsində 35 saylı məktəbin köhnə binası əsaslı şəkildə yenidən qurulacaq.*

*Görülmüş işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*9 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Soçinin Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər qarşıladılar.*

## RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ GÖRÜŞ

*Soçi*

*9 avqust 2011-ci il*

*Avqustun 9-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.*

**D m i t r i M e d v e d e v**: Hörmətli İlham Heydər oğlu! Sizi Soçidə ürəkdən salamlayıram.

Bura ikitərəfli münasibətlərdə cari vəziyyəti, regional gündəliyi müzakirə etmək, bizi darıxmağa qoymayan beynəlxalq işlərə nəzər salmaq üçün yaxşı yerdir. Qlobal maliyyə sistemlərində müəyyən iqtisadi problemlər yaranmışdır ki, bu da asan mövzu deyildir. Mən ilk növbədə diqqətimi ölkələrimiz arasında ikitərəfli dialoqun inkişafı üzərində cəmləmək istəyirəm. Zənnimcə, bu dialoq son dərəcə yaxşı gedir. Bu baxımdan son vaxtlar çox iş görülmüşdür. Həm yaxın illər üçün əməkdaşlığın mahiyyətini müəyyənləşdirən fundamental sazişlərin imzalanmasını, həm ikitərəfli əmtəə dövriyyəsinin artmasını, eləcə də bir sıra iri layihələri nəzərdə tuturam. Amma elə məsələlər vardır ki, məsləhətləşmək və ya tərəfdaşın mövqeyini aydınlaşdırmaq lazımdır.

Əsas mövzulardan biri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasıdır. Mən həmçinin bundan sonra nə etmək, Kazanda üçlükdə keçirilmiş son görüşümüzü və bu formatda əvvəlki görüşləri nəzərə almaqla hadisələrin necə inkişaf edə biləcəyi barədə Sizinlə son dərəcə açıq söhbət aparmaq istəyirəm. Regional problemlərin həlli bizim üçün həqiqətən çox əhəmiyyətlidir, çünki biz yaxın ölkələrik, qonşuyuq, çox

yaxın dostlar və tərəfdaşlarıq. Əslində bütün regionun, ölkələrimizin, xalqlarımızın əhvalı regionumuzda hadisələrin necə inkişaf etməyindən asılıdır. Odur ki, bu məsələlərlə bağlı da məsləhətləşmək istəyirəm.

Sizi bir daha salamlamaqdan məmnunam. Hava da ürəkaçandır. Əgər diqqət yetirmisinizsə, Soçidə həmişə hava rütubətlidir. Bu gün isə rütubətli deyil, sadəcə istidir.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun, Dmitri Anatolyeviç.

Dəvətə görə sağ olun. Soçidə bu dəfə yayda Sizinlə yenidən görüşməyimə çox şadam. Buradakı görüşlərimiz bir qayda olaraq qış vaxtında keçirilir. Odur ki, birinci dəfə yay vaxtı burada olmaq, ən başlıcası Sizinlə görüşüb, dediyiniz məsələləri müzakirə etmək imkanına malik olmaq mənim üçün də çox maraqlıdır.

Həqiqətən, gündəliyimiz çox genişdir. İkitərəfli formatda bütün məsələlər həll edilmişdir. Haqqında danışdığınız müqavilələr son illər görülmüş işlərin zirvəsidir və dost, mehriban qonşuluq və tərəfdaşlıq münasibətlərimizin həm formasını, həm ruhunu, həm də xarakterini əks etdirir.

Əgər ikitərəfli əlaqələrin gündəliyinə nəzər salsaq, bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Siyasi məsləhətləşmələr müntəzəm aparılır. Qarşılıqlı siyasi fəaliyyət də regional əməkdaşlığın inkişafına kömək edir.

Qeyd etdiyiniz kimi, iqtisadi sahədə əmtəə dövriyyəsinin artması, strukturun yaxşılaşması, əmtəə dövriyyəsinin bundan sonra da genişlənməsi perspektivləri vardır.

Humanitar əməkdaşlıqda, enerji təhlükəsizliyi məsələlərində, eləcə də bir çox digər sahələrdə müsbət prosesləri qeyd edə bilərəm. Biz qonşuyuq, iki Xəzər ölkəsi, iki Qafqaz ölkəsiyik və əlbəttə, regiondakı proseslər də çox cəhətdən qarşılıqlı fəaliyyətimizdən asılıdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə səylərinizə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Biz Azərbaycanda Sizin şəxsən bu prosesə qoşulmağınızı çox yüksək qiymətləndiririk. Üçtərəfli formatda

keçirilən danışıqların mərhələləri, heç şübhəsiz, tərəflərin mövqelərini xeyli yaxınlaşdırmışdır.

Bu, regional təhlükəsizliyin əsas problemidir və bütün köçkünlərin öz yaşayış yerlərinə qayıtması, regionda sülhün, əmin-amanlığın, əməkdaşlığın bərqərar olması üçün münaqişənin tezliklə həllində Azərbaycan daha çox maraqlıdır. Nizamlamanın nəzərdə tutulan prinsipləri beynəlxalq hüquq normalarını, sağlam düşüncəni əks etdirir. Odur ki, münaqişənin tezliklə həll olunması bütün ölkələrin mənafeyinə uyğundur.

Göstərdiyiniz səylərə, habelə son illər ölkələrimizi yaxınlaşdıran bütün müsbət işlərə, havaların yaxşı keçdiyi gözəl Soçi şəhərinə dəvət etdiyinizə görə bir daha şəxsən Sizə minnətdarlığımı bildirmək istəyirəm.

## Səfər başa çatdı

*Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Soçi Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram. Bizim mübarək Ramazan ayında görüşlərimiz ənənəvi xarakter daşıyır. Çox şadam ki, yenidən sizinlə görüşürəm.

Xahiş edirəm ki, qarşıdan gələn bayram münasibətilə mənim səmimi təbriklərimi və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə bizim ölkə çox sıx əməkdaşlıq edir. Mən çox şadam ki, bu əməkdaşlıq və dostluq əlaqələri gündən-günə güclənir. Biz çox istəyirik ki, bütün müsəlman ölkələri ilə əlaqələrimiz həm siyasi, həm iqtisadi sahədə və bütün başqa sahələrdə daha da geniş, daha da dərin olsun.

Mən çox şadam ki, müsəlman ölkələrinin Azərbaycandakı səfirliklərinin sayı artmaqdadır. İldən-ilə bu masa arxasında oturan səfirlərin sayı artır. İnşallah, bir neçə ildən sonra biz gərək daha böyük masa arxasında əyləşək. Azərbaycan da müsəlman ölkələrində öz səfirliklərinin sayını artırır. Bu həm bir-birimizə olan münasibətin təzahürüdür, həm də zərurətdir. Biz çox istəyirik ki, bütün müsəlman ölkələri arasında əlaqələr daha da

sürətlə inkişaf etsin. Beynəlxalq təşkilatlarda əməkdaşlığımız çox uğurla davam edir. Birləşmiş Millətlər Təşkilatında, İslam Əməkdaşlığı Təşkilatında, digər təşkilatlarda biz sıx əməkdaşlıq edirik və daim bir-birimizi dəstəkləyirik. Bir neçə il əvvəl BMT-nin Baş Məclisində Dağlıq Qarabağ məsələsinin müzakirəsi zamanı bizə ən çox dəstək verən müsəlman ölkələri olmuşdur. Bu dəstəyə görə minnətdarıq və bu dəstəyi bu gün də hiss edirik. Azərbaycan da öz növbəsində beynəlxalq təşkilatlarda müsəlman ölkələrinin maraqlarını daim müdafiə edir və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Əminəm ki, xüsusilə indiki şəraitdə islam həmrəyliyinin gücləndirilməsi çox lazımdır. Bizim aramızda birlik daha sıx olmalıdır. İqtisadi əlaqələr daha da geniş olmalıdır. Azərbaycan bu məqsədlərə çatmaq üçün öz tərəfindən vacib addımlar atır.

İslam Əməkdaşlığı Təşkilatının xətti ilə ölkəmizdə yüksək səviyyəli bir neçə tədbir keçirilmişdir. Bildiyiniz kimi, İSESKO ilə əlaqələrimiz çox sıxdır. İslam mədəniyyətinin dünyada təbliği üçün ölkəmiz çox böyük səylər göstərir. Biz fəxr edirik ki, 2009-cu ildə Bakı şəhəri islam mədəniyyətinin paytaxtı elan edilmişdir. 2018-ci ildə ölkəmizin digər qədim şəhəri olan Naxçıvan da bu şərəfli ada layiq görüləcəkdir.

Əziz dostlar, mən sizi bir daha ürəkdən salamlayıram. Sizə, ailələrinizə, təmsil etdiyiniz ölkələrə uğurlar arzulayıram. Əminəm ki, siz özünüzü Bakıda evinizdəki kimi hiss edirsiniz. Ümid edirəm ki, burada sizin fəaliyyətiniz həmişə olduğu kimi, çox uğurlu olacaqdır. Yəni, siz burada həqiqətən öz doğma vətəninizdəsiniz.

*Özbəkistanın Azərbaycandakı səfiri İsmatilla Yerqaşev müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri adından müqəddəs Ramazan ayı münasibətilə prezident İlham Əliyevi və xalqımızı təbrik etdi.*

**İsmatilla Yerqaşev:** Hörmətli cənab Prezident! Sizi Azərbaycanda akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri, nümayəndəliklərinin rəhbərləri və şəxsən öz adımdan

böyük məmnuniyyətlə müqəddəs Ramazan ayı və əl-Fitr bayramı münasibətilə təbrik edirəm.

Zati-aliləri, fürsətdən istifadə edərək bu müqəddəs ayda Sizinlə görüşmək imkanı əldə etdiyimiz üçün Sizə səmimi təşəkkürümüzü bildiririk. Biz çox şadıq ki, Sizin sayənizdə bu görüşlər xoş ənənəyə çevrilib. Müqəddəs aylardan biri olan Ramazan insanların ağlında və düşüncəsində təcəssüm tapır, onları əmin-amanlığa, mənəvi paklığa və birliyə çağırır. Hər birimiz üçün müqəddəs olan bu ayda müsəlman ölkələrinin səfirləri adından Sizə və bütün Azərbaycan xalqına Uca Allahdan xeyir işlər, həmçinin sülh və tərəqqi arzulamaqdan şərəf duyuram.

Bu gün Azərbaycan nəinki regional, həmçinin beynəlxalq proseslərə və meyillərə birbaşa təsir göstərən güclü amillərdən biridir. Biz səmimi maraq və rəğbət hissi ilə islahatların dinamik gedişini və bunun da Azərbaycanın iqtisadi və sosial həyatında faydasını müşahidə edirik. Onun parlaq nümunələrindən və təsirindəndir ki, bu gün qlobal maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycan milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində yüksək nəticələr göstərməkdə davam edir. Ölkədə böyük infrastruktur layihələri müvəffəqiyyətlə həyata keçirilir. Bunların hamısının səbəbi düzgün düşünülmüş iqtisadi islahatlardır.

Cənab Prezident, Siz əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi islahatları uğurla davam etdirirsiniz. Azərbaycanın bundan heç də az əhəmiyyətli olmayan humanitar sahədəki nailiyyətləri də göz qabağındadır. Azərbaycanın «Eurovision–2011» musiqi yarışmasındakı qələbəsi bütün müsəlman ölkələri üçün də sevindirici bir haldır. Azərbaycanın zəngin müsəlman irsinin inkişafına yönəlmiş səylərini alqışlayırıq. Bunun parlaq nümunəsi kimi, Azərbaycanda hər il Beynəlxalq muğam festivalının keçirilməsini göstərmək olar. Biz müsəlman ölkələrinin nümayəndələri kimi, Azərbaycan xalqına Dağlıq Qarabağ münaqişəsinin həllində dəstək verəcəyik. Əminik ki, bu problem beynəlxalq hüququn

norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir. Azərbaycanlı məcburi köçkünlər doğma yerlərinə, Dağlıq Qarabağa qayıdacaqlar.

Biz müsəlman ölkələrinin nümayəndələri kimi, Azərbaycanı 2012–2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyini dəstəkləyəcəyik və inşallah, inanırıq ki, bu məsələ BMT çərçivəsində həll ediləcəkdir.

Hörmətli cənab Prezident! Sizə dərin minnətdarlığımızı bildirirəm. Sizə uğurlar, Azərbaycan xalqına tərəqqi və çox böyük nailiyyətlər arzu edirəm.

Çox sağ olun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Doğrudan da ölkəmiz bütün sahələrdə – siz də qeyd etdiniz – həm iqtisadi, həm humanitar, həm mədəniyyət sahələrində inkişaf edir. Biz çalışırıq ki, ölkəmiz hərtərəfli inkişaf etsin, insanların rifah halı yaxşılaşsın, ölkə qarşısında duran bütün vəzifələr icra edilsin. Bildiyiniz kimi, müxtəlif proqramlar icra edilir. Şəhərlərin siması dəyişilir, hər yerdə quruculuq, abadlıq işləri aparılır. Görəndə ki, dostlarımız, qardaşlarımız da uğurlarımıza sevinir, biz çox şad oluruq. Sizin ölkələrinizin nümayəndələri Azərbaycanda gedən müsbət proseslərə, doğrudan da həmişə səmimi qaydada dəstək olmuşlar. Bu dəstəyi biz hiss etmişik və hiss edirik.

Biz bu il müstəqilliyimizin 20 illiyini qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan göstərib ki, müstəqil ölkə kimi yaşaya, inkişaf edə bilər və yaxşı da yaşaya bilər. Əlbəttə ki, görüləsi işlər çoxdur. Bizim böyük planlarımız vardır. Çalışırıq ki, ölkəmizi inkişaf etmiş ölkələrin sırasına çıxaraq. Bunu etmək üçün imkanlar vardır. Həm siyasi iradə, həm artıq maliyyə resurslarımız, düşünülmüş siyasətimiz və strateji xəttimiz vardır. İstədiyimizə nail olmaq üçün beynəlxalq müstəvidə də mütləq qarşılıqlı etimad əsasında əlaqələr gücləndirilməlidir.

Bir daha demək istəyirəm ki, beynəlxalq aləmdə ən böyük dəstəyi bütün dövrlərdə biz müsəlman ölkələrindən görmüşük

və bu gün də görürük. Müstəqilliyimizin ilk illərindən bu günə qədər bizi dəstəkləyən müsəlman ölkələri olmuşdur. Bizi ilk tanıyan müsəlman ölkəsi Türkiyə olmuşdur. Ondan sonra digər ölkələr bizi müstəqil ölkə kimi tanımışlar. Biz İslam Əməkdaşlığı Təşkilatına – o vaxt İslam Konfransı Təşkilatı adlanırdı – üzv olmuşuq və daim bu təşkilat çərçivəsində dəstək görmüşük. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İslam Əməkdaşlığı Təşkilatının çoxsaylı qərar və qətnamələri vardır ki, bu da bizim mövqemizi gücləndirir.

Siz qeyd etdiyiniz kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv kimi namizəd olmuşdur. Mən öz həmkarlarıma bununla bağlı müvafiq qaydada məktublar göndərmişəm. Artıq bir neçə ünvandan mənə həmkarlarım müsbət cavab göndərmişlər. Buna görə mən çox minnətdaram.

Müsəlman ölkələri arasında birlik, həmkarlıq, əməkdaşlıq daha da yüksək səviyyəyə çatmalıdır. Xüsusilə indiki zamanədə bəzi hallarda biz dinimizə qeyri-normal münasibətlə üzləşirik. İslamofobiya meyilləri əfsuslar olsun ki, artmaqdadır. Multikulturalizmlə bağlı müxtəlif fikirlər irəli sürülür. Sanki multikulturalizm iflasa uğrayıb. Halbuki bizim təcrübəmiz və sizin təmsil etdiyiniz ölkələrin təcrübəsi onu göstərir ki, multikulturalizm yaşayır və inkişaf edir. Bunun müsbət nümunələri vardır. Bu təcrübələr öyrənilməlidir. Biz daim bu məsələləri beynəlxalq tribunalardan qaldırırıq. Azərbaycan həm İslam Əməkdaşlığı Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. Bu məsələlərlə bağlı mövqemizi ifadə etmək üçün kifayət qədər geniş imkanlarımız vardır və biz bunlardan istifadə edirik. Milli və dini dəyərlərimizi təbliğ etməliyik. Əfsuslar olsun ki, islam dininə qarşı bəzi dairələrdə qeyri-adekvat, qeyri-normal, çox mənfi münasibət vardır. Biz mübarizə aparmalıyıq və bu mübarizə ancaq birlik olan zaman uğurlu ola bilər. Bütün beynəlxalq məsələlərlə bağlı biz öz mövqemizi müdafiə etməliyik. Birliyə çağırışlar sadəcə olaraq şüar deyil, zərurətdir, xalqlarımıza, ölkələrimizə lazımdır. Biz çox istəyirik ki, bütün

müsəlman aləmi daha da sıx birləşsin. Buna böyük ehtiyac vardır. Bəzi müsəlman ölkələrində yaşanan sıxıntılar, qarşıdurmalar, problemlər bizi də çox narahat edir. Biz istəyirik ki, bu böhranlı vəziyyət tezliklə aradan qaldırılsın, müsəlman aləmində sülh, əməkdaşlıq, sakitlik, əmin-amanlıq yaransın.

Müsəlman ölkələri ilə iqtisadi sahədə bizim qarşılıqlı iqtisadi komissiyalar fəaliyyət göstərir. Bu komissiyaların işi səmərəlidir və çalışmalıyıq ki, hər bir sahədə nailiyyətə çataq. Siyasi əlaqələr çox yaxşı ki, yüksək səviyyədədir. İqtisadi sahədə, mədəniyyət sahəsində, gənclər arasında əlaqələr olmalıdır. İslam Əməkdaşlığı Təşkilatının Gənclər Forumu da çox fəal işləyir. Biz gəncləri də bir araya gətirməliyik ki, onlar bir-biri ilə əlaqədə olsunlar. Gələcəkdə ölkələrimizi onlar idarə edəcəklər. İndidən gərək sıx əlaqədə olsunlar ki, maraqlarımız təmin edilsin.

Bilirsiniz, hər bir ölkənin öz problemi vardır. Hər bir ölkədə problemlərin həlli üçün ilk növbədə, daxili resurslar əsas rol oynayır. Xarici yardım və mənəvi dəstək də az rol oynamır. 20 illik müstəqillik dövründə biz daim islam ölkələri tərəfindən bu diqqəti, dəstəyi görmüşük. Çalışmışıq ki, öz növbəmizdə biz də dəstəyimizi göstərək. Mən tam əminəm ki, növbəti illərdə uğurumuz və uğurlu inkişafımız daha çox bu qarşılıqlı dəstəkdən asılı olacaqdır.

Bir daha sizi qarşıdan gələn bayram münasibətilə təbrik edirəm. Bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı təmsil etdiyiniz ölkələrin rəhbərlərinə və ən xoş arzularımı ölkələrinizin ictimaiyyətinə çatdırasınız. Sağ olun.

## DOMİNİKA BİRLİYİNİN BAŞ NAZİRİ RUZVELT SKERRİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Dominika Birliyinin Baş naziri Ruzvelt Skerritin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə qarşılıqlı əlaqələrin genişləndirilməsində ölkələrimizin maraqlı olduğu qeyd edildi, siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ XANIM DİLMA ROUSSEFƏ

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Braziliya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri, ikitərəfli və çox-tərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Braziliya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 avqust 2011-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Vyetnam münasibətlərinin, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 avqust 2011-ci il*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 avqust 2011-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Özbəkistan arasındakı dostluq və əməkdaşlıq münasibətləri dərin tarixi köklərə və ənənələrə malikdir. Ortaq mənəvi dəyərləri bölüşən, bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımızın iradəsi, qarşılıqlı etimad və dəstəyi ilə bu gün həmin ənənələr yeni məzmun kəsb etməkdədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin, çoxşaxəli dostluq əlaqələrimizin və əməkdaşlığımızın hazırkı dinamik inkişafı və zəngin potensialı daim xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə, hörmətli İslam Abduqəniyeviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Özbəkistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 avqust 2011-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, tarixi ənənələrə əsaslanan Azərbaycan–Tacikistan dostluğunun və əməkdaşlığının daim möhkəmləndirilməsi, xalqlarımızın iradəsini əks etdirən dövlətlərarası münasibətlərimizin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə, hörmətli Emoməli Şərifoviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Tacikistan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 avqust 2011-ci il*

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİNDƏ[*] İŞTİRAK

*12 avqust 2011-ci il*

*Avqustun 12-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.*

*Əvvəlcə şeyxülislam Allahşükür Paşazadə yeni iqamətgahda aparılmış inşaat işlərinin gedişi barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, tikintisinin gələn il başa çatdırılması nəzərdə tutulan bu iqamətgahda dindarların ibadəti və dini mərasimlərin keçirilməsi üçün hər cür şərait yaradılacaqdır.*

*İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başladı.*

*Mərasimdə şeyxülislam Allahşükür Paşazadə çıxış etdi.*

* * *

– Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm cənab prezident İlham Əliyev həzrətləri!

Hörmətli din xadimləri, səfirlər, qonaqlar!

Sizin bu müqəddəs ayın cümə günündə iftar mərasimimizdə iştirak etməyiniz mənim üçün çox xoşdur. Bu həm də Allaha

---

[*] Мцгяддяс Рамазан айы мцнасибятиля ифтар сцфрясиндя Рус Православ Килсясинин Бакы вя Хязярйаны Йепархийасынын рящбяри Александр, Азярбайъан Даь Йящудиляри иъмасынын сядри Семйон İхиилов, Рома Католик килсясинин Азярбайъандакы ординариси Владимир Фекете вя Албан-Удин дини иъмасынын сядри Роберт Мубили чыхыш етдиляр.

xoş gedən bir işdir. Çünki bu ay müqəddəs Ramazan ayıdır. Quranın nazil olduğu bu ay bağışlanılan, ruzi-bərəkət diləyi edilən, ruhlar azad olunan bir aydır. Onun üçün də bizim bugünkü iftar mərasimimiz ənənə halına çevrilmişdir. Möhtərəm Prezident həzrətlərinin dəvətimizi qəbul edib bu mərasimdə iştirakı bizim üçün çox xoşdur. Biz möhtərəm Prezidentə minnətdarlığımızı bildiririk.

Bu gün Azərbaycan dövlətində çox işlər görülür. Prezident həzrətlərinin də çox mühüm işləri vardır. Buna baxmayaraq, milli-mənəvi dəyərlərimizə qiymət verərək bu gün bizimlə bərabər olması həm də xalqımıza, millətimizə, dinimizə, milli ənənəmizə verdiyi böyük bir qiymətdir. Əlbəttə, bu ənənənin də təməlini ulu öndərimiz Heydər Əliyev qoymuşdur. Allah-Taala ulu öndər Heydər Əliyev həzrətlərinə rəhmət etsin. Bu gün Azərbaycan onun qoyduğu təməl üzərində bütün sahələrdə uğurla irəliləyir və inkişaf edir. Bu gün Azərbaycan təkcə Qafqazda deyil, dünya miqyasında tanınan mühüm dövlətlərdən birinə çevrilmişdir. Bu da prezident İlham Əliyev həzrətlərinin apardığı düzgün siyasətin nəticəsidir.

Allah-Taala insanlara yaşamaq üçün sərvətlər vermişdir. Bizə də çoxlu sərvətlər vermişdir. Bu sərvətlərimiz içərisində insanlığa, mənəviyyatımıza, mədəniyyətimizə verilən qiymət ən mühümüdür. Abidələrimizi qorumaq, bərpa etmək, gələcək nəsillərə çatdırmaq bizim əsas vəzifələrimizdir.

Bu gün Azərbaycan tərəqqi yolundadır və gələcəkdə də, inşallah, inkişaf edəcəkdir. Biz Dünya Dini Liderlərinin Sammitini Azərbaycanda keçirmək istəyəndə buna çoxları inanmırdı. Müxtəlif dinlərə mənsub görkəmli xadimlərin, patriarxların bu sammitdə bir araya gəlmələri çox mühüm hadisə idi. Dostum, katolikos patriarx İlya həzrətlərinin, yaxın dostum və qardaşım Ümumrusiya patriarxı Kirill həzrətlərinin, Vatikanın nümayəndəsinin və dünyanın digər dini liderlərinin – həm müsəlman, həm qeyri-müsəlman dini liderlərin sammitdə iştirakı Azərbaycanda mənəvi dəyərlərin qorunmasına yüksək qiymət verilməsinin təsdiqi idi.

Azərbaycan sürətli inkişafla bərabər, həm də əmin-amanlığın, bərabərliyin təcəssüm tapdığı bir ölkədir. Mədəniyyətlərarası Dialoq Forumunun və digər humanitar konfransların ölkəmizdə keçirilməsi bir daha göstərir ki, Azərbaycan öz mənəvi dəyərlərinə çox böyük qiymət verir.

Sovet hakimiyyəti dövründə bizim cəmi 18 məscidimiz var idi. Müstəqilliyimizin 20 ili ərzində isə onların sayı 850-ni ötüb, daha 250-dən yuxarı məscid qeydiyyat ərəfəsindədir. Təkcə bu faktın özü son 20 ildə Azərbaycanın mənəvi həyatında nə qədər irəliləyişin olduğunu təsdiq edir. Azərbaycanda fəaliyyət göstərən ənənəvi dinlərin nümayəndələrinə də eyni səviyyədə diqqət və qayğı göstərilir. Bu yaxınlarda Prezident həzrətləri «Dini etiqad azadlığı haqqında» Qanunda dəyişikliklər edilməsi barədə qanunu təsdiq etmişdir. Qanunda əksini tapmış dəyişikliklərdən biri də xaricdə yaşayan azərbaycanlıların mənəvi dəyərlərini qoruyub saxlamaları üçün əcnəbi ölkələrdə Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəliklərinin açılması barədə müddəadır. Bu bir daha sübut edir ki, Prezident həzrətlərimiz bütün dünya azərbaycanlılarının milli-mənəvi dəyərlərinin inkişafına çox böyük önəm verir. Ona görə də dövlət mənəvi dəyərlərlə, dini etiqad azadlığı ilə bağlı qanunlara da yenidən baxmalı, dindarların həyatını yaxşılaşdırmaq üçün tədbirlər görməlidir və bunu da edir. Ona görə də mən Qafqaz müsəlmanları, bütün dindarlar adından Prezident həzrətlərinə dərin minnətdarlığımı bildirirəm.

Prezident həzrətləri müsəlman ölkələrinin səfirlərini qəbul edərkən multikulturalizm haqqında çox qiymətli fikirlər söylədi. Dedi ki, insanlar bir-birinə yaxın, bir-biri ilə ünsiyyətdə olmalıdırlar. Dinlər arasında dialoq olmalıdır. İnsanları Allah-Taala yaradıb və Qurani-Şərifdə buyurur ki, mən sizi yaratdım, bir-birinizlə danışın, dil, elm öyrənin, bir-birinizi tanıyın.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bu yaxınlarda çıxışında dedi ki, bütün dualarımız bir Tanrıyadır, bir Allaha dua edirik. Amma bəzi insanların bəd əməlləri, məsələn, bir keşişin Quranı yandırması bütün dinlərə hörmətsizlikdir.

Uğurlarımızı həm ölkə daxilində, həm də xaricdə gözü götürməyən qüvvələr də vardır. Xüsusən ermeniləri, Ermənistanı, qəsbkarları müdafiə edən qüvvələr vardır. Əlbəttə, biz yolumuzdan dönən deyilik. Bizim yolumuz həqiqət yoludur. Mən bir din xadimi kimi, inanıram ki, Prezident həzrətlərinin qətiyyəti, müdrik siyasəti sayəsində, inşallah, münaqişə sülh yolu ilə həll ediləcək, torpaqlarımız tezliklə işğaldan azad olacaq, şəhidlərimizin qanı yerdə qalmayacaqdır. Allah onlara rəhmət etsin.

Bu gün bu mərasimdə görüşməyimizə çox sevinirik. Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan, Dərbənd, Mahaçqala üzrə nümayəndələri də aramızdadır. Deyə bilərəm ki, bu gün Azərbaycan bir mənəvi mərkəzə, məkana çevrilmişdir. Siz buraya gələndə yarımçıq binanı gördünüz. Mən Prezident həzrətlərini ailəsi ilə birlikdə gələn ilin müqəddəs Ramazan bayramı ərəfəsində həmin binanın açılışına dəvət edirəm. Ümidvaram həmin günlərədək Qarabağ problemimiz də həllini tapacaqdır.

Mən Sizə bir daha «Xoş gəlmisiniz!» – deyirəm, möhkəm cansağlığı arzulayıram. Allah-Taala bütün şəhidlərə, dünyadan gedənlərə rəhmət etsin, qardaşım, dostum, ulu öndərimiz Heydər Əliyev həzrətlərinin ruhu şad olsun. Allah-Taaladan anamız Zərifə xanıma rəhmət diləyirəm. Allah-Taala dünyamıza xoşbəxtlik, səadət nəsib etsin. Arzu edirəm ki, Azərbaycan daha da inkişaf etsin, prezidentimiz İlham Əliyev həzrətlərinin rəhbərliyi ilə dünyada ən önəmli, ən qabaqcıl dövlətlərdən birinə çevrilsin.

Sizə cansağlığı arzulayıram. Sizə bu mərasimə gəldiyinizə, iftarımızı şərəfləndirdiyinizə görə minnətdarlığımı bildirirəm. Nə niyyətləriniz varsa, Allah-Taala qəbul etsin. Çox sağ olun.

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Əziz dostlar!

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz artıq gözəl ənənəyə çevrilibdir. Bu ənənənin böyük tarixi vardır. Bu ənənənin təməlini qoyanlar ulu öndər Heydər Əliyev və şeyx həzrətləri olmuşdur. Heydər Əliyev siyasəti Azərbaycanda bütün sahələrdə bu gün də yaşayır və uğurla davam etdirilir. Bu gün Azərbaycanda dövlət–din münasibətləri çox yüksək səviyyədədir və hesab edirəm ki, bu əlaqələr dünya miqyasında nümunə kimi təqdim oluna bilər. Azərbaycanda bütün sahələr inkişaf etdiyi kimi, bu sahədə də müsbət meyillər özünü göstərməkdədir. Ölkənin gücünü təkcə təbii sərvətlər, təbii ehtiyatlar, maliyyə imkanları müəyyən etmir. Hər bir ölkənin gücü onun hərtərəfli inkişafındadır. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri rahat yaşayırlar. Dostluq, qardaşlıq şəraitində yaşayırlar. Bizim gücümüz bundadır. Biz yalnız və yalnız uğurla irəliyə gedəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik və Azərbaycanın hərtərəfli inkişafına nail olacağıq.

Ramazan müqəddəs aydır. Azərbaycan xalqı müqəddəs duyğuları öz qəlbində əsrlər boyu yaşatmışdır. Ancaq müstəqil ölkə kimi, biz gənc ölkəyik. Bu il müstəqilliyimizin 20 illik yubileyini qeyd edəcəyik və müstəqil ölkə, azad xalq kimi, dini bayramımızı böyük təntənə ilə qeyd edirik.

Azərbaycanda bütün dinlərin nümayəndələri özlərini rahat hiss edirlər. Azərbaycanda islam mədəniyyətinə, islam dininə olan hörmət başqa dinlərə olan hörmətlə tamamlanır. Öz dininə hörmət edən şəxs başqa dinə də hörmət etməlidir. Bu, Azərbaycanda oturuşmuş yanaşmadır. Bu gün din xadimləri Azərbaycanda hökm sürən dözümlülük, tolerantlıq haqqında

danışdılar. Bu reallıqdır və dünya miqyasında bizim təcrübəmiz bəzi hallarda öyrənilir.

Azərbaycanda dövlət–din münasibətlərini əks etdirən amil dini abidələrə olan münasibətdir. Azərbaycan dövləti nəinki islam dininə mənsub olan abidələri, məscidləri tikdirir, bərpa etdirir, digər dinlərə mənsub olan məbədləri də təmir etdirir, tikdirir. Bu barədə danışıldı və mən çox şadam ki, burada müxtəlif dinləri təmsil edən din xadimləri yekdil bir fikir ortaya qoyurlar. O da ondan ibarətdir ki, Azərbaycanda dövlət siyasəti və bu siyasətin əsasları düzgün qurulubdur. Bu həm də cəmiyyət tərəfindən irəli sürülmüş siyasi və ictimai sifarişdir. Bu bizim həyat tərzimizdir, dünyagörüşümüzdür. Biz belə yaşayırıq, bölgəyə və dünyaya sübut edirik ki, multikulturalizm yaşayır. Multikulturalizm nisbətən yeni anlayışdır. Müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan insanların birgə yaşaması deməkdir. Əsrlər boyu Azərbaycanda bu anlayış yaşayıb, bu gün də yaşayır və möhkəmlənir. Azərbaycan xalqı müxtəlif dövrlərdə müxtəlif ictimai-siyasi quruluşlar çərçivəsində yaşamışdır. Ancaq bütün dövrlərdə və xüsusilə müstəqillik dövründə bu müsbət meyillər daha da güclənir.

Dövlət–din münasibətlərinin yüksək səviyyədə olmasında hörmətli şeyx həzrətlərinin böyük əməyi və zəhməti vardır. Onun qeyd etdiyi kimi, Azərbaycanda dinlərarası, mədəniyyətlərarası dialoqa həsr edilmiş bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Ölkəmiz dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün bir ünvana, məkana çevrilmişdir. Təkcə coğrafi vəziyyətimiz və ya müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu burada bir ailə kimi yaşaması amilləri rol oynamır, eyni zamanda, şeyx həzrətlərinin beynəlxalq nüfuzu da öz rolunu oynayır. Mən dövlət və hökumət başçıları ilə, həmkarlarımla dəfələrlə şeyx həzrətlərinin fəaliyyəti haqqında fikir mübadiləsi aparmışam. Çox şadam ki, hörmətli şeyximiz dünya səviyyəsində böyük hörmətə malik bir şəxsiyyətdir. Onun təşəbbüsü ilə həm beynəlxalq müstəvidə, həm Qafqazda dinlərarası dialoqun gücləndirilməsi üçün çox vacib addımlar atılır. Həm beynəlxalq tədbirlər

keçirilir, həm bizim qonşu bölgələrdən olan din xadimləri vaxtaşırı Azərbaycana gəlirlər. Rusiyanın Şimali Qafqaz respublikalarının müftilərinin Azərbaycana səfərini xatırlatmaq istəyirəm. Bu çox uğurlu səfər idi. Qafqazda sülhün, əmin-amanlığın, dözümlülüyün təmin edilməsi üçün bu amillərin çox böyük əhəmiyyəti vardır.

Şeyx həzrətlərinin təşəbbüsü ilə təşkil edilən ənənəvi iftar süfrələrimiz də bir məqsədi güdür: biz daha da sıx birləşək, Azərbaycan cəmiyyəti daha da sıx birləşsin, burada yaşayan bütün xalqların, dinlərin nümayəndələri bir daha həm dövlət, həm siyasi rəhbərlik, həm din xadimləri tərəfindən lazım olan sözləri eşitsinlər. Bu sözlər hansısa bir niyyətin ifadəsi deyil, konkret əməllərə söykənir, bu sözlərin arxasında böyük işlər dayanır. 20 il ərzində – müstəqillik dövründə Azərbaycanın əldə etdiyi uğurlar, o cümlədən bu gözəl ab-havanın hesabına mümkün olmuşdur.

Bu gün bölgədə mövqelərimiz kifayət qədər güclüdür. Azərbaycanın təsir imkanları genişlənir. Bu imkanlar yalnız regionda əməkdaşlığın və mehriban qonşuluq münasibətlərinin gücləndirilməsinə xidmət edəcək və edir. Azərbaycan bu gün bölgədə sabitləşdirici rol oynayır və bu rol getdikcə artacaqdır. Biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda bütün azadlıqlar, din azadlığı vardır. Ən böyük nemət din, vicdan, söz, fikir, siyasi fəaliyyət, mətbuat azadlığıdır. Bu azadlıqlar Azərbaycanda vardır. Biz 20 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda demokratiyanın inkişafı da çox böyük yol keçmişdir. Liberal iqtisadi siyasət siyasi islahatlarsız mümkün deyildir. Siyasi islahatlar din sahəsində aparılan islahatlarsız mümkün deyildir. Bu istiqamətlər hamısı bir-birini tamamlayır və bizim uğurlu inkişafımızı şərtləndirir.

Müstəqilliyimizin ilk illərini də yaxşı xatırlayırıq. O vaxt Azərbaycanın vəziyyəti çox ağır idi. Həm iqtisadi, həm siyasi, həm hərbi böhran, vətəndaş qarşıdurması, vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü və beləliklə, ölkə iqtisadiyyatının tamamilə iflic vəziyyətinə düşməsi – o illəri də

biz xatırlayırıq. Biz böyük sınaqdan çıxa bilmişik. Azərbaycanın müstəqilliyi şübhə altında idi. Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə rəhbərliyə gəlməsindən sonra bütün xoşagəlməz meyillərə son qoyuldu və ölkə inkişaf dövrünə qədəm qoydu.

Bu gün biz bu inkişafı görürük. Lakin əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Hələ görüləsi işlər çoxdur – iqtisadi, sosial və bütün sahələrdə. Əlbəttə ki, ölkə qarşısında duran ən başlıca vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Torpaqlarımız işğal altındadır. Bu ədalətsizlik əfsuslar olsun ki, uzun illərdir hökm sürür. Baxmayaraq ki, beynəlxalq hüquq normaları, tarixi həqiqət bizim mövqemizi dəstəkləyir. Siyasi münasibətlər və bölgədəki siyasi çəkilər də Azərbaycanın üstünlüyünü əyani şəkildə sübut edir – iqtisadi üstünlük, hərbi üstünlük. Bütün cəhətlərdən Ermənistandan üstünük. Burada din xadimləri qeyd etdilər, bizim işimiz haqq işidir. Biz heç kimin torpağını zəbt etməmişik, heç kimin torpağında gözümüz yoxdur. Baxmayaraq ki, bugünkü Ermənistan tarixi Azərbaycan ərazilərində yaranıbdır. Biz istəyirik ki, öz ərazi bütövlüyümüzü bərpa edək. Buna bizim haqqımız da, gücümüz də çatır. Sadəcə istəyirik ki, problem qan tökülmədən, sülh yolu ilə, danışıqlar yolu ilə öz həllini tapsın. Ancaq prinsipial mövqemizdən bir addım da geri atmayacağıq. Bizim mövqemiz həm tarixi həqiqətə, həm beynəlxalq hüquq normalarına əsaslanır.

Dünyada, Avropada, başqa yerlərdə muxtariyyətlər vardır. Muxtariyyətlərin yaxşı təcrübəsi vardır. Biz bu məsələləri dərindən öyrənmişik, qabaqcıl ölkələrdə mövcud olan praktikanı burada da tətbiq etməyə hazırıq, ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır.

Bir daha demək istəyirəm ki, bu əminliyin əsasında bir neçə amil dayanır. Birincisi – beynəlxalq hüquq, ikincisi – bizim siyasi çəkimiz, üçüncüsü – iqtisadi potensial, dördüncüsü – uğurlu gələcəyimiz, beşincisi – demoqrafiya. Ermənistan rəhbərliyi bunu

nəhayət anlasın ki, demoqrafiya amili vardır və bu amil bu gün artıq özünü büruzə verir. Dağlıq Qarabağ münaqişəsi həll olunacaqdır. Ancaq onlar heç olmasa götür-qoy etsinlər, baxsınlar ki, demoqrafik meyillər 5 ildən, 10 ildən sonra, 15 ildən sonra nəyə gətirib çıxaracaqdır. Allaha şükürlər olsun ki, bu gün Azərbaycan əhalisi artır. Azərbaycanda 9 milyonuncu vətəndaş keçən ilin əvvəlində dünyaya gəlibdir və artıq ölkəmizin 9 milyon 160 mindən çox əhalisi vardır. Ermənistanda əhali, iqtisadi potensial, təbii sərvətlər azalır. Bu siyahını davam etdirmək olar. Hər bir sahədə Azərbaycanın üstünlüyü şəksizdir. Belə olan halda bu münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq mümkün olmayacaqdır. Bu məsələ ilə bilavasitə məşğul olan, vasitəçilik edən ölkələrin dövlət başçılarının bəyanatlarında da bu, açıq-aydın görünür və deyilir ki, status-kvo dözülməzdir və dəyişdirilməlidir.

Əziz dostlar! Bu müqəddəs Ramazan ayında sizinlə bir yerdə olmağımdan məmnunluğumu vurğulamaq istəyirəm. Bu görüşlərin çox böyük mənası vardır. Bu ənənə yaşayır, yaşayacaqdır. Bu gün şeyx həzrətlərinin göstərdiyi yeni iqamətgah əminəm ki, gələn bayrama hazır olacaqdır. Bu iqamətgah da göz oxşayır. Amma yeni tikilən bina, əlbəttə ki, daha da möhtəşəmdir və əzəmətlidir. Amma yerdən asılı olmayaraq Azərbaycanda yaşayan bütün xalqların, dinlərin nümayəndələrinin arasında olan səmimiyyət əsas məsələdir. Bu gözəl ab-havanı saxlayaq, daha da möhkəmləndirək, ölkəmizi gücləndirək və irəliyə aparaq. Bu müqəddəs ayda sizə və Azərbaycan xalqına bir daha cansağlığı, xoşbəxtlik arzu edirəm.

## SİYƏZƏN VƏ ŞABRAN RAYONLARINA SƏFƏR

*Siyəzən*

*15 avqust 2011-ci il*

*Avqustun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyəzən rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Siyəzən şəhərinin mərkəzində salınmış Heydər parkında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə Heydər parkında görülmüş işlər barədə məlumat verildi. Bildirildi ki, Heydər Əliyev prospektində yerləşən bu park 2010-cu ildə istifadəyə verilmişdir. Bir hektardan çox ərazisi olan Heydər parkında yaşıllıq zolağı genişləndirilmiş, yaraşıqlı fəvvarə kompleksi, sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi. Mərkəzdə ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer almışdır. Burada dünya miqyasında tanınan siyasi xadim Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu dahi şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycanın müstəqilliyinin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, nizami ordu quruculuğu istiqamətində həyata keçirilmiş mühüm tədbirləri əks etdirən fotolara geniş yer verilmişdir.*

*Qeyd olundu ki, tikintisinə 2008-ci ildə başlanılmış Mərkəzin ikimərtəbəli binası ümummilli liderin adını daşıyan parkın ən gözəl guşəsində, özünəməxsusluğu ilə seçilən orijinal layihə əsasında inşa edilmişdir. Binanın ümumi sahəsi 600 kvadratmetrdir. Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi baxımından böyük əhəmiyyəti olan Mərkəzdə ümummilli liderin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, fotoşəkillər və eksponatlar nümayiş etdirilir. Mərkəzdə ümummilli liderin həyat və fəaliyyətini, xarici ölkələrdə və respublikamızın*

*regionlarında keçirdiyi görüşləri əks etdirən 12 fotoguşə yaradılmışdır. 300 kvadratmetr sahəsi olan birinci mərtəbədə ulu öndərin büstü qoyulmuşdur. Kompyuterlərlə təchiz olunan xarici dil dərnəyi, konfrans zalı və ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərir. Mərkəzin guşələrində müxtəlif xarici dillərdə ümummilli lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən nəşrlərə də geniş yer verilmişdir.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Siyəzən şəhərinin yeni giriş hissəsi, Bayraq meydanı və Gənclər Mərkəzinin eskiz layihəsini əks etdirən stendlərə baxdı. Dövlət başçısı gələcəkdə həyətlərin abadlaşdırılmasını və mövcud ticarət obyektlərinin fasadlarının üzlənməsini əks etdirən stendlərlə də tanış oldu.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

*Dövlətimizin başçısı Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.*

## SİYƏZƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Siyəzən*

*15 avqust 2011-ci il*

*Avqustun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyəzən rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İlham Əliyev:** Heydər Əliyev Mərkəzinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Gözəl Mərkəzdir, gözəl meydandır. Mərkəzdə həm ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər nümayiş etdirilir, həm də dərnəklər fəaliyyət göstərəcəkdir. Mərkəz rayon sakinlərinə xidmət edəcəkdir.

Siyəzən rayonunun inkişafı ilə bağlı mənə indi kiçik təqdimat verilmişdir. Mən bu planları bəyənirəm. Çox şadam ki, yeni rəhbərlik qısa müddət ərzində rayonun hərtərəfli inkişafı üçün konkret təkliflər hazırlamışdır. Güman edirəm ki, qısa müddət ərzində Siyəzən rayonunun və rayon mərkəzinin siması tamamilə dəyişdiriləcək, müasir, gözəl rayon mərkəzinə çevriləcəkdir. Əlbəttə, kəndlərdə də bütün quruculuq, abadlıq işləri aparılmalıdır.

Bildiyiniz kimi, Azərbaycanda son illər ərzində geniş quruculuq işləri aparılır. Bütün bölgələrdə canlanma, inkişaf vardır, konkret layihələr icra edilir. Mən istəyirəm ki, hər bir yerdə, hər bir rayonda işlər yüksək səviyyədə aparılsın. İnsanları narahat edən problemlər tezliklə aradan qaldırılsın və bu istiqamətdə konkret addımlar atılmışdır. Bunu Siyəzən rayonunun timsalında da görə bilərik, infrastruktur layihələri icra edilir, yollar salınır, magistral yol çəkilmişdir, Bakıya gediş-gəliş çox rahatdır. Kənd yollarının çəkilişi ilə bağlı əlavə konkret tədbirlər görülməlidir və görüləcəkdir. Elektrik enerjisi təchizatı məsələsi ilə bağlı heç bir problem yoxdur. Qazlaşdırma proqramı icra edilir. Siyəzəndə bütün dövrlərdə qaz təchizatı başqa rayonlara nisbətən daha yaxşı olmuşdur. Ancaq qarşıya vəzifə qoymuşuq ki, bütün kəndlərə qaz xətləri çəkilsin. İndi bu istiqamətdə işlər görülür. İçməli su, kanalizasiya layihələrinin icrası ilə bağlı işlər gedir və bu proqram da,

demək olar ki, bütün bölgələri əhatə edir. İllər boyu yığılıb qalmış problemlər Azərbaycanda birdəfəlik həll olunmalıdır. İndi hər bir yerdə içməli su, kanalizasiya layihələri icra edilir, ya da ki, hazırlıq işləri aparılır.

Sosial infrastrukturun yeniləşməsi ilə bağlı Siyəzən rayonunda müəyyən işlər görülmüşdür. Bir neçə məktəb tikilmişdir, təmir olunmuşdur. Növbəti illərdə ehtiyac olan məktəblərdə də təmir-bərpa işləri aparılmalıdır. Məndə olan məlumata görə, iş yerlərinin yaradılması ilə bağlı Siyəzən rayonunda o qədər də ciddi problem yoxdur. Burada ənənəvi neft sənayesində işləyənlər kifayət qədərdir. Vaxtilə burada ulu öndərin rəhbərliyi ilə Broyler fabriki yaradılmışdır. İndi o da iş yerlərinin yaradılması üçün çox vacib funksiyaları icra edir. Azərbaycanda əhalinin sayı artır və nə qədər yeni iş yerləri yaradılsa da, yenə də ehtiyac vardır. Ona görə, biznes mühitinin yaxşılaşdırılması, biznesmenləri təşviq etmək, kreditlərin verilməsi və başqa məsələlərin həlli üçün konkret proqramlar vardır.

Biz Siyəzən rayonunun turizm imkanlarından geniş şəkildə istifadə etməliyik. Bu rayonun özünəməxsus zəngin turizm potensialı vardır – böyük dəniz zolağı, gözəl hava, dağlar. İndi turizm üçün yararlı, əlverişli olan yerlərdə böyük komplekslər tikilir, otellər, istirahət zonaları, parklar yaradılır. Biz özəl sektoru bu işlərə daha çox cəlb etməliyik. İnfrastruktur olmadan turizmin inkişafı mümkün deyildir. Ona görə, hər bir rayonda ilk növbədə infrastruktur layihələri icra edilməli, yollar çəkilməli, necə deyərlər, müasir memarlıq təcrübəsi tətbiq olunmalıdır. İndi rayonun gələcək inkişafı ilə bağlı mənə göstərilən stendlərdə əksini tapan təkliflər hesab edirəm ki, təqdirəlayiqdir.

Bütün bu işləri biz – rayon ictimaiyyəti, icra nümayəndələri, dövlət rəhbərliyi birlikdə etməliyik. Biz ölkəmizi gücləndiririk, inkişaf etdiririk. Bu gün Azərbaycan iqtisadi və sosial inkişaf templərinə görə dünya miqyasında ən qabaqcıl yerlərdədir. İndi bəzi ölkələrdə iqtisadi-maliyyə böhranının ikinci dalğası başlanmışdır. Azərbaycanda biz bunun tam əksini görürük.

Bizim siyasətimizin təməlində vətəndaş durur. Görülən işlər bir məqsədi güdür ki, Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın. Bu il həyata keçirilən pensiya islahatı nəticəsində 900 minə qədər pensiyaçının pensiyası orta hesabla 40 faiz artır.

İnkişaf etmiş ölkələrdə sosial ödəmələr, sosial proqramlar kəsilir, azalır, ixtisar edilir, maaşlar kəsilir, dövlət qurumlarında işləyənlərin iş yerləri bağlanır. Biz görürük ki, Azərbaycanda iş yerləri açılır, maaşlar, pensiyalar artırılır, sosial proqramlar icra edilir. Bir dənə də olsun sosial proqramda geriləmə, yaxud da ki, ixtisar olmamışdır.

Biz də böhrandan əziyyət çəkmişik. 2008-ci, 2009-cu, hətta 2010-cu illərdə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizə də problemlər yaratmışdı. Ancaq bu vəziyyətdən çıxa bilmişik. Çünki qeyri-neft sektorunun inkişafına nail olmuşuq. Əgər iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, bu ilin altı ayında qeyri-neft sektoru 6 faiz artmışdır. Bu rəqəmlər statistika üçün göstəricidir. Ancaq bu rəqəmlərin arxasında gərgin iş, məqsədyönlü siyasət, strateji xəttimiz dayanır.

Azərbaycanda böyük rayonlar, o qədər də böyük olmayan rayonlar da vardır. Hətta əhalisi 100 min, 200 min sayda olan rayonlar vardır. Siyəzən rayonu əhali baxımından böyük rayon deyil. Buna baxmayaraq, Siyəzən rayonuna da əhalisi çox olan rayonlara göstərilən qədər diqqət göstərilir. Onu da qeyd etməliyəm ki, indi bölgədə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. O proqramın da təməli burada qoyulmuşdur, 2004-cü ildə bölgələrdə ilk xəstəxana Siyəzəndə tikilmişdir və yadımdadır, xəstəxananın açılışında iştirak etmişdim.

Mən sizi ürəkdən salamlayıram, uğurlar arzulayıram. Rayon rəhbərliyinə yeni başçı təyin edilmişdir. Ona göstərişlər verilib ki, fəal işləsin, insanlarla təmasda olsun, insanların problemləri ilə yaşasın. Siyəzən rayonu qısa müddətdə Azərbaycanın ən qabaqcıl rayonlarından birinə çevrilməlidir. Siz də bu işlərdə fəal iştirak etməlisiniz.

## SİYƏZƏN UŞAQ İNCƏSƏNƏT MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİ

*15 avqust 2011-ci il*

*Avqustun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyəzən Uşaq İncəsənət Məktəbinin yeni inşa olunmuş inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, son bir neçə ildə Siyəzəndə çoxlu sosial-təyinatlı infrastruktur obyektləri tikilib istifadəyə verilmişdir. Siyəzən Uşaq İncəsənət Məktəbinin yeni binası da bu sırada xüsusi yer tutur. 1990-cı ildə siyəzənli uşaqların istifadəsinə verilmiş məktəb incəsənətin müxtəlif növləri üzrə beynəlxalq müsabiqələrin bir çox qalib və mükafatçılarını yetişdirmişdir.*

*Məktəbin foyesindəki stendlərdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimləri ilə görüşlərini əks etdirən fotolar nümayiş olunur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ən müasir tələblər səviyyəsində tikilmiş məktəbin dəhlizlərində Azərbaycanın və xarici ölkələrin tanınmış musiqiçilərinin və bəstəkarlarının portretləri asılmışdır. Bundan başqa, 18 sinif otağı, festivalların, müsabiqələrin və konsertlərin keçirilməsi üçün zal və yeməkxana da vardır.*

*Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi. Bildirildi ki, 52 müəllimin işlədiyi məktəbdə Siyəzən şəhərindən və ətraf kəndlərindən 247 uşaq müxtəlif bölmələrdə təhsil alır. Son illərdə məktəbin yetirmələri Rusiya, Belarus, Çexiya və digər ölkələrdə keçirilən beynəlxalq musiqi festivalları və rəsm müsabiqələrinin laureatları olmuş və fəxri fərmanlara layiq görülmüşlər.*

*Dövlətimizin başçısı məktəbin müəllimlərinə və şagirdlərə uğurlar arzuladı.*

## ŞABRANDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*15 avqust 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev respublikamızın şimal bölgəsinə səfəri çərçivəsində avqustun 15-də Şabran rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şabran şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında aparılmış abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, abidənin yerləşdiyi meydanda geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmışdır.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Avqustun 15-də Azərbaycan prezidenti İlham Əliyev Şabran şəhərində inşa olunmuş Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Şabran rayonunun inkişafı daim ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində diqqət mərkəzində olmuşdur. Ulu öndərin diqqət və qayğısını Şabran rayonunun ictimaiyyəti hər zaman ehtiramla yad edir. Ulu öndərin xatirəsinin rayonda əbədiləşdirilməsi üçün tədbirlər görülür.*

*Şabran şəhərində inşa olunan Heydər Əliyev Mərkəzi də ulu öndərin zəngin həyat yolunun səhifələrini vərəqləməyə,*

*Azərbaycan tarixinin bütöv bir qərinəsinə nəzər salmağa imkan verir.*

*Bildirildi ki, ulu öndərin zəngin irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədilə yaradılan Mərkəzdə ümummilli liderin xatirəsi əbədiləşdirilmiş və büstü qoyulmuşdur.*

*Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzində foto və videostudiyanın, xarici dil mərkəzinin, kitabxananın fəaliyyəti ilə tanış oldu. Məlumat verildi ki, burada dövlətçilik ənənələrimizi, xalqımızın zəngin tarixi və ədəbiyyatını, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən çoxlu kitablar toplanıbdır.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Xatirə kitabına ürək sözlərini yazdı.*

## Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmirdən sonra açılışı mərasimi

*Avqustun 15-də Azərbaycan prezidenti İlham Əliyev Şabran Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Azərbaycanın siyasi və mədəni həyatında mühüm iz qoymuş, zəngin tarixə malik Şabran qədim yaşayış məskənlərimizdən biridir. Tədqiqatçılar yazılı tarixi mənbələrə və şəhərin müxtəlif hissələrində aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq burada hələ eramızdan əvvəl yaşayış məskəni olduğunu müəyyən etmişlər. XVIII əsrdən etibarən Şabran tamamilə tənəzzülə uğramış və bu günümüzə qədim şəhərin xarabalıqları gəlib çıxmışdır. Bu gün ərazidə yeni şəhər, yeni Şabran inkişaf edir və böyüyür. Amma qədim şəhərin xarabalıqları arasında tariximizin bir çox qatları, əfsanə və rəvayətlərlə dolu hadisələr qalmışdır. Onları öyrənib üzə çıxarmaq, həm də mədəni irsimizin bir sıra maraqlı səhifələrinə işıq salmaq baxımından*

*rayonda yaradılan Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyət daşıyır. Bu muzeydə qədim Şabranın tarixini əks etdirən və turistlər üçün də maraq doğuran çoxlu eksponat vardır. Muzeydə bu abidələr haqqında maraqlı məlumatlar təqdim edilir.*

*Ümummilli lider Heydər Əliyevin 2003-cü ildə imzaladığı sərəncama əsasən Dəvəçi rayonu ərazisindəki qədim Şabran şəhəri tarix və mədəniyyət abidəsi kimi, qoruq elan edilmişdir. Ötən il isə bu qədim şəhərin və rayonun tarixi adı özünə qaytarılmışdır.*

*Prezident İlham Əliyevin imzaladığı sərəncamla Dəvəçi rayonunun adı dəyişdirilərək Şabran adlandırılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin «2010–2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları» Proqramına əsasən, Şabran şəhəri 2011-ci ildə «Azərbaycanın əfsanələr paytaxtı» elan olunmuşdur.*

*Dövlətimizin başçısı muzeyin girişində quraşdırılan fotostendlərə baxdı. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin daxili və xarici siyasətini, o cümlədən ümummilli liderin və dövlətimizin başçısının Şabran rayonuna səfərlərini əks etdirən fotoguşələr də vardır. Bundan başqa, muzeydə rayonun tanınmış ziyalıları və 1941–1945-ci illər müharibəsinin şabranlı qəhrəmanları haqqında məlumatlar da yerləşdirilmişdir. Rayonun şəhidləri üçün isə ayrıca guşə yaradılmışdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, muzeydə Şabranın tarixini, mədəniyyətini əks etdirən 3 min 572 eksponat nümayiş olunur.*

*Prezident İlham Əliyev Şabranın ilkin orta əsrlərdə maketinə baxdı. Qeyd edildi ki, Şamaxı şəhər kimi tam formalaşana qədər Şabran Şirvanşahların paytaxtı olmuşdur. Burada qədim Şabranın ticarət əlaqələrini əks etdirən sxem də maraq doğurur. Tarixçilər qeyd edirlər ki, qədim Şabranda yüksək səviyyədə istehsal sahələri olmuş və şəhərsalma prinsiplərinə əməl edilmişdir. O dövrdə məhz Şabran şəhərində məhək daşı istehsal edilmişdir. Məhək daşı ilə qədim dövrlərdə qızılın əyarı müəyyən olunurdu.*

*Görülən işləri yüksək qiymətləndirən prezident İlham Əliyev Şabran Tarix-Diyarşünaslıq Muzeyinin daha da zənginləşdirilməsi barədə tapşırıq və tövsiyələrini verdi.*

## Şabran Mədəniyyət sarayı ilə tanışlıq

*Avqustun 15-də Azərbaycan prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulmuş və təmir edilmiş Şabran Mədəniyyət sarayı ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, əvvəllər kinoteatr kimi fəaliyyət göstərən binanın əsaslı təmirinə 2007-ci ildən başlanılmışdır. Sahəsi 580 kvadratmetr olan sarayda aparılan yenidənqurma zamanı işlərin yüksək səviyyədə görülməsinə maksimum diqqət yetirilmişdir.*

*Prezident İlham Əliyev sarayın foyesində yaradılmış foto-guşələrlə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin mədəniyyət və incəsənət sahəsinə göstərdikləri qayğını əks etdirən fotolardan ibarət guşə də yaradılmışdır. Bu fotolardan aydın görünür ki, ulu öndər Heydər Əliyev mədəniyyət və incəsənət xadimlərinə daim böyük diqqət və qayğı ilə yanaşmış, onların yaradıcı imkanlarının daha da artırılması üçün mühüm işlər görmüşdür. Bu siyasəti prezident İlham Əliyev də layiqincə davam etdirir.*

*Dövlətimizin başçısı əvvəlcə sarayın zalı ilə tanış oldu. Burada rayon əhəmiyyətli tədbirlərin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait vardır. Yenidən qurulan Şabran Mədəniyyət sarayı mədəniyyət və sənətsevərlərə layiqli hədiyyə olmaqla yanaşı, həm də şəhərin görkəminə xüsusi gözəllik verir.*

*Bildirildi ki, 320 nəfərlik zalda müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmış, müasir akustika sistemi quraşdırılmışdır.*

*Prezident İlham Əliyev Şabranın «Xınayaxdı» folklor kollektivinin ifasında ədəbi-bədii kompozisiyaya tamaşa etdi.*

*Səhnədə xalqımızın qədim adət-ənənələrini əks etdirən nümunələr maraqla qarşılandı. Bu, xalqımızın kökümüzə və*

*ənənələrimizə olan bağlılığını göstərir, həmçinin bu amilləri gələcək nəsillərə ötürmək baxımından da böyük rol oynayır.*

*Mədəniyyət sarayı ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## Mədəniyyət və istirahət parkı ilə tanışlıq

*Avqustun 15-də prezident İlham Əliyev Şabran Mədəniyyət sarayı ilə tanışlıqdan sonra yaxınlıqdakı Məmmədağa Nəzirov adına Mədəniyyət və istirahət parkına gəldi. Bildirildi ki, Məmmədağa Nəzirov İkinci dünya müharibəsində faşizm üzərində qələbəyə tarixi töhfələrini verən Vətənin qəhrəman övladlarından biridir. Böyük Vətən müharibəsində faşistlərə qarşı rəşadətlə döyüşən igid partizan Məmmədağa Nəzirovun xatirəsi bu gün də şabranlılar tərəfindən ehtiramla anılır.*

*Prezident İlham Əliyev «Şabran ilkin orta əsrlərdə» adlı fotostendlə də tanış oldu. Respublikamızın digər bölgələri kimi, Şabran da qədim tarixi abidələri ilə tanınır. Bölgənin bu cür abidələrlə zəngin olması bu gün müasir səviyyədə inkişaf edən Şabranın qədim tarixindən xəbər verir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Uşaq Yaradıcılıq Mərkəzinin açılışı mərasimi

*Avqustun 15-də Azərbaycan prezidenti İlham Əliyev Şabran rayonuna səfəri çərçivəsində Uşaq Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Şabran rayonunda təhsil, səhiyyə, infrastruktur və digər sahələrdə işlər yüksək səviyyədə aparılır. Rayon əhalisinin rifah halının yüksəldilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Uşaqların təlim-tərbiyəsi və onların sağlam böyüməsi də daim diqqət mərkəzindədir. Bu baxımdan Şabran Uşaq*

*Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi xüsusi əhəmiyyət daşıyır. Şəhərin Zərifə Əliyeva küçəsində yerləşən Mərkəzin tikintisinə 2010-cu ilin sonunda başlanılmışdır. Yüksək səviyyədə aparılan inşaat işləri bu il avqustun əvvəlində başa çatdırılmışdır.*

*Bildirildi ki, ikimərtəbəli Mərkəz Şabranda uşaqların təlim və tərbiyəsinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün lazımi avadanlıqlarla təchiz olunmuşdur. Mərkəzdə uşaqlar üçün «Nağıl otağı» yaradılmışdır.*

*Mərkəzin kitab fondu ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada 5 mindən artıq latın qrafikalı ədəbiyyat toplanmışdır. Bunlardan da 500-ə yaxını uşaq ədəbiyyatıdır. Birinci mərtəbədə abonent otağı da yaradılmışdır. Həm azyaşlı, həm də orta məktəb şagirdlərinin sifarişi burada qəbul olunacaqdır. Vurğulandı ki, hazırda Mərkəzin 2 minədək oxucusu vardır. Mərkəzin kitab sərgisində burada olan ədəbiyyatlardan nüsxələr yerləşdirilmişdir.*

*Dövlətimizin başçısına bildirildi ki, ikinci mərtəbədə informasiya-biblioqrafiya otağı yerləşir. Burada Mərkəzə daxil olan dövri nəşrlər, qəzet, jurnal, uşaqlar üçün tədris vasitələri, elektron vəsaitlər, öyrədici albomlar yerləşdirilmişdir. Yardımçı fond da bu mərtəbədə yerləşir ki, burada ehtiyat ədəbiyyat nüsxələri saxlanılır.*

*Qeyd olundu ki, Uşaq Yaradıcılıq Mərkəzinin oxu zalı və elektron kitabxanası da ən müasir standartlara cavab verir. Elektron kitabxanada avtomatlaşdırılmış idarəetmə sistemi quraşdırılmışdır. Sistemin yaddaşına 707 adda 35 minədək kitab, dövri mətbuat, qəzet və jurnallar daxil edilmişdir. Dövri mətbuatın elektron kartotekası yaradılmışdır. Burada oxuculara onlayn xidmət də göstərilir. Bildirildi ki, sistem vasitəsilə dövlətimizin başçısının imzaladığı sərəncam, fərman və qanunların tam mətnindən ibarət baza yaradılmışdır. Ayrıca linkdə klassik və müasir əsərlərin, həmçinin uşaq ədəbiyyatına dair bir çox əsərlərin tam mətni oxucuların istifadəsinə verilmişdir. Bir sözlə,*

*yeniyetmələrin rahat istifadəsi üçün burada hər cür şərait yaradılmışdır.*

*Mərkəzin ətrafındakı parklar yenidən qurulmuş, uşaqların və sakinlərin istirahəti üçün şərait daha da yaxşılaşdırılmışdır.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi.*

## Şabran Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Avqustun 15-də prezident İlham Əliyev Şabran Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, bu gün ölkəmizdə ən çox diqqət göstərilən və müasir səviyyədə yenilənən sahələrdən biri də səhiyyədir. Azərbaycan səhiyyəsi indi özünün ən yüksək inkişaf dövrünü yaşayır. Ölkəmizdə bütün xəstəxanalar və tibb ocaqları müasir səviyyədə təmir olunur, onların maddi-texniki bazası ən son texnologiyalara əsaslanan avadanlıqlarla zənginləşdirilir. Bu gün paytaxtla yanaşı, respublikanın ən ucqar rayonlarında da müasir tibb ocaqları, diaqnostika mərkəzləri yaradılır.*

*Prezident İlham Əliyev Şabran Rayon Mərkəzi Xəstəxanasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Üçmərtəbəli xəstəxananın tikintisinə 2008-ci ilin oktyabrında başlanılmışdır. Burada tikintinin ümumi sahəsi 5 min 117 kvadratmetrdir. Xəstəxananın inşaat işləri müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilmişdir.*

*Dövlət başçısına məlumat verildi ki, 80 çarpayılıq xəstəxananın birinci mərtəbəsində doğum şöbəsi və poliklinika fəaliyyət göstərir. Burada rentgen, ultrasəslə müayinə, stomatoloq, otolarinqoloq, terapevt kabinetləri vardır. Bütün kabinetlər ən müasir avadanlıqlarla təchiz edilmişdir. Qeyd olundu ki, Şabran Rayon Mərkəzi Xəstəxanasında 60-dək həkim və 140-dək orta tibb işçisi sakinlərin sağlamlığının keşiyində dayanacaqdır. Bu xəstəxananın istifadəyə verilməsi həm də ölkədə səhiyyə sahəsinin*

*ən müasir səviyyəyə çatdırılması istiqamətində prezident İlham Əliyevin atdığı addımların növbəti uğurlarından biridir.*

*Şabran Rayon Mərkəzi Xəstəxanası ilə tanışlıqdan sonra dövlətimizin başçısı ictimaiyyətin nümayəndələrini və tibb işçilərini salamladı, yeni xəstəxana binasının istifadəyə verilməsi münasibətilə onları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl xəstəxananın açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Həm xarici görünüşü, həm daxili dizaynı gözəldir. Müasir avadanlıqlar da quraşdırılıb. Əminəm ki, həkimlər üçün burada işləmək çox zövq verəcəkdir. Əlbəttə ki, burada çox yüksək tibbi xidmət göstərilməlidir, xəstələrə yaxşı baxılmalıdır.

Mən çox şadam ki, Şabran rayonunda belə gözəl, müasir xəstəxana tikilibdir. Siz, burada işləyən həkimlər yaxşı xatırlayırsınız ki, əvvəlki xəstəxananın vəziyyəti necə idi. İndi isə dünya səviyyəli tibb mərkəzi yaradılıb və burada yüksək səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün şərait vardır. Doğum, cərrahiyyə, pediatriya şöbələri, digər şöbələr, reanimasiya zalı çox gözəldir. Sevinirəm ki, Azərbaycanın bütün bölgələrində belə gözəl xəstəxanalar açılır. Bu, ölkəmizin həm gücünü göstərir, həm siyasətini əks etdirir.

İnsan üçün onun sağlamlığı çox vacibdir. Sağlamlığı şərtləndirən amilləri həkimlər yaxşı bilirlər. Bir neçə amil vardır və onların içində tibbi xidmət, əlbəttə ki, xüsusi yer tutur. Xəstəliyin vaxtında müəyyən edilməsi, düzgün diaqnozun qoyulması və düzgün müalicəsi, demək olar ki, insanların, xəstələrin sağlamlığını müəyyən edir. Sağlamlığn təmini üçün ekologiya da çox vacib rol oynayır. Şabran rayonunun ekoloji vəziyyəti çox yaxşıdır. İstəyirik ki, Azərbaycanın bütün bölgələrində ekoloji vəziyyət yüksək səviyyədə olsun. İçməli su insan sağlamlığı üçün çox vacib rol oynayır. Bu layihələr də hər bir rayonda, o cümlədən Şabranda artıq icra edilməyə başlanmışdır. İcra başçısı məlumat verdi ki, içməli su, kanalizasiya layihələri artıq icra edilir. Keyfiyyətli qida məsələsinə də diqqət göstərilir. İndi istehlak bazarına nəzarət

edilır. İnsanların sağlamlığı üçün mütləq idmanla məşğul olmaq lazımdır. Baxın, ölkəmizdə nə qədər idman qurğuları tikilibdir.

Bir daha deməк istəyirəm ki, insanın sağlamlığının təmin olunması üçün Azərbaycan dövləti nə lazımdırsa onu edəcək və edir. Şabranda tikilmiş belə möhtəşəm, gözəl, müasir xəstəxananın açılışı bunu əyani şəkildə göstərir. Şabran Azərbaycanın qədim məkanlarından biridir. Burada olan tarixi abidələr, Şabran şəhərinin qalıqları, Çıraqqala, digər abidələr Azərbaycanın nə qədər zəngin mədəniyyətə malik olduğunu əyani şəkildə göstərir. Azərbaycan dövləti öz keçmişinə, öz tarixi-mədəni irsinə çox böyük diqqətlə yanaşır, bu abidələr qorunur və bu bizim ümummilli sərvətimizdir. Bununla bərabər, rayonda turizmin inkişafı üçün əlavə tədbirlər görülməlidir. Mən bilirəm ki, vaxtilə Sovet İttifaqında məşhur olan Qalaaltı müalicəvi istirahət yeri də təmir edilməlidir, yenidən qurulmalıdır və bura turistlərin axını daha da güclü olacaqdır. Rayonda infrastruktur layihələri həyata keçirilir, qazlaşdırma işləri aparılır, yollar çəkilir, yeni müəssisələr işə düşür. Bütün bunlar ölkəmiz, xalqımız üçün lazımdır. Mən istəyirəm ki, hər bir yerdə, hər bir rayonda biz insanların normal yaşamasını təmin edək ki, bütün sahələrdə – sosial, iqtisadi sahələrdə daha da böyük tərəqqiyə nail olaq.

Xəstəxanaların tikintisi Azərbaycanda geniş vüsət almışdır. Demək olar ki, bu bölgədə əsas məsələləri biz artıq həll edə bilmişik. Siyəzəndə, Xızıda, indi Şabranda, Qubada xəstəxanalar tikilib istifadəyə verilib. İndi Qusarda böyük xəstəxana inşa edilir. Xaçmazda artıq hazırdır. Yəni Bakıdan şimal istiqamətində – bütün bu zonada səhiyyə məsələlərinin əsas hədəfləri təmin edilibdir. Əlbəttə ki, ondan sonra biz ambulatoriyalar, tibb məntəqələri, həkim məntəqələrinin tikilməsi məsələsinə də baxacağıq. Bütün başqa bölgələrdə də biz bu məsələni köklü şəkildə həll edə bilmişik. İndi hər bir bölgədə xəstəxanalar, tibb məntəqələri, diaqnostika mərkəzləri, Bakıda böyük sağlamlıq mərkəzi tikilir. Bir neçə ay bundan əvvəl onun təməl daşını qoyduq, vəsait də ayrıldı. Gələn ilin

büdcəsində də vəsait nəzərdə tutulub. Mənə məruzə edilmişdir, gözəl bir Mərkəz tikiləcəkdir.

Mən Şabran rayonuna dəfələrlə səfər etmişəm, vəziyyətlə tanış olmuşam. Deyə bilərəm ki, doğrudan da rayon çox sürətlə inkişaf edir. Qeyd etdiyiniz kimi, mən bu gün bir neçə gözəl tədbirlərin açılışında iştirak etmişəm. Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq Yaradıcılıq Mərkəzi, Mədəniyyət sarayı, indi də açılışını etdiyimiz bu müasir xəstəxana. Bundan sonra ən böyük infrastruktur layihələrinin içində mühüm yerə malik olan Taxtakörpü Su Anbarının tikintisinə də gedib baxacağam.

4 il əvvəl mən şəxsən bu böyük layihənin təməl daşını qoydum. Çox şadam ki, orada işlər uğurla gedir. Bu layihənin həm Şabran rayonu, həm bütün şimal zonası, həm də ölkəmiz üçün çox böyük, əvəzolunmaz əhəmiyyəti vardır. O layihənin icra edilməsi nəticəsində 100 mindən artıq, bəlkə 150 min hektar torpaq suvarılacaqdır. Suvarma işləri daha da yaxşılaşdırılacaqdır. Beləliklə, kənd təsərrüfatının inkişafına təkan veriləcəkdir. Kənd təsərrüfatı inkişaf etdikcə insanlar daha da çox pul qazanacaqlar, daha da çox məhsul istehsal edəcəklər. Taxtakörpü Su Anbarının tikintisi, kanalın çəkilişi, su elektrik stansiyasının inşası, yenə də demək istəyirəm ki, Azərbaycanda görülən işlərin içərisində ən böyük məsələlərdən biridir.

Ölkəmizdə indi böyük infrastruktur layihələri icra edilir. Yollar çəkilir. Sizin də qeyd etdiyiniz kimi, Bakı–Rusiya sərhədi yolu çəkilib. İndi Şabran şəhərinə yol necə də gözəl, rahat olub. Əvvəlki dövrdə bütün yük maşınları şəhərin içərisindən keçirdi. Dəfələrlə bu məsələni icra başçısı qaldırmışdı. Mən dəfələrlə bu yolu getmişəm. Şabranın, Siyəzənin içərisindən keçən yol insanlar üçün, xüsusən uşaqlar üçün təhlükəli idi. Dar bir yol idi, ikizolaqlı. Biz o dördzolaqlı magistral yolu kənardan çəkdik.

**N o v r u z   N o v r u z o v** (*Şabran Rayon İcra Hakimiyyətinin başçısı*): Bəli, ölkənin dördzolaqlı ən böyük körpüsü Şabrandadır. Bu, tarixi abidədir.

**İ l h a m   Ə l i y e v:** Ən böyük körpü Şabrandadır. Keçən dəfə onun tikintisi ilə tanış olduq, sonra da açılışında iştirak etdik. Yəni yol, körpülər, abadlıq və Taxtakörpü Su Anbarı doğrudan da bir əsərdir. Bunu indi çox adam bilmir. Çünki ora uzaq yerdir. Oraya gediş-gəliş də yoxdur. İş gedir. Əminəm ki, o layihənin açılışından sonra ora özlüyündə bir turizm məkanına çevriləcəkdir. Oranın iqlimi dəyişəcəkdir. Təsəvvür edin ki, indi orada – dağların arasında böyük bir göl yaradılacaqdır.

Bax, budur Azərbaycanın reallıqları. Bu xəstəxana, rayonda aparılan işlər göstərir ki, hər bir sahədə, istər infrastruktur sahəsində, istər sosial, iqtisadi sahələrdə inkişaf vardır. İnkişaf daha da güclü olmalıdır. Sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram.

## VƏLVƏLƏÇAY–TAXTAKÖRPÜ KANALI ILƏ TANIŞLIQ

*15 avqust 2011-ci il*

*Avqustun 15-də prezident İlham Əliyev Şabran rayonunda 10,7 kilometrlik birinci mərhələsi istismara verilən Vəlvələçay–Taxtakörpü kanalı ilə tanış olmuşdur.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə və tikinti işlərini həyata keçirən «Azərkörpü» Açıq Səhmdar Cəmiyyətinin rəhbəri Əfəndi İsmiyev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdilər.*

*Qeyd edildi ki, 14 il ərzində 4 mərhələdə həyata keçiriləcək Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində hazırda beynəlxalq səviyyəli Taxtakörpü Su Anbarı, Vəlvələçay–Taxtakörpü kanalı və Taxtakörpü–Ceyranbatan kanalının tikintisi davam edir. Ən son elmi-texniki yeniliklərə əsaslanan bu cür hidrotexniki qurğular yalnız inkişaf etmiş ölkələrdə inşa edilir. Kanal öz başlanğıcını Samur–Abşeron kanalının Vəlvələçayın sonrakı hissəsində tikilmiş baş sugötürücü qurğudan götürməklə Şabran çayından ikixətli dükerlə keçərək sona çatır.*

*Dövlətimizin başçısına kanalın Dövlət Neft Fondunun vəsaiti hesabına tikilən 20,75 kilometrlik ikinci hissəsi barədə də məlumat verildi. Bu obyektdə tikinti işləri 2012-ci ildə yekunlaşdırılmalıdır. Həmin layihənin həyata keçirilməsi nəticəsində ümumilikdə 19 min hektardan çox sahədə əkin sahəsinin suvarma suyu ilə təchizatı yaxşılaşacaq, Şabran rayonunda 8866 hektar yeni suvarılan sahələr istifadəyə veriləcəkdir.*

*Prezident İlham Əliyev melioratorları və inşaatçıları Vəlvələçay–Taxtakörpü kanalının birinci mərhələsinin istifadəyə verilməsi münasibətilə təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Yaxşı iş görmüsünüz. Sizi təbrik edirəm. Çox nəhəng bir layihədir. Mən çox şadam ki, bu böyük layihəni Azərbaycan şirkəti icra edir. Əvvəlki dövrdə biz daha çox xarici şirkətlərə müraciət edirdik. Amma indi özümüzdə yaxşı şirkətlər yaradılıb. Müasir səviyyədə istənilən layihəni icra edə bilərlər. Taxtakörpü Su Anbarı və Samur–Abşeron kanalı layihəsi ölkəmizdə, demək olar ki, həm əhəmiyyətinə, həm də buraya qoyulan maliyyə resurslarına görə ən böyük infrastruktur layihələrindən biridir, bəlkə də birincisidir. Çox şadam ki, bu layihə icra edilir. Biz hələ gedib anbara da baxacağıq. Oranın da təməli 4 il əvvəl qoyulubdur. Budur Azərbaycanın reallıqları. Su inkişaf gətirəcək, həyat verəcəkdir. Fermerlər ondan faydalanacaqlar. Təkcə bu rayonda 5 min hektar, Qubada da min hektar əlavə torpaqlar suvarılacaqdır. Bütövlükdə isə 150 min hektar torpaqlara su verilməsi daha da yaxşılaşacaqdır. Hazırda suvarılmayan 9 min hektar yeni torpaga su, həyat verilir. Ulu öndərin Azərbaycanın inkişafı ilə bağlı olan bütün ideyaları, arzuları yüksək səviyyədə reallaşır.

Sizə minnətdaram ki, bu işləri yaxşı səviyyədə görürsünüz. Belə işlər çox olacaqdır. Azərbaycanda görüləsi işlər çoxdur. Amma bundan sonra bu böyüklükdə kanalın tikilməsinə ehtiyac olmayacaqdır. Ancaq ölkəmiz inkişaf edir, layihələr çox olacaqdır. Əsas odur ki, bunu etmək üçün həm siyasi iradə, həm maliyyə imkanlarımız və artıq peşəkar icraçılar vardır. Sizi təbrik edirəm. Sizə uğurlar arzulayıram.

## Taxtakörpü Su Anbarının su-elektrik stansiyası ilə birlikdə inşa edildiyi ərazi ilə tanışlıq

*Avqustun 15-də Vəlvələçay–Taxtakörpü kanalının istismara verilən birinci mərhələsi ilə tanışlıqdan sonra prezident İlham*

*Əliyev Taxtakörpü Su Anbarının su-elektrik stansiyası ilə birlikdə inşa edildiyi ərazidə olmuşdur.*

*Bildirildi ki, dövlətimizin başçısının 2007-ci ildə təməlqoyma mərasimində iştirak etdiyi bu hidrotexniki qurğu Azərbaycanda reallaşdırılan layihələrin müasirliyinin və mükəmməlliyinin təsdiqinə sübutdur. Bəndin uzunluğu 1180, hündürlüyü 142,5 metrdir. Sahəsi 8,7 km*$^2$ *çatan gölün ümumi su tutumu 268,4 milyon kubmetr, faydalı həcmi isə 218,9 milyon kubmetrdir.*

*Qeyd olundu ki, ümumilikdə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrinin içməli suya olan tələbatını yaxşılaşdırmaqla, saniyədə 18 m*$^3$ *suyun verilməsinə imkan yaradacaq, eləcə də ölkəmizin şimal bölgəsində ekoloji tarazlığın yaranmasında mühüm rol oynayacaqdır.*

*Bəndin tunel hissəsi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, bənddə qapısız sutullayıcı və suqəbuledici qurğuları, enerji tuneli, su-elektrik stansiyasının tikintisi və burada ümumi gücü 25 meqavat təşkil edəcək 3 turbinin quraşdırılması nəzərdə tutulmuşdur. Tuneldə giriş və çıxış başlıqlarının tikintisi, enerji tunelində qazma işləri başa çatdırılmış, betonlama, qəza sutullayıcısında və su-elektrik stansiyasının binasında isə inşaat işləri davam edir.*

*Sonra dövlətimizin başçısı Taxtakörpü–Ceyranbatan kanalının tikintisində işlərin gedişi ilə tanış oldu. Məlumat verildi ki, bu kanalın tikintisində məqsəd mövcud nasos stansiyalarını ləğv etməklə, saniyədə 40 kubmetr suyu öz axını ilə Ceyranbatan Su Anbarına çatdırmaqdır. Beton üzlüklü hidrotexniki qurğunun ümumi uzunluğu 110 kilometr 330 metr olacaqdır. Kanalın dibdən eni 2 metr, dərinliyi isə 4 metrdir. Bildirildi ki, ötən müddətdə 87 kilometrlik açıq kanalın 37 kilometrlik hissəsində beton üzlük qoyulmuş, ümumi uzunluğu 9,2 kilometrə çatan 10 dükerdən 9-nun tikintisi başa çatdırılmış, bir akvedukun inşası tamamlanmışdır və qazma işləri başa çatdırılan tuneldə betonlama aparılır. İndiyədək kanalın 12,1*

*kilometrlik qapalı hissəsinin 9,6 kilometri tikilmişdir. Hazırda kanalın üzərindəki digər hidrotexniki qurğularda tikinti işləri davam edir. Bu obyektin inşasının da 2013-cü ilin birinci yarısında başa çatdırılması nəzərdə tutulmuşdur.*

*«Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində həyata keçirilmiş kompleks işlərlə tanış olan prezident İlham Əliyev tapşırıqlarını verdi, melioratorlara və inşaatçılara uğurlar arzuladı.*

## SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ XANIM MARİYA LUİZA BERTİ VƏ ZATİ-ALİLƏRİ CƏNAB FİLİPPO TAMANİNİYƏ

Zati-aliləri!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə San-Marino arasında təşəkkül tapmaqda olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, San-Marinonun dost xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2011-ci il*

## BAKIDAKI 189 VƏ 150 SAYLI MƏKTƏBLƏRİN BİNALARINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*16 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Bakının Səbail rayonundakı 189 və Yasamal rayonundakı 150 saylı orta ümumtəhsil məktəblərinin binalarında aparılmış əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Paytaxtın orta ümumtəhsil məktəblərinin binalarında əsaslı təmir və yenidənqurma işləri «2011–2013-cü illərdə Bakı şəhərinin və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda bu il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq həyata keçirilir. Proqrama əsasən Bakı şəhərində 111 təhsil obyektinin əsaslı təmirinə başlanılıb. Əsaslı təmir və yenidənqurma işləri ilə yanaşı, Dövlət Proqramına əsasən ehtiyacı olan mövcud məktəblər üçün əlavə sinif otaqlarının, yeni tədris korpuslarının, idman və akt zallarının, yeməkxana binalarının inşası və lazımi avadanlıqlarla təchiz edilməsi də nəzərdə tutulur.*

*Prezident İlham Əliyev əvvəlcə Səbail rayonundakı Eldar Məmmədov adına 189 saylı orta ümumtəhsil məktəbində aparılmış yenidənqurma işləri ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1200 şagird yeri olan 189 saylı məktəbin binası 1934-cü ildə inşa edilib, dörd mərtəbədən ibarətdir. Məktəbin binası 1941–1945-ci illərdə 15/46 nömrəli təxliyyə hospitalı kimi fəaliyyət göstərib. Məktəbin bütün sinif otaqları yüksək standartlara uyğun təmir edilir, qapı və pəncərələr yeniləri ilə əvəz olunur, döşəmə və*

*tavan ən müasir səviyyədə yenidən qurulur. Əsaslı təmir işlərindən sonra binanın yeni dərs ilində istifadəyə veriləcəyi nəzərdə tutulur.*

*Sonra prezident İlham Əliyev paytaxtın Yasamal rayonundakı Faiq Rzayev adına 150 saylı orta məktəbə gəldi. Burada da görülmüş işlər barədə prezidentə məlumat verildi. Bildirildi ki, 150 saylı orta məktəbin binası hər biri ikimərtəbəli iki korpusdan ibarətdir. Korpuslardan biri 1897-ci ildə, digəri isə 1937-ci ildə inşa edilib. Məktəbdə 650 şagird təhsil alır. Korpuslardan birində 8 sinif otağı tamamilə yararsız vəziyyətə düşdüyündən məktəbdə dərslər iki növbədə tədris olunurdu. Əsaslı bərpa və yenidənqurma işlərinin ən yüksək standartlara uyğun şəkildə həyata keçirildiyi qeyd olundu. Bildirildi ki, yararsız vəziyyətdə olan 8 sinif otağı istifadəyə verildikdən sonra dərslər yenidən bir növbədə tədris olunacaqdır. Məktəbin korpuslarını birləşdirən keçid tamamilə yararsız vəziyyətdə olduğundan sökülərək yenidən inşa edilir.*

*Həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işləri ilə yaxından tanış olan Azərbaycan prezidenti müvafiq tapşırıqlarını verdi.*

## ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI XƏZƏR RAYONUNUN ŞAĞAN QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*17 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə kənd və qəsəbələrdə abadlıq və quruculuq işləri ilə bağlı verdiyi tapşırıqların icrası ilə tanış olmaq üçün ayrı-ayrı yaşayış sahələrində oldu. Avqustun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər rayonunun Şağan qəsəbəsində görülmüş işlərlə yaxından tanış oldu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Azərbaycan prezidentinə qəsəbənin planı əsasında məlumat verdi.*

*Abadlıq və quruculuq işləri ilə yaxından tanış olan prezident İlham Əliyev qəsəbə sakinləri ilə görüşdü.*

*Sakinlər dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

**İlham Əliyev:** Xoş gördük, çox şadam ki, Şağan qəsəbəsində işlər yaxşı gedir. Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı burada da özünü göstərməkdədir. Bu yollar qısa müddətdə çəkilib. Əminəm ki, proqramda nəzərdə tutulan bütün məsələlər yaxın zamanlarda öz həllini tapacaq. Şağan qəsəbəsi daha da gözəlləşəcək, abadlaşacaqdır. Burada əvvəlki dövrdə də işlər görülmüşdür. İndi təbii qazın verilməsi təmin edilmişdir. Mənə verilən məlumata görə, qaz təchizatı ilə problem yoxdur. Elektrik enerjisi məsələləri daha əvvəl həll olunmuşdur. İçməli su layihəsi icra edilir. İndi kanalizasiya xətlərinin çəkilişi nəzərdə

tutulur, bir də yolların çəkilişi. Bu qəsəbənin bütün əsas problemləri qısa müddət ərzində həll olunacaqdır. Mənə indi məlumat verdilər ki, bu məktəbdə gərək əlavə tədbirlər görülsün. Bəlkə yeni korpus da tikilməlidir. Dedilər ki, qəsəbə sakinlərinin də fikri ondan ibarətdir. Mən göstəriş verdim. Biz bu işlərə də baxacağıq. Qalan bütün məsələlər burada öz həllini tapmalıdır.

Əvvəlki dövrdə burada gözəl Olimpiya İdman Kompleksi tikilmişdir. Bu da çox əlamətdar hadisə idi. Adətən, olimpiya mərkəzləri böyük şəhərlərdə, rayon mərkəzlərində yaradılır. Qəsəbədə yaradılması təcrübəsi yəqin ki, ancaq Azərbaycanda vardır. Mənim yadımdadır, kompleksin açılışında birlikdə iştirak etdik. Həm Bakıdan idmançılar gəlir, həm də yerli uşaqlar məşğul olurlar.

İndi mən soruşmaq istəyirəm ki, əlavə hansı işlər görülməlidir? Çünki proqramda məsələlər nəzərdə tutulub. Məktəbin təmiri nəzərdə tutulub. Düzdür, əlavə korpusun tikintisi nəzərdə tutulmayıb, ancaq onu da əlavə edəcəyik. Burada yəqin ki, tibb məntəqəsi də vardır, amma bilmirəm vəziyyəti necədir. Əgər təmirə ehtiyac varsa, deyərsiniz, onu da edərik. Bəlkə bundan da əlavə nəsə etməliyik. Xahiş edirəm mənə bu barədə fikirlərinizi söyləyin.

**S a k i n :** Hörmətli cənab Prezidentimiz! Siz müqəddəs Ramazan ayının çox mübarək günlərində yenidən bizim kəndimizə ayaq basdınız. Son bir il səkkiz ayın içində ikinci dəfədir ki, Bakının bu qədim Şağan qəsəbəsinə gəlirsiniz. 2009-cu il dekabrın 26-da Sizin şəxsən iştirakınızla Şağan Olimpiya İdman Kompleksi açıldı. Bu kompleks açılandan sonra burada keçirilən beynəlxalq yarışlar nəticəsində Şağanın adı təkcə Azərbaycanda, MDB məkanında deyil, artıq dünya miqyasında hallanmaqdadır.

Mən bütün kəndimizin sakinləri adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Cəmi bir ayın içərisində 35 min kvadratmetrdən yuxarı asfalt salınıb. Bunun dünyada analoqu yoxdur. Beş küçə bir ayın içində tamamilə asfaltlanıb.

**İ l h a m  Ə l i y e v**: İşlər hələ davam edir.

**S a k i n:** Cənab Prezident! Mən Sizdən bir xahiş etmək istəyirəm. Kəndimizin Mədəniyyət evi çox kiçikdir. Orada əhaliyə keyfiyyətli mədəni xidmət göstərmək imkanı yoxdur. Mən çox xahiş edirəm, əgər imkan varsa, bizdə yeni bir Mədəniyyət evinin tikilməsinə göstəriş verəsiniz. Biz yer də ayırmışıq. Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bizim qəsəbəyə çox böyük diqqəti vardır. Bu diqqət və qayğıya görə Sizə də, Mehriban xanıma da «çox sağ olun» – deyirik.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun! Həqiqətən, bu işləri biz qısa müddət ərzində görə bildik və o müşavirəni siz xatırlatdınız. Müşavirənin doğrudan da çox böyük əhəmiyyəti olub. Bizim bütün təşəbbüslərimiz, qəbul edilmiş qərarlar, proqramlar, müşavirələr konkret xarakter daşıyır və orada müzakirə edilən məsələlər, verilən tapşırıqlar tezliklə icra edilməyə başlanmışdır. Mart ayında artıq 2011-ci ilin büdcəsi formalaşmışdı. Büdcəyə əlavə etmək üçün biz gərək yenidən təşəbbüs göstərməli və Milli Məclisə müraciət etməli idik, onu da etdik. Büdcəyə xüsusilə Bakı və ətraf qəsəbələrin proqramını sürətlə həll etmək üçün əlavələr edildi. Mən istəyirdim ki, biz vaxt itirməyək, 2011-ci ildə bu işləri görək. Əslində bir neçə aydan sonra nəinki burada, demək olar, Bakı ətrafında yerləşən bütün qəsəbələrdə sürətli iş gedib. Qəsəbələrdə tez-tez oluram, vəziyyətlə yaxından tanış oluram. Görürəm, nəzarət edirəm, sakinlərdən soruşuram ki, əlavə nə etməliyik ki, bu problemləri birdəfəlik həll edək.

Proqram 2013-cü ilə qədər hesablanıb. Əminəm ki, 2013-cü ilin sonuna qədər, bəlkə ondan da əvvəl bütün məsələlər həll olunacaqdır. Şağan qəsəbəsinin timsalında görürük ki, bu işləri biz bir neçə ay ərzində icra edə bilmişik.

Mədəniyyət sarayı ilə bağlı göstəriş verəcəyəm. Məktəblə bağlı artıq göstəriş vermişəm. İndi gedib baxmaq istəyirəm məktəbin vəziyyətinə. Qalan işlər də burada icra ediləcəkdir. Əslində nəinki burada, heç bir qəsəbədə heç vaxt kanalizasiya

xətləri olmamışdır. Bakının özündə də kanalizasiya problemi həmişə böyük çətinlik yaradırdı. Bu məsələ də öz həllini tapmaqdadır.

Sizi bir daha salamlayıram, uğurlar arzulayıram. Əminəm ki, siz də bu işlərdə, həmişə olduğu kimi, fəal iştirak edəcəksiniz.

**S a k i n :** Hörmətli Prezidentimiz, respublikada, Bakıda, xüsusən qəsəbəmizdə gördüyünüz işlərə görə Sizə minnətdarıq. Kənd sakinlərinin, uşaqların, müəllimlərin adından Sizə minnətdarıq ki, məktəbimiz genişlənəcəkdir. 1961-ci ildə tikilən məktəb 250 şagird ilə fəaliyyətə başlayıb. Hazırda 800 şagird iki növbədə təhsil alır. Çox çətinlik çəkirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Bu mənim borcumdur və mən də çalışıram ki, öz borcumu xalqa xidmət etməklə yerinə yetirim.

**S a k i n:** Ramazan ayının 17-ci günüdür. Allah bizə sultan ayı bəxş edib. Bu ayın fəzilətlərindən Allah Sizə nəsib etsin. Nə arzunuz, diləyiniz varsa – arzu, dilək ayıdır, Sizə nəsib olsun.

**İ l h a m Ə l i y e v**: Mənim bir arzum var ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Ölkəmiz daha da inkişaf etsin, güclənsin, bölgədəki mövqelərimiz daha da möhkəmlənsin və bizim bütün maraqlarımız təmin olunsun. Bunu etmək üçün biz güclü olmalıyıq. Bu gücü biz yaradırıq və indi maliyyə imkanlarımız da yaxşılaşır.

**S a k i n:** Çox sağ olun, 61 manat artıb maaşım.

**İ l h a m Ə l i y e v:** 61 manat artıb? Nə qədərdir indi?

**S a k i n:** 94 manat alırdım, indi 155 manat alıram.

**İ l h a m Ə l i y e v:** Özü də, bax, 2011-ci ildə. O ildə ki, dünyada, Avropada böhran yaşanır və görürsünüz ki, hansı problemlər yaranır. Bax, bizim siyasətimiz budur. İnsanlar daha da yaxşı yaşamalıdırlar. Şərait daha da yaxşı olmalıdır. Bütün infrastruktur layihələri icra edilməlidir. Təhsil, səhiyyə, infrastruktur inkişaf edir. Bax, budur Azərbaycanın reallıqları.

Sizi bu mübarək Ramazan ayında bir daha ürəkdən salamlayıram, cansağlığı, uğurlar arzulayıram. Mən hələ Şağan

qəsəbəsinə gələcəyəm. İki dəfə olmuşam, yenə də gələcəyəm. Çünki burada hələ tədbirlər olacaqdır.

* * *

*Qəsəbə sakinləri ilə görüşdən sonra dövlətimizin başçısı 124 saylı orta məktəbə gedərək, buradakı vəziyyətlə yerindəcə tanış oldu. Bildirildi ki, 250 şagird yerlik bu məktəbdə 800-ə yaxın şagird təhsil alır. Məktəbdə dərslər iki növbədə keçirilir.*

*Buradakı şəraitlə yaxından tanış olan prezident İlham Əliyev məktəbin əsaslı şəkildə təmir olunmasını tapşırdı. Dövlət başçısı qəsəbədəki şagird sıxlığını nəzərə alaraq, əlavə korpusun əvəzinə gələn il üçün Şağan qəsəbəsində 1000 şagird yeri olan yeni məktəb binasının inşası ilə bağlı göstərişlərini verdi.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq və bərabərlik yoluna dəvət edir. Müsəlmanlar bu ayda Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız mübarək Ramazan ayını hər il olduğu kimi, bu il də böyük fərəh hissi və könül xoşluğu ilə yola salır. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız məmnuniyyətlə bayram sevincini bölüşür, dövlətimizin rifahı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin ölməz ruhuna dualar oxunur. İnanıram ki, bu müqəddəs bayram günlərində etdiyiniz dua və diləklər, saf niyyətlər Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

İnsanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran Ramazan bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir. Bu əziz gündə bir daha sizə, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2011-ci il*

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA

Hörmətli cənab Baş katib!

Nigeriyanın Abuca şəhərində BMT-nin qərargahı qarşısında törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi son dərəcə sarsıtdı.

Bu amansız hadisə terrorizmə qarşı hər zaman və hamılıqla mübarizə aparılmasının zəruriliyini bir daha təsdiq edir. Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2011-ci il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA**

Hörmətli cənab Prezident!

Monterrey şəhərində baş vermiş faciə nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2011-ci il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QUDLAK CONATANA**

Hörmətli cənab Prezident!

Abuca şəhərində terror aktı törədilməsi nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu dəhşətli hadisədən hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2011-ci il*

## BAKI–ƏLƏT AVTOMOBİL YOLUNUN BİR HİSSƏSİNDƏ HƏYATA KEÇİRİLMİŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə yol-nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun olaraq yenidən qurulması ilə bağlı sərəncam və göstərişlərinə əsasən paytaxtda və bölgələrdə yol infrastrukturunun təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni yol qovşaqları və piyada keçidləri inşa edilir.*

*Dövlətimizin başçısı avqustun 28-də Bakı–Ələt avtomobil yolunun Dövlət Bayrağı Meydanı ətrafında olan 2–4-cü kilometrliyində həyata keçirilmiş inşaat işlərinin gedişi ilə tanış olmuşdur.*

*Tikintinin layihəsi ilə bağlı bildirildi ki, layihə üzrə yolun bu hissəsinin ümumi uzunluğu 2,8 kilometr, eni isə 41,5 metr olacaqdır. Səkkiz hərəkət zolağından ibarət olacaq yeni yol cənub və cənub-qərb istiqamətində nəqliyyatın paytaxta rahat giriş və çıxışını tam təmin edəcəkdir. Bakı–Ələt avtomobil yolunun 2–4-cü kilometrlik hissəsində aparılmış inşaat işləri ilə paralel olaraq Dənizkənarı Milli Parkın genişləndirilərək Dövlət Bayrağı Meydanı ilə birləşdirilməsi layihəsi də uğurla icra edilir. 2011-ci il martın 9-da Bakı şəhərinin və paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair keçirilmiş müşavirədə dövlət başçısı Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər genişləndirilməsi, abadlıq və quruculuq işlərinin aparılması ilə bağlı tapşırıqlar vermişdi.*

*Dövlətimizin başçısı burada aparılan inşaat işləri ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## ATƏT-in BAKI OFİSİNİN YENİ RƏHBƏRİ KORAY TARQAY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 avqust 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də ATƏT-in Bakı ofisinin yeni təyin olunmuş rəhbəri Koray Tarqayı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Koray Tarqayı ATƏT-in Bakı ofisinin rəhbəri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev ATƏT-in Bakı ofisinin keçmiş rəhbəri Bilge Cankorelin Azərbaycandakı fəaliyyəti dövründə ATƏT-in Bakı ofisi ilə ölkəmizin müvafiq qurumları arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi.*

*ATƏT-in Bakı ofisinin yeni rəhbəri Koray Tarqay təmsil etdiyi təşkilat ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Əziz dost!

Estoniya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, dostluq əlaqələrimizin genişləndirilməsi, qarşılıqlı maraq kəsb edən əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Estoniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə və ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2011-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TONİ TAN KEN YAMA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Sinqapur münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sinqapur xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2011-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YOŞİHİKO NODAYA**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Yaponiya münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimizi birləşdirən çoxşaxəli dostluq əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2011-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Şahzadə həzrətləri!

Əziz qardaşım!

Həyat yoldaşınız şahzadə Munira bint Əbdüləziz bin Musaidin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2011-ci il*

## SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Serbiya Respublikasının Xarici İşlər naziri Vuk Yeremiçi qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Serbiya Respublikasına səfərini xatırladan prezident İlham Əliyev bu səfərin əlaqələrimizin inkişafında əhəmiyyətli mərhələ olduğunu dedi. Qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

*Xarici İşlər naziri Vuk Yeremiç Serbiya prezidenti Boris Tadiçin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan prezidenti İlham Əliyevin Serbiyaya səfərini tarixi səfər adlandıraraq bunun ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafında yeni səhifə açdığını qeyd etdi. Ölkələrimiz arasında güclü siyasi əlaqələrin mövcud olduğunu vurğulayan nazir Serbiya prezidentinin tapşırığı ilə ölkəmizə səfər etdiyini, əlaqələrimizin digər sahələrdə də inkişaf etdirilməsi ilə bağlı Azərbaycanın müvafiq strukturları ilə müzakirələr aparacağını dedi.*

*Dövlətimizin başçısı prezident Boris Tadiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

# BAKIDAKI 160 SAYLI MƏKTƏBİN BİNASINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*1 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Bakının Səbail rayonundakı 160 saylı məktəbin binasında aparılmış əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış oldu.*

*«2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı bu il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərinin binalarında əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Prezident İlham Əliyevə 160 saylı məktəbin binasında görülmüş işlərlə bağlı məlumat verildi. Bildirildi ki, binanın iki mərtəbəsi 1908-ci ildə istifadəyə verilib, şagird sıxlığı nəzərə alınaraq üçüncü və dördüncü mərtəbəsi 1960-cı ildə inşa olunub.*

*Məktəb binasında əsaslı təmir və yenidənqurma işləri yüksək keyfiyyətlə həyata keçirilir. 1000 şagird yeri olan məktəbdə 2300 şagird təhsil alır. Dərslər iki növbədə tədris olunur. Dördmərtəbəli binanın ümumi sahəsi 4927 kvadratmetrdir. Məktəb binasının fasadı tam yenidən qurularaq bərpa edilib.*

*Əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olan dövlət başçısı müvafiq tapşırıqlarını verdi.*

## NƏRİMANOV RAYONUNDAKI 259 SAYLI UŞAQ BAĞÇASINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 sentyabr 2011-ci il*

*Sentyabrın 1-də Nərimanov rayonundakı 259 saylı uşaq bağçası əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı təmir və yenidənqurma işlərindən sonra müəssisədə yaradılmış şəraitlə tanış oldu.*

*Görülmüş işlərlə bağlı prezidentə məlumat verildi. Bildirildi ki, 1949-cu ildə inşa edilən və 1950-ci ildə istifadəyə verilən uşaq bağçası 80 yerlikdir. Binanın ümumi sahəsi 748, həyətyanı sahəsi isə 3200 kvadratmetrdir. Bağçanın həyətində uşaqların əylənməsi üçün ən müasir attraksionlar quraşdırılıb. Uşaq bağçası üçün mətbəx və camaşırxana yenidən inşa edilib və müasir avadanlıqla təchiz olunub.*

*Əsaslı təmir və bərpa işlərindən sonra uşaq tərbiyə müəssisəsində yaradılmış şəraitlə yaxından tanış olan prezident İlham Əliyev uşaq bağçasında tələbatın çox olduğunu nəzərə alaraq burada əlavə korpusun inşa edilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə yerindəcə tapşırıqlar verdi.*

*259 saylı uşaq bağçasında həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıqdan sonra prezident İlham Əliyev Aşıq Molla Cümə küçəsində Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı şəkildə yenidən qurulmuş parkda yaradılan şəraitlə də tanış oldu. Görülən işlərlə bağlı prezidentə məlumat verildi. Bildirildi ki, parkın ərazisində yeni yaşıllıq zolaqları salınıb, bəzək və gül kolları əkilib, müasir fəvvarələr quraşdırılıb. Parkda işıqlandırma sisteminin ən müasir tələblərə uyğun şəkildə yenidən qurulduğu*

*qeyd olundu. Burada sakinlərin istirahəti üçün lazım olan bütün şəraitin yaradıldığı bildirildi.*

## BUZOVNA QƏSƏBƏSİNDƏKİ 33 VƏ 125 SAYLI ORTA MƏKTƏBLƏRİN, 244 SAYLI UŞAQ BAĞÇASININ BİNALARINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*2 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsindəki 33 və 125 saylı orta məktəblərin, 244 saylı uşaq bağçasının binalarında aparılmış əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*«2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı bu il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəbləri binalarında əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Azərbaycan prezidenti İlham Əliyev Xəzər rayonunun Buzovna qəsəbəsinə gəldi. Görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verildi. Bildirildi ki, 33 saylı məktəb 2002-ci ildə inşa edilib. 168 şagird yerlik məktəbdə 267 şagird təhsil alır.*

*Sonra prezident İlham Əliyev Buzovna qəsəbəsindəki 125 saylı orta məktəbə gəldi. 340 şagird yerlik bu məktəbdə 555 şagirdin təhsil aldığı, dərslərin iki növbədə tədris olunduğu bildirildi.*

*Daha sonra prezident İlham Əliyev Buzovnadakı 244 saylı uşaq bağçasında həyata keçirilən əsaslı yenidənqurma işləri ilə*

*tanış oldu. Bildirildi ki, uşaq bağçasının binası qəza vəziyyətində olduğundan sökülərək yenidən inşa olunub.*

*Görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tövsiyələrini verdi.*

## İSVEÇRƏ KONFEDERASİYASININ VİTSE-PREZİDENTİ, MALİYYƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ XANIM EVELİN VİDMER-ŞLUMPF İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də İsveçrə Konfederasiyasının vitse-prezidenti, Maliyyə federal departamentinin rəhbəri xanım Evelin Vidmer-Şlumpfı qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Özünün İsveçrəyə, İsveçrənin dövlət başçılarının isə Azərbaycana səfərlərini məmnunluqla xatırladan prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərləri ölkələrimiz arasında siyasi əlaqələrin göstəricisi kimi dəyərləndirdi. İsveçrə Konfederasiyasının vitse-prezidentinin ölkəmizə səfərinin önəmini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin daha da genişləndirilməsi baxımından bu səfərin uğurlu olacağına əminliyini ifadə etdi.*

*İsveçrə Konfederasiyasının vitse-prezidenti, Maliyyə federal departamentinin rəhbəri xanım Evelin Vidmer-Şlumpf prezident İlham Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının 20 illiyi münasibətilə təbrik etdi. O, ölkələrimiz arasında diplomatik münasibətlərin 20 il əvvəl yaradılmasının önəmini vurğuladı. Xanım Evelin Vidmer-Şlumpf prezident İlham Əliyevin İsveçrəyə rəsmi səfərini, Davos İqtisadi Forumunda iştirakını və orada keçirdiyi məhsuldar görüşləri məmnunluqla xatırlatdı. O,*

*əlaqələrimizin inkişafı baxımından yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## AŞPA-nın KOMİTƏ SƏDRİ KRİSTOS PURQURİDESİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də AŞPA-nın Hüquq məsələləri və insan hüquqları Komitəsinin sədri Kristos Purquridesin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə AŞPA arasında hüquq məsələləri və insan hüquqları sahəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Filipp Lefortu Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. Avropa İttifaqı ilə region ölkələri arasında əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra daha da genişləndiriləcəyinə əminliyini ifadə etdi.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefort Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Ketrin Eştonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ketrin Eştonun region ölkələri ilə əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərdiyini dedi.*

*Dövlətimizin başçısı Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Ketrin Eştonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ketrin Eştona çatdırmağı xahiş etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# BAKININ BİNƏQƏDİ QƏSƏBƏSİNDƏ DAXİLİ YOLLARDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*5 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Binəqədi qəsəbəsində daxili yollarda aparılmış əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış oldu.*

*Bakı və Bakıətrafı kənd və qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı keçirilmiş müşavirədə qarşıya qoyulan vəzifələrə uyğun olaraq paytaxtın bütün qəsəbələrində ardıcıl tədbirlər həyata keçirilir. Binəqədi qəsəbəsində də bu işlər sürətlə gedir.*

*Qəsəbədə əsaslı təmir olunmuş daxili yolların sxemi əsasında prezident İlham Əliyevə məlumat verildi. Qəsəbəyə 16 kilometr, ümumilikdə 80 min kvadratmetr yol sahəsinə yeni asfalt örtüyü döşənib. Qəsəbədaxili yolların abadlaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Küçələrin işıqlandırma sistemi də tamamilə yenidən qurulub, xaricdən gətirilmiş 100-dən çox yeni işıq dirəyi quraşdırılıb.*

*Görülmüş işlərlə tanış olan prezident İlham Əliyev qəsəbə sakinləri ilə görüşüb söhbət etdi.*

**İ l h a m  Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Bir neçə il əvvəl Binəqədi qəsəbəsində oldum və o vaxt biz yeni yolun açılışında birgə iştirak etdik. İndi isə vaxt gəlib çatıbdır ki, biz qəsəbədaxili yolları da sahmana salaq.

Mənə verilən məlumata görə, iki ay ərzində 16 kilometr qəsəbədaxili yeni yollar çəkilibdir. Bu, şəkillərdə də göstərilib. Siz qəsəbə sakinləri yaxşı bilirsiniz ki, bunlar torpaq yol idi.

İndi isə asfalt yoldur. Başqa qəsəbələrdə olduğu kimi, Binəqədi qəsəbəsində də çox sürətli inkişaf gedir. Bakıətrafı qəsəbələrin inkişafı proqramı icra edilir. Proqram çox dəqiqdir və konkret xarakter daşıyır. Nəinki yollar, bütün infrastruktur yeniləşməlidir. Elektrik xətləri, qaz təchizatı məsələləri tədricən həll olunur. Mənə deyilənə görə, bu məsələlərlə bağlı ciddi problem yoxdur. Əminəm ki, bu məsələlər müəyyən edilmiş vaxtda həll olunacaqdır.

Bakı qəsəbələrinin inkişafı proqramı iki il yarımı əhatə edir. Biz qarşımıza çox böyük və məsuliyyətli vəzifə qoymuşuq ki, iki il yarım ərzində Bakının bütün qəsəbələrində sosial və infrastruktur məsələləri öz həllini tapsın. Proqramın icrası, ilkin addımlar onu göstərir ki, biz işimizi yüksək templərlə aparırıq. Buraya gəlməzdən əvvəl böyük bir məktəbin təmiri ilə maraqlandım. Göstəriş vermişəm ki, yeni məktəbin tikintisi üçün yer müəyyən edilsin. Bakıda və ətraf qəsəbələrdə indi məktəblərin təmiri də sürətlə gedir. İlin sonuna qədər 50-dən çox məktəb əsaslı təmir olunub istifadəyə veriləcəkdir.

Nəzərdə tutduğumuz bütün proqramlar öz həllini tapır. Bu proqramların başlıca məqsədi odur ki, Azərbaycan əhalisi daha da yaxşı yaşasın, bütün sosial məsələlər, infrastruktur, insanları narahat edən problemlər öz həllini tapsın. Nəinki şəhərimizin mərkəzində, kənarında da, ətraf qəsəbələrdə də şəhər mərkəzindəki kimi şərait olmalıdır. Su, kanalizasiya, yol məsələlərinin, bütün infrastruktur layihələrinin həll olunması bizim vəzifəmizdir. Həm bölgələrdə, həm Bakıda və həm də Bakı qəsəbələrində.

Proqramda hər şey göstərilib, mətbuatda da dərc edilib. Hər bir vətəndaş görə bilər ki, onun qəsəbəsində, kəndində nələr baş verəcəkdir. Biz proqramı qəbul edərkən çalışırdıq ki, yerlərdən bütün təklifləri alaq və aldıq da. Amma həyat yerində durmur. Misal üçün, Binəqədi qəsəbəsində yeni məktəbin tikintisi nəzərdə tutulmurdu. İndi mənə verilən məlumatdan sonra demişəm ki, məsələ araşdırılsın. Yeni məktəb tikilməlidir. Yəni

biz məsələyə realist nöqteyi-nəzərdən yanaşmalıyıq. Proqrama əlavələr də edilə bilər, edilməlidir də.

**S a k i n**: Möhtərəm cənab Prezident, gəlişinizdən çox məmnunluq duyuruq. Xoş gəlmisiniz! Bilirik ki, Sizin hər gəlişiniz mütləq mütərəqqi bir irəliləyişə səbəb olur.

Xatırlayıram ki, 2006-cı ildə bizim iqtisadi artımımız 34,5 faiz olandan sonra Siz Kürdəmir şəhərində çıxış edərək dediniz ki, əgər hər hansı iqtisadi artımın nəticəsindən əhali nəsə əldə etməyəcəksə, belə iqtisadi artım heç kimə lazım deyil. Qəsəbəmizin də bir neçə problemi vardır və doğrudan da Sizin gəlişinizlə biz bundan bəhrələnə bilərik. Birincisi odur ki, bizim 205 nömrəli məktəbin yerləşdiyi ərazidə mazut gölü vardır. Sahəsi 3-4 hektar olar. Yaxşı olardı ki, orada park yaradılsın. Bizim belə bir xahişimiz vardır. Daha sonra bilirik ki, Oğuz–Qəbələdən su çəkdirdiniz. Həmin o sudan biz də bəhrələnmək istərdik. Üç məktəbin yanında, sağlıq olsun, dördüncü məktəb tikiləcəkdir. Bu əraziyə Oğuz–Qəbələ suyunun çəkilməsini də Sizdən xahiş edirik. Uşaqlar hər dəfə sərin sudan istifadə etsinlər. Bu çox yaxşı olardı. Bundan başqa, qəsəbəmizdə «Qır gölü» deyilən sahə var. Orada ötən əsrin 30–40-cı illərində flora-fauna, numizmatika xarakterli arxeoloji qazıntılar aparılmışdır. Orada açıq muzey yaradılması barədə göstərişiniz olsaydı, bu da bizim qəsəbəmiz üçün çox əhəmiyyətli iş olardı.

**İ l h a m Ə l i y e v:** Yaxşı, bu məsələləri biz nəzərə alacağıq. Parkların salınmasına mən həmişə böyük həvəslə yanaşıram. Bakının mərkəzindəki bütün parklar, demək olar ki, yenidən qurulub. Yeni parklar da salınır. Çalışırıq ki, şəhərimizi maksimum dərəcədə yaşıllaşdıraq. Çünki bu yaşıllıq ekologiya, sağlam həyat deməkdir. Əgər belə təklif varsa, əlbəttə ki, məmnuniyyətlə buna baxacağıq. Keçən dəfə mən Binəqədi rayonunda olarkən Biləcəri parkı ilə tanış oldum. Biz bu parkın yenidən qurulmasını da indi icra edəcəyik. O da 50–60 il əvvəl salınmışdır.

**H a c ı b a l a A b u t a l ı b o v** *(Bakı Şəhər İcra Hakimiyyətinin başçısı)*: 1954-cü ildə.

**İ l h a m  Ə l i y e v:** Dəmiryolçular parkını yenidən quracağıq. Burada da park salınmasına mən müsbət baxıram. O ki qaldı su xətlərinə, 2013-cü ilin sonuna qədər şəhərimizin su problemi birdəfəlik öz həllini tapmalıdır. Bu bizim üçün ən böyük problemdir. Əfsuslar olsun ki, bu problem bizi həmişə incidib. Bu da təbiidir, çünki Abşeron yarımadasında su ehtiyatları azdır, demək olar ki, yoxdur. Vaxtilə çəkilmiş xətlərin bir hissəsi köhnəlib, bir hissəsində təmizləyici qurğular sıradan çıxıb. Ona görə bu, böyük vəsait və zaman tələb edən məsələdir. Ancaq məsələ elə qoyulub ki, nəinki Bakı və ətraf qəsəbələrin, bütün rayonlarımızın içməli su ilə təminatı və kanalizasiya problemi 100 faiz həll edilməlidir. Bu ilin dövlət büdcəsinə də düzəlişlər edilmişdir və ilk növbədə, su layihələrinin həll olunmasına vəsait ayrılmışdır. Oğuz–Qəbələ su xətti də yeni mənbənin, necə deyərlər, aşkarlanması nəticəsində reallaşıb. Layihənin üstünlüyü ondadır ki, bu mənbə Azərbaycanın daxilində mövcuddur. Oğuz–Qəbələ xəttinin üstünlüyü ondadır ki, bu, artıq Azərbaycan ərazisində formalaşır və orada çox böyük mənbə vardır, ehtiyat böyükdür. Əminəm ki, biz bu məsələni həll edəcəyik.

**S a k i n:** Biz Binəqədi rayonuna gəlişinizdən çox şadıq. Bütün vətəndaşlar Bakının gündən-günə gözəlləşən şəhər olduğunu və hətta dünyanın ən möhtəşəm ölkələrinin paytaxtları ilə ayaqlaşdığını görür, hiss edir və bundan qürur duyur. Mən təhsil işçisiyəm. Bizim Binəqədi qəsəbəsində üç orta ümumtəhsil məktəbi vardır və burada 6 mindən çox şagird təhsil alır. Hazırda bu məktəblərin hər biri Sizin göstərişinizlə yenidən təmir olunub, şagirdlərin istifadəsinə verilib. Təkcə 182 saylı məktəbdə, möhtərəm Prezident, 5 ildir hovuz fəaliyyət göstərir. Uşaqlarımız asudə vaxtlarında ondan istifadə edirlər. Gözəl idman zallarımız vardır. İnformasiya-kommunikasiya texnologiyaları üzrə yaxşı təhsil almaq üçün informatika otaqları, müasir tələbata cavab verən çoxlu fənn kabinetlərimiz vardır. Bütün bunlar üçün Sizə və Mehriban xanıma ürəkdən təşəkkürümüzü bildiririk. Bir xahişimizi də diqqətinizə çatdır-

maq istəyirəm. Bu qəsəbənin 40 mindən çox əhalisi vardır, burada uşaq bağçasına ehtiyac çoxdur. Yalnız 75 nəfərlik bir bağça vardır, o da təmirə dayandırılıb, əsaslı təmir olunur. Amma bağça üçün yer vardır.

**İ l h a m Ə l i y e v:** Vardır?

**S a k i n:** İkinci bir bağçanın fəaliyyəti 2006-cı ildən dayandırılıb. Əgər göstəriş versəydiniz orada 75 nəfərlik gözəl bir bağça yaradılardı.

**İ l h a m Ə l i y e v:** Sağ olun, minnətdaram və dərhal göstərişlər verərəm ki, bu məsələlərlə bağlı ciddi məşğul olsunlar. Doğrudan da uşaq bağçalarının tikintisinə böyük ehtiyac vardır. Mənə verilən məlumata görə, bizdə bu bağçalar ehtiyaclarımızı, demək olar ki, haradasa 20 faizdən aşağı səviyyədə təmin edir. Ona görə növbəti illərdə bağçalar həm təmir edilməli, həm də tikilməlidir. Siz indi neçə bağçanı təmir etdirirsiniz?

**H a c ı b a l a A b u t a l ı b o v:** 57 bağça əsaslı təmirdədir.

**İ l h a m Ə l i y e v:** 57. Amma hələ nə qədər tikilməlidir, bəlkə də ondan iki dəfə çox. Bu bizim proqramlarımızda vardır və o cümlədən Binəqədi qəsəbəsində, burada bağça da, məktəb də tikilməlidir. Üstünlüyümüz ondadır ki, bizdə əhali ildən-ilə artır. Buna daha da böyük ehtiyac olacaqdır. Mən maraqlandım, bu məktəb 30-cu illərdə tikilib.

**H a c ı b a l a A b u t a l ı b o v:** 1936-cı ildə.

**İ l h a m Ə l i y e v:** Deyirlər ki, o vaxt orada 300 şagird oxuyub. İndi 2 min 300, on ildən sonra o məktəbdə bəlkə də 3 min şagird oxuyacaqdır. İndi Allaha şükür olsun ki, əhalimiz artır, uşaqların sayı çoxalır. Ona görə bu məsələlərlə məşğul olacağıq və bunu nəzərə alın.

**S a k i n:** Möhtərəm Prezident, Sizi Binəqədi gəncləri adından salamlayıram. Sizin gənclərə göstərdiyiniz qayğıdan bütün respublika gəncləri kimi, bizim qəsəbənin gəncləri də faydalanmaqdadır. Bu günlərdə gənclərlə bağlı Dövlət Proqramının qəbulu, gənclərin işlə təmin olunması, 2013-cü ildə

qəsəbəmizdə Gənclər Evinin tikilməsinin Dövlət Proqramına salınması Sizin bizə olan qayğınızın ifadəsidir. Qayğıya görə biz Sizə minnətdarıq, cənab Prezident!

İcazə versəydiniz, Sizə bir sevindirici hadisə haqqında məlumat verərdim. İşlədiyim 182 saylı məktəbdə 11-ci «A» sinfinə rəhbərlik edirdim. Orada təhsil alan 26 şagirddən 23-ü bu il çox yüksək nəticələrlə tələbə adını qazanıb. Bu gözəl nəticəyə görə biz Sizə minnətdarıq. Çünki Siz bizə qayğı göstərirsiniz, biz də ondan ilhamlanır, səylə çalışırıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol. Mən də siz müəllimlərə minnətdaram ki, belə gözəl, cəmiyyətimiz üçün dəyərli insanlar yetişdirirsiniz. Gələcək biliklə, savadla bağlıdır. Bizim üstünlüyümüz ondadır ki, islahatlar, iqtisadi islahatlar aparırıq. Azərbaycan bir neçə ildən sonra inkişaf etmiş ölkələrin sırasına daxil olacaqdır. Ancaq bu inkişafı dayanıqlı, uzunmüddətli etmək üçün mütləq peşəkar kadrlar lazımdır. Vətənpərvər, Vətənə, millətinə bağlı olan gənc nəsil yetişir. Ancaq bununla bərabər, onlar bilikli, savadlı olmalıdırlar. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, harada biliyə, savada, elmə, təhsilə diqqət göstərilirsə, orada inkişaf vardır. Dünyada ən inkişaf etmiş ölkələr onlardır ki, orada təhsilin səviyyəsi yüksək xətdədir. Neftlə, qazla zəngin olan ölkələr bəzi hallarda çətin vəziyyətdədirlər, bəzi hallarda orada təbəqələşmə gedir, yoxsulluq çoxdur. O ölkələr ki, təhsildə uğur qazanıb, inkişaf oradadır və bu, gələcəkdə özünü daha da çox büruzə verəcəkdir. Elmi tərəqqi sadəcə bir söz deyildir. Bu gün İKT sahəsində görülən işlər ölkələrin gələcəyini müəyyən edəcəkdir. Kim o sahədə bilikli və bacarıqlı olacaqsa, o ölkənin dünyada mövqeyi daha da güclü olacaqdır. Təbii sərvətlər gec-tez tükənir. Bizim üstünlüyümüz ondadır ki, imkanlardan səmərəli istifadə edirik. Kapitalı «insan kapitalına» investisiya kimi qoyuruq. Burada müəllimlərin üzərinə bəlkə də ən böyük vəzifə düşür. Mən yeni dərs ili ərəfəsində bu fürsətdən istifadə edərək, bütün Azərbaycan müəllimlərini salamlamaq, onlara cansağlığı, uğurlar arzulamaq istəyirəm.

## BİNƏQƏDİ QƏSƏBƏSİNDƏKİ 179 SAYLI MƏKTƏBİN BİNASINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*5 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Binəqədi qəsəbəsindəki 179 saylı* orta *məktəbin binasında aparılmış əsaslı təmir və yenidən*qurma *işləri ilə tanış olmuşdur.*

*Görülmüş işlərlə bağlı dövlət başçısına məlumat* verildi. *İki birləşmiş* korpusdan *ibarət* olan *179 saylı məktəbdə 2350 şagirdin təhsil aldığı* bildirildi. *İki mərtəbədən ibarət* korpuslardan biri *1936-cı ildə, üç mərtəbədən ibarət digər* korpus *isə 2005-ci ildə inşa* olunub. *Yeni dərs ili ərəfəsində 179 saylı* orta *məktəb binası əsaslı şəkildə təmir* edilib. *Sinif otaqları, dəhliz və ayrı-ayrı fənn kabinetləri müasir* standartlar *səviyyəsində yenidən* qurulub. *Məktəbdə şagirdlərin təhsili üçün lazım* olan *bütün şərait yaradılıb.*

*Həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işləri ilə yaxından tanış* olan *dövlət başçısı yeni məktəb binasının inşası üçün müvafiq yer ayrılması barədə göstəriş* verdi.

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Rusiya dövlət və demokratiya təsisatlarının təkmilləşdirilməsi, iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi yolu ilə inamla irəliləyir. Ölkənin beynəlxalq aləmdə nüfuzu artır.

Azərbaycan ilə Rusiya arasında bu gün strateji tərəfdaşlıq xarakteri kəsb etmiş ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Siz sanballı töhfə vermisiniz. Sizin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənməsinə yönəlmiş səyləriniz Azərbaycanda böyük razılıqla qarşılanır.

Əminəm ki, bizim dövlətlərarası münasibətlərimiz, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın rifahı naminə, Qafqazda sülh, sabitlik və təhlükəsizlik naminə bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Mən bizim aramızda yaranmış qarşılıqlı hörmətə və etimada əsaslanan şəxsi münasibətləri yüksək qiymətləndirirəm.

Əziz Dmitri Anatolyeviç, Sizə və bütün ailənizə möhkəm cansağlığı, firavanlıq və uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2011-ci il*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızın mənəvi birliyindən güc alan dövlətlərarası münasibətlərimizin və dostluq əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı yolunda səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2011-ci il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Şahzadə həzrətləri!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2011-ci il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB AMADU TUMANİ TUREYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mali arasında təşəkkül tapmış münasibətlər dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mali xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2011-ci il*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Meksika arasındakı dövlətlərarası münasibətlərin inkişafı dostluq əlaqələrimizin və əməkdaşlığımızın genişlənməsi üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2011-ci il*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CORC ABELAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan–Malta münasibətlərinin inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin möhkəmlənməsi və genişlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2011-ci il*

## QALA QƏSƏBƏSİNDƏKİ ARXEOLOJİ-ETNOQRAFİK MUZEY KOMPLEKSİNİN ƏRAZİSİNDƏ APARILMIŞ TİKİNTİ-QURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ VƏ ƏNTİQ ƏŞYALAR MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*7 sentyabr 2011-ci il*

*Sentyabrın 7-də prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Xəzər rayonundakı Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin ərazisində aparılmış tikinti-quruculuq işləri ilə tanış olmuş, Əntiq Əşyalar Muzeyinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısına və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizi qoruyub saxlamağa, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir. Azərbaycan tarixinin, mədəniyyətinin, xalqımızın adət-ənənələrinin yaşadılmasında, gələcək nəsillərə ötürülməsində mühüm rolu olan qoruğun ərazisində son vaxtlarda aparılmış tikinti-quruculuq işləri bu məkanın əhəmiyyətini daha da artırmışdır.*

*Qeyd olundu ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Təmiz Şəhər» ASC tərəfindən pilot ərazi kimi, Qala qəsəbəsində «Təmiz Qala» layihəsinin icrasına başlanılıb. Layihənin məqsədi qəsəbə ərazisində tullantıların kompleks idarə olunmasını – yığılması, daşınması və təkrar emalı proseslərini müasir standartlara uyğun təşkil etməkdir. Əraziyə su xətti çəkilmiş, 15 bulaq istifadəyə verilmişdir.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva əvvəlcə Qala İnformasiya Mərkəzi ilə tanış oldular. Məlumat verildi ki, Mərkəz vasitəsilə turistlər, qonaqlar qoruq ərazisindəki muzeylər barədə ətraflı məlumat əldə edə, elektroavtobuslar və velosipedlər icarəyə götürə bilərlər. Qoruğun ətrafı abadlaşdırılmış, ərazidə 170 min ağac və bəzək kolu əkilmişdir.*

*Sonra dövlətimizin başçısı və Azərbaycanın birinci xanımı elektroavtobusla Qala parkının ərazisini gəzdilər, görülmüş işlərlə tanış oldular, parkın əvvəlki görünüşünü əks etdirən stendə baxdılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qala parkında ağac əkdilər.*

*Bildirildi ki, buradakı göl və ətrafındakı 24,2 hektar ərazi tullantılardan təmizlənərək abadlaşdırılmışdır. Ərazidə torpaq üç metr dərinliyində qazılaraq mazutdan təmizlənmiş, yeni torpaq örtüyü ilə əvəzlənmişdir ki, nəticədə ərazinin ekoloji vəziyyətində mühüm dəyişikliyə nail olunmuşdur. Ərazinin işıqlandırılmasında günəş batareyalarından geniş istifadə edilmişdir. Parkda yaşıllaşdırma işləri aparılmış, 80 mindən çox ağac və bəzək bitkiləri əkilmiş, yaşıllıq zolağı suvarma sistemi ilə təchiz olunmuşdur. Parkın ərazisində uşaqların maraqlı istirahəti üçün əyləncə meydançası istifadəyə verilmişdir.*

*Sonra dövlətimizin başçısı və Heydər Əliyev Fondunun prezidenti XII–XIV əsrə aid Qum hamamı ilə tanış oldular. Bu, xalqımızın məişət mədəniyyətinin qədim və yüksək olduğunun göstəricisidir.*

*Etno-Ekoloji Mərkəzlə tanışlıq zamanı bildirildi ki, əsasən uşaqlar və gənclər üçün nəzərdə tutulmuş Mərkəzdə hər cür şərait yaradılmışdır. Qeyd olundu ki, Heydər Əliyev Fondunun dəstəyi ilə ötən il keçirilmiş Qala festivalına Bakının müxtəlif orta və internat məktəblərindən, uşaq evlərindən 2500 uşaq qatılmışdı. Festivalda toxuculuq, dulusçuluq, dəmirçilik ənənələrini yaşadan sənətkarların əl işləri nümayiş etdirilmişdi. Festival çərçivəsində uşaqlar üçün ustad dərsləri təşkil olunmuş, gənc nəslin nümayəndələrinə qədim məişət və et-*

*noqrafik ənənələrimizlə yaxından tanış olmaq imkanı yaradılmışdı. Festivalın çox maraqla qarşılanması, layihəyə göstərilən diqqət Qalada Etno-Ekoloji Mərkəzin yaradılması ideyasına təkan vermişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qoruq ərazisində X–XIV əsrlərə aid Qala Abidə Kompleksi ilə də tanış oldular. Bildirildi ki, elmi, tarixi, bədii əhəmiyyət daşıyan bütün tarixi və mədəniyyət abidələrinin qorunması, eləcə də Abşeron yarımadasında aşkar edilən digər arxeoloji tapıntılar hesabına qoruğun daha da zənginləşdirilməsi məqsədilə Qala qəsəbəsində son illərdə genişmiqyaslı layihə həyata keçirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun «Abşeron» arxeoloji ekspedisiyası 2010–2011-ci illərdə burada qazıntı işləri aparmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə qoruq ərazisində Qala Əntiq Əşyalar Muzeyi yaradılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Bildirildi ki, muzeyin təməli ötən ilin iyununda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə qoyulmuşdur. Fondun təşəbbüsü və dəstəyi ilə inşa olunan muzey Şahid Həbibullayevin şəxsi kolleksiyası əsasında yaradılmışdır. Uzun illər ərzində yığılan zəngin kolleksiya hazırda 3 minədək maddi mədəniyyət nümunəsini əhatə edir.*

*Dövlətimizin başçısı və Heydər Əliyev Fondunun prezidenti burada nümayiş etdirilən mis məişət əşyaları ilə tanış oldular. Bildirildi ki, muzeyin ekspozisiyasını tutumu yarım litrdən 90 litrə qədər olan 156 samovar zənginləşdirir. Əksəriyyəti Rusiyanın Tula, Moskva, Sankt-Peterburq, Ural və digər şəhər və bölgələrindən gətirilən, XVIII–XIX əsrlərə aid samovarların bir qismi Polşa, İran, Avstriya, Amerika Birləşmiş Ştatları və başqa ölkələrdə istehsal olunmuşdur.*

*Məlumat verildi ki, burada Azərbaycan samovarları da nümayiş etdirilir. Yaşı 3 min 700 il olan ən qədim Azərbaycan samovarı Şəkidə tapılmışdır. Bu, 2000 il yaşı olan Misir samovarından daha qədimdir. Ekspozisiyada qədim kişi və qadın kəmərləri, sinəbənd və bilərziklər, silahlar, o cümlədən təbərzinlər və xəncərlər yer almışdır. Muzeyin diqqəti cəlb edən eksponatlarından olan fayton Lüdviq Nobelin maşınqayırma zavodunda yığılmış, Şəki şəhərində qorunub saxlanmışdır. Burada həmçinin Şəki və Şirvan xanlıqları dövrünə aid pullar nümayiş etdirilir.*

*Binanın birinci mərtəbəsində konfrans zalı, inzibati otaqlar, suvenirlər bölməsi və təmir-bərpa emalatxanası fəaliyyət göstərir. Aşkar olunan qədim əşyalar məhz bu emalatxanada bərpa edilir.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Xatirə kitabını imzaladı.*

*Sonra dövlətimizin başçısı və Azərbaycanın birinci xanımı orijinal üslubda inşa edilmiş karvansara-restoran ilə tanış oldular. Bildirildi ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa edilmiş karvansara-restoranda turistlər Azərbaycan mətbəxinin ləziz nemətləri ilə tanış olacaqlar. Çoxsaylı turist axını nəzərə alınaraq inşa edilmiş restoranın birinci mərtəbəsi kafe, ikinci mərtəbəsi isə restoran kimi fəaliyyət göstərəcəkdir.*

*Məlumat verildi ki, qoruq ərazisində fiziki imkanları məhdud insanların hərəkəti üçün də bütün tədbirlər görülüb. Qoruqda mühafizə kameraları quraşdırılıb. Buradakı quyu və ovdanlar bərpa olunub, 35 min kvadratmetr sahədə avtomobil dayanacağı, elektromobillər üçün qaraj tikilib. Qəsəbədaxili əsas yollara 50 min kvadratmetr asfalt örtüyü salınıb, işıqlandırma dirəkləri quraşdırılıb, qaz və su təchizatını yaxşılaşdırmaq məqsədilə borular çəkilib, kompleksin ətrafındakı meydan yenidən qurulub.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## QALA QƏSƏBƏSİNDƏKİ 92 SAYLI ORTA MƏKTƏBİN BİNASINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 7-də Xəzər rayonunun Qala qəsəbəsindəki 92 saylı orta məktəbin binasında aparılmış əsaslı təmir və yenidənqurma işlərinin ümumi vəziyyəti ilə tanış olmuşlar.*

*«2011–2013-cü illərdə Bakı şəhərinin və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda məktəb binalarının əsaslı təmir və yenidən qurulması ilə bağlı bu il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərinin binalarında əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Prezident İlham Əliyevə 92 saylı orta məktəb binasında həyata keçirilmiş təmir və yenidənqurma işləri ilə bağlı məlumat verildi. Bildirildi ki, ikimərtəbəli məktəb binası 1969-cu ildə istifadəyə verilib. 480 şagird yerlik orta məktəbdə birinci növbədə 436 şagird oxuyur. İkinci növbədə isə Laçın rayonunun Malıbəy kəndindən olan 80 şagird təhsil alır. Dövlət Proqramına uyğun olaraq həyata keçirilən təmir işləri zamanı məktəb binası tamamilə müasir səviyyədə yenidən qurulub, ikinci mərtəbədə əlavə 6 sinif otağı tikilib, siniflər yeni partalarla təmin edilib, qapı və pəncərələr*

*dəyişdirilib, döşəmə əsaslı şəkildə yenidən qurulub, tavan tam bərpa edilib. Məktəbdə müasir istilik sistemi quraşdırılıb.*

*Həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işləri ilə yaxından tanış olan prezident İlham Əliyev məktəbin yaxınlığındakı ərazidə şagirdlərin və qəsəbə sakinlərinin istifadəsi üçün yeni idman kompleksinin inşa olunması ilə bağlı tapşırıqlar verdi.*

## RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qubernator Aleksandr Jilkin ötən il Azərbaycan prezidenti İlham Əliyevin Həştərxan vilayətinə uğurlu səfərini xatırladaraq həmin səfər zamanı müzakirə olunan məsələlərin önəmini qeyd etdi. Aleksandr Jilkin Həştərxan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldıldığı parkın şəhər sakinlərinin sevimli istirahət mərkəzlərindən biri olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Rusiyanın Həştərxan vilayəti arasında iqtisadi, humanitar, sosial, turizm və nəqliyyat sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə edildi,*

*əməkdaşlığımızın bundan sonra daha da genişlənəcəyinə əmin-lik bildirildi.*

## AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avstriyanın OMV şirkəti İdarə Heyətinin sədri Gerhard Roisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*OMV şirkəti İdarə Heyətinin sədri Gerhard Roiss Avstriya prezidenti Hayntz Fişerin və Avropa İttifaqının Enerji məsələləri üzrə komissarı Günter Ottingerin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Avstriyanın OMV şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, Nabukko layihəsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə edildi.*

*Dövlətimizin başçısı Avstriya prezidenti Hayntz Fişerin və Avropa İttifaqının Enerji məsələləri üzrə komissarı Günter Ottingerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriyanın dövlət başçısına və Avropa İttifaqının komissarı Günter Ottingerə çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Yaroslavl yaxınlığında çoxsaylı insan tələfatı ilə nəticələnmiş təyyarə qəzası haqqında xəbər məni dərindən sarsıtmışdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2011-ci il*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası ilə ölkəmiz arasında əlaqələrin münasibətlərimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu, İlyas Umaxanovun ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyi vurğulandı.*

## «BAKI» FUTBOL KLUBUNUN YENİ TƏLİM-MƏŞQ BAZASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*8 sentyabr 2011-ci il*

*Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Bakı» futbol klubunun yeni təlim-məşq bazasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti Rövnəq Abdullayev məlumat verdi ki, Azərbaycanda idmanın inkişafına diqqət və qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi edən Azərbaycanda nəhəng idman infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılır. Son illərdə ölkədə futbolun inkişafı ilə bağlı görülən işlər də təqdirəlayiqdir. 2011-ci ildə Azərbaycan futbolunun 100 illik yubiley tədbirlərinin ən möhtəşəmi Bakıda olimpiya stadionunun təməlinin qoyulması olmuşdur. Bunun ardınca paytaxtda daha bir mühüm futbol kompleksinin – «Bakı» futbol klubunun təlim-məşq bazasının tikilməsi idmanın bu növünün inkişafı istiqamətində atılan vacib addımlardan biridir.*

*Bildirildi ki, prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında 2005–2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı»nın məqsədi də ölkəmizdə idmanın bu növünün sürətli inkişafına, o cümlədən respublikamızın beynəlxalq çempionatlarda yüksək səviyyədə təmsil edilməsinə nail olmaqdır.*

*Təlim-məşq bazası ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, 5 hektara yaxın ərazidə inşa olunmuş kompleksə 5 stadion daxildir. Onlardan üçü təbii, ikisi süni örtüklüdür. Süni örtüklü stadionun biri açıq, digəri isə qapalıdır.*

*Süni örtüklü stadionda yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, bu, regionda ən böyük qapalı futbol meydançasıdır. Uzunluğu 75, eni 45 metr olan meydançanın ümumi sahəsi 3375 kvadratmetrdir. Ən son texnologiyalar əsasında qurulmuş stadionun arakəsmə və üst qatında istifadə olunan materiallar odadavamlıdır.*

*Sonra dövlətimizin başçısı təlim-məşq bazasının mətbuat mərkəzində yaradılan şəraitlə tanış oldu. Mərkəzdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin ölkə idmanının inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolar nümayiş olunur. Burada mətbuat işçilərinin fəaliyyəti üçün nəzərdə tutulan 100 nəfərlik zalda hər cür şərait yaradılmışdır.*

*Bildirildi ki, Azərbaycanda uşaq futbolunun inkişafı diqqət mərkəzindədir. «Bakı» futbol klubunun da məqsədi ölkədə idmanın bu növü üzrə milli kadrların yetişməsinə nail olmaqdır. Bunun üçün seçmə üsulu ilə «Bakı» futbol klubuna cəlb olunmuş 8 yaşından 18 yaşına qədər uşaq və gənclər kompleksdə yaşayır və məşq edirlər. Uşaqlara və gənclərə futbolun sirlərini yerli kadrlarla yanaşı, Türkiyə və Bolqarıstandan dəvət olunmuş mütəxəssislər öyrədirlər.*

*Prezident İlham Əliyev kompleksdə gənc futbolçuların yaşayış şəraiti ilə də tanış oldu. Məlumat verildi ki, kompleksdə klubun Futbol Akademiyası da fəaliyyət göstərir. Burada bütün yaş qrupları üzrə məşqlərə cəlb edilən uşaqlardan ötrü yaşayış yerləri, təlim-məşq zalları yaradılmış, onların idmanla məşğul olmaları üçün bütün zəruri avadanlıqlar quraşdırılmışdır.*

*İnzibati mərkəzin də yerləşdiyi akademiya binasında konfrans zalı, kinozal, yeməkxana, soyunub-geyinmə otaqları, yüksək səviyyəli qonaqlar üçün oyunları müşahidə zalı yaradılmışdır. Bildirildi ki, hazırda akademiyada 400 uşaq və yeniyetmə futbolun sirlərinə yiyələnir. Gələcəkdə bu rəqəmin artırılması nəzərdə tutulur. Ölkədə yeni nəsil futbolçuların yetişməsini qarşıya məqsəd qoyan «Bakı» futbol klubu son 7 ildə iki dəfə Azərbaycan çempionu olmuş, iki dəfə isə ölkə kubokunu qa-*

*zanmışdır. «Bakı» Avropa Liqasının pley-off mərhələsinə yüksələn iki Azərbaycan klubundan biridir.*

*Komplekslə tanışlıqdan sonra «Bakı» futbol klubunun üzvləri və məşqçilərlə görüşən dövlət başçısı onları salamladı.*

**İ l h a m Ə l i y e v:** Mən sizi gözəl bazanın yaradılması ilə əlaqədar təbrik edirəm. Görülən işlər təqdirəlayiqdir. «Bakı» futbol klubunun təcrübəsi və təşəbbüsü dəstəklənməlidir. Əminəm ki, yaxın zamanlarda Azərbaycanın bütün klublarının belə gözəl infrastrukturu olacaqdır.

*«Bu qurğu həm Azərbaycanda, həm də bütün regionda ən yaxşı komplekslərdən biridir» – deyən prezident İlham Əliyev yığma komandamızın son vaxtlar layiqli futbol nümayiş etdirməsinin onu sevindirdiyini bildirdi. «Mən ölkəmizin bütün klublarına azarkeşlik edirəm» – deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, onlar Azərbaycanı beynəlxalq yarışlarda layiqincə təmsil edəcəklər.*

*FİFA prezidentinin son illərdə üç dəfə Azərbaycanda olduğunu və onun ölkəmizə dəstək verdiyini vurğulayan prezident İlham Əliyev sonda «Bakı» futbol klubuna uğurlar və yeni qələbələr arzuladı.*

*Klubun Baş məşqçisi Aleksandr Starkov regionlardan yığılan və bütün təbəqələrdən olan ailələrin uşaqlarının məşq prosesinə cəlb edildiyini, onlar üçün bütün imkanların yaradıldığını dedi və bunu dövlətin idmana göstərdiyi diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. O, klub üzvləri adından prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısına «Bakı» futbol klubunun xatirə hədiyyəsi təqdim olundu.*

## CEYRANBATAN ULTRASÜZGƏCLİ SUTƏMİZLƏYİCİ QURĞUNUN TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*8 sentyabr 2011-ci il*

*Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunda «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğusunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ərazi ilə yaxından tanış oldu. Məlumat verildi ki, keçən əsrin 50-ci illərində Abşeronda içməli və texniki suya tələbatın artması ilə əlaqədar Samur–Dəvəçi kanalının Abşerona qədər uzadılması, Ceyranbatan anbarında şirin su ehtiyatının yaradılması və anbarın sahilində sutəmizləyici qurğular kompleksinin inşasına qərar verilmişdir. 1957-ci ildə Ceyranbatan su anbarının şirin su ilə doldurulmasına başlanılmışdır. Anbarın doldurulması ilə yanaşı, hövzənin sahilində sutəmizləyici qurğular kompleksi də tikilmişdir. 1961-ci ildə məhsuldarlığı saniyədə 2,64 kubmetr olan sutəmizləyici qurğular kompleksinin birinci qurğusu istismara verilmişdir. Eyni keyfiyyətə malik ikinci qurğu 1966-cı ildə işə salınmışdır. Ceyranbatan sutəmizləyici qurğular kompleksinin üçüncü növbəsi isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1978-ci ildə tikilərək istifadəyə verilmişdir.*

*«Azərsu» ASC-nin kollektivinin nümayəndələri və inşaatçılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısına yeni tikiləcək qurğunun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, hazırda dünya təcrübəsində azbulanıqlı suların təmizlənməsi üçün iqtisadi cəhətdən səmərəli və avtomatik idarə olunan yeni ultrasüzgəcli qurğulardan istifadə olunmağa başlanılmışdır. Ənənəvi qum süz-*

*gəclərindən fərqli olaraq, bu tip ultrasüzgəclər suyun tərkibindəki 0,01 mikron ölçüdən böyük hissəciklərlə yanaşı, suda olan bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da suyun təbii duz tərkibi saxlanılmaqla, daha yaxşı təmizlənməsi, xoşagəlməz iy və dadların aradan qaldırılması təmin edilir. Ultrasüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır.*

*Prezident İlham Əliyev Bakı şəhəri və ətraf qəsəbələrin su təchizatının perspektiv planı ilə də tanış oldu. Qeyd edildi ki, «2011–2013-cü illərdə Bakı şəhərinin və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na əsasən yeni qurğunun inşası ilə yanaşı, burada təmizlənəcək suyu istehlakçılara çatdırmaq üçün yeni magistral kəmərlər, paylayıcı şəbəkə və anbarların tikilməsi nəzərdə tutulur. Dövlət Proqramına uyğun olaraq, Masazır, Binəqədi, Balaxanı, Ramana və Dübəndi qəsəbələrində yeni su anbarları kompleksinin inşası planlaşdırılır. Bu anbarlardan istifadə etməklə Bakıətrafı qəsəbə və kəndlərin su təchizatını əsasən özüaxımlı rejimdə təmin etmək mümkündür. Hazırda su təchizatı şəbəkəsinə qoşulmayan Türkan, Zirə, Qala, Dübəndi, Gürgan və Pirallahı qəsəbələrini su ilə təmin etmək üçün Ramana anbarı kompleksindən uzunluğu 65 kilometr olan yeni kəmərin çəkilişi nəzərdə tutulur.*

*Sonra dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunu işə saldı.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar! Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl və əlamətdar bir gündür. Düz 50 il bundan əvvəl – 1961-ci il sentyabrın 8-də burada birinci sutəmizləyici qurğu istismara verilmişdir. Bu gün, bu gözəl gündə biz yeni, ən müasir standartlara cavab verən qurğunun tikintisinin başlanmasını qeyd edirik. Bu özlüyündə çox əlamətdar hadisədir və onu göstərir ki, müasir dövrdə müstəqil Azərbaycanda hər bir insan üçün vacib olan su təchizatı məsələləri uğurla icra edilir. 50 il əvvəl başlanan bu proses və ondan sonrakı dövrdə tikilmiş yeni qurğular, əlbəttə

ki, o dövrün tələblərinə cavab verirdi. XX əsrin 90-cı illərinin sonunda mövcud olan bu qurğularda təmir işləri aparılmışdır. Ancaq biz yenə də çalışırıq və çalışmalıyıq ki, Azərbaycana dünyanın ən qabaqcıl texnologiyalarını gətirək, bütün sahələrdə tətbiq edək. Bir daha demək istəyirəm ki, insan sağlamlığı üçün əsas olan su təchizatı məsələlərində biz bu yüksək səviyyəni təmin etməliyik.

Bu layihə böyük vəsait tələb edəcəkdir. Təqribən 100 milyon manata qədər vəsait xərclənməlidir. Ancaq Azərbaycan dövləti bu xərcləri edir və edəcəkdir. Bu, insanların sağlamlığına qoyulan investisiyalardır. Azərbaycanda insan sağlamlığı üçün müxtəlif tədbirlər görülür. Əlbəttə ki, birinci şərt təmiz içməli suyun mövcudluğudur. Biz bu məsələlərlə məşğuluq. Bu gün təməl daşını qoyduğumuz müasir qurğu da bu məqsədi nəzərdə tutur. Ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox vacib addımlar atılır. Keçən il Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Mən tam əminəm ki, ekoloji tədbirlərin gücləndirilməsinin insanların sağlamlığına çox müsbət təsiri olacaqdır. Təmiz su, təmiz hava, keyfiyyətli qida məhsulları, ekoloji vəziyyət, tibb xidməti, idman – bax, bu amillər insanların sağlamlığını şərtləndirən əsas amillərdir.

Sadaladığım bütün məsələlərlə əlaqədar Azərbaycanda çox düşünülmüş proqram və konsepsiya vardır. Azərbaycanda olimpiya idman kompleksləri, idman meydançaları tikilir, idmanla məşğul olmaq üçün şərait yaradılır. Bütün bölgələrdə müasir müalicə-diaqnostika mərkəzləri tikilir, rayon xəstəxanaları təmir edilir, müasir avadanlıqlarla təchiz olunur. Ekoloji tədbirlər görülür. Təkcə son il yarım ərzində ölkəmizdə 10 milyona qədər ağac əkilmişdir. Kür–Araz çayları boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır.

Ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün də çox vacib işlər görülür. Bakıda – Balaxanıda məişət tullantılarının emalı zavodu tikilir. Hamımız yaxşı xatırlayırıq ki, Balaxanı zibilxanasının əvvəlki vəziyyəti necə idi. Oradan qalxan tüstü

şəhəri bürüyürdü. İndi orada təmiz bir meydan yaradılıbdır. Ağaclar əkilir, yaşıllıqlar salınır və dünyanın ən yüksək texnologiyalarına malik olan müasir məişət tullantılarının emalı zavodu tikilir.

Su təchizatı ilə bağlı digər vacib layihələr icra edilmişdir və icra edilməkdədir. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi, hesab edirəm ki, tarixi hadisədir. Çünki bilirsiniz ki, uzun illər ərzində bu layihə ilə bağlı müxtəlif fikirlər səslənirdi, təkliflər irəli sürülürdü. Oğuz–Qəbələ–Bakı su kəmərinin istismara verilməsi və tədricən işə başlaması nəticəsində Bakı şəhərinin bir neçə rayonunda su təminatı daha da yaxşılaşdırılmışdır. Qarşıya qoyulmuş əsas vəzifə ondan ibarətdir ki, hər bir məntəqədə, hər bir qəsəbədə, Bakı şəhərinin hər bir rayonunda 24 saat fasiləsiz suyun təminatı təşkil edilsin. Bu gün «Azərsu» şirkəti nəinki Bakıda, respublikamızın bütün bölgələrində su layihələrini icra edir. Konkret proqram tərtib edilmişdir. Bu il büdcəyə əlavələr edilmiş və əlavə vəsait nəzərdə tutulmuşdur ki, biz vaxtı itirməyək. Biz elə etməliyik ki, qısa müddət ərzində ölkəmiz üçün ənənəvi olan və həmişə bizi incidən su qıtlığı problemi öz həllini tapsın.

Mən əminəm ki, «Azərsu» şirkətinin yeni tərkibi və işə yeni yanaşması nəticəsində bütün bu məsələlər öz həllini tapacaqdır. Mən indi görürəm ki, şirkət inkişaf edir, şirkətdə müasir metodologiya, müasir yanaşma tətbiq edilir və belə də olmalıdır. Azərbaycanın bütün şirkətləri, xüsusilə dövlət şirkətləri ən yüksək menecment keyfiyyətlərinə malik olmalıdır. Müasir yanaşma, işin düzgün qurulması, düzgün təhlil, proqramların düzgün tərtib edilməsi və icra mexanizmləri dünya səviyyəsində olmalıdır. Bizə indi yaraşmaz ki, bu qədər inkişaf edən ölkəmizdə hansısa dövlət qurumu primitiv üsulla idarə olunsun. Müasirlik, qabaqcıl texnologiyaların tətbiqi, məsuliyyət və vicdan – bax, hər bir dövlət qurumuna tövsiyəm bundan ibarətdir. «Azərsu» şirkətinin rəhbərliyinin gücləndirilməsi nəticəsində əminəm ki, bu şirkətdə də işlər dünya səviyyəsində aparılacaqdır. Qısa müddət ərzində görülən işlər düzgün istiqamətdə aparılır.

Oğuz–Qəbələ–Bakı su kəməri böyük və çox mürəkkəb bir layihə idi. Təbii ki, layihənin icrası zamanı müəyyən qüsurlar, çatışmazlıqlar olmuşdur. Bunun səbəbidir ki, kəmərin açılışından sonra biz bir qədər gözləməli olduq ki, vəziyyəti daha da normallaşdıraq və tikinti zamanı edilən səhvləri düzəldək. Bununla bərabər, Oğuz–Qəbələ–Bakı su kəməri layihəsi tarixi hadisədir. Əminəm ki, bu kəmərin tikintisi və fəaliyyətə başlaması, Azərbaycan vətəndaşlarına yüksək səviyyədə xidmət göstərilməsi həqiqətən də tarixi məsələdir. Çünki bu, daxili mənbədir. Oradan gələn su Azərbaycan ərazisində formalaşır. Siz – bu işlərlə məşğul olanlar yaxşı bilirsiniz ki, bizim əsas su mənbələrimiz, Bakını qidalandıran su xətləri Azərbaycanın hüdudlarından kənarda formalaşan mənbələr hesabına mümkün olur. Oğuz–Qəbələ–Bakı o layihədir ki, Azərbaycan ərazisində formalaşan təmiz içməli suyu Bakıya gətirir. Bu çox böyük layihədir. Çünki bu işlər bir-iki şəhərdə deyil, bütün rayon mərkəzlərində görülür və görülməlidir. Ona görə «Azərsu» şirkətinin işçilərindən çox şey asılıdır. Əsas məsələlər 2013-cü ilin sonuna qədər həllini tapmalıdır. Qarşıya bu hədəfləri qoyanda həm də realist olmalıyıq, çalışmalıyıq ki, bu məsələlər maksimum qısa müddət ərzində həllini tapsın. Su həyat deməkdir. Təmiz su isə sağlam həyat deməkdir. Biz istəyirik ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, gənc nəsil sağlam olsun. Bu gün güclənən Azərbaycanda görülən bütün işlər, bir daha demək istəyirəm ki, dünyanın ən yüksək standartlarına cavab verməlidir.

Mən əminəm ki, «Azərsu» şirkətinin əməkdaşları onların üzərinə düşən bu vacib vəzifələri yaxşı başa düşürlər. Nəinki bu qurğuların tikintisi, su, kanalizasiya xətlərinin çəkilişi, bu təsərrüfatın istismarı məsələləri də çox vacibdir. Xətlər, gözəl qurğular tikilə bilər və tikiləcəkdir. Ancaq ondan sonra gündəlik həyatda insanları, Bakı sakinlərini, respublika sakinlərini davamlı içməli su ilə təmin etmək sizin üçün ən başlıca vəzifə olmalıdır. Əminəm ki, bu məsələlərə diqqətlə yanaşacaqsınız, verdiyim bütün göstərişləri şərəflə yerinə yetirəcəksiniz.

Bu gün gözəl və tarixi bir gündür. Bir daha demək istəyirəm ki, 50 il bundan əvvəl Bakının içməli su ilə təminatında tarixi hadisə baş vermişdir. Birinci sutəmizləyici qurğu tikilmişdir. Bu gün də tarixi gündür. Çünki 18 aydan sonra Bakı sakinləri Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin ediləcəklər. Bütün bu işlərdə sizə uğurlar arzulayıram. Əminəm ki, il yarımdan sonra biz burada müasir, gözəl, yeni qurğunun açılışında bərabər iştirak edəcəyik. Sağ olun.

**Y a z g ü l  R ü s t ə m o v a** *(Ceyranbatan Su Kəmərləri İdarəsinin əməkdaşı):* Möhtərəm cənab Prezident! Ceyranbatan Su Kəmərləri İdarəsinin kollektivi adından Sizi salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Ceyranbatan Su Kəmərləri İdarəsinin 50 illik yubileyi ərəfəsində sərəncamınızla bir qrup əməkdaşımız, o cümlədən mən «Tərəqqi» medalı ilə təltif olunmuşuq. 36 ildir ki, bu müəssisədə çalışıram. Bu mükafata, əməyimizə verdiyiniz qiymətə, bizə göstərdiyiniz qayğıya görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Cənab Prezident, yeni qurğunun təməlini qoymaqla idarəmizin tarixində yeni səhifə açmış oldunuz. Söz veririk ki, Sizin bu diqqət və qayğınızı əməli işimizlə doğruldacağıq. Bunun üçün əlimizdən gələni əsirgəməyəcək, var qüvvəmizlə çalışacağıq.

Bir daha kollektivimiz adından Sizə dərin təşəkkürümüzü bildirirəm.

## «TOTAL» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ MAYKL BORRELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da «Total» şirkətinin Baş vitse-prezidenti Maykl Borrelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Maykl Borrelin başçılıq etdiyi «Total» şirkətinin nümayəndə heyətini salamlayan prezident İlham Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Abşeron» blokunda iri qaz yatağının kəşf edilməsini ölkəmizin həyatında əlamətdar hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə yeni qaz yatağının kəşf olunmasının Azərbaycanın dünyanın ən böyük qaz istehsal edən ölkələr sırasında mövqeyini daha da möhkəmləndirəcəyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, bu əlamətdar hadisə Azərbaycanın neft və qaz potensialının indiyəcən təsdiqlənmiş ehtiyatlardan qat-qat çox olduğunun növbəti əyani sübutudur. Dövlətimizn başçısı uzun illərdir Fransanın «Total» şirkətinin Azərbaycanda bir sıra layihələrdə uğurla fəaliyyət göstərdiyini və yeni qaz yatağının kəşfinin böyük nailiyyət olduğunu bildirdi.

«Total» şirkətinin Baş vitse-prezidenti Mayk Borrell «Abşeron» blokunda iri qaz yatağının kəşfinin mühüm hadisə olduğunu bildirdi. Maykl Borrell «Total» şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə uğurla əməkdaşlıq etdiyini dedi. O, «Abşeron» yatağında «Total» şirkətinin həyata keçirdiyi işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Maykl Borrell Fransanın «Total» şirkətinin Azərbaycan ilə

*əməkdaşlığının* bundan sonra da *genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduğunu vurğuladı.*

*Azərbaycan Dövlət Neft Şirkətinin* Birinci vitse-prezidenti *Xoşbəxt Yusifzadə «Abşeron» blokundakı* yeni qaz *yatağının* texniki-iqtisadi *göstəriciləri və perspektivdə görüləcək işlər barədə məlumat* verdi.

Prezident *İlham Əliyev «Abşeron»* blokunda iri qaz *yatağının kəşfi münasibətilə xalqımızı,* bu *layihənin reallaşmasında iştirak edən insanları təbrik* etdi *və* yeni-yeni *uğurlar arzuladı. Dövlətimizin başçısı* yeni *yatağın Azərbaycanın* regionda *və dünyada mövqeyinin möhkəmlənməsinə,* respublikamızın sosial-iqtisadi *inkişafının* daha da *güclənməsinə və xalqımızın* maddi-rifah *halının yaxşılaşmasına mühüm təsir göstərəcəyini vurğuladı.*

# XƏZƏRİN «ABŞERON» BLOKUNDA YENİ BÖYÜK QAZ YATAĞININ KƏŞFİ MÜNASİBƏTİLƏ MƏTBUATA AÇIQLAMA

*9 sentyabr 2011-ci il*

– Bu gün Fransanın «Total» şirkətinin rəhbərliyi qəbulumda olarkən Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Abşeron» yatağında böyük qaz ehtiyatlarının kəşf edilməsi barədə mənə məlumat vermişlər. Mən öz növbəmdə bu şad xəbəri Azərbaycan ictimaiyyətinə çatdırmaq istəyirəm. Azərbaycan xalqını bu hadisə ilə əlaqədar təbrik etmək istəyirəm. Doğrudan da böyük hadisədir. «Abşeron» yatağında böyük həcmdə qaz ehtiyatlarının aşkarlanması Azərbaycanın qaz potensialının inkişafına verilən böyük töhfədir.

«Abşeron» yatağı Azərbaycan geoloqları tərəfindən hələ keçən əsrin 60-cı illərində kəşf edilmişdir. Amma suyun dərinliyini nəzərə alaraq o vaxt bizim imkanımız yox idi ki, bu yataqda işlər aparılsın. Azərbaycanın neft strategiyasının icrası nəticəsində, Heydər Əliyevin təşəbbüsü ilə aparılmış siyasət nəticəsində Azərbaycanın imkanları böyük dərəcədə artmışdır. Hazırda bizdə elə qazma qurğuları var ki, Xəzər dənizinin istənilən yerində qazma və kəşfiyyat işlərini apara bilər.

«Abşeron» yatağı üzrə birinci beynəlxalq kontrakt 1997-ci ildə imzalanmışdır. O vaxt görülən işlər nəticə verməmiş və 2005-ci ildə kontrakta xitam verilmişdir. Ancaq biz inanırdıq. Azərbaycan geoloqları, Azərbaycan Dövlət Neft Şirkətinin mütəxəssisləri inanırdılar ki, «Abşeron» yatağında məhsuldar laylar vardır. Bu inam xarici tərəfdaşlar tərəfindən də ifadə edilmişdir. Bu qarşılıqlı maraq əsasında 2009-cu ildə «Total» şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında «Abşeron» yatağı üzrə ikinci kontrakt imzalanmışdır. Bəlkə də dünya

praktikasında bu çox nadir hallarda rast gəlinən bir məsələdir ki, bir yataq üzrə ikinci dəfə kontrakt imzalansın. Kəşfiyyat işləri hazırda deməyə əsas verir ki, nəticə də oldu. Bir daha demək istəyirəm ki, Abşeronda çox böyük qaz yatağı kəşf edilmişdir.

Bu bizə imkan verəcək ki, qaz strategiyamızı daha da inamla irəliyə aparaq, Azərbaycanı qaz ixrac edən ölkə kimi, dünyada daha da tanıtdıraq, Azərbaycan xalqının maraqlarını təmin edək. Uzun müddət bundan sonra, onilliklər sonra Azərbaycan qaz ixrac edən ölkə kimi, dünya miqyasında özünü göstərəcək və bizim ölkə kimi, əhəmiyyətimiz, şübhəsiz, daha da artacaqdır.

Bizim enerji siyasətimiz bir məqsədi – Azərbaycan xalqının maraqlarını təmin etmək və regional əməkdaşlığı dərinləşdirmək məqsədini güdür. Bu istiqamətdə çox vacib addımlar atılmışdır. Bu gün bizim çoxşaxəli enerji-nəqliyyat infrastrukturumuz vardır. 7 neft-qaz kəmərimiz vardır. Bu gün Azərbaycan nefti və qazı müxtəlif istiqamətlər üzrə Avropa və dünya bazarlarına çatdırılır. Azərbaycan ənənəvi olaraq neft ölkəsi kimi tanınırdı. Bu gün isə Azərbaycan daha çox qaz ixrac edən ölkə kimi, dünya üçün əhəmiyyətlidir. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik.

Bizim planlarımız çoxdur. Biz çoxşaxəli ixrac imkanlarımızı genişləndirmək üçün əməli işlərlə məşğuluq. Əminəm ki, bu ilin sonuna qədər bütün tranzit məsələləri də öz həllini tapacaq və beləliklə, böyük Azərbaycan qazı üçün yeni bazarlar aşkarlanacaqdır.

Avropa İttifaqı ilə Azərbaycan arasında bu istiqamətdə çox səmərəli münasibətlər mövcuddur, səmərəli əməkdaşlıq aparılır. Bu ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi üzrə çox vacib bəyannamə imzalanmışdır və işçi qrupu yaradılmışdır. Bu gün aparılan danışıqlar, əminəm ki, yaxın zamanlarda yaxşı nəticələrə gətirib çıxaracaqdır. Yeni böyük qaz yatağının kəşfi Azərbaycanın enerji təhlükəsizliyinə də böyük töhfədir. Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Bir müddət bundan əvvəl Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən aşkarlanmış «Ümid» yatağı da böyük

potensiala malikdir. Orada qazın həcmi 300 milyard kubmetrdən artıqdır. Bizim ən böyük və dünya miqyasında böyüklərin sırasında yer almış «Şahdəniz» yatağında işlər uğurla gedir. «Şahdəniz» yatağının ikinci fazasının işlənməsi ilə əlaqədar bütün hazırlıq işləri aparılır. Xarici tərəfdaşlarla bu məsələlərlə bağlı ciddi müzakirələr aparılır. Bir sözlə, Azərbaycanın qaz potensialı nəinki ölkəmiz üçün, region üçün, dünya üçün öz əhəmiyyətini göstərməkdədir.

Ölkəmizi qazlaşdırmaq üçün konkret addımlar atılır, bütün bölgələrdə yeni qaz xətləri çəkilir. Qarşıya vəzifə qoyulubdur ki, növbəti 2 il ərzində Azərbaycanda bütün qazlaşma məsələləri öz həllini tapsın və beləliklə, Azərbaycan tam şəkildə qazlaşdırılsın. Bu məsələlərlə əlaqədar konkret tapşırıqlar verilib. Azərbaycanın bu sahədəki siyasəti çox düzgündür, dəqiqdir, Azərbaycan xalqının milli maraqlarına xidmət edir. Əminəm ki, gələcəkdə belə şad xəbərlər çox olacaq. Növbəti illərdə digər yataqlarda kəşfiyyat-qazma işləri aparılacaqdır və beləliklə, Azərbaycanın inkişafı üçün yeni imkanlar yaradılacaqdır.

Bu gözəl hadisə ilə əlaqədar mən bir daha bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Bu doğrudan da çox önəmli, çox vacib hadisədir. Bu bir daha onu göstərir ki, ölkəmizin çox böyük imkanları, böyük potensialı və çox gözəl gələcəyi vardır.

# MƏRDƏKAN QƏSƏBƏSİNDƏKİ HACI ZEYNALABDİN TAĞIYEV ADINA 123 VƏ 181 SAYLI ORTA MƏKTƏBLƏRİN BİNALARINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Hacı Zeynalabdin Tağıyev adına 123 saylı orta məktəbin yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olub, qəsəbədəki 181 saylı orta məktəbdə aparılmış əsaslı təmir işlərinin gedişi ilə maraqlanmışdır.*

*«2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda məktəblərin əsaslı təmir və yenidən qurulması ilə bağlı bu il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərinin binalarında əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Prezident İlham Əliyev Hacı Zeynalabdin Tağıyev adına 123 saylı orta məktəbin təmirdən sonrakı vəziyyəti ilə tanış olmaq üçün bu təhsil ocağına gəldi. Görülmüş işlərlə bağlı dövlət başçısına məlumat verildi. Qeyd edək ki, prezident İlham Əliyev mayın 12-də Xəzər rayonunun Mərdəkan qəsəbəsində görülmüş işlərlə yaxından tanış olarkən sakinlər 123 saylı orta məktəbin binasının əsaslı təmir olunmasını dövlət başçısından xahiş etmişdilər. Prezident İlham Əliyev məktəbin binasının əsaslı şəkildə təmir və bərpa olunması ilə bağlı yerindəcə tapşırıqlar vermişdi. Dövlət başçısının tapşırıqlarına əsasən 123 saylı orta məktəbin binası qısa vaxt ərzində ən müasir standartlara uyğun olaraq əsaslı şəkildə təmir edildi. Məktəbin ayrı-ayrı sinif*

*otaqları, fənn kabinetləri və* laboratoriyalar *tamamilə yenidən* qurulub, *döşəmə və* tavan *dəyişdirilib, fasadı bərpa* edilib. *Məktəb ən müasir* kompyuter *avadanlığı ilə təchiz* edilib. *Məktəbin* idman *meydançası* da *əsaslı şəkildə yenidən* qurulub. Burada idman *dərslərinin keçirilməsi üçün hər cür şərait yaradılıb.*

*Sonra prezident İlham Əliyev Mərdəkan qəsəbəsində 181 saylı* orta *ümumtəhsil məktəbinin binasında əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış* oldu. *Görülmüş işlərlə bağlı prezident İlham Əliyevə məlumat* verildi. Bildirildi ki, *məktəbin binası* 1965-ci *ildə inşa* edilib, 4 hektar *ərazisi vardır.* 964 *şagird* yerlik *181 saylı məktəbdə* 1514 *şagirdin təhsil aldığı, dərslərin iki növbə üzrə tədris olunduğu* qeyd edildi. *Həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə yaxından tanış* olan *dövlət başçısı müvafiq* tapşırıqlarını verdi.

## BAKIDA DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA REGİONAL KOMİTƏSİNİN 61-ci SESSİYASINDA İŞTİRAK

*«Gülüstan» sarayı*

*12 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakıda «Gülüstan» sarayında Dünya Səhiyyə Təşkilatının (DST) Avropa Regional Komitəsinin 61-ci sessiyasının açılışı mərasimində iştirak etmişdir.*

*Dünya Səhiyyə Təşkilatının Baş direktoru xanım Marqaret Çanın, DST-nin Avropa Regional bürosunun direktoru xanım Jujanna Yakabın iştirak etdikləri üçgünlük sessiyada 50-dən çox ölkənin səhiyyə nazirləri, yüksək səviyyəli mütəxəssisləri müxtəlif xəstəliklərlə mübarizə və ictimai sağlamlıq məsələlərinə dair müzakirələr aparacaqlar.*

*Tədbirin Azərbaycanda keçirilməsi təsadüfi deyildir. Son zamanlar ölkəmizdə səhiyyə sistemində mühüm islahatlar həyata keçirilmişdir. Dövlət dəstəyi və qayğısı ilə yanaşı, Heydər Əliyev Fondu da səhiyyə sahəsinin inkişafını fəaliyyətində prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir. Ailə, ana və uşaq sağlamlığının qorunması fondun diqqətdə saxladığı əsas sahələrdəndir. Bununla bağlı fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən zəruri proqram və layihələr Azərbaycanda səhiyyə sahəsinin inkişafına əvəzsiz töhfələr vermişdir.*

*Prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

– Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar! Hörmətli Baş direktor!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Dünya Səhiyyə Təşkilatının

Avropa Regional Komitəsinin sessiyasının Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox mühüm və əlamətdar bir hadisədir. Mən çox şadam ki, bu gün Avropa qitəsini təmsil edən nümayəndələr bizim qonaqlarımızdır. Əminəm ki, sessiyanın işi uğurlu olacaq və eyni zamanda, qonaqlar ölkəmizlə, şəhərimizlə tanış olacaqlar.

Biz çox şadıq ki, Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıq çox uğurla və sürətlə inkişaf edir. Təşkilatın verdiyi tövsiyələr, məsləhətlər bizim üçün çox dəyərlidir və Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlar üçün çox qiymətlidir. Mən bu gün xüsusilə Dünya Səhiyyə Təşkilatının Baş direktoru xanım Marqaret Çanı səmimiyyətlə salamlamaq istəyirəm. Xanım Çan bizim DOStumuzdur, ölkəmizin dostudur və birinci dəfə deyil ki, Azərbaycanda səfərdədir. Hər dəfə Azərbaycanda olarkən və müzakirələr aparılarkən biz bir daha əmin oluruq ki, bu təşkilata çox dəyərli insan rəhbərlik edir və təşkilatın son illərdəki nüfuzunun artması üçün Baş direktorun çox böyük zəhməti vardır.

Azərbaycanda səhiyyə məsələlərinə çox böyük diqqət göstərilir. Bu gün yəqin ki, müzakirələr zamanı bu məsələ ilə bağlı məlumatlar veriləcəkdir. Deyə bilərəm ki, dövlətimiz və hökumətimiz sosial məsələlərin həllinə çox böyük diqqət yetirir. Təkcə bəzi rəqəmləri qeyd etməklə görmək mümkün olacaq ki, doğrudan da bizim bu sahədəki siyasətimiz çox dəqiqdir və müsbətdir. Son 5 il ərzində səhiyyə məsələlərinə ayrılan dövlət büdcə xərclərimiz 8 dəfədən çox artmışdır. Yəni bu məsələ bizim üçün prioritetdir. Dövlətimiz insanların sağlamlığının təmin edilməsi üçün əlindən gələni etməyə çalışır. Son illərdə səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi üçün konkret addımlar atılmışdır. Çünki müstəqilliyimizin ilk illərində Azərbaycanda iqtisadi vəziyyət çox ağır idi, ölkədə böhran hökm sürürdü, maliyyə imkanlarımız çox məhdud idi və vaxtilə – keçmiş dövrlərdə yaradılmış səhiyyə müəssisələri də yararsız vəziyyətə düşmüşdü. Biz çox istəyirdik ki, tezliklə bu məsələ ilə bağlı dönüş yaradaq. Son bir neçə ildə Azərbaycanda

tikilmiş və əsaslı təmir edilmiş səhiyyə müəssisələri bu gün müasir Azərbaycanın reallıqlarını əks etdirir. Son illər ərzində ölkəmizdə 400-dən artıq səhiyyə müəssisəsi tikilib və yaxud əsaslı şəkildə təmir edilib. Onların arasında xüsusi əhəmiyyət kəsb edən, son bir neçə il ərzində Bakıda yaradılmış Onkoloji Mərkəzi qeyd etmək istərdim. Çox müasir Oftalmologiya Mərkəzi, Urologiya Mərkəzi, Talassemiya Mərkəzi tikilmişdir, Elmi Cərrahiyyə Mərkəzi yaradılmışdır. Ölkəmizdə Perinatal mərkəzlər yaradılır. Demək olar ki, bütün şəhərlərdə xəstəxanalar təmir olunur və tikilir. 14 şəhərdə ən müasir standartlara cavab verən müalicə–diaqnostika mərkəzləri tikilmişdir və orada hemodializ qurğuları quraşdırılmışdır. Qeyd etmək istəyirəm ki, dövlət səhiyyə müəssisələrində bütün xidmətlər pulsuzdur.

Son illər ərzində müasir avadanlığın alınması üçün böyük vəsait xərclənmişdir. Hesab edirəm ki, səhiyyə sistemində müşahidə olunan müsbət dinamika, o cümlədən səhiyyə sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi hesabına mümkün olmuşdur.

Bununla bərabər, səhiyyə sahəsində aparılan islahatlar, ən mütərəqqi təcrübənin Azərbaycanda tətbiq edilməsi, beynəlxalq əlaqələr, həkimlərimizin təkmilləşdirilməsi məsələlərinə verilən diqqət, xarici klinikalarda Azərbaycan həkimlərinin öyrədilməsi və təhsili – bütün bu məsələlər hesab edirəm ki, səhiyyə sahəsində ciddi dönüşə gətirib çıxarmışdır və əlbəttə ki, görülən işlərin nəticəsi insanların sağlamlığıdır. Azərbaycanda bu sahədə müsbət dinamika onu göstərir ki, son illər ərzində insanların uzunömürlülüyü artır, uşaq ölümü, ana ölümü azalır. Biz elə etməliyik ki, bu müsbət dinamikanı saxlayaq və gələcəkdə səhiyyə ilə bağlı nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapsın. Bizim planlarımız çoxdur. Hazırda bir neçə şəhərdə, o cümlədən Bakı şəhərində yeni, müasir səhiyyə ocaqları tikilir və onların istifadəyə verilməsi nəticəsində deyə bilərəm ki, Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazası tam şəkildə yeniləşəcəkdir.

İnsanın sağlamlığını şərtləndirən digər sahələrə də Azərbaycanda çox böyük diqqət göstərilir. İlk növbədə ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün konkret addımlar atılır. Siz yaxşı bilirsiniz ki, ekologiyanın insanın sağlamlığına çox böyük – həm müsbət, həm mənfi təsiri ola bilər. Keçən il Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Çox böyük tədbirlər görülmüşdür. İl yarım ərzində ölkəmizdə 10 milyondan artıq ağac əkilmişdir. Ekoloji vəziyyətin yaxşılaşdırılması bilavasitə insanların sağlamlığına təsir göstərir. Ölkəmizin hər bir yerində böyük su layihələri icra edilir. Su, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda çox kəskin, çox ciddi problem olub. Biz bu problemin həlli üçün konkret addımlar atırıq və 2013-cü ilin sonuna qədər Azərbaycanda əhaliyə verilən su Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verməlidir. Bu bir meyardır və biz çalışacağıq ki, bu məqsədlərə nail olaq. Bu layihələr çox böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır və beynəlxalq təşkilatlar da bizə kreditlərlə kömək edirlər. Mən tam əminəm ki, içməli su və kanalizasiya layihələrinin icra edilməsi nəticəsində bu amillər də insanların sağlamlığına çox müsbət təsir göstərəcəkdir.

İnsanların sağlamlığını şərtləndirən amillərdən biri də idmandır. Son illər ərzində ölkəmizdə 30-dan çox Olimpiya İdman Kompleksi, idman meydançaları tikilmişdir. Ölkəmizdə idmanla, fiziki hazırlıqla məşğul olmaq üçün çox gözəl şərait yaradılmışdır. Biz gəncləri idmana cəlb etməklə bir neçə məqsədi güdürük. Birinci növbədə, onlar sağlam olurlar, digər tərəfdən, biz gəncləri pis vərdişlərdən çəkindirməliyik. Azərbaycanda narkomaniyaya qarşı çox ciddi mübarizə aparılır. Bu yaxınlarda «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı qəbul edilmişdir. Gənclərin sağlam böyüməsi gələcəkdə səhiyyə problemlərinin azalmasına gətirib çıxaracaqdır. Çünki insan uşaqlıq yaşlarından, gənc yaşlarından öz səhhətinə fikir verməlidir.

Mən səhiyyə məsələləri ilə bağlı çıxışlarımda dəfələrlə vurğulayıram ki, hər bir vətəndaş, hər bir insan ildə bir dəfə müayinədən keçməlidir. O zaman xəstəliyi aşkarlamaq da asan olacaqdır. Əfsuslar olsun ki, keçmiş dövrlərdə bu praktika bizdə yox idi. Bu sahədə görülmüş bütün işlərlə bərabər, maarifləndirmə işlərini də yüksək səviyyədə qurmalıyıq. Nəzərə alsaq ki, bu gün Azərbaycanda istənilən xəstəliyi müalicə etmək üçün imkanlar var, tezliklə o xəstəlik aradan qalxa bilər. Dünya Səhiyyə Təşkilatının bu məsələ ilə bağlı təcrübəsi bizim üçün çox dəyərlidir, çox vacibdir. Avropa Regional Komitəsinin təcrübəsi də çox vacibdir. Azərbaycan Avropa ölkələri ilə çox sıx əlaqədədir. Bir neçə proqram icra edilir. Avropa İttifaqı ilə münasibətlərimiz güclənir. Azərbaycan «Şərq Tərəfdaşlığı» Proqramının üzvüdür. Bu proqrama qoşulmağımızın əsas səbəbi ondan ibarətdir ki, biz Avropa ölkələrinin qabaqcıl təcrübəsini Azərbaycanda tətbiq edək, Avropa standartlarına yaxın olaq və gələcəkdə istənilən sahədə öz vəziyyətimizi Avropa standartlarına uyğunlaşdıraq. Ona görə, bu məsələlərlə bağlı bu sessiya zamanı keçiriləcək müzakirələr bizim üçün çox vacibdir.

Ölkəmizdə sosial məsələlərin həlli ilə bərabər çox ciddi iqtisadi islahatlar aparılır. Əgər bu iqtisadi islahatlar səmərə verməsəydi, dediyim bu məsələlərlə məşğul olmaq bizim üçün daha da çətin olardı. İqtisadiyyatımız son 7 ildə dünya miqyasında ən yüksək templərlə inkişaf etmişdir. Son 7 ildə Azərbaycanda ümumi daxili məhsul təxminən 3 dəfə, yəni 300 faizə yaxın artmışdır. Bu, dünya praktikasında nadir göstəricidir. Ölkəmizin keçmişinə xas olan yoxsulluq problemi də aradan qaldırılır. Yoxsulluq şəraitində yaşayanların sayı son 7 il ərzində 49 faizdən 9 faizə düşmüşdür. Bu da hesab edirəm ki, dünya praktikasında ən sürətli inkişafdır. Ölkəmizdə ağır vəziyyətdə yaşayan ailələrə dövlət tərəfindən dəstək verilir. Ağır vəziyyətdə yaşayan 125 min ailə dövlətdən ünvanlı sosial yardım alır. Dünyada hökm sürən maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycanda bir dənə də olsun sosial proqrama

dəyişiklik edilməmişdir. Bir dənə də olsun yubanma, yaxud da ki, geriləmə olmayıb. Əksinə, bu il Azərbaycan pensiyaçılarının pensiya təminatı yaxşılaşdırılmış və orta hesabla pensiyalar 40 faiz artmışdır. Yaşlı nəsil üçün bu birbaşa onların sağlamlığına verilən töhfədir. Çünki yaşlı nəsil, əfsuslar olsun ki, dərmanların alınmasına daha çox vəsait xərcləyir. Yaşlı nəslin sağlamlığı daha da böyük diqqət tələb edir.

Bir sözlə, ölkəmizdə son illər ərzində sosial və iqtisadi islahatlar müsbət nəticələrə gətirib çıxarıb. Əlbəttə ki, ölkə qarşısında problemlər vardır. Biz çalışırıq ki, bu problemləri həll edək. İqtisadi sahədə seçdiyimiz yol düzgün yoldur. Tam əminəm ki, Azərbaycanın iqtisadiyyatı bundan sonra da uğurla inkişaf edəcəkdir. Sosial məsələlərə gəldikdə isə, hər bir sosial məsələ ilə bağlı ciddi konkret Dövlət Proqramımız vardır və bu proqramlar icra edilir.

Beynəlxalq təşkilatlar Azərbaycanda görülən işlərə öz qiymətini verir. İnsan inkişafı indeksinə görə, Azərbaycan son 5 il ərzində dünya miqyasında ən böyük irəliləyişə nail olan ölkədir. Dünya İqtisadi Forumunun hesablamalarına görə, ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə, Azərbaycan dünyada 55-ci yerdədir. Keçmiş sovet respublikaları arasında üçüncü, MDB məkanında isə birincidir. Bu göstəricilər bizi daha da ruhlandırır. Beynəlxalq təşkilatların, xüsusilə Dünya Səhiyyə Təşkilatı kimi mötəbər və nüfuzlu təşkilatın Azərbaycana verdiyi diqqət bizim üçün çox qiymətli və vacibdir.

Əziz dostlar, mən sizin hamınızı Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram! Sizə və sessiyanın işinə uğurlar arzulayıram!

## DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU XANIM MARQARET ÇAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Dünya Səhiyyə Təşkilatının Baş direktoru xanım Marqaret Çanı qəbul etmişdir.*

*Baş direktor xanım Marqaret Çan Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin 61-ci sessiyasının ölkəmizdə yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə, şəxsən prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycana bundan əvvəlki səfərlərini məmnunluqla xatırladan xanım Marqaret Çan ötən dövr ərzində ölkəmizdə yüksək inkişafın şahidi olduğunu qeyd etdi. O, dünyanın 53 ölkəsini təmsil edən nümayəndə heyətlərinin bu tədbirdə iştirakının ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq baxımından önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin 61-ci sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev dünyanın müxtəlif ölkələrindən olan nümayəndə heyətlərinin Azərbaycanla, o cümlədən ölkəmizdə səhiyyə sahəsində görülən işlərlə yaxından tanış olması üçün bu tədbirin yaxşı fürsət yaratdığını bildirdi. Dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Dünya Səhiyyə Təşkilatı ilə ölkəmizin müvafiq qurumları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edən*

*dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

## FRANSANIN NƏQLİYYAT ÜZRƏ DÖVLƏT KATİBİ TİERRİ MARİANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Fransanın Nəqliyyat üzrə Dövlət katibi Tierri Marianinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu, Fransa şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiyi qeyd edildi, nəqliyyat sektorunda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Almaniya Federativ Respublikasının sabiq Xarici İşlər naziri Yoşka Fişeri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Almaniya Federativ Respublikası arasında ikitərəfli münasibətlər, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## QOBUSTAN VƏ ŞAMAXI RAYONLARINA SƏFƏR

*Qobustan*

*13 sentyabr 2011-ci il*

*Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustan rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzindəki Heydər parkında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Heydər Əliyev prospektində yerləşən bu park 2007-ci ildə istifadəyə verilmiş, 4 hektardan çox ərazisi olan Heydər parkında yaşıllıq zolağı genişləndirilmiş, göz oxşayan fəvvarə kompleksi yaradılmışdır. Parkda rayon sakinlərinin istirahəti üçün hər cür şərait vardır.*

### Eksperimental Poliqonu və Tədris Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Qobustan rayonuna səfəri çərçivəsində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 38 hektar ərazidə inşa olunmuş Mərkəz külək, günəş və bioqaz stansiyaları ilə təchiz edilib. Bu isə ölkədə alternativ enerjinin hər üç yolla əldə edilməsi istiqamətində görülən işlərin real nümunəsidir.*

*Prezident İlham Əliyev Mərkəzin fəaliyyətini əks etdirən stendlə tanış oldu. Bildirildi ki, poliqon ərazisində hər birinin gücü 0,9 meqavata çatan üç külək turbini, 1,8 meqavat gücündə günəş*

enerjisi stansiyası və 1 meqavat gücündə bioenerji qurğusu yaradılıb. Burada eyni zamanda, tənzimləyici qurğu, su anbarı, sınaq meydanı, emalatxana fəaliyyət göstərir. Ərazidə yaradılan xüsusi avtodayanacaqda isə elektrik enerjisi ilə işləyən avtomobillərin akkumulyatorlarını cərəyanla doldurmaq mümkündür. Bir necə dəqiqə ərzində enerji ilə təchiz edilən avtomobil 250 kilometr məsafə qət edə bilər.

Sonra dövlətimizin başçısı idarəetmə mərkəzi ilə tanış oldu. Məlumat verildi ki, burada yaradılan laboratoriyada Mərkəzdə istifadə olunan qurğuları yoxlamaq və eksperimentlər aparmaq mümkündür. İki tədris otağında təlim və tədris kurslarının təşkili nəzərdə tutulmuşdur. Poliqonda və Mərkəzdə texnoloji proses dispetçer məntəqəsindən idarə olunur. Ümumilikdə agentlik tərəfindən ölkə ərazisində 21 ölçü-müşahidə stansiyasının tikilməsi nəzərdə tutulmuşdur ki, bunun birincisi Qobustandakı Mərkəzdə yaradılıb.

Prezident İlham Əliyev Mərkəzi işə saldı.

Dövlətimizin başçısı günəş enerjisinin əldə olunması üçün ayrıca sahədə yerləşən panelləri müşahidə etdi, Mərkəzin sınaq-təcrübə sahəsi ilə tanış oldu. Bildirildi ki, burada alternativ enerji ilə istənilən bitkini lazımi temperaturda yetişdirmək mümkündür.

Poliqonun ərazisini gəzən prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, burada qurulan işıqlandırma sistemi və istixana alternativ enerji ilə işləyir. Ərazidə birmərtəbəli 10 yaşayış binası da inşa olunmuşdur ki, onların işıqlandırma sistemi günəş enerjisi ilə işləyir. Mərkəzin gücünün gələcəkdə 5,5 meqavata çatdırılması nəzərdə tutulub.

Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzinin açılışından sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## QOBUSTAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2011-ci il*

**İ l h a m   Ə l i y e v:** Bu gün Qobustanda çox gözəl və tarixi hadisə baş verir. Mənə verilən məlumata görə, Azərbaycanda dünyada ilk dəfə olaraq hibrid tipli müasir günəş və külək elektrik stansiyasının açılışını qeyd edirik. Bu həm Qobustan, həm də ölkəmiz üçün çox gözəl hadisədir. Bu müasirlikdir, yenilikdir, yeni texnologiyalardır. Biz bu texnologiyaları hazırda xaricdən alırıq, Azərbaycanda indi tikilməkdə olan günəş batareyaları zavodu da yaxın zamanlarda işə başlayacaqdır. Beləliklə, biz birinci mərhələdə Qobustan şəhərini tam şəkildə alternativ, yəni bərpa olunan enerji ilə təmin etməliyik. Əgər bu layihə uğurlu olarsa – mən şəxsən buna şübhə etmirəm – ondan sonra biz bu gözəl təcrübəni başqa şəhərlərdə və rayonlarda tətbiq edə biləcəyik. Buraya böyük investisiyalar qoyulubdur. Həm günəş batareyaları quraşdırılıb, həm də külək elektrik stansiyasının fəaliyyəti üçün lazımi avadanlıq gətirilibdir. Burada tədris işləri də yüksək səviyyədə təşkil ediləcək, təcrübə mübadiləsi aparılacaqdır. Qobustan, hesab edirəm ki, alternativ və bərpa olunan enerjinin istehsalı üçün nəinki Azərbaycanda, bütün bölgədə öz sözünü deyəcəkdir. Rayonun imkanları artacaqdır. Hər bir vətəndaş üçün ucuz enerjidən istifadə etmək onun ailə büdcəsinə dəstək olacaqdır.

Azərbaycan inkişaf edir, bütün qabaqcıl texnologiyalar tətbiq edilir. Ölkəmizdə istənilən sahədə, o cümlədən bizim üçün yeni olan bərpa edilən enerji sahəsində dünyada mövcud olan ən yüksək standartlar tətbiq edilir. Sual yarana bilər: Azərbaycanın zəngin neft-qaz yataqları olduğu təqdirdə nə üçün biz bu işə o qədər böyük maraq göstəririk?! Hesab edirəm, məhz o ölkələr ki,

təbii ehtiyatlarla zəngindir, onlar bu işlərdə qabaqcıl rol oynamalıdırlar. Bizim təbii ehtiyatlarımız var, enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Bu gün nəinki özümüzü, qonşu ölkələri də həm elektrik enerjisi ilə, həm qazla, həm neftlə təmin edirik. Ancaq biz istəyirik ki, təbii ehtiyatlarımızdan daha da az, bərpa olunan alternativ enerji mənbələrindən isə tam şəkildə istifadə edək. Bu məqsədlə bir müddət bundan əvvəl bərpa olunan enerji üzrə Dövlət Agentliyi yaradılıbdır. Agentliyin işi artıq göz qabağındadır. Bu birinci layihədir, planlar çox böyükdür. Mənə bu gün verilən məlumata görə, ölkə üzrə müşahidə sistemi quraşdırılır, yerlər müəyyən edilir, harada ki, biz külək və günəş enerjisini istehsal edəcəyik, o yerlər, əlbəttə ki, ümumi enerji şəbəkəsinə yaxın olmalıdır. Bu sistem kənd təsərrüfatı üçün yararlı olmayan torpaqlarda quraşdırılmalıdır ki, biz torpağımızdan da səmərəli şəkildə istifadə edək.

Bu sistem tam yeni bir yanaşmadır. İndi dünyada ən qabaqcıl təcrübə nədirsə, burada quraşdırılır. Ondan da əlavə, dünya miqyasında birinci hibrid tipli elektrik stansiyasıdır. Əlbəttə ki, bu, ölkəmiz üçün yeni bir təşəbbüsdür. Hesab edirəm ki, bir neçə ildən sonra bu gün burada göstərilən imkanlardan Azərbaycan vətəndaşları səmərəli şəkildə istifadə edəcəklər, o cümlədən Qobustan rayonunun sakinləri.

Qobustanda indi işlər yaxşı gedir. Burada kənd təsərrüfatının inkişafı üçün vəsait ayrılır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlər verilir. Bu gün yeni taxıl anbarının açılışında iştirak etmişəm. Tingçilik inkişaf edir. Kənd təsərrüfatının inkişafı üçün yaxşı imkanlar vardır. O ki qaldı infrastruktur layihələrinə, bu layihələr də icra edilir. Yollar çəkilir və çəkilməlidir. Qazlaşdırma gedir. Yeni qaz xətləri çəkilir, məktəblər tikilir. Burada insanların rahat yaşaması üçün lazım olan bütün işlər görülür.

Mən əvvəlki dövrlərdə də Qobustanda olmuşam. Bu gün də buraya gələrkən görürəm ki, rayonda işlər yaxşı səviyyədə aparılır. Ancaq burada bu gün açılışında iştirak etdiyimiz stansiya

Azərbaycan tarixində artıq yerini tutan bir məsələdir, bir layihədir. Burada bu gün yaradılan imkanlar, bir daha demək istəyirəm ki, bir neçə ildən sonra bütün ölkəmizdə özünü büruzə verəcəkdir. İnanıram ki, Azərbaycanın təcrübəsi başqa ölkələrdə də tətbiq olunacaqdır.

Bir daha sizi salamlayıram, sizə uğurlar arzulayıram.

## Müasir taxıl anbarı kompleksi ilə tanışlıq

*Sentyabrın 13-də Azərbaycan prezidenti İlham Əliyev Qobustan rayonuna səfəri çərçivəsində müasir taxıl anbarı kompleksi ilə tanış olmuşdur.*

*Diqqətə çatdırıldı ki, prezident İlham Əliyevin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş «2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na uyğun olaraq İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən respublikamızın regionlarında taxıl məhsullarının saxlanılması üçün ümumi dəyəri 39,7 milyon manat, tutumu 267 min ton olan 17 taxıl anbarı kompleksinin inşasına 21,4 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələrin icrası artıq başa çatdırılmışdır.*

*Taxıl anbarı kompleksinin sxemi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, buraya gətirilən taxıl əvvəlcə girişdəki tərəzidə çəkilir, sonra konveyerlərlə birinci anbara ötürülür. Burada taxıl təmizlənir, dərmanlanır, yenə də elevatorlarla növbəti anbara nəql edilir. Keyfiyyətin saxlanması məqsədi ilə anbarlardakı taxılın yerləri tez-tez dəyişdirilir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Tinglik Mərkəzi ilə tanışlıq

*Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustan rayonuna səfəri çərçivəsində «Kafurpas» MMC-nin Tinglik Mərkəzi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat* verildi ki, *adətən, Azərbaycanın müxtəlif ərazilərində əkilən ağac və bəzək kolları* xarici *ölkələrdən* idxal olunur. Qobustanda *yaradılan* Tinglik *Mərkəzi isə bu məsələnin* daha *sərfəli* yolla *həllinə şərait yaradır. Ağac,* kol *bitkilərinin reabilitasiyasının təşkili və* dekorativ *bitkilərin becərilməsi üçün seçilən bu ərazi bütün lazımi şəraitlə təmin* edilmişdir. Tinglik *Mərkəzinə üç* kilometr *məsafədən* su *xətti çəkilmişdir.* Suvarma sistemi avtomat*laşdırılmışdır. Mərkəzdə* su deposu *yaradılmışdır. Açıq* su deposunun *üzərində dördmərtəbəli* otel tikilir. *Ərazidə* inzibati bina *ilə yanaşı, istirahət guşələri, üç meydança, müxtəlif* attraksion *qurğuları yaradılmışdır. Buradakı* iki *süni göldə balıq saxlanılır.*

*Dövlətimizin başçısı elektromobillə Mərkəzin ərazisini gəzdi.*

Sonra *Mərkəzin* bitki *sərgisi ilə tanış* olan *dövlət başçısı görülmüş işlərdən razılığını* bildirdi, *tapşırıq və tövsiyələrini* verdi.

## ŞAMAXIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*13 sentyabr 2011-ci il*

*Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ulu öndərin abidəsinin yerləşdiyi parkda son vaxtlarda yenidənqurma və abadlıq işləri görülmüş, burada əhalinin istirahəti üçün hər cür şərait yaradılmış, yaşıllıq zolağı genişləndirilmişdir.*

### Olimpiya İdman Kompleksində aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Sentyabrın 13-də prezident İlham Əliyev Şamaxıya səfəri çərçivəsində Olimpiya İdman Kompleksində aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlət başçısının diqqətinə çatdırıldı ki, burada yenidənqurma işlərinə ötən il başlanılmışdır. Layihəyə əsasən 2,5 min kvadratmetr sahəsi olan əsas binanın və digər yardımçı binaların fasadı müasir örtüklə və xüsusi dizayna malik şüşələrlə üzlənir. Kompleksin bütün elektrik, işıqlandırma, havalandırma, su təchizatı və kanalizasiya sistemləri yenilənir. Kompleksin böyük idman zalında da yenidənqurma işləri aparılır, burada idmanın bütün növləri üzrə yarışların keçirilməsi üçün hər cür şərait yaradılacaqdır. Üzgüçülük hovuzunun tavanı iki metrədək qaldırılmışdır. Dam örtüyünün metal konstruksiyaları dəyişdirilmişdir. Hovuz yeni müasir avadanlıqla təchiz edilir.*

*Hazırda hovuzda havalandırma və sutəmizləyici qurğular quraşdırılır.*

*Dövlətimizin başçısı burada inşası nəzərdə tutulan «Olimpik» otelinin görüntülərini əks etdirən filmə baxdı və perspektiv planla tanış oldu.*

*Azərbaycan prezidenti stadionla da tanış oldu. Bildirildi ki, 2 min nəfərlik tribunası olan stadion beynəlxalq standartlara uyğun inşa edilir. Artıq stadionun tribuna hissəsi və oyun meydanının tikintisi başa çatdırılmışdır. Burada altıcərgəli yeni qaçış zolağı da salınır. Ərazidə müasir tələblərə uyğun 8 kottec inşa edilir. Bu kotteclərdə ümumilikdə 60 nəfəri yerləşdirmək mümkün olacaqdır.*

*Prezident İlham Əliyev görülmüş işlərlə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## Cümə məscidində aparılmış bərpa və yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Şamaxı Cümə məscidində aparılmış bərpa və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Azərbaycan prezidentinə əvvəlcə məscidin ətrafında aparılmış abadlıq işləri barədə məlumat verildi.*

*Məsciddə aparılmış yenidənqurma işləri ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən biri olan Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa edilmişdir. 1859-cu və 1902-ci illərdə baş verən zəlzələlər Cümə məscidinə ciddi ziyan vurmuşdur. Sonralar məscid Azərbaycanın ilk ali təhsilli memarı Zivər bəy Əhmədbəyovun və Polşa mühəndisi İosif Ploşkonun layihəsi əsasında yenidən bərpa olunmuşdur. 1918-ci ilin martında ermənilər tərəfindən Şamaxıda törədilmiş soyqırımı zamanı ən böyük qırğın Cümə məscidində baş*

vermişdir. Şamaxılıların Allah evi kimi, məscidə sığınmasından istifadə edən ermənilər burada yanğın törədərək təxminən 1700 günahsız insanı qətlə yetirmişlər. Lakin sovet dövründə təyinatı üzrə istifadə olunmayan məscid məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Ümummilli lider Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1980-ci ildə bu tarixi abidə təmir olunmuşdur.

Prezident İlham Əliyevin ötən illərdə Şamaxıya səfəri çərçivəsində Cümə məscidində olması və «Şamaxıdakı Cümə məscidi Dövlət Tarix-Memarlıq Abidəsinin bərpası ilə əlaqədar tədbirlər haqqında» sərəncam imzalaması da bu müqəddəs amaldan qaynaqlanır.

Heydər Əliyev Fondu da bu istiqamətdə bir sıra mühüm layihələr həyata keçirir. Fondun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan «Tolerantlığın ünvanı: Azərbaycan» layihəsi çərçivəsində Şamaxıdakı Cümə məscidində aparılmış işlər Azərbaycan–Şərq memarlığının incisi olan bu abidəyə də ikinci həyat verir.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Şamaxı Cümə məscidində əsaslı təmir və bərpa işlərinə 2010-cu ilin martında başlanılmışdır. Baş plana əsasən, hazırda ikimərtəbəli inzibati binanın, məişət binasının, məscidə giriş pilləkəninin və körpücüyün tikintisi başa çatdırılmışdır. Məscidin 36 metr hündürlüyündəki iki minarəsinin tikintisi artıq sona yetmişdir. Minarələrin davamlılığını artırmaq məqsədi ilə 15 metr dərinliyində özülbərkitmə işləri aparılmışdır. Hazırda obyektdə tamamlama-bəzək işləri davam etdirilir.

Bildirildi ki, Şamaxı seysmik zonada yerləşdiyi üçün məscidin bünövrəsi bir metr dərinliyində dəmir-beton konstruksiyalarla möhkəmləndirilmişdir.

Cümə məscidində aparılmış bərpa və yenidənqurma işlərinin yüksək keyfiyyətlə, Azərbaycanın çoxəsrlik milli memarlıq irsi ənənələrinə uyğun şəkildə yerinə yetirilməsi üçün dövlətimizin başçısının sərəncamı ilə prezidentin ehtiyat fondundan Şamaxı Rayon İcra Hakimiyyətinə vəsait ayrılmışdır. Bu da memarlıq

*üslubu, qədimliyi və orijinallığı ilə seçilən Şamaxı Cümə məscidinin yenidən qurulmasına imkan verəcəkdir. Beləliklə, Şərq memarlığının nadir incilərindən olan Şamaxı Cümə məscidi ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğının bariz nümunəsinə çevriləcəkdir.*

*Prezident İlham Əliyev məscidin istifadəyə veriləndən sonrakı görüntüsünü əks etdirən stendə baxdı, tövsiyə və tapşırıqlarını verdi.*

## Sabir qəsəbəsində böyük şairin abidəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Şamaxı rayonuna səfəri çərçivəsində sentyabrın 13-də Sabir qəsəbəsinə gəldi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son vaxtlarda qəsəbənin küçələrində geniş abadlıq işləri görülmüş, elektrik və digər kommunal xətləri yenilənmiş, geniş yaşıllaşdırma işləri aparılmışdır. Qəsəbənin girişində görkəmli şair Mirzə Ələkbər Sabirin abidəsi ucaldılmışdır.*

*Prezident İlham Əliyev dahi Azərbaycan şairi Mirzə Ələkbər Sabirin abidəsinin açılışında iştirak etdi, önünə gül dəstəsi qoydu.*

## «Şirvan» mehmanxanasında aparılmış yenidənqurma işlərinin gedişi ilə tanışlıq

*Sentyabrın 13-də Azərbaycan prezidenti İlham Əliyev Şamaxıda «Şirvan» mehmanxanasında aparılmış yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bina 1974-cü ildə inşa edilmiş, ötən ilə qədər istifadədə olmuşdur. Binanın istifadəyə yararsız olması nəzərə alınaraq 2010-cu ilin fevralından mehmanxanada təmir işlərinə başlanılmışdır. Onmərtəbəli, 36 nömrəsi olan mehmanxananın sahəsi 6 min kvadratmetrdir.*

*Prezident İlham Əliyev nümunəvi nömrələrin birində yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, əsas binada mini bar, hovuz, SPA mərkəzi, sauna, gimnastika bölməsi, türk hamamı, bilyard klubu, 10-cu mərtəbədə 60 nəfərlik restoran fəaliyyət göstərəcəkdir. Bundan əlavə, mehmanxananın həyatində tikiləcək binada böyük konfrans zalı, tədbirlərin keçirilməsi üçün müxtəlif zallar və digər inzibati otaqlar olacaqdır. Ərazidə uşaqlar üçün də oyun meydançaları yaradılacaqdır.*

*Bildirildi ki, bu mehmanxana kompleksi böyük turizm potensialı olan Şamaxıda qonaqların qəbul edilməsində mühüm rol oynayacaqdır. Bundan əlavə, rayona dincəlməyə gələnlərin rahat şəraitlə təmin olunmasına geniş imkanlar açacaqdır.*

*Dövlətimizin başçısı mehmanxananın yenidənqurmadan sonrakı vəziyyətini əks etdirən stendlə tanış oldu, tapşırıqlarını verdi.*

## Vergilər Nazirliyinin yeni Tədris Mərkəzinin açılışı mərasimi

*Sentyabrın 13-də Azərbaycan prezidenti İlham Əliyev Şamaxıda Vergilər Nazirliyinin yeni Tədris Mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərkəzin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Vergilər naziri Fazil Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, son illərdə ölkəmizdə vergi sistemində aparılan islahatlar, ilk növbədə bu sahədə modern texnologiyaların tətbiqinə, yeni kadr hazırlığının həyata keçirilməsinə yönəlmişdir.*

*Prezident İlham Əliyev Tədris Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, Tədris Mərkəzinin inşasına 2008-ci ildə başlanılmışdır. 2,5 hektar ərazidə aparılmış inşaat işləri yüksək tikinti standartlarına tam cavab verir. Mərkəzin kompleksinə üçmərtəbəli tədris binası, ikimərtəbəli inzibati bina, müdavim*

*və müəllim yataqxanaları, o cümlədən dəvət olunan ekspertlər üçün nəzərdə tutulan ikimərtəbəli dörd qonaq evi daxildir.*

*Prezident İlham Əliyevə yaxın gələcəkdə vergi sistemində tətbiq olunacaq yeni nəzarət-kassa aparatları və post-terminallar barədə də məlumat verildi. Qeyd olundu ki, bu avadanlıqlar müasir tələblərə cavab verir və onların istifadəyə buraxılması vergi sistemində həyata keçirilən islahatların daha dolğun yerinə yetirilməsinə geniş imkanlar açacaqdır.*

*Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən fotoguşə yaradılmışdır. Burada prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli fəaliyyətin, o cümlədən vergi sisteminə göstərdiyi diqqət və qayğının müxtəlif məqamlarını əks etdirən fotolar və elmi-kütləvi ədəbiyyat nümayiş etdirilir.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, hazırda nazirliyin sistemində vergi tədris modeli layihəsi uğurla tətbiq edilir. Bu layihədən vergi orqanları əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılması prosesində mühüm vasitə kimi istifadə olunur. Həmçinin informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə əməkdaşların məsafədən tədrisinin müxtəlif formaları tətbiq edilir. Əməkdaşların bilik və peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi də işdən ayrılmadan onlayn rejimində yerinə yetirilir.*

*Prezident İlham Əliyev müdavimlər üçün nəzərdə tutulan yataqxanadakı şəraitlə də tanış oldu. Mərkəzin idman-sağlamlıq kompleksində yaradılan şəraitlə tanışlıq zamanı bildirildi ki, burada 80 kvadratmetrlik üzgüçülük hovuzu yaradılmış, trenajorlar quraşdırılmışdır. Kompleksdə eyni vaxtda 20 nəfərə xidmət göstərən kafe də vardır.*

*Tədris Mərkəzinin həyətyanı sahəsini gəzən dövlətimizin başçısı dəvət olunan xarici qonaqlar və ekspertlər üçün nəzərdə tutulan evlərdə yaradılan şəraitlə maraqlandı. Bildirildi ki, ikimərtəbəli evlərdə hər cür şərait yaradılmışdır.*

**İ l h a m  Ə l i y e v:** Bu Mərkəz bütün yüksək standartlara cavab verir. Çox şadam ki, qısa müddət ərzində Vergilər Nazirliyi belə gözəl şərait yaradıbdır. Azərbaycanın gözəl guşəsində, Şamaxıda belə mənzərəli yerdə ən müasir standartlara cavab verən Tədris Mərkəzi tikilibdir. Bu, gözəl hadisədir və Azərbaycanın ümumi inkişafı ilə bilavasitə bağlı olan məsələdir. Çünki təhsil, bilik, elm, iqtisadiyyatımızın elmi əsaslarla inkişafı bizim üçün ən vacib olan məsələlərdir və uğurumuzun səbəblərindən biridir. Biz çalışırıq ki, bütün işləri möhkəm əsaslar üzərində quraq. Bütün proqramlar, layihələr, irəli sürülmüş təşəbbüslər güclü əsas üzərində reallaşır. O cümlədən ölkə iqtisadiyyatı üçün çox vacib olan sahədə – vergilər sistemində aparılan islahatlar, tətbiq edilən yeniliklər, «bir pəncərə» təşəbbüsü, bütün bunlar müasir Azərbaycanın inkişafına xidmət göstərir. Siz də yaxşı bilirsiniz ki, Vergilər Nazirliyində tətbiq edilmiş «bir pəncərə» prinsipi indi başqa qurumlarda da tətbiq olunur. Bu prinsip Azərbaycanda iqtisadi sahədə şəffaflığın təmin edilməsi üçün çox vacib rol oynayır. Biz indi «elektron hökumət» qaydalarını tətbiq etməyə çalışırıq. Vergilər Nazirliyində toplanan təcrübə çox qiymətlidir. Mən çox şadam ki, sizin nazirliyiniz müasir əsaslarla idarə olunur, müasir menecment tətbiq edilir, dünya praktikası öyrənilir. Biz elə etməliyik ki, dünya praktikasını, onun ən qabaqcıl nümunələrini Azərbaycanda tətbiq edək.

Bu gün açılış zamanı Avropadaxili Vergi Administrasiyaları Təşkilatının prezidenti təbrik sözlərini dedi. Qeyd etdi ki, Azərbaycanda Vergilər Administrasiyasının gördüyü işlər təqdirəlayiqdir. Avropa qurumları ilə də əməkdaşlığımız, o cümlədən bu sahədə münasibətlərimiz səmərəlidir, əlverişlidir və bizə lazımdır.

Dünən Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin sessiyası Bakıda öz işinə başlamışdır. Orada Azərbaycan haqqında, ölkəmizdə görülmüş işlər haqqında çox müsbət fikirlər səslənmişdir. Şübhə etmirəm ki, bu Mərkəzdə beynəlxalq tədbirlər keçirilən zaman bu binada da gördüyümüz işlər

haqqında yaxşı sözlər deyiləcək, bu, artıq reallıqdır. Bu reallıqları biz özümüz yaradırıq, Azərbaycan xalqı yaradır. Dövlət işində işləyən hər bir məmur öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir. Bunu etmək üçün bütün başqa keyfiyyətlərlə bərabər, peşəkarlıq səviyyəsi də yüksək olmalıdır. Ümid edirəm ki, bu binada tədris ediləcək məsələlər o dərəcədə keyfiyyətli olacaqdır ki, peşəkarlıq səviyyəsi bu binanın xarici görünüşünün səviyyəsinə uyğun gələcəkdir. Bu işlərdə sizə yeni uğurlar, cansağlığı arzulayıram.

## Astrofizika Rəsədxanasında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Sentyabrın 13-də Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur*

*Məlumat verildi ki, Azərbaycan astronomiya elminin inkişafında əhəmiyyətli rol oynayan Şamaxı Astrofizika Rəsədxanası 1959-cu ildə yaradılmış, 1960-cı ildən fəaliyyətə başlamışdır. Azərbaycanın tanınmış alimləri Həsən Əliyevin və Yusif Məmmədəliyevin təşəbbüsü ilə yaradılmış rəsədxana dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşməklə dünyanın bir sıra rəsədxanalarını qabaqlayır. Rəsədxana çətin müşahidə edilən Cənub səmasının öyrənilməsində üstünlüklərə malikdir. Belə ki, burada aydın gecələrin sayı il ərzində 190–200-ə çatır.*

*Qeyd olundu ki, Azərbaycanda elmin inkişafına böyük diqqət göstərən Azərbaycan prezidenti İlham Əliyev rəsədxananın yenidən qurulması, burada təmir-bərpa işlərinin aparılması ilə bağlı sərəncam və tapşırıqlar vermişdir. Dövlətimizin başçısının 2008-ci ilin sentyabrında və 2009-cu ilin iyulunda imzaladığı sərəncamlarla rəsədxananın maddi-texniki bazasının gücləndirilməsi və əsaslı təmir-tikinti işlərinin aparılması üçün dövlət büdcəsində prezidentin ehtiyat fondundan 8 milyon manat vəsait ayrılmışdır.*

*Rəsədxananın inzibati binasında yaradılmış şəraitlə tanışlıq zamanı bildirildi ki, əsaslı yenidənqurma nəticəsində əraziyə Qırxbulaq mənbəyindən 6,5 kilometr uzunluğunda yeni su xətti, Çuxuryurd–rəsədxana əsas qaz kəməri çəkilmiş, yerüstü elektrik xətti tam yenilənmişdir. İnzibati binada əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı rəsədxananın muzeyi ilə tanış oldu. Muzeydə müxtəlif dövrlərdə həyata keçirilən elmi tədqiqatların nəticələri əks olunmuşdur. Muzeyin ən qiymətli eksponatı 1959-cu il noyabrın 27-də Yardımlı rayonu ərazisinə düşən, tərkibi 92 faiz dəmirdən olan 127 kiloqramlıq meteoritdir. Rəsədxananın akt zalında da elmi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Növbəti mərhələdə rəsədxananın maddi-texniki bazasının möhkəmləndirilməsi və yeni avadanlıqla təminatı məsələsi diqqət mərkəzində olacaqdır.*

*Dövlət başçısının diqqətinə çatdırıldı ki, burada Günəş fizikası sahəsində tədqiqatlar aparılmış, yüksək elmi nəticələr əldə olunmuşdur. Günəş alışmalarının inkişafı, maqnit sahəsi və Günəş atmosferinin incə quruluşu ilə bağlı aparılan tədqiqatlarla yanaşı, ulduz fizikası sahəsində qeyri-stasionar, dəyişən və qoşa sistem ulduzları, genişörtüklü ulduzlar, super sıxlıqlı ulduzlar da öyrənilmişdir.*

*Prezident İlham Əliyev rəsədxana kompleksinin Yusif Məmmədəliyev adına yaşayış qəsəbəsində aparılmış tikinti və yenidənqurma işləri ilə də tanış oldu.*

*Dövlətimizin başçısı əvvəlcə akademik Yusif Məmmədəliyevin büstü önünə gül dəstəsi qoydu.*

*Bildirildi ki, burada rəsədxanada çalışan elmi heyətin və onların ailələrinin yaşaması üçün yüksək infrastruktura malik şərait yaradılmışdır. Əməkdaşlar üçün 72 mənzildən ibarət beşmərtəbəli iki yaşayış binası inşa olunmuşdur. Kompleksə poçt, tibb məntəqəsi, uşaq bağçası kimi sosialtəyinatlı obyektlər də daxildir.*

**İlham Əliyev:** Mən Sizi ürəkdən salamlayıram. Bu gün çox gözəl gündür. Şamaxı Astrofizika Rəsədxanasında

aparılan yenidənqurma işləri, demək olar ki, başa çatmaq üzrədir. Şamaxı Astrofizika Rəsədxanasının çox böyük tarixi vardır. Dünya miqyasında, elm aləmində çox böyük nüfuzu vardır. Bu rəsədxananın yenidən qurulması və burada gözəl şəraitin yaradılması məni çox sevindirir. Hələ 3 il bundan əvvəl rəsədxananın yenidən qurulması, burada aparılacaq təmir-tikinti işləri ilə əlaqədar sərəncam imzalamışdım. Sərəncam icra edilir və bu gün həm inzibati binalar gözəl tikilir, demək olar ki, yenidən tikilir, həm də yaşayış binaları tikilir, alimlər üçün beşmərtəbəli iki bina bu gün istismara verilir. Əvvəlki dövrdə tikilmiş binalar, demək olar ki, yararsız vəziyyətə düşmüşdür və yeni binaların, uşaq bağçasının, tibb məntəqəsinin, gözəl ictimai yerlərin tikintisi, görülən bütün bu işlər bir də onu göstərir ki, Azərbaycan güclü dövlətdir. Azərbaycan dövləti elmə və elmi işçilərə həmişə böyük diqqətlə yanaşmışdır.

Əminəm ki, uzun illər, onilliklər bundan sonra bu rəsədxana Azərbaycan xalqına, Azərbaycan elminə xidmət göstərəcəkdir. Mən çox istərdim ki, bu rəsədxana elmi-tədqiqat işləri ilə bərabər, bir növ turizm obyektinə də çevrilsin. Çünki burada belə gözəl şərait yaradılıb. Həm ölkə vətəndaşları, həm xarici qonaqlar böyük maraqla buraya gələcəklər, tanış olacaqlar, dincələcəklər.

Bütövlükdə bu zonanın turizm imkanları çox genişdir. Biz Azərbaycanın şimal-qərb zonasının turizm imkanlarını böyük dərəcədə inkişaf etdirə bilmişik. Həm Şamaxıda, həm də qonşu rayonlarda gözəl mehmanxanalar tikilir, parklar salınır, istirahət zonaları yaradılır. Bu gün Şamaxıda yenidən olarkən bir neçə obyektin tikintisi ilə maraqlandım və görürəm ki, burada işlər yaxşı gedir.

Vaxtilə tikilmiş Olimpiya İdman Kompleksinin ərazisi iki dəfədən artıq genişləndirilir, yeni idman qurğuları, stadionlar, üzgüçülük hovuzu, məşq zalları tikilir. Azərbaycanın ən qədim məscidi – Şamaxı Cümə məscidində böyük zövqlə, böyük məhəbbətlə təmir-bərpa, yenidənqurma işləri aparılır. Əminəm ki, biz bu məscidi bərpa etdikdən sonra bir daha göstərəcəyik ki,

Azərbaycan xalqı və dövləti öz milli və dini ənənələrinə nə qədər bağlıdır. Bu gözəl tarixi və dini abidə bərpa olunandan sonra dünya miqyasında nadir memarlıq abidəsi kimi, yenidən yaşayacaqdır. Biz yenidən Cümə məscidini yaşadacağıq.

Bu gün buraya gələrkən yolüstü Vergilər Nazirliyinin ən müasir standartlara cavab verən Tədris Mərkəzinin açılışında iştirak etdim. O Mərkəz də insanların buraya gəlib işləməsinə kömək edəcək, turistlər gələcəkdir.

Bir sözlə, Şamaxıda görülmüş işlər onu göstərir ki, Azərbaycanın rayonları, bütün bölgələri sürətli inkişaf dövrünü yaşayır. Bir müddət əvvəl müasir Müalicə-Diaqnostika Mərkəzi tikilmişdir və ən gözəl standartlara cavab verir. Əminəm ki, Şamaxı sakinləri o Mərkəzdən istifadə edirlər. Çünki orada xidmətlər pulsuz olmalıdır və ən gözəl avadanlıqlar vardır. Mənə verilən məlumata görə, burada digər infrastruktur layihələri icra edilir – qazlaşdırma, içməli su, kanalizasiya xətlərinin çəkilişi. Mən bu gün göstəriş vermişəm ki, əlavə vəsait ayrılsın, bu məsələlər də tezliklə öz həllini tapsın. Bütün infrastruktur, içməli su, suvarma, kanalizasiya, qaz təchizatı yüksək səviyyədə qurulmalıdır. Ən uzağı, növbəti 2 il ərzində bütün bu məsələləri həll etməliyik. Kənd yollarının tikintisi layihələri də vardır və biz onlarla məşğuluq.

Keçən dəfə burada Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyası ilə tanış olarkən bir daha gördüm ki, Şamaxı torpağı dünya üçün nə qədər görkəmli şəxsiyyətlər bəxş edibdir. Bu bizim böyük sərvətimizdir. Şamaxıya xüsusi diqqət göstərilməlidir və göstərilir. Bu rəsədxananın yenidən qurulması, sosial obyektlərin, diaqnostika mərkəzinin, idman kompleksinin, Cümə məscidinin, digər binaların təmiri, infrastruktur layihələrinin icrası ona gətirib çıxaracaq ki, Şamaxı dünya miqyasında ən rahat, abad və gözəl təbiətə malik olan şəhərlərdən birinə çevriləcəkdir.

Bütövlükdə Azərbaycan elminə çox böyük diqqət göstərilir. Bir müddət bundan əvvəl akademiya işçilərinin vəzifə maaşları qaldırılmışdır. Akademiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün işlər gedir, elmi-tədqiqat institutları

təmir edilir, yeni avadanlıqlar alınır. Biz bu sahəyə də çox böyük diqqət göstərməliyik. Çünki hər bir ölkənin gələcəyini şərtləndirən amillərdən bəlkə də birincisi elmi potensialdır, təhsildir, bilikdir. Bu gözəl rəsədxana, gözəl memarlıq abidəsi, elmi mərkəz və turizm mərkəzi Şamaxıya, əlbəttə ki, əlavə yaraşıq verir. Mən sizin hamınızı ürəkdən salamlayıram. Bilirsiniz ki, mən dəfələrlə Şamaxıda olmuşam. Prezidentlik dövrümdə də dəfələrlə olmuşam, ondan əvvəlki dövrdə də. Bundan sonra da olacağam. Çünki burada hələ açılışlar çox olacaqdır. Sizə cansağlığı, uğurlar arzulayıram.

**X ı d ı r  M i k a y ı l o v:** İcazə verin, cənab Prezident, Sizi, özünüzün dediyiniz kimi, qədim Şamaxı torpağında alimlərimiz və ümumiyyətlə, rayon ictimaiyyəti adından salamlayaq və Sizə «Xoş gəldiniz!» – deyək.

Sizin diqqət və qayğınız nəticəsində Şamaxı Astrofizika Rəsədxanasına kifayət qədər vəsait ayrılmışdır və burada çox qısa zamanda quruculuq işlərinə başlanılmışdır. İnzibati bina tamamilə yenidən qurulmuşdur, kommunikasiya xətləri təzələnmişdir, abadlıq işləri aparılmışdır, su xətti dəyişdirilmişdir, qaz xətti çəkilmişdir. Alimlərimizin mənzil şəraitini yaxşılaşdırmaq üçün iki möhtəşəm – özünüz də gördünüz o binaları – doğrudan da çox gözəl binalar tikilmişdir. Bu möhtəşəm binaları bizə Siz hədiyyə etmisiniz. Çox sağ olun. Burada bütün infrastruktur tamamilə yenilənmişdir, təzələnmişdir.

**İ l h a m  Ə l i y e v:** Burada şərait beşulduzlu otelin səviyyəsindədir.

**X ı d ı r  M i k a y ı l o v:** Bizə nə qalır?! Bizə o qalır ki, yaxşı işləyək. Bizə bu cür şərait yaratmısınız. Biz də indi Sizə söz veririk ki, bu qayğını elmi nailiyyətlərimizlə doğruldacağıq. Heç ağlımıza da gəlməzdi ki, rəsədxana bu cür möhtəşəm bir vəziyyətə gətirilə bilər. Burada aparılan işlər respublika hüdudlarından kənara çıxıbdır. Biz Türkiyədə də, regionun digər bölgələrində də olmuşuq. Bu quruculuq işləri orada şərəfgətirici nümunə kimi göstərilir.

Ulu öndərimiz dəfələrlə rəsədxanamızda olmuşdur. Bu gün rəsədxanada işləyən alimlərimizin əksəriyyəti onun göstərişi ilə Bakı Dövlət Universitetində yaradılmış astrofizika kafedrasının məzunlarıdırlar. O vaxt alimlərimizin mənzil şəraitinin yaxşılaşdırılması üçün beşmərtəbəli bina tikilmişdi. Biz həddən artıq çox sevinirik ki, Siz ulu öndərimizin layiqli davamçısı kimi, elmə bu cür yüksək qiymət verirsiniz. Biz Sizə alimlərimiz, ümumiyyətlə, rayon ictimaiyyəti adından bir daha təşəkkür edirik. Biz çox istərdik ki, Siz bizim teleskoplarda müşahidələrdə də iştirak edəsiniz.

**İ l h a m  Ə l i y e v:** Edəcəyəm. Çox sağ olun. Rəsədxananın gələcək inkişafı ilə bağlı bəzi fikirlər vardır. Biz sonra müzakirə edəcəyik. Buraya ən qabaqcıl texnologiyalar, avadanlıqlar gətirilməlidir və gətiriləcəkdir.

## SABUNÇU, NİZAMİ, SURAXANI, NƏSİMİ VƏ QARADAĞ RAYONLARINDA ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*14 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Sabunçu, Nizami, Suraxanı, Nəsimi və Qaradağ rayonlarında orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*«2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda bu il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərində əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə paytaxtın Sabunçu qəsəbəsindəki 170 saylı orta ümumtəhsil məktəbində aparılmış təmir və yenidənqurma işləri ilə tanış oldu. Burada həyata keçirilmiş əsaslı təmir və bərpa işləri barədə dövlət başçısına məlumat verildi. Bildirildi ki, 170 saylı məktəbin binasının birinci korpusu 1928-ci ildə inşa edilib və hospital kimi fəaliyyət göstərib. 1932-ci ildə isə fəaliyyətini 120 şagird yerlik orta məktəb kimi davam etdirib. İkinci korpusun inşasından sonra 420 şagirdin təhsil alması üçün şərait yaradılıb. Hazırda 170 saylı məktəbdə 900 şagird təhsil alır. Məktəbdə Dövlət Proqramına uyğun olaraq əsaslı təmir və yenidənqurma işləri ən müasir tələblərə uyğun şəkildə həyata keçirilib.*

* * *

*Sabunçu qəsəbəsindəki 170 saylı orta ümumtəhsil məktəbində aparılmış təmir və yenidənqurma işləri ilə tanışlıqdan sonra dövlət başçısı Nizami rayonundakı Kamil Əliyev adına 61 saylı məktəbə gəldi. Burada həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işləri ilə bağlı prezident İlham Əliyevə məlumat verildi. Bildirildi ki, 61 saylı məktəbin binası 1965-ci ildə inşa edilib. Binanın ümumi sahəsi 4030 kvadratmetrdir. 960 şagird yerlik məktəbdə 650 şagird təhsil alır. Məktəbin binası Dövlət Proqramına uyğun həyata keçirilən tədbirlər planı çərçivəsində əsaslı şəkildə təmir olunub, tədris üçün lazımi şərait yaradılıb. Məktəbin yerləşdiyi küçəyə yeni asfalt örtüyü döşənib, ətraf ərazi abadlaşdırılıb.*

* * *

*Sonra prezident İlham Əliyev Suraxanı rayonundakı Bünyadəli Qulamoğlu adına 285 saylı orta ümumtəhsil məktəbində həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılmış şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, məktəbin binası 1990-cı ildə inşa edilib. 1396 şagird yerlik 285 saylı məktəbdə 930 şagird təhsil alır. Dövlət Proqramı çərçivəsində məktəb əsaslı şəkildə yenidən qurulub, ayrı-ayrı sinif otaqları, fənn kabinetləri, laboratoriyalar müasir standartlara uyğun şəkildə təmir olunub və lazımi avadanlıqlarla təchiz edilib. Məktəbin iki örtülü və iki açıq idman meydançası da yüksək səviyyədə yenidən qurulub. Məktəbin yerləşdiyi küçəyə yeni asfalt döşənib, təhsil ocağının ətrafı abadlaşdırılıb*

* * *

*Daha sonra prezident İlham Əliyev Nəsimi rayonundakı 44 saylı məktəbdə həyata keçirilmiş əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıqdan sonra Qaradağ rayonunun Lökbatan*

qəsəbəsindəki 139 saylı orta məktəbə gəldi. Dövlət başçısına məlumat verildi ki, bu məktəbin birinci korpusu 1957-ci ildə inşa olunub. 2006-cı ildə isə yardımçı korpus istifadəyə verilib. Şagird sıxlığı nəzərə alınaraq 2011-ci ildə Dövlət Proqramına uyğun olaraq 16 əlavə sinif otağı və bir yeməkxana inşa olunub. Bundan əlavə, ümumi ərazisi 3000 kvadratmetr olan məktəbin əvvəlki iki korpusunda da əsaslı şəkildə təmir və bərpa işləri aparılıb. 1,2 hektar həyətyanı sahədə abadlaşdırma tədbirləri həyata keçirilib. Fənn kabinetləri, sinif otaqları ən müasir səviyyədə yenidən qurulub, kompyuter sinfi yaradılıb. 139 nömrəli məktəbdə də müasir istilik sistemi quraşdırılıb.

Məktəbdə aparılmış təmir və yenidənqurma işləri ilə tanışlıqdan sonra dövlət başçısı Lökbatanda qəsəbədaxili yollarda həyata keçirilmiş işlərlə də tanış oldu. Yenidənqurma işləri barədə prezidentə məlumat verildi. Bildirildi ki, 173 min 600 kvadratmetr qəsəbədaxili yol sahəsinə ikiqat asfalt örtüyü döşənib, 24 min kvadratmetr yol sahəsinə isə asfalt döşəmək üçün hazırlıq işləri başa çatıb. Bundan əlavə, Lökbatan qəsəbəsində 252 min kvadratmetr qəsəbədaxili yol sahəsinin asfaltlaşdırılması da nəzərdə tutulur. Qəsəbədaxili küçələrdə yol xətləri təzələnib, işıq dirəkləri yeniləri ilə əvəz edilib, müasir işıqlandırma sistemi quraşdırılıb. Piyadaların gediş-gəlişi üçün səkilər abadlaşdırılıb.

Görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

# BAKIDAKI 6 SAYLI MƏKTƏBİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*15 sentyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 15-də – Bilik günündə Bakının Səbail rayonundakı 6 saylı tam orta məktəbin yenidənqurmadan sonra açılışı mərasimində iştirak etdi.*

*Müəllim, şagird və valideynlər dövlətimizin başçısını hərarətlə qarşıladılar. Məktəblilər prezident İlham Əliyevə gül dəstələri təqdim etdilər.*

**İ l h a m Ə l i y e v:** Əziz uşaqlar, əziz müəllimlər, əziz valideynlər! Mən sizin hamınızı yeni dərs ilinin başlanması münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu gün 6 saylı məktəbin həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün biz məktəbin yeni binasının açılışını qeyd edirik. Bu gözəl, möhtəşəm bina əminəm ki, məktəbin həyatında unudulmaz hadisə olacaqdır.

6 saylı məktəbin çox böyük tarixi, böyük ənənələri vardır. Məktəbdə müxtəlif dövrlərdə oxumuş insanlar Azərbaycanın inkişafına öz töhfələrini vermişlər. Ancaq məktəbin binası köhnəlmişdi və yeni binanın tikintisinə ehtiyac var idi. Hazırda tikilmiş bina dünyanın ən yüksək standartlarına cavab verir. Məktəbin sahəsi də iki dəfədən çox genişləndirilmişdir – 6500 kvadratmetrdən 13 min 500 kvadratmetrədək. Siniflərin sayı iki dəfədən çox artmışdır. Yeni idman kompleksi tikilmişdir. Şagirdlər indi burada yaradılmış şəraitlə tanış olacaqlar. Həm uşaqlar, həm müəllimlər üçün çox gözəl şərait yaradılmışdır.

Mənim üçün 6 saylı məktəb doğma, əziz məktəbdir. Mən 10 il bu məktəbdə oxumuşam. Bütün bu ətraf ərazilər mənim üçün

doğmadır. Uşaqlıq illərim elə bu məhəllədə keçibdir. Məktəb illəri hər bir insan kimi, mənim üçün də unudulmaz illərdir. Bu məktəbdə mənə verdikləri biliklərə görə müəllimlərimə minnətdaram və o xatirələri həmişə ürəyimdə saxlayıram. Mən çox şadam ki, bu gün böyük tarixə malik olan 6 saylı məktəbin yeni həyatı başlayır.

Azərbaycanda son illər ərzində məktəb tikintisi çox geniş vüsət almışdır. Son illər ərzində 2161 məktəb tikilib və təmir edilmişdir. Bütün məktəblərdə kompyuter sinifləri yaradılıbdır. Hesab edirəm ki, Azərbaycanda təhsilin səviyyəsi müasir tədris prosesinin inkişafı hesabına daha da qalxacaqdır.

Bu dərs ili ərəfəsində Bakı şəhərində 70-ə yaxın məktəb əsaslı təmir edilmişdir, yeni korpuslar tikilmişdir. Bölgələrdə 60-a yaxın məktəb tikilib təmir edilmişdir. Bakının bütün bölgələrində – ən ucqar qəsəbələrdən tutmuş, şəhər mərkəzinə qədər məktəblərdə geniş quruculuq işləri aparılıb. Ümid edirəm ki, növbəti 2 il ərzində Bakı şəhərində bütün məktəblər ən yüksək standartlara cavab verəcəkdir. Məktəblərin tikintisi və təmiri ilə bağlı proqramımız başa çatacaqdır.

Ancaq məktəblərin tikintisi və təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məsələləri vacib olsa da, işimiz bununla məhdudlaşmamalıdır. Əsas məsələ təhsilin keyfiyyətidir və uşaqlara verilən biliklərdir. Bu həm uşaqlara, həm bizə, həm də dövlətə lazımdır. İndiki şəraitdə hər bir insanın taleyi onun əlindədir.

Azərbaycanda çox gözəl şərait yaradılıbdır. Həm ictimai-siyasi vəziyyət çox yaxşıdır, həm iqtisadi inkişaf çox sürətlidir. Yeni imkanlar, yeni iş yerləri açılır. Təkcə son 7 ildə 900 minə yaxın yeni iş yeri açılmışdır. Biz çalışmalıyıq ki, bu iş yerlərində işləyən insanların peşəkarlığı yüksək səviyyədə olsun. Peşəkarlığın, biliyin, savadın, intellektin əsası məhz məktəblərdə qoyulur. Ona görə, məktəbdə verilən təhsil insanın həyatında həlledici rol oynayır. Hər bir insan üçün onun gələcəyi, onun taleyi məktəb illərində dərslərə verdiyi qiymətlə, diqqətlə birbaşa bağlıdır.

Mən tam əminəm və görürəm ki, bu gün Azərbaycan gəncləri biliklərə çox meyillidirlər, yaxşı mütəxəssis, yaxşı peşəkar olmaq istəyirlər. İstək ola bilər, ancaq təhsilin keyfiyyəti də gərək bu istəklə uzlaşsın. Azərbaycanda təhsil sahəsində tətbiq edilən yeniliklər, müasir yanaşmalar, islahatlar ümid edirəm ki, yaxın gələcəkdə daha da yaxşı nəticələrə gətirib çıxaracaqdır. Çünki həm hər bir insan, həm də dövlət üçün təhsil ən vacib, ən həlledici amillərdən biridir. Bəlkə də uşaqlar bu sözləri tez-tez eşidir. Ancaq bu həqiqətdir ki, insanın gələcəyi, həyatda öz yerini tapması üçün təhsil hər şeydən üstündür. Biz çalışmalıyıq ki, məktəblərin tikintisi, ali məktəblərdə gedən islahatlar və tədris prosesinin təkmilləşdirilməsi məsələləri uğurla həll edilsin və beləliklə, gənclər, uşaqlar peşəkar olsunlar, gələcəkdə Azərbaycan dövlətinə həm sədaqətlə, həm peşəkarlıqla xidmət etsinlər.

Hər bir ölkənin, dövlətin gələcəyi və bu günü onun intellektual potensialından asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salaraq görürük ki, o ölkələr inkişaf edir ki, orada elmi-texniki tərəqqi sürətlə inkişaf edir, təhsilə, elmə, intellektual məhsulların yaradılmasına böyük investisiyalar qoyulur. Azərbaycan da bu yolu seçibdir. Biz gələcəyə çox böyük ümidlərlə baxırıq. Bilirik ki, Azərbaycanın gələcəyi bugünkündən də gözəl olacaqdır. Bu gün Azərbaycan özünü dünya miqyasında sürətlə və uğurla inkişaf edən ölkə kimi tanıtdıra bilmişdir. Ancaq gələcəkdə elmə, təhsilə, yeni texnologiyaların tətbiqinə göstəriləcək diqqət və həyata keçiriləcək proqramlar Azərbaycanı inkişaf etmiş ölkələrin sırasına daxil edəcəkdir. Çünki inkişaf etmiş ölkə olmaq üçün təkcə gözəl infrastruktura və binalara malik olmaq kifayət deyildir. İnkişaf etmiş ölkə olmaq üçün gərək cəmiyyətin intellektual potensialı yüksək səviyyədə olsun. Bu məsələlərlə bağlı konkret proqramlar hazırlanıb icra edilir. Əminəm ki, bu gün Azərbaycan gəncləri, uşaqlar, birinci sinfə gedən balalar gələcəkdə doğma Vətənimiz üçün dəyərli vətəndaşlar olacaq, peşəkarlığını göstərəcək və ölkəmizin inkişafında öz sözlərini deyəcəklər.

Gələcəkdə ölkəmizi gənclərimiz idarə edəcəklər. Ölkəmizin necə inkişaf edəcəyi onlardan asılıdır. Qoyduğumuz yol və seçdiyimiz strateji xətt öz uğurunu təsdiqləyib. Gələcək də gənclərdən asılı olacaqdır ki, ölkəmiz necə inkişaf edəcək və hansı yollarla gedəcəkdir.

Mən bu gözəl gündə – yeni dərs ilinin başlanması günündə bütün Azərbaycan gənclərini salamlayıram. Bu gün məktəbə gedən bütün gəncləri salamlayıram. Sizə yeni uğurlar arzulayıram. Söz verirəm ki, bundan sonra da Azərbaycan təhsilinə dövlət tərəfindən verilən qiymət və göstərilən diqqət yüksək səviyyədə olacaqdır.

Bir daha sizi salamlayıram və sizə uğurlar arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev məktəbin yenidənqurmadan sonra rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbin binası qarşısında dövlətimizin başçısı vaxtilə ona dərs deyən müəllimləri ilə görüşdü, onlarla söhbət etdi. Müəllimlər xatirələrini bölüşərək, 6 saylı orta məktəbin məzunu olan Azərbaycan prezidenti İlham Əliyevin fəaliyyətini diqqətlə və böyük fəxr hissi ilə izlədiklərini vurğuladılar.*

*Prezident İlham Əliyev yenidənqurmadan sonra məktəbdə yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, altımərtəbəli təhsil müəssisəsində tədrisin müasir tələblər səviyyəsində təşkili üçün ideal imkan yaradılmışdır. Yenidənqurma işlərindən sonra məktəbin ərazisi genişləndirilərək 13 min kvadratmetrə çatdırılmışdır. Məktəb 2 min 270 şagird yerlikdir. Bu gün burada 1690 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 110 müəllim məşğul olur.*

*Məktəbin foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ümummilli liderin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilə diqqət və qayğılarını əks etdirən fotostend yaradılmışdır.*

*Prezident İlham Əliyev siniflərdə dərs prosesi ilə maraqlandı. Dövlətimizin başçısı əvvəlcə bu gün ilk dəfə məktəbə*

*qədəm qoyan birincilərin təhsil aldığı sinfə baxdı, uşaqları yeni dərs ili münasibətilə təbrik etdi. Bu il 6 saylı məktəbdə 1-ci sinifdə 230 şagird təhsil alacaqdır.*

*Məktəbin ikinci mərtəbəsində Heydər Əliyev Muzeyi yaradılmışdır. Muzeylə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada ümummilli lider Heydər Əliyev haqqında müxtəlif nəşrlər, ulu öndərin attestatının, diplomunun və tərifnamələrinin surətləri toplanmışdır. Burada dahi şəxsiyyətin həyat və fəaliyyətinə dair videomateriallar, fotolar da vardır. Ulu öndər Heydər Əliyev 6 saylı orta məktəbdə iki dəfə olmuşdur. Birinci dəfə 1977-ci ildə, oğlu, Azərbaycan prezidenti İlham Əliyev orta məktəbi bitirərkən və 2001-ci il sentyabrın 1-də.*

*Heydər Əliyev Muzeyində ümummilli liderin «6 saylı məktəb həmişə Azərbaycanın nümunəvi, milli məktəblərindən biri olaraq qalacaq» fikri epiqraf seçilmiş Xatirə kitabı da vardır.*

*Məktəbin konfrans zalında prezident İlham Əliyev İB beynəlxalq proqramı barədə filmə baxdı. 1968-ci ildə Cenevrədə yaradılan proqram bu ildən 6 saylı məktəbdə də tətbiq ediləcəkdir. Ən əsası isə odur ki, təhsil ocağının şagirdləri bu nadir imkandan pulsuz istifadə edəcəklər. Bu il məktəbin 10-cu və 11-ci sinifləri üçün diplom proqramı tətbiq ediləcəkdir. Proqrama əsasən tədris bütün fənlər üzrə yalnız ingilis dilində aparılır. Şagirdlərin təhsili həm ölkə, həm də xarici mütəxəssislər tərəfindən qiymətləndirilir. 45 bal toplayan şagird avtomatik olaraq Oksford, Kembric kimi nüfuzlu təhsil müəssisələrinə daxil olmaq imkanı qazanır. İB diplomu dünyanın 2 min 544 universitetində tanınır. Bu proqramın 6 saylı məktəbdə tətbiqi ilə əlaqədar müəllimlər Hamburq və Sürixdə treninqlər keçmişlər.*

*Təhsil müəssisəsinin imza atdığı daha bir yenilik – 10-cu sinifdən profil siniflərin yaradılmasıdır. İndi bu pilot proqram Bakının 5 məktəbində tətbiq edilir.*

*Dövlətimizin başçısı müəllimlər otağına baxdı. Burada daha bir yenilik ondan ibarətdir ki, təcrübə mübadiləsi məqsədilə*

*mətbuat konfranslarının, telekörpülərin keçirilməsi üçün Bakı və Sumqayıtın bir çox məktəbləri ilə birbaşa bağlantını təşkil etmək mümkündür.*

*Təhsil ocağının bütün sinifləri kompyuter və proyektorlarla, bir çox sinif otaqları isə «ağıllı lövhə» adlandırılan smart lövhələrlə təchiz olunmuşdur. Bu interaktiv lövhələr ən son texnologiyalar əsasında qurulmuşdur.*

*Prezident İlham Əliyev məktəbin xatirə lövhəsini imzaladı.*

*Təhsil ocağının yenidən qurulması və çox geniş sahəni əhatə etməsi nəzərə alınaraq, buraya gələnlərə lazımi sinfi tez tapmaq üçün tabloda eksplikasiya vasitəsilə məktəbin planı verilir.*

*Beləliklə, yeni dərs ilində ölkəmizdə daha bir təhsil ocağı ən müasir tələblərə uyğun yenidən qurularaq və ən qabaqcıl avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir.*

## MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*16 sentyabr 2011-ci il*

*Sentyabrın 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Monteneqro prezidenti Filip Vuyanoviçin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Monteneqro prezidenti Filip Vuyanoviçi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Monteneqro prezidentinə raport verdi.*

*Monteneqronun və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Monteneqro prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Filip Vuyanoviçə, Monteneqro nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*16 sentyabr 2011-ci il*

*Sentyabrın 16-da rəsmi qarşılanma mərasimindən* sonra *Azərbaycan prezidenti İlham Əliyevin və* Monteneqro *prezidenti Filip Vuyanoviçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə* daha da *inkişaf etdirilməsi üçün yaxşı potensialın mövcud olduğu vurğulandı.*

Monteneqro *prezidenti Filip Vuyanoviçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin* daha da *inkişaf etdirilməsi baxımından əhəmiyyəti* qeyd olundu, *ikitərəfli münasibətlərin* bundan sonra da *uğurla inkişaf edəcəyinə əminlik* bildirildi.

*Dövlət başçıları beynəlxalq və* regional *məsələlər barədə də fikir mübadiləsi apardılar.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 sentyabr 2011-ci il*

*Sentyabrın 16-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Monteneqro prezidenti Filip Vuyanoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Mən sizin hamınızı Azərbaycanda salamlayıram, xoş gəlmisiniz!

Bu Sizin Azərbaycana birinci səfərinizdir və bu, ikitərəfli əlaqələrimizdə çox mühüm yer tutan bir səfərdir.

Bu səfər tarixdə qalacaq, çünki birinci rəsmi səfərdir. Mən əminəm ki, səfər çox uğurlu keçəcək və səfərin nəticələri çox müsbət olacaqdır. Bizim ikitərəfli münasibətlərimiz çox uğurla və deyə bilərəm ki, çox böyük sürətlə inkişaf edir. Qısa müddət ərzində həm siyasi, həm iqtisadi sahələrdə məsləhətləşmələr aparılmışdır. Mən əminəm ki, bu gün aparılan və aparılacaq danışıqlar ölkələrimizi daha da yaxınlaşdıracaqdır.

**F i l i p V u y a n o v i ç:** İcazə verin, bu səfərə dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirim. Öz nümayəndə heyətim adından Sizin nümayəndə heyətinin üzvlərini də səmimi-qəlbdən salamlayıram.

Bildiyiniz kimi, xarici işlər nazirlərinin qarşılıqlı səfərləri həyata keçirilmişdir və hesab edirəm ki, bu səfərimiz də əlaqələrimizin bundan sonra dərinləşməsinə və inkişaf etdirilməsinə öz müstəsna töhfəsini verəcəkdir.

Hesab edirəm ki, iki ölkə arasında siyasi əlaqələr iqtisadi əlaqələrin bünövrəsini qoyacaq və bunu gücləndirəcəkdir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*16 sentyabr 2011-ci il*

*Sentyabrın 16-da prezident İlham Əliyevin və prezident Filip Vuyanoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan–Monteneqro sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Monteneqronun Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Monteneqronun Mədəniyyət naziri Branislav Miçunoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Monteneqronun İqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və Monteneqronun İqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və Monteneqronun İqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.*

## MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*16 sentyabr 2011-ci il*

*Sentyabrın 16-da Azərbaycan–Monteneqro sənədlərinin imzalanması mərasimindən sonra prezident İlham Əliyev və prezident Filip Vuyanoviç mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident! Mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu, əlaqələrimizin tarixində ilk rəsmi səfərdir və mən şadam ki, səfər çox uğurlu keçir. Bu gün keçirdiyimiz danışıqlar onu göstərmişdir ki, hər iki tərəf ikitərəfli əlaqələrin inkişafı üçün səylərini göstərməkdədir.

Deyə bilərəm ki, qısa müddət ərzində ölkələrimiz arasında çox sıx əməkdaşlıq yaranmışdır. Siyasi əlaqələrimiz inkişaf edir. Xarici işlər nazirlərinin qarşılıqlı səfərləri bir daha onu göstərir ki, siyasi sahədə aramızda heç bir problem yoxdur. Əksinə, əlaqələrin inkişafı üçün hər iki tərəfdə böyük maraq və istək vardır.

Əlbəttə, iqtisadi sahə də ikitərəfli əlaqələrin inkişafı üçün çox vacib əhəmiyyət kəsb edir. Bu gün biz bu məsələ ilə bağlı kifayət qədər geniş fikir mübadiləsi aparmışıq. Bu gün imzalan-

mış sənədlər, o cümlədən iqtisadi, investisiya, mədəniyyət və turizm sahələrini əhatə edir. Hesab edirəm ki, iqtisadi sahədə əməkdaşlığımızın başlaması üçün məhz investisiya və iqtisadi inkişaf məsələləri ön planda olmalıdır. Ölkənizin turizm infrastrukturuna Azərbaycan şirkətlərinin böyük marağı vardır. Azərbaycanın nümayəndə heyəti bir müddət əvvəl ölkənizi ziyarət etmiş və çox gözəl təəssüratlarla qayıtmışdır. Əminəm ki, yaxın zamanlarda biz bu əməkdaşlığın çox gözəl nəticələrini görəcəyik. Əməkdaşlıq üçün maraq doğuran digər sahələr də mövcuddur. Onların arasında nəqliyyat və energetika sahələrini qeyd edə bilərəm. Bu sahələrdə də təcrübə mübadiləsi aparıla bilər.

Bu gün biz regional əməkdaşlıq məsələlərinə də toxunduq. Bu məsələ ilə bağlı bizim fikir ayrılığımız yoxdur. Mən hesab edirəm ki, Balkan regionu ilə bizim region arasında əlaqələr daha da sıx olmalıdır. Azərbaycan öz tərəfindən çalışır ki, regionlarımızın əlaqələri daha da sıx olsun, əməkdaşlıq daha da güclü olsun. İrəli sürdüyümüz təşəbbüslər, ölkənizlə və Sizin qonşu ölkələrlə əlaqələrimiz onu göstərir ki, biz Sizin regionunuza çox böyük maraq və diqqət göstəririk.

Bu gün biz regional məsələlər və təhlükəsizlik məsələlərinə də toxunduq. Bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı öz fikrimi Sizə bildirdim. Məsələnin tarixi ilə bağlı danışdım. Ümid edirik ki, yaxın zamanlarda bu ədalətsizliyə son qoyulacaq, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaq, BMT Təhlükəsizlik Şurasının erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnaməsi icra ediləcək və beləliklə, Azərbaycan vətəndaşları doğma torpaqlarına qayıdacaqlar. Bu məsələ nəinki bizim üçün, bölgə üçün, dünya üçün təhlükə mənbəyidir və məsələnin tezliklə həll edilməsi bütün ölkələrin marağında olmalıdır.

Biz Avroatlantik strukturlar ilə əməkdaşlığımız haqqında da fikir mübadiləsi apardıq. Monteneqronun qısa müddət ərzində

həm NATO, həm Avropa İttifaqı ilə yaradılmış əlaqələri və inteqrasiya prosesləri böyük qiymətə malikdir. Mən Sizə söylədim ki, yaqin dünya tarixində bu, rekord göstəricidir ki, Sizin ölkəniz qısa müddət ərzində hər iki təşkilatla çox yüksək səviyyəli əməkdaşlıq qura bilmişdir.

Mən, cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Çox şadam ki, bizim şəxsi münasibətlərimiz çox tez bir zamanda qurulubdur. Deyə bilərəm ki, bizi dostluq münasibətləri də bağlayır. Sizin səfəriniz həm ikitərəfli əlaqələrimiz üçün çox vacibdir, həm də ölkəmizlə tanışlıq imkanları yaradır. Əminəm ki, Siz vətəninizə Azərbaycanla bağlı xoş təəssüratlarla dönəcəksiniz!

## Monteneqro prezidenti Filip Vuyanoviçin bəyanatı

Hörmətli cənab prezident Əliyev!

Cənab nazirlər!

Fürsətdən istifadə edərək mən cənab Prezidentə dərin minnətdarlığımı bildirirəm ki, bu gün biz Sizin ölkənizdə səfərdəyik. Aramızda çox səmimi və dost söhbəti oldu.

Azərbaycanın iqtisadi göstəriciləri və dinamik inkişafı bizi bu gün çox sevindirir. Biz bu gün bunun şahidi oluruq və əminəm ki, Azərbaycanın sürətli inkişafı bundan sonra da davam edəcəkdir. Bu isə Azərbaycan vətəndaşlarının firavan ölkədə yaşamasını təmin edəcəkdir.

Buradan mən bütün Azərbaycan vətəndaşlarına da ehtiramımı bildirmək istəyirəm, onlar da ölkənin inkişafına öz müsbət töhfələrini verirlər. Zənnimcə, ölkələrimiz sıx təmasların qurulması istiqamətində zəruri addımları artıq atmışlar. Nazirlər bundan əvvəl də səfərlər həyata keçiriblər. Bu gün biz 4 mühüm saziş imzalamışıq. İkisi iqtisadiyyat, biri mədəniyyət, digəri isə turizm sahələrini əhatə edir. Mahiyyət etibarilə bunlar çox mühüm sazişlərdir. Gələcək əlaqələrimizin inkişafına və daha yüksəklərə qaldırılmasına xidmət edəcəkdir.

Çox xoşdur ki, Azərbaycanın sərmayə strukturları bizim ölkəyə maraq göstərir. Biz də öz növbəmizdə sərmayələrin qoyuluşu istiqamətində bütün zəruri tədbirləri görməyə hazırıq. Artıq tenderlərə başlamışıq. Bizim hava yolu və limanla bağlı layihələrimiz vardır. İnanırıq ki, Azərbaycan şirkətləri də bu tenderlərdə iştirak edəcək və bizim ölkəyə sərmayə qoymaq arzusunda olacaqlar.

Sevinirəm ki, münasibətlərimiz artıq mövcuddur. Azərbaycan–Monteneqro Mədəniyyət Dərnəyi artıq fəaliyyətdədir. Monteneqroda Azərbaycan rəssamlarının əsərlərinin sərgisi təşkil edilmişdir. Sevindirici haldır ki, mədəniyyət sahəsində imzalanmış saziş əlaqələrimizin daha da genişləndirilməsinə xidmət edəcəkdir.

Biz BMT-nin və Avropa İttifaqının mövqeyinə də şərik çıxırıq. Hesab edirik ki, beynəlxalq təşkilatlar bu problemin mahiyyətinə bələddir və müvafiq qətnamələrin də dəstəklənməsi çox vacibdir. Onların həyata keçirilməsi böyük əhəmiyyət daşıyır. Azərbaycanın «Şərq Tərəfdaşlığı» çərçivəsində həyata keçirdiyi fəaliyyəti də təqdirəlayiqdir.

Biz sülhməramlı missiyaların həyata keçirilməsində çiyin-çiyinə çalışmışıq. Bizim ölkənin NATO-ya sıx inteqrasiyasında Azərbaycanın dəstəyini hiss etmişik. Bakıya səfərim məndə çox gözəl təəssüratlar yaradır və əminəm ki, bu bizim əlaqələrin yeni mərhələsinə qədəm qoyulması deməkdir. Bu bir daha bizim ölkələrin yaxınlığını sübut edir və əlaqələrimiz də xalqlarımızın maraqları naminə inkişaf edəcəkdir.

Bir daha, cənab Prezident, səmimi-qəlbdən Sizə minnətdarlığımı bildirirəm ki, biz Sizin ölkədə dostcasına qəbul edilmişik. Bizim aramızda yaranmış dost münasibətlərimiz ölkələrimizin və xalqlarımızın firavanlığı naminə inkişaf edəcəkdir. Xalqlarımız arasında bir çox oxşarlıq vardır. Tariximizdə oxşarlıq vardır. Müstəqillik uğrunda mübarizəmiz çox bənzər olmuşdur.

Bir daha, cənab Prezident, Sizə bu fürsəti verdiyinizə görə təşəkkür edirəm!

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*16 sentyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Monteneqro prezidenti Filip Vuyanoviçi Heydər Əliyev Fondunda qarşıladı.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Fondla tanışlıq zamanı prezident Filip Vuyanoviçə məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir.*

*Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.*

*Prezident Filip Vuyanoviç fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Monteneqro prezidentinə Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu.*

*Ali qonaq Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*16 sentyabr 2011-ci il*

*Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Monteneqro prezidenti Filip Vuyanoviçin şərəfinə rəsmi ziyafət verilmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Bir daha Sizi salamlayıram. Bir daha Sizə Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

Bu gün Monteneqro–Azərbaycan əlaqələrində çox əlamətdar hadisə baş verir. Monteneqro prezidentinin ölkəmizə ilk rəsmi səfəri həyata keçirilir. Mən çox şadam ki, səfəriniz uğurlu keçir. Əminəm ki, səfərin çox yaxşı nəticələri olacaqdır.

Bu gün biz Sizinlə ikitərəfli münasibətlərimizin, demək olar ki, bütün aspektlərini geniş müzakirə etdik və heç bir fikir ayrılığı yoxdur. Biz – həm Monteneqro tərəfi, həm Azərbaycan tərəfi istəyirik ki, əlaqələrimiz daha da inkişaf etsin və xalqlarımız arasında qarşılıqlı rəğbət daha da güclü olsun.

Bu gün həm siyasi, iqtisadi, həm mədəni sahələrdə gedən proseslər onu göstərir ki, münasibətlərimizin çox yaxşı gələcəyi vardır. Sizin səfəriniz siyasi əlaqələrə çox güclü təkan verəcəkdir. İqtisadi sahədə imzalanmış sənədlər yaxşı nəticələrə gətirib çıxaracaqdır. İnvestisiya imkanları araşdırılıb, turizm, mədəniyyət sahələrində yaxşı perspektivlər vardır. Energetika, neft-qaz, nəqliyyat sahələrində də yaxşı imkanlar vardır. Bu məsələlər ikitərəfli münasibətlərimizin geniş olduğunu göstərir. Biz insanlar arasındakı əlaqələrə də çox

böyük diqqət göstərməliyik. Ölkələrimizin vətəndaşları bir-birilərini daha yaxından tanımalıdırlar. Çünki ölkələrimiz oxşar tarixə malikdir. Ölkəmiz vaxtilə başqa ölkələrin tərkibində yaşamışdır. Müstəqillik tariximiz o qədər də böyük deyildir. Amma hər iki ölkə müstəqillik dövründə çox böyük və uğurlu inkişaf yolu keçmişdir. Hər iki ölkə gələcəyə də çox böyük nikbinliklə baxır. Həm Monteneqroda, həm Azərbaycanda müxtəlif millətlərin, müxtəlif dinlərin nümayəndələri dostluq şəraitində, bir ailə kimi yaşayırlar və bu amil də ölkələrimizi birləşdirir.

Hörmətli cənab Prezident, bir daha qeyd etmək istəyirəm ki, biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Şadam ki, səfər zamanı Siz ölkəmizlə tanış olmaq imkanını əldə etmisiniz. Bu Sizin birinci səfərinizdir, əminəm ki, gələcəkdə qarşılıqlı səfərlər daha çox olacaqdır.

Bu badələri Sizin sağlığınıza, xalqınızın şərəfinə qaldırıram!

**Filip Vuyanoviç:** Hörmətli cənab Prezident!

Hörmətli dostlar! Bu gün burada, Azərbaycanda olmağımdan şərəf hissi keçirirəm. Cənab Prezident, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Xalqınızın ümummilli lideri Heydər Əliyevin bioqrafiyası Azərbaycan xalqının tarixində və taleyində mühüm rol oynayıb. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan müstəqilliyini daha da möhkəmləndirib və inkişaf edən ölkəyə çevrilib.

Mən çox şadam ki, bu gün biz ölkələrimiz arasında yeni mərhələnin əsasını qoyduq. Azərbaycan ilə Monteneqro bir çox sahələrdə uğurlu əməkdaşlıq edir. Bu səfər çərçivəsində imzalanan sənədlər əlaqələrin inkişafı üçün yaxşı baza olacaqdır. Monteneqro arzulayır ki, azərbaycanlı investorlar bu ölkənin sərmayə mühitində daha yaxından iştirak etsinlər. Turizm sahəsində də əməkdaşlıq üçün əlverişli imkanlarımız var.

# BAKIDA QARA QARAYEV ADINA 8 SAYLI ONBİRİLLİK MUSİQİ MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*19 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Bakıda Qara Qarayev adına 8 saylı onbirillik musiqi məktəbinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Məktəbin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Azərbaycan prezidenti musiqi məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına məlumat verdi ki, 1937-ci ildə yaradılmış 8 saylı musiqi məktəbi 2 min 580 kvadratmetr sahədə yerləşir. 1963-cü ildə bu binaya köçən musiqi məktəbinə 1989-cu ildə dünya şöhrətli bəstəkar Qara Qarayevin adı verilmişdir. Musiqi məktəbinin fəaliyyət göstərdiyi bina yararsız vəziyyətə düşdüyündən ötən ilin mayında burada yenidənqurma işlərinə başlanılmışdır.*

*Prezident İlham Əliyev dördmərtəbəli binanın birinci mərtəbəsində yaradılmış muzeylə tanış oldu. Bildirildi ki, «Azərbaycanın mədəniyyət siyasəti» adlandırılan muzey dörd mövzuya ayrılmışdır. Burada yaradılmış stendlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin, prezident İlham Əliyevin, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın ölkəmizdə milli musiqimizin inkişafındakı xidmətlərini, onların mədəniyyət və incəsənət xadimləri ilə görüşlərini, eləcə də görkəmli bəstəkar*

Qara Qarayevin yaradıcılıq uğurlarını əks etdirən fotoşəkillər nümayiş etdirilir. Məktəbin foyesində dahi bəstəkarın barelyefi yaradılmışdır. Foyedə quraşdırılmış lövhələrdə Azərbaycan Respublikası Prezidentinin xüsusi təqaüdünə layiq görülmüş gənc istedadların şəkilləri yer almışdır.

Qeyd olundu ki, musiqi məktəbində təhsil alan 410 şagirdə 98 müəllim dərs deyir. Burada fortepiano, skripka, violonçel, klarnet, fleyta, faqot, zərb alətləri, tar, kamança, qarmon, nağara, saz və vokal sinifləri fəaliyyət göstərir. Bütün siniflər yeni musiqi alətləri ilə təmin edilmişdir. Məktəb üçün alınan pianoların əksəriyyəti Qəbələdəki «Beltman» piano zavodunun istehsalıdır. Məktəbdəki 40 yerlik kiçik zal əsasən, imtahanların keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev dördüncü mərtəbədə binanın əvvəlki və hazırkı vəziyyətini, burada aparılmış tikinti işlərinin gedişini əks etdirən fotostendə baxdı, 160 yerlik konsert zalı ilə tanış oldu. Bildirildi ki, ən müasir avadanlıqla təchiz olunmuş, kompyuterləşdirilmiş zalda yenidənqurma işləri zamanı akustikaya xüsusi diqqət yetirilmiş, müasir işıqlandırma sistemi qurulmuşdur.

Dövlətimizin başçısı konsert zalında prezident təqaüdçüsü Nərgiz Hüseynovanın ifasında Qara Qarayevin əsərlərini dinlədi.

Bildirildi ki, məktəbdəki yeniliklərdən biri də burada səsyazma studiyasının qurulmasıdır. Bundan başqa, burada yeməkxana və tibb məntəqəsi də yaradılmışdır. Zirzəmidə dekorasiya və səhnə geyimləri üçün anbar və musiqi alətləri üçün emalatxana vardır.

Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, kollektivə uğurlar arzuladı.

## BAKIDA GÖRKƏMLİ BƏSTƏKAR FİKRƏT ƏMİROVUN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*19 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Bakının mərkəzində xalqımızın görkəmli bəstəkarı, SSRİ və Azərbaycanın Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun xatirəsinə ucaldılmış abidənin açılışında iştirak etmişdir.*

*Azərbaycan musiqi ictimaiyyətinin tanınmış nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, müəllifi Əməkdar rəssam Namiq Dadaşov olan abidənin ətrafı tamamilə abadlaşdırılmış, burada yeni park salınmışdır.*

*Dövlətimizin başçısı abidənin üzərindəki örtüyü götürdü.*

*Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.*

*Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin korifeylərindən olan Fikrət Əmirov zəngin yaradıcılığı ilə musiqimizin inkişafında yeni mərhələ açmış, mədəniyyətimizi dünya miqyasında tanıtmışdır. Onun yaratdığı əsərlər dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olmuşdur.*

*Fikrət Əmirovun yaradıcılığı geniş və çoxşaxəlidir. Bəstəkarın sənət sahəsində xidmətləri daim dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir.*

*Sonra dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

* * *

– Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Biz şəhərin mərkəzində böyük Azərbaycan bəstəkarı Fikrət Əmirovun abidəsinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu abidənin açılışı onu göstərir ki, Azərbaycan xalqı və dövləti öz görkəmli şəxsiyyətlərinin xatirəsinə böyük hörmətlə yanaşır. Fikrət Əmirov Azərbaycan xalqının böyük bəstəkarıdır. O öz xalqına çox bağlı insan idi. Onun əsərləri – həm klassik əsərləri, həm mahnıları göstərir ki, bu insanda milli duyğular nə qədər yüksək səviyyədə idi.

Fikrət Əmirov simfonik muğam janrının müəllifi, onun yaradıcısı idi. Muğam milli sərvətimizdir. Muğam milli şüurumuz, milli ruhumuzdur. Bu gün müstəqil Azərbaycan milli irsini qorumağa qadirdir. Sovet dövründə simfonik muğam janrının yaradıcısı kimi, Fikrət Əmirov həm öz yaradıcı axtarışının nəticələrini görmüşdü, həm də doğma xalqına, mədəniyyətinə olan duyğular bu gözəl janrı yaratmağı ona nəsib etmişdir.

Bu gün muğam YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Artıq Azərbaycan dünyada muğamın vətəni kimi tanınır. Ölkəmizdə keçirilən muğam festivalları, muğam müsabiqələri bütün dünyaya göstərir ki, muğamın vətəni Azərbaycandır.

Fikrət Əmirov böyük əsərlərin müəllifi idi. «Sevil» operası, «Nəsimi», «Nizami» baletləri ona həm Azərbaycanda, həm Sovet İttifaqı məkanında böyük şöhrət qazandırmışdır. «Min bir gecə» baleti isə ona dünya şöhrəti qazandırmışdır. Bu balet dünyanın müxtəlif ölkələrinin şəhərlərində nümayiş etdirilir. «Min bir gecə» baleti 1981-ci ildə Moskvada Kreml sarayında böyük təntənə ilə səhnəyə qoyulmuşdur. Mən o günü yaxşı xatırlayıram. O gün həm Fikrət Əmirovun istedadının, musiqisinin, həm də Azərbaycan musiqisinin təntənəsi günü idi.

Ulu öndər Heydər Əliyev Fikrət Əmirovun fəaliyyətinə, onun şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Onları dostluq əlaqələri bağlayırdı. Bəzi hallarda onların görüşlərini mən də

kənardan müşahidə edirdim və görürdüm ki, bu insanlar arasında nə qədər səmimi münasibətlər vardır. O vaxt Sovet İttifaqının ən böyük mükafatı – «Sosialist Əməyi Qəhrəmanı» adı da Fikrət Əmirova sovet dövləti tərəfindən Heydər Əliyevin təşəbbüsü ilə verilmişdi.

Fikrət Əmirov bütün ömrü, bütün yaradıcılığı ilə Azərbaycan xalqına xidmət edib. Bu gün Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi, uğurla inkişaf edir, yaşayır, özünü tanıtdıra bilir. O illərdə – sovet dövründə biz Azərbaycan xalqının nə qədər istedadlı olduğunu dünyaya ancaq bu yollarla – incəsənətlə, musiqi ilə, ədəbiyyatla nümayiş etdirə bilirdik. Azərbaycan xalqının nə qədər istedadlı olduğunu bilmək üçün təkcə musiqimizə qulaq asmaq kifayətdir.

Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, onun Fikrət Əmirov kimi böyük bəstəkarları olmuşdur və vardır. Çünki onun əsərləri bu gün də yaşayır. Fikrət Əmirov həyatdan tez getdi. Otuz ilə yaxındır ki, aramızdan gedib, ancaq onun əziz xatirəsi və yaratdığı əsərlər Azərbaycan xalqının ürəyində yaşayır. Çünki bu ölməz əsərlər doğrudan da ən böyük qiymətə layiqdir və ən böyük qiyməti məhz zaman vermişdir. Əgər bu əsərlər bu gün də aktualdır, bu gün də böyük maraq doğurursa, deməli, bu əsərlər bundan sonra da yaşayacaqdır və bu əsərlər ölməzdir.

Dünən Azərbaycanda Musiqi günü qeyd edilmişdir. Görürük ki, bizim nə qədər zəngin musiqi mədəniyyətimiz vardır – həm klassik əsərlər, həm bəstəkarların əsərləri, həm milli musiqimiz. Bizim musiqimiz bizim milli sərvətimizdir. Biz musiqi irsimizi həm qorumalıyıq, həm musiqimizi inkişaf etdirərək yeni gənc musiqiçilərin uğurlu fəaliyyəti üçün daha da böyük işlər görməliyik.

Bu gün buraya gəlməzdən əvvəl biz Qara Qarayevin adını daşıyan musiqi məktəbinin əsaslı təmirdən sonra açılışını da qeyd etdik. Çox gözəl məktəbdir. Həm məktəbin sahəsi iki dəfədən artıq böyüdülüb, həm də orada bütün gözəl avadanlıqlar, musiqi alətləri vardır. Əlbəttə, belə musiqi məktəb-

lərinin təmiri, yaradılması sayəsində Azərbaycan musiqisi yaşayacaqdır. Azərbaycan görkəmli şəxsiyyətlərinin xatirəsinə həmişə böyük hörmətlə yanaşır və yanaşacaqdır. Yaxın zamanlarda Azərbaycanın böyük bəstəkarı Qara Qarayevin də Bakı şəhərinin mərkəzində abidəsi ucaldılacaqdır.

Bütövlükdə mədəniyyət, incəsənət məsələlərinə həmişə olduğu kimi, böyük diqqət göstərilir və göstərilməlidir. Bilirsiniz ki, ulu öndər Heydər Əliyev sənət adamlarına daim böyük diqqətlə yanaşırdı, onlarla daim ünsiyyətdə idi, fəaliyyəti ilə maraqlanırdı. Sovet dövründə onlara ən yüksək mükafatların verilməsində fəal iştirak edirdi. Müstəqillik dövründə yaradıcı insanların fəaliyyəti üçün çox böyük işlər görürdü. Bu gün də bu siyasət davam etdirilir. Mən çalışıram ki, öz növbəmdə Azərbaycan mədəniyyəti, incəsənəti, musiqi sənəti üçün böyük işlər görmüş insanlarla əlaqədə olum, onlarla bir yerdə olum. Belə gözəl tədbirlərdə bir yerdə olmaq mənim üçün çox xoşdur.

Biz mədəniyyətimizlə haqlı olaraq fəxr edirik. Bu gün müstəqil Azərbaycan özünü dünyada mədəni ölkə kimi təqdim edir. Bizim bütün digər sahələrdə əldə etdiyimiz uğurlarla bərabər, bu sahədəki uğurlarımız da məni xüsusilə sevindirir. Gənclərimiz beynəlxalq musiqi festivallarında, müsabiqələrdə ən yüksək yerləri tuturlar. Bu gənclər müstəqillik dövründə yetişmişlər. Bizim tanınmış bəstəkarların, şairlərin, yazıçıların əsərləri beynəlxalq aləmə çıxır, müxtəlif ölkələrin səhnələrində nümayiş etdirilir. Azərbaycan mədəniyyətini təbliğ etmək üçün dünyanın ən böyük paytaxtlarında Azərbaycan günləri keçirilir. Ölkəmizdə bir qayda olaraq musiqi festivalları keçirilir. Bütün teatrlarımızda təmir işləri aparılıb və bu işlər davam etdirilir. Bütün muzeylərdə təmir işləri aparılıbdır və yeni muzeylər yaradılır. Müasir İncəsənət Muzeyi, Dövlət Bayrağı Muzeyi yaradılmışdır. İstiqlal Muzeyinin yaradılması ilə bağlı işlər gedir. Qədim tariximizi əks etdirən Qala Arxeoloji-Etnoqrafik Muzeyi fəaliyyətə başlamışdır. Doğrudan da çox zəngin tariximiz və çox böyük mədəniyyətimiz vardır. Biz çalışırıq ki, bu gözəl nümunələri həm ölkə vətəndaşlarına, həm beynəlxalq

ictimaiyyətə göstərək. Əminəm ki, biz bundan sonra da həm mövcud olan mədəni irsimizin təbliğində daha da ardıcıl işlər aparacağıq və ən önəmlisi isə, gənc nəslin bu sahəyə diqqət yetirməsi üçün Azərbaycan dövləti əlavə tədbirlər görəcəkdir.

Mən çox şadam ki, gənclərimiz milli musiqiyə böyük maraq göstərirlər. İndiki zamanədə, qloballaşan dünyada bilirsiniz, bəzi hallarda gənclər doğma olmayan musiqiyə daha çox üstünlük verirlər. Azərbaycanda isə biz bunun əksini görürük. Gənclərimiz milli ruhda böyüməlidirlər. Bizim gözəl musiqi əsərlərimiz onlar üçün tanış olmalıdır. Əlbəttə, sizin – görkəmli mədəniyyət xadimlərinin işi və bu sahədəki fəaliyyəti çox böyük əhəmiyyətə malikdir.

Mən həm də ona görə çox şadam ki, gənclərimiz muğam sənətinə böyük həvəslə yanaşırlar. Hətta estradamızda da milli motivlər, milli təranələr üstünlük təşkil edir. Biz bunu qorumalıyıq, saxlamalıyıq. Çünki hər bir xalqın milli mənliyinin qorunması üçün onun mədəniyyəti, incəsənəti, musiqisi, dili və tarixi başlıca rol oynayır. Biz onilliklər, yüzilliklər ərzində başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq milli mənliyimizi saxlaya bilmişik, həmçinin incəsənət, ədəbiyyat, musiqi sahəsində.

Fikrət Əmirov böyük bəstəkar, gözəl insan, ziyalı insan idi. Onun adı əbədiləşdirilib. Bakıda, Gəncədə, Sumqayıtda onun adını daşıyan yerlər, musiqi məktəbləri vardır. Gəncə Filarmoniyası, Dövlət mahnı və rəqs ansamblı onun adını daşıyır. Bax, bu küçə Fikrət Əmirovun adını daşıyır. Bu gün isə Fikrət Əmirovun abidəsi açılır. Bir daha mən sizin hamınızı, Fikrət Əmirovun ailəsini, bütün musiqi ictimaiyyətini bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**Fərhad Bədəlbəyli** *(Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti):* Yadımdadır, bir dəfə Mstislav Rostropoviç buraya gələndə ulu öndər konsertdən sonra bizi yığıb musiqi haqqında söhbət etdi. Onun Fikrət Əmirov haqqında çox maraqlı tövsiyələri var idi. Deyirdi ki, mən «Azərbaycan kapriççiosu»nu eşidəndə elə bil mənim gözlərim önündə bütün

Azərbaycan – dağlar, meşələr, çaylar, göllər, insanlar canlanır. Mən bu əsərdə bütün Azərbaycanı hiss edirəm. Doğrudan da «Azərbaycan kapriççiosu» onun ən sevimli əsərlərindən biri idi. Biz onu eşidəndə finalda ulu öndəri hiss edirik. Bu çox əzəmətli bir əsərdir. Bu bəlkə də Azərbaycanın vizit kartı idi. Yadımdadır, mən hələ onda cavan idim, ulu öndər Qara Qarayevə, Niyaziyə, Fikrət Əmirova, Rəşid Behbudova nə qədər diqqət yetirirdi. Sovetlər vaxtında balaca bir ölkədə musiqi sahəsində dörd nəfərin Sosialist Əməyi Qəhrəmanı adını qazanması çox çətin idi. Amma Azərbaycanda dörd nəhəng insan – Qara Qarayev, Rəşid, Fikrət, Niyazi qəhrəman idi. Bu hamısı ulu öndərin siyasəti sayəsində mümkün olmuşdu.

Bu il bizim üçün çox önəmli ildir. Bakı Musiqi Akademiyasının 90 illiyidir. Əlbəttə, böyük fəxrdir ki, dahi bəstəkar Fikrət Əmirov məhz bizim konservatoriyanın yetirməsidir. Üzeyir bəyin ən sevimli və ən istedadlı şagirdlərindən biri idi. Fəxr edirik ki, Fikrət Əmirovun bu əsəri hər gün Afinada, Londonda, Berlində, Vilnüsdə, İtaliyada, hər yerdə səslənir. Qoy o gün olsun ki, Fikrət Əmirovun «Azərbaycan kapriççiosu»na Sizinlə birliklə Şuşada – Cıdır düzündə qulaq asaq.

**F i r ə n g i z Ə h m ə d o v a** *( SSRİ Xalq artisti, «Sevil» operasında Sevilin partiyasının ilk ifaçısı):* Fikrət Əmirovun bu gözəl abidəsi hamımızı sevindirir. Fikrət Əmirov böyük şəxsiyyət, böyük bəstəkar idi. Hələ çox illər bundan qabaq ABŞ-da onun «Kürd ovşarı» və «Şur» muğam simfoniyaları bütün dünyada tanınan dirijor Stakovskinin rəhbərliyi altında səslənmişdir. Bundan başqa, Fikrət Əmirovun muğam əsərləri, simfonik əsərləri dünyanın bir çox ölkəsində indi də səslənir. Bilirsiniz, mənim üçün bu gün elə bir bayramdır ki, ürəyimdəki sözlərin hamısını deyə bilmirəm. Ancaq mən ölkəmizin rəhbərliyinə, şəxsən hörmətli Prezidentimizə, çox istəkli birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bizim mədəniyyətə, musiqiyə böyük qayğı göstərirlər.

**C ə m i l Ə m i r ov** *(Fikrət Əmirovun oğlu):* Bu əlamətdar gündə mən Fikrət Əmirovun ailəsi adından onun xatirəsini yad edən, onun adını uca tutan hər bir kəsə dərin təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bəstəkarın xatirəsi daim yad edilir. Onun yaradıcılıq irsi Azərbaycan musiqisinin yüksək rəmzi kimi, dünyanın hər bir guşəsində layiqincə təqdim olunur. Qürur hissi ilə qeyd etmək istəyirəm ki, bu gündən sonra Fikrət Əmirovun siması Bakının ən gözəl guşələrindən birində seyr ediləcək, yad olunacaqdır. Düşünürəm ki, bu abidənin ucaldılması, Azərbaycan rəhbərliyinin və şəxsən möhtərəm prezidentimiz, cənab İlham Əliyevin mədəniyyətimizə həssas duyğusunun ifadəsidir. Bu diqqətə və qayğıya görə ailəmiz adından və şəxsən öz adımdan Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Sağ olun.

# ŞÜVƏLANDA «ŞİMAL» ELEKTRİK STANSİYASININ İKİNCİ BUXAR-QAZ ENERJİ QURĞUSUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*21 sentyabr 2011-ci il*

*Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən «Şimal» elektrik stansiyasının 409 meqavat gücündə ikinci buxar-qaz enerji qurğusunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev yeni qurğunun tikinti layihəsi ilə tanış oldu.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına layihə barədə məlumat verərək bildirdi ki, «Şimal» elektrik stansiyasının ümumi sahəsi 68 hektar, ikinci buxar-qaz qurğusunun tikiləcəyi ərazi isə 12 hektardır.*

*Qeyd edildi ki, ikinci buxar-qaz qurğusunun inşası Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin dövlət zəmanətli krediti hesabına həyata keçiriləcəkdir. 2010-cu ilin avqust–noyabr aylarında keçirilmiş beynəlxalq tenderin nəticələri əsasında Yaponiyanın «Toyo Engineering Corporation» və Azərbaycanın «Azenco» Açıq Səhmdar Cəmiyyəti konsorsiumu ilə «Azərenerji» Açıq Səhmdar Cəmiyyəti arasında müqavilə imzalanmışdır.*

*Məlumat verildi ki, qurğunun komponentlərinə qaz və buxar turbinləri, qazan-utilizator və generator daxildir. Bundan başqa, müasir soyuducu su sistemi, 220, 110 və 35 kilovoltluq tam qapalı yarımstansiya, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması qurğusu da yaradılacaqdır. Qurğuda dəniz suyundan soyuducu*

*sistemdə istifadə etməklə yanaşı, texniki və içməli suyun alınması da mümkün olacaqdır. Layihənin əsas əhəmiyyəti ondan ibarətdir ki, buxar-qaz qurğusunun faydalı iş əmsalı 56,1 faiz, 1 kilovat/saat elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın miqdarı 220 qram təşkil edəcəkdir. Layihəyə əsasən inşa olunacaq qurğu ildə 3,2 milyard kilovatt/saat elektrik enerjisi istehsal edəcəkdir.*

*Sonra dövlətimizin başçısı beton qarışığı tökən qurğunu işə saldı.*

**İ l h a m Ə l i y e v**: Əziz dostlar, hörmətli xanımlar və cənablar! Hörmətli cənab səfir, Yaponiyadan gəlmiş qonaqlar!

Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl, əlamətdar bir gündür. Bakıda yeni, müasir elektrik stansiyasının təməl daşını qoyuruq. Əminəm ki, bu stansiya yaxın zamanlarda tikilib işə salınacaq və beləliklə, Azərbaycanın enerji potensialına böyük töhfə veriləcəkdir.

«Şimal-2» stansiyasının tikintisi çox əlamətdar hadisədir. Bir tərəfdən ona görə ki, biz Azərbaycanda yeni, böyük infrastruktur layihəsinin icrasına başlayırıq. Bu, artıq Azərbaycanda ənənəvi xarakter daşıyır. «Şimal-1» elektrik stansiyası 10 il bundan əvvəl tikilməyə başlanmışdır. 1998-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə aparılan danışıqlar nəticəsində «Şimal-1» elektrik stansiyasının tikintisi üçün Yaponiya hökuməti kredit ayırmışdır. 2000-ci ildə burada ulu öndərin iştirakı ilə «Şimal-1» elektrik stansiyasının təməl daşı qoyulmuşdur və 2002-ci ildə stansiya istifadəyə verilmişdir.

O vaxt Azərbaycanın enerji təhlükəsizliyi üçün və ümumiyyətlə, ölkəmizin inkişafı üçün «Şimal-1» elektrik stansiyasının tikintisi müstəsna əhəmiyyət daşıyırdı. Çünki o illərdə Azərbaycanda kifayət qədər enerji gücləri yox idi. Əvvəlki dövrdə tikilmiş stansiyaların resursları, demək olar ki, tükənmişdi, Bakıda və bölgələrdə bəzi hallarda enerji qıtlığı yaranırdı. Enerji problemi var idi. «Şimal-1» elektrik stansiyasının tikintisi və Yaponiya hökumətinin bu məsələlərə çox diqqətlə yanaşması nəticəsində Azərbaycan energetikasının

yeni dövrü başlanmışdır. Biz o günləri yaxşı xatırlayırıq və çətin gündə bizə kömək etmiş Yaponiya hökumətinə, Yaponiya xalqına həmişə minnətdarıq.

Bu stansiyanın tikintisi 10 ildən sonra yenə də Yaponiya hökumətinin krediti hesabına həyata keçiriləcəkdir. Bu onu göstərir ki, aramızda olan çox gözəl münasibətlər uğurla davam edir, Yaponiya hökuməti Azərbaycanda iqtisadiyyatın, sənaye potensialının inkişafına çox böyük diqqət göstərir. Bu, Yaponiya–Azərbaycan dostluğunun təzahürüdür.

Fürsətdən istifadə edərək Yaponiya hökumətinə Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Təəssüf ki, bu yaxınlarda Yaponiyada baş vermiş dəhşətli təbii fəlakət ölkəni sarsıtmışdır. İndi o fəlakətin fəsadlarını aradan qaldırmaqla məşğul olan Yaponiya hökuməti Azərbaycan ilə dostluq münasibətlərini möhkəmləndirir. Bu stansiyanın tikintisi dostluğumuzun rəmzidir.

Fürsətdən istifadə edərək fəlakət zamanı həlak olmuş bütün insanların xatirəsini yad etmək istərdim. Yapon xalqının bu faciə ilə mübarizədə göstərdiyi cəsarət və mətanət bütün dünyanı heyran etmişdir.

Bu stansiyanın tikintisi Azərbaycanın həyatında çox əlamətdar hadisədir. Çünki bu, inkişafımıza yeni təkan verəcəkdir. Son illər Azərbaycanda bu sahədə çox böyük işlər görülmüşdür. Təkcə son 5 ildə – 2006-cı ildən bu günə qədər Azərbaycanda 11 elektrik stansiyası tikilmişdir ki, onlardan doqquzu istilik elektrik, ikisi su- elektrik stansiyasıdır.

Bu stansiyaların fəaliyyətə başlaması nəticəsində bizim şəbəkəyə 1500 meqavat elektrik enerjisi daxil edilmişdir. Bu çox böyük rəqəmdir, böyük göstəricidir. Nəzərə alsaq ki, ötən dövrlər ərzində Azərbaycanda 4 min meqavata yaxın enerji gücü yaradılmışdır, görmək çətin deyildir ki, 5 il ərzində 1500 meqavat gücün yaradılması nə qədər böyük uğurdur və nailiyyətdir.

Bu illərdə bütün bölgələrdə modul tipli elektrik stansiyaları tikilmişdir. Beləliklə də, bölgələrdə və Bakıda enerji qıtlığı

problemini əsaslı şəkildə həll edə bilmişik. Hələ 6-7 il bundan əvvəl qarşıya vəzifə qoymuşdum: biz elə etməliyik ki, hər bir evdə, hər bir müəssisədə hər bir insan düyməni basıb sutkada 24 saat enerjini almalıdır. Buna nail ola bilmişik. Bu gün Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin edir, başqa ölkələrə də elektrik enerjisini ixrac edir. Azərbaycan qonşu dövlətlərə elektrik enerjisini nəql edir və getdikcə nəql ediləcək enerjinin həcmi artacaqdır. Bu məqsədlə yeni ötürücü xətlər tikilir. Necə ki bu gün biz neftimizi, qazımızı, neft məhsullarımızı dünya bazarlarına ixrac edirik, eləcə də elektrik enerjisini dünya bazarlarına ixrac etmək fikrindəyik. Yaradılmış enerji potensialımız Azərbaycanın bugünkü inkişaf vəziyyətinə uyğundur. Hətta bizdə istehsal edilən enerji tələb olunan enerjidən daha da çoxdur və beləliklə, ixrac yaranır.

Ancaq biz gələcəyə baxmalıyıq. Azərbaycanda alüminium sənayesinə böyük investisiyalar qoyulur. Yaxın zamanlarda böyük alüminium zavodu işə düşəcəkdir. Əlbəttə ki, bu sahələr də böyük enerji tələb edir. Metallurgiya sənayesinin inkişafı üçün konkret planlar var və zavodlar tikilir. Müasir neft-kimya kompleksi tikilməkdədir. Beləliklə, enerjiyə olan tələbat daim artacaqdır. Ona görə biz siyasətimizi ölkəmizin ümumi inkişaf strategiyasına uyğun şəkildə qurmalıyıq və qururuq.

Baxmayaraq ki, hazırda kifayət qədər elektrik stansiyalarımız var, yenə də stansiyaların tikintisi böyük əhəmiyyət daşıyır. Növbəti iki ildə Azərbaycanda istifadəyə veriləcək yeni stansiyaların hesabına biz əlavə 1300 meqavat elektrik enerjisi əldə edəcəyik. Biz bu rəqəmdən 400 meqavatı «Şimal-2»dən, təxminən 800 meqavatı isə indi tikilməkdə olan «Cənub» elektrik stansiyasından alacağıq. Digər stansiyaların, o cümlədən su-elektrik stansiyalarının tikintisi hesabına əlavə 1300 meqavat enerji alacağıq. Beləliklə, 2006–2013-cü illər ərzində Azərbaycanda yaradılacaq yeni enerji gücü təxminən 3000 meqavata bərabər olacaqdır. Bununla yanaşı, bütün bölgələrdə, o cümlədən Bakı şəhərində yeni yarımstansiyalar, ötürücü xətlər tikilir. 30 min kilometr uzunluğunda ötürücü

xətlər tikilmişdir. Biz indi bərpa olunan enerjinin istehsalı ilə çox ciddi məşğuluq. Su ehtiyatlarımızın coğrafiyası müəyyən edilib, xəritələr tərtib edilibdir və bu il, keçən il kiçik çaylarda kiçik su-elektrik stansiyalarının təməl daşı qoyulubdur. Bu proses də geniş vüsət almışdır və biz bu işlərə böyük diqqət göstəririk. Daha da böyük su-elektrik stansiyaları tikilir. Misal üçün, Naxçıvanda Biləv, Vayxır su-elektrik stansiyaları istifadəyə verilmişdir. İndi Arpaçayda işlər getməlidir. Ordubad, Füzuli, Taxtakörpü, Şəmkirçay su-elektrik stansiyaları. Bu stansiyaların təxmini gücü 20–30 meqavat arasındadır. Bu, imkan verəcək ki, biz bərpa olunan enerji növlərini də inkişaf etdirək.

Azərbaycanın böyük neft-qaz ehtiyatları vardır. Bu ehtiyatlar xalqımıza onilliklər, bəlkə yüz il də bundan sonra kifayət edəcəkdir. Ona görə də nəzərə alsaq ki, biz indi bütün enerji sistemimizi yeniləşdirmişik, gələcəkdə Azərbaycanda enerji qıtlığı olmayacaqdır. Azərbaycanda enerji təhlükəsizliyi ilə bağlı bütün problemlər artıq öz həllini tapmışdır. Ancaq biz gərək müasir texnologiyalara böyük diqqət göstərək və bərpa olunan enerji növlərinin yaradılması bu məsələlərdə vacib rol oynayır.

Bu yaxınlarda biz Qobustan rayonunda hibrid tipli birinci günəş-külək elektrik stansiyasının açılışını qeyd etdik. Düzdür, bu stansiyanın istehsal gücü o qədər də böyük deyil və böyük də olmamalıdır, 5 meqavat səviyyəsindədir. Ancaq bu birinci ciddi addımdır. Bu müasirlikdir, yenilikdir, yeni texnologiyalardır, ekoloji cəhətdən təmiz texnologiyalardır. Bu, gələcəyə baxışımızdır. Ekoloji məsələlərə gəldikdə, qeyd etməliyəm ki, bu gün Azərbaycanda bir dənə də olsun mazutla işləyən elektrik stansiyası yoxdur. Amma bir neçə il əvvəl stansiyalarımızın, demək olar ki, əksəriyyəti mazut rejimində işləyirdi. Həm bu məqsədlər üçün böyük vəsait sərf edilirdi – indi biz o mazutu emal edirik, yəni yenidən emala verilir, neft və yüngül məhsullar ixrac edilir – həm də ekologiyamız zərər çəkirdi. İndi bütün stansiyalar qazla işləyir və bu, ekoloji cəhətdən çox təmiz

rejimdir. Ancaq bərpa olunan elektrik stansiyaları ekoloji cəhətdən daha da sərfəli olacaqdır.

Bu gün bu stansiyanın təməl daşının qoyulması gözəl bir göstəricidir. Ölkəmizdə böyük infrastruktur layihələri icra edilir. Həm dövlət büdcəsi tərəfindən, həm də xarici tərəfdaşlar tərəfindən maliyyələşdirilən layihələr ölkəmizi gücləndirir. Bizim inkişaf templərimiz sürətlə irəliyə gedəcəkdir. Bu gün bu templər dünya miqyasında ən yüksək templər kimi tarixə düşübdür. Əminəm ki, bütün sahələrdə, o cümlədən energetika sahəsində bundan sonra da böyük uğurlarımız olacaqdır.

Bir daha bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Əminəm ki, stansiya yaxın zamanlarda və böyük keyfiyyətlə tikiləcək və biz bu stansiyanın açılışında birlikdə iştirak edəcəyik.

**Ş u s u k e  V a t a n a b e** *(Yaponiyanın Azərbaycandakı səfiri):* Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

«Şimal» buxar-qaz elektrik stansiyasının tikintisi layihəsinin ikinci mərhələsinin təməlqoyma mərasimində sizi salamlayıram. Bugünkü tədbir Yaponiya–Azərbaycan dostluğu və əməkdaşlığının vacib bir mərhələsidir. Mən bu gün burada sizinlə birlikdə olmağımdan şərəf duyuram.

Əvvəlcə fürsətdən istifadə edərək, Zati-aliləri cənab prezident İlham Əliyev başda olmaqla, Azərbaycan hökuməti və xalqına dəhşətli Tohoku zəlzələsi və sunamisindən sonra Yaponiyaya göstərdiyi dəstək və həmrəyliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm..

Bu gün qarşımızda ölkə iqtisadiyyatının və ümumiyyətlə, cəmiyyətimizin yenidən qurulması məqsədi durur. Bizim o dəhşətli faciədən çıxardığımız nəticə odur ki, coğrafi məsafələrə baxmayaraq, hamımız «bir gəmidəyik». Bu isə o deməkdir ki, qlobal cəhətdən vacib olan məsələləri yalnız birlikdə həll edə

bilərik. Özümüzün və gələcək nəsillərin firavanlığını təmin etmək üçün bir-birimizə yardım göstərməliyik.

Biz artıq Azərbaycanda elektrik enerjisi istehsalı ilə bağlı iki layihə həyata keçirmişik. Bizim bu sahədə olan üçüncü birgə əməkdaşlığımızdır. Əminəm ki, bu layihə də uğurlu olacaq, nəticədə Bakı və Abşeron yarımadası əhalisinin enerji ilə təminatı daha da yaxşılaşdırılacaqdır.

Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, elektrik enerjisi sahəsi Azərbaycanda xüsusi rol oynayacaqdır. Biz çox şadıq ki, bu sahədəki əməkdaşlığımızın nəticəsində insanların gündəlik həyatı daha da yaxşı olacaqdır.

Sonda Azərbaycanın sürətli inkişaf dövründə onun dostu və tərəfdaşı olmağımızla fəxr etdiyimizi vurğulamaq istərdim.

Təşəkkür edirəm.

* * *

*Prezident İlham Əliyev tikinti işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DEMOKRAT QRUPUNUN SƏDRİ ROBERT VOLTER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Avropa Şurası Parlament Assambleyasının demokrat qrupunun sədri Robert Volteri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı, Bakıda keçiriləcək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr edilmiş beynəlxalq tədbirin əhəmiyyəti qeyd edildi, bu tədbirin parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

## BOLQARISTAN RESPUBLİKASININ İQTİSADİYYAT, ENERGETİKA VƏ TURİZM NAZİRİ TRAYÇO TRAYKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Bolqarıstan Respublikasının İqtisadiyyat, Energetika və Turizm naziri Trayço Traykovu qəbul etmişdir.*

*Bolqarıstanın İqtisadiyyat, Energetika və Turizm naziri Trayço Traykov prezident Georgi Pırvanovun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən energetika və turizm sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, yüksək səviyyəli səfərlərin və görüşlərin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi işinə böyük töhfə verdiyi qeyd edildi, İqtisadiyyat, Energetika və Turizm naziri Trayço Traykovun ölkəmizə səfərinin iqtisadi sahədə əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəmli olduğu bildirildi.*

*Dövlətimizin başçısı Bolqarıstan prezidenti Georgi Pırvanovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan ilə Çin arasındakı münasibətlərə böyük əhəmiyyət veririk. Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, qədim ənənələrə malik olan bu münasibətlər hazırda özünün yüksək inkişaf səviyyəsi ilə səciyyələnir.

Əminəm ki, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, ikitərəfli qaydada əməkdaşlığımız, habelə beynəlxalq məsələlərdə qarşılıqlı dəstəyimiz Azərbaycan–Çin dostluğunun bariz ifadəsi olaraq bundan sonra da ölkələrimizin və xalqlarımızın ümdə mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2011-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Alman birliyi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Almaniya münasibətləri hərtərəfli inkişaf yolundadır. Ölkələrimizi və xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələri siyasi dialoqumuzun davam etdirilməsi, iqtisadi və humanitar müstəvidə əməkdaşlığımızın dərinləşdirilməsi üçün münbit zəmindir.

Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində qarşılıqlı işimiz və birgə fəaliyyətimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2011-ci il*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident!

Əfqanıstanın Ali Sülh Şurasının Sədri, ölkənizin keçmiş Prezidenti, görkəmli dövlət xadimi Burhanuddin Rəbaninin terror aktı nəticəsində həlak olması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2011-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Dövlətin yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin daim möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 sentyabr 2011-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN XX İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ BAYRAM TƏDBİRİNDƏ NİTQ

*«Gülüstan» sarayı*

*22 sentyabr 2011-ci il*

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Şadam ki, bu çox mühüm tədbirdə iştirak etmək üçün ölkəmizdəsiniz. Siz Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 20 illiyi ilə bağlı tədbirdə iştirak edirsiniz.

Biz bu il müstəqilliyimizin 20 illiyini qeyd edirik. Biz bu fürsətdən istifadə edərək 20 il ərzində baş vermiş hadisələri, müstəqil ölkə kimi inkişaf etmiş dövlətimizin tarixinə nəzər yetiririk. Biz ölkəmizin siyasi sistemini gücləndirmişik, iqtisadiyyatımızı inkişaf etdirmişik. Bir daha başlanğıca, əvvələ diqqət yetirdikdə biz söyləyə bilərik ki, o vaxt ölkəmizdə vəziyyət kifayət qədər mürəkkəb idi. Sovet İttifaqının süqutundan sonra müstəqilliyimizi bərpa etdik. Bunu xüsusi vurğulamaq istərdim. Çünki Azərbaycanda ilk demokratik respublika 1918-ci ildə yaradılmışdır. Bu respublikanın 2 ildən az müddət ömrü olmuşdur. 1991-ci il müstəqilliyimizin bərpa edilməsi ili olmuşdur. Lakin o zaman ölkənin daxilində və xaricində vəziyyət heç də müstəqillik uğrunda ideyalarımızın dəstəklənməsinə yönəlməmişdi. O zaman sənaye çox acınacaqlı vəziyyətdə idi. İqtisadi və siyasi durumumuz çox acınacaqlı idi. Bir məsələni də yada salaq ki, həm də Azərbaycanın əraziləri Ermənistan tərəfindən işğal olunmuşdu. Çoxsaylı qaçqın və məcburi köçkünlərimiz var idi. Müstəqilliyimizin ilk illərində

ölkədə mürəkkəb proseslər cərəyan edirdi, vətəndaş müharibəsi baş vermişdi. Təsəvvür edin ki, müstəqilliyimiz nə qədər böyük sual altında idi. Bu səbəbdən vəziyyəti sabitləşdirmək, ölkəni müasir və demokratik dövlətə çevirmək üçün böyük səylər lazım idi, regional nüfuzumuz gücləndirilməli idi. Bu gün tariximizə nəzər salsaq görərik ki, biz bu çətinliklərin və problemlərin öhdəsindən gələ bilmişik və Azərbaycan vətəndaşlarının qürur duya biləcəyi bir dövlət yaratmışıq.

Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. Qeyd etdiyim kimi, o zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, əvvəlcə vətəndaş müharibəsi dayandırılmış, Ermənistanla atəşkəsin bərqərar olması ilə bağlı saziş imzalanmışdır. Bir sıra mühüm siyasi və iqtisadi islahatlara başlanılmışdır. O zaman maliyyə imkanlarımız çox məhdud idi. Sənaye, demək olar ki, mövcud deyildi. Neft sənayesi də tənəzzül içərisində idi. Bildiyiniz kimi, Azərbaycan dünyada sənaye üsulu ilə neft hasil edən ilk ölkə olmuşdur. İkinci dünya müharibəsi zamanı sovet qoşunlarının yanacağa tələbatının 70 faizini məhz Azərbaycan təmin etmişdir. Faşizm üzərində qələbənin təmin edilməsində Azərbaycanın müstəsna rolu olmuşdur. Qeyd etdiyim kimi, müstəqilliyimizin ilk illərində neft sənayesi də çox dərin böhran içərisində idi.

O zaman biz təkcə ölkəmizin dövlətçiliyini müdafiə etmək üçün deyil, ölkəni yaratmaq üçün böyük səylər göstərməli idik. Strateji seçim ondan ibarət idi ki, Azərbaycanda demokratik dövlət yaradılmalı, demokratik təsisatlar gücləndirilməli, sağlam siyasi və iqtisadi vəziyyət yaradılmalı idi. İqtisadiyyatın liberallaşması istiqamətində də səylər göstərilməli idi ki, Azərbaycana xarici sərmayə cəlb edilə bilsin. Bu çox uğurla baş verdi.

Ölkədə vətəndaş müharibəsi dayandırıldıqdan bir il sonra məhz burada, bu «Gülüstan» sarayında Azərbaycan üçün çox

mühüm olan, «Əsrin müqaviləsi» adlandırılan saziş imzalanmışdır. Bu, Azərbaycan üçün yeni imkanlar açmışdır. Bu müqavilə nəticəsində biz Azərbaycanı dünyaya təqdim etməyə başladıq. Çünki o zaman Azərbaycan informasiya blokadası şəraitində yaşayırdı. Erməni diasporunun səyləri nəticəsində ölkəmiz haqqında dünyada çox məhdud məlumatlar var idi. Bu sazişin imzalanması ilə biz ölkəmizi dünyaya təqdim etməyə, təbliğ etməyə başladıq. Əvvəlcə Xəzər dənizi hövzəsinin karbohidrogen resursları beynəlxalq şirkətlər tərəfindən istismar olunmağa başlandı. Biz milyardlarla ölçülən sərmayə cəlb edə bildik və inkişafımızın təməli qoyuldu. Dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığa başladıq. Həmin şirkətlərin təcrübəsindən, biliklərindən, texnologiyasından istifadə edərək iqtisadiyyatımızı gücləndirməyə başladıq. O zamandan bu günə kimi bizim ölkədə bir çox işlər görülmüşdür. Bizdə bütün sahələr üzrə mühüm irəliləyiş müşahidə olunur.

Regional baxımdan biz sabitləşdirici amil rolunu oynayırıq. Bir sıra mühüm siyasi və iqtisadi layihələrin təşəbbüskarı olmuşuq. İndi də buna davam edirik və bütün bu layihələr, təşəbbüslər uğurlu olmuşdur.

Ən böyük problemimiz təbii ki, Dağlıq Qarabağ münaqişəsidir. Bu təkcə Azərbaycana deyil, bütün regiona olan təhlükədir, bir həmlədir. Bu münaqişə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycan torpaqları işğal altındadır. Artıq bu, iki onillikdir ki, davam edir. Azərbaycanın beynəlxalq müstəvidə tanınan və tarixi torpağı olan Dağlıq Qarabağ, onun ətrafında 7 rayon 20 ildir ki, işğal altındadır. Xalqımız etnik təmizləməyə məruz qalmışdır. Bizim bir milyondan artıq qaçqın və məcburi köçkünümüz vardır. Torpaqlarımızın 20 faizi işğal altındadır və təəssüflər olsun ki, vəziyyət hələ də dəyişilməmişdir. Təbii ki, bu məsələ ilə bağlı olduqca güclü hüquqi baza vardır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Bu, ən yüksək səviyyədə qəbul olunan beynəlxalq qərarlardır. Bu qətnamələr işğalçı qoşunların işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Lakin təəssüflər olsun ki, 20 ilə yaxın vaxt ötsə də bu qətnamələr yerinə yetirilmir. Azərbaycan xalqı haqlı olaraq sual verir: Nə üçün indiyə kimi bu qətnamələr yerinə yetirilmir?! Nə üçün bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnaməsi bir neçə saat ərzində tətbiq olunmağa başlayır, lakin Dağlıq Qarabağ məsələsinə gəldikdə, uzun illərdir bu qətnamələr öz icrasını tapmamışdır?! Bildiyiniz kimi, digər müxtəlif beynəlxalq təşkilatların – ATƏT-in, Avropa Şurasının, İslam Əməkdaşlığı Təşkilatının bir sıra qətnamələri vardır. Lakin təəssüflər olsun ki, bunlar yalnız kağız üzərində qalmışdır. Bu səbəbdən, bir daha qeyd etmək istəyirəm ki, bu ədalətsizlik təkcə Azərbaycanın deyil, bütün regionun sabitliyinə və təhlükəsizliyinə böyük həmlədir, təhlükədir. Bizim vətəndaşların öz torpaqlarına qayıtmaq hüquqları vardır. Milyondan artıq Azərbaycan vətəndaşının fundamental hüquqları təmin edilməlidir. Bizim ərazi bütövlüyümüz bütün beynəlxalq ictimaiyyət, ölkələr tərəfindən dəstəklənmişdir.

Biz danışıqlarda maksimum dərəcədə konstruktiv mövqe nümayiş etdiririk. Lakin bunun müqabilində Ermənistanın destruktiv mövqeyi ilə üzləşirik. Ermənistan danışıqları maksimum dərəcədə uzatmaq niyyətindədir. Sonuncu görüşlərimiz də onu nümayiş etdirir ki, onların gündəliyində olan yeganə məsələ sülhün bərqərar olunmamasıdır. Status-kvonun saxlanması prosesi uzatmaq məqsədi daşıyır. ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin rəhbərləri də qeyd etmişlər ki, status-kvo vəziyyəti dəyişilməlidir. Bu da beynəlxalq ictimaiyyət tərəfindən Ermənistan rəhbərliyinin ünvanına güclü mesajdır. Biz məsələnin sülh yolu ilə həll edilməsini istəyirik və bununla bağlı öhdəliklərimizi dəfələrlə qeyd etmişik. Ermənistan rəhbərliyindən fərqli olaraq, biz bu danışıqlarda səmimi şəkildə iştirak edirik. Zənnimcə, Minsk qrupunun həmsədrləri daha güclü səylər göstərməli, daha fəal olmalıdırlar. Ermənistan hökuməti başa düşməlidir ki, XXI əsrdə bir dövlətin beynəlxalq müstəvidə tanınmış ərazisini işğal edən digər dövlət cəzasız qala bilməz.

Azərbaycanın keçən əsrin 90-cı illərində güclü rəhbərliyi olsaydı, o zaman ölkə rəhbərliyində səriştəsiz insanlar olmasaydı, bu insanların geosiyasət, dövlətçilik və ölkənin idarə edilməsi ilə bağlı hər hansı bir səriştəsi olsaydı, biz bu gün belə bir vəziyyətdə olmazdıq. Ermənistan kimi zəif, iqtisadi cəhətdən çox acınacaqlı vəziyyətdə yaşayan ölkə heç bir halda bizim ölkənin bir qarış belə torpağını işğal edə bilməzdi. Biz bu vəziyyəti dəyişmək niyyətindəyik. Biz bunu sülh yolu ilə etməyə çalışırıq və bu baxımdan beynəlxalq ictimaiyyətin, beynəlxalq təşkilatların səyləri çox vacibdir.

Burada mən AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olduğum zaman bir yerdə çalışdığım həmkarları görürəm. Belə bir sual yaranır: Biz həqiqətən məsələni həll etmək istəyirik?! Gəlin bunu geniş şəkildə müzakirə edək. Avropa Şurasında, ATƏT-də, Avropa İttifaqında, Avropa parlamentində geniş müzakirələr aparaq. Bu fürsətdən istifadə edərək, bizə göstərilən beynəlxalq dəstəyə görə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Biz elə bir həll yoluna çalışırıq ki, bütün etnik azlıqların hüquqları təmin edilsin, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin və mehribançılıq və sülh şəraitində yaşayaq. Azərbaycan çox tolerant və bir çox etnik azlıqların yaşadığı ölkədir. Burada müxtəlif dini təriqətlərin nümayəndələri də çox mehriban şəraitdə yaşayırlar. Bu günə qədər ölkəmizdə heç bir problem, hətta anlaşılmazlıq olmamışdır və biz bununla qürur duyuruq. Ona görə də bu gün biz Avropanın müsbət təcrübəsindən istifadə edilməsini təklif edirik. Avropada mövcud olan müsbət, çox uğurlu muxtariyyət təcrübəsi, modelləri təklif olunur. Hesab edirəm ki, Avropa ailəsində tətbiq olunmuş uğurlu muxtariyyət nümunələri burada da tətbiq oluna bilər. Biz çox gözəl anlayırıq ki, muxtariyyət nədir, özünüidarəetmə hüquqları nədir! Mən əminəm ki, bu, məsələnin həlli üçün ən başlıca amillər olacaq və biz buna nail olacağıq.

Azərbaycan iqtisadiyyatını inkişaf etdirməkdədir. Biz ümumi daxili məhsulun inkişafı baxımından ən yüksək

göstəricilərə nail olmuşuq. İqtisadiyyatımız, demək olar ki, 300 faiz artıb. Sənaye artımı eyni dərəcədə dinamik şəkildə inkişaf edir. Biz ölkədə ən böyük problemləri həll etmişik. İşsizlik məsələsi, demək olar ki, öz həllini tapıb. Ölkədə son 7 il ərzində 900 min yeni iş yeri açılıb. Daxili istehsal artıb. Biz bu gün ölkənin tələbatını daxili istehsal hesabına təmin edirik. Yoxsulluğun səviyyəsini çox ciddi şəkildə azaltmışıq. Son 7 il ərzində 5 dəfə azalıb. Bu gün biz onu nümayiş etdiririk ki, iqtisadiyyatımız davamlı əsaslar üzərində qurulub. Dünyada baş vermiş siyasi və maliyyə böhranı zamanı Azərbaycan çox davamlı inkişaf nümayiş etdirmişdir. Biz bu il pensiyaları 40 faiz artırmışıq. Dövlətin dəstəyinə ehtiyacı olan əhaliyə yardım bundan sonra da davam edəcəkdir.

Ölkə iqtisadiyyatında özəl sektorun payı 80 faizə çatmışdır. Beləliklə, liberal iqtisadi siyasət və siyasi islahatlar, ölkədə mövcud olan problemlərin həlli cəmiyyətdə çox münbit şərait yaratmışdır. Cəmiyyətimizdə milli maraqlarla bağlı vahid mövqe vardır. Müstəqilliyimizin ilk illərində təbii ki, müəyyən məsələlər, problemlər var idi. Lakin o zaman strateji seçim edilmişdir ki, bizim ölkənin gələcəyi müasir dövlətin yaradılmasındadır. Ölkədə qanunun aliliyi təmin edilməlidir, dini azadlıq, media azadlığı olmalıdır. Bu gün əhalimizin 50 faizi internet istifadəçiləridir. Bu gün bizdə söz, mətbuat azadlığı vardır. Təbii ki, bu istiqamətdə yenə də islahatlar həyata keçirilməlidir. Biz institutları gücləndirməliyik və demokratiyanı inkişaf etdirməliyik. Lakin mən demək istəyirəm ki, bu son 20 il ərzində regionda olan mürəkkəb vəziyyəti nəzərə alsaq, biz edə biləcəklərimizi maksimum etmiş olduğumuzu söyləyə bilərik.

Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir. Bu rəqəm bundan sonra da artacaqdır. Bilirsiniz ki, bizim ölkələr Sovet İttifaqının süqutundan sonra yaranmış dövlətlərdir. Təbii ki, qonşuluq məsələləri ilə bağlı müəyyən statistika böyük maraq doğurur. Lakin dəfələrlə ictimaiyyətə bildirilmişdir və mən şəxsən bunu bir neçə dəfə

qeyd etmişəm ki, Azərbaycan müasir dövlətə çevrilib. Güclü siyasi, iqtisadi və sosial islahatlar həyata keçirilir. Dünya İqtisadi Forumunun rəyinə görə Azərbaycan rəqabətlilik baxımından dünyada 55-ci, MDB məkanında isə birinci yerdə olan dövlətdir. Bu da həyata keçirdiyimiz islahatların göstəricisidir. Bizim başlıca məqsədimiz müasir dövlətin yaradılmasıdır. Biz Avropa institutları ilə bütün sahələr üzrə əməkdaşlığa müstəsna əhəmiyyət veririk. Mən çox şadam ki, bütün dünyadan olan, xüsusilə də Avropa parlamenti və Avropa Şurasından olan qonaqlarımız bu gün buradadır. Bu da onun göstəricisidir ki, bizim Avropa institutları ilə çox uğurlu əməkdaşlığımız vardır. Avropa institutları bizim ölkənin transformasiyasında mühüm rol oynamışdır. Bu təkcə hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı deyildir. Biz son 10 il ərzində avropalı tərəfdaşlarımızdan bir çox yeniliklər öyrənmişik. Hesab edirəm ki, bu gün biz artıq qarşılıqlı şəkildə bir-birimizin həyatına töhfə veririk. Bir neçə gündən sonra Avropa İttifaqı ilə yeni bir sammitimiz olacaqdır. Avropa İttifaqı məkanında olan ölkələrlə ikitərəfli münasibətlərimiz çox gözəl səviyyədədir. Avropa İttifaqı ilə münasibətlərimiz çox yüksək səviyyədədir. Bizim müzakirə etdiyimiz məsələnin çox geniş gündəliyi vardır. Bu səbəbdən mən hesab edirəm ki, çox uğurlu iş həyata keçiririk. Növbəti bir neçə il ərzində münasibətlərimiz daha da güclənəcəkdir.

Biz ölkənin inkişaf meyarlarını Avropa dövlətlərinin standartlarına çatdırmağa çalışırıq. Zənnimcə, biz buna nail olacağıq. Biz Avropaya, belə demək olarsa, əliboş gəlmirik. Biz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, terrorçuluqla mübarizə, nəqliyyat məsələlərində bir çox işlər təklif edə bilərik. Ötən illər ərzində bir çox məsələləri müzakirə etmişik. Neft, qaz və yanacaqla bağlı məsələlər danışıqlarımızda başlıca rol oynayırdı. Bu gün isə mən çox şadam ki, biz getdikcə neft və qaz haqqında daha az danışırıq. Mən çox şadam ki, bu gün Azərbaycana təkcə enerji resurslarını nəql edə bilən tərəfdaş deyil, müasir bir ölkə kimi baxırlar. Etnik və dini tolerantlığın

nümunəsi olan bir dövlət kimi baxırlar. Azərbaycan maariflənmiş, əhalisi gənc və turizm baxımından böyük potensiala malik olan bir dövlətə çevrilmişdir. Neft kapitalını insan kapitalına çevirmişik. «Hollandiya sindromu»nu artıq geridə qoymuşuq. Bir çox mütəxəssislər o zaman söyləyirdilər ki, Azərbaycan «Hollandiya sindromu»na tutulacaqdır. Zənginlər daha zəngin olacaq, yoxsullar isə bundan da yoxsul şəraitdə yaşayacaqlar. Biz isə sübut etdik ki, bu sindroma məruz qalmamaq olar.

Biz bir sıra aparıcı ölkələrin təcrübəsindən istifadə etdik. Bu gün neft və qaz əməliyyatları sahəsində bizim şəffaflığımız ən yüksək səviyyədədir. Azərbaycanın Dövlət Neft Fondu bu gün oxşar qurumlar arasında ən şəffaf qurumdur. Bu mənim sözlərim deyil, bu, beynəlxalq təşkilatların qiymətləndirməsidir. Yoxsulluğun 49 faizdən 9 faizə endirilməsi onu sübut edir ki, Azərbaycanın neft və qaz ehtiyatlarından alınan gəlir bərabər şəkildə paylanılır. Bu gün biz zəngin və yoxsul təbəqə arasında fərqi azaltmağa müvəffəq olmuşuq. Zənnimcə, biz yoxsulluğun tamamilə aradan qaldırılmasına nail olacağıq.

Neft və qaz haqqında çox danışmaq istəməzdim. Lakin qeyd etmək istəyirəm ki, bu bizim mühüm, başlıca sərvətimizdir. 10 il bundan öncə Azərbaycan tamam başqa bir vəziyyətdə idi. Neft və qaz sərvətlərimiz iqtisadiyyatın inkişafına dəstək oldu. Həmin sərvətlər Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində getdikcə artan rol oynayacaqdır. Bir çox Avropa ölkələri ilə əlaqədə və bir çox Avropa ölkələrinin enerji istehlakında Azərbaycanın rolu artır. Bəzi ölkələr 40 faiz Azərbaycan nefti və qazından yararlanır. Biz hər zaman tərəfdaşlığı və əməkdaşlığı gücləndirmək istiqamətində addımlar atmışıq. Sərvətlərimizdən sülh naminə istifadə etmişik. Artıq bəhrəsini görürük. Enerji cəmiyyətində biz güclü tərəfdaşıq, dost ölkəyik. Bu gün biz neft ixrac edən ölkədən qaz ixrac edən ölkəyə çevrilirik. Bizim enerji siyasətimiz öz bəhrəsini verəcəkdir. Bildiyiniz kimi, biz artıq çox böyük qaz yatağını aşkar etmişik. Bu, ölkəmizi bundan sonra 100 il təmin edəcəkdir. 7 kəmərimiz var ki, enerji daşıyıcıları

müxtəlif istiqamətlərdə nəql olunur. Biz kəmərlərimizi, xüsusilə dənizə çıxışı olmayan istehlakçılar istiqamətində uzatmaq niyyətindəyik.

Bildiyiniz kimi, cənab Barrozu – Avropa Komissiyasının sədri ölkəmizdə olmuş və Cənub qaz dəhlizi ilə bağlı müvafiq saziş imzalanmışdır. Qeyd etmək istərdim ki, həmin sənəd bu sahədə imzalanmış bir neçə sazişdən biridir ki, Avropa ilə əməkdaşlıq sahəsində geniş imkanlar açacaqdır. Biz artıq bu bəyannamənin icrasına başlamışıq. Təbii ki, bu, saziş deyil, daha çox bəyannamə xarakteri daşıyır. Lakin biz bu bəyannamə çərçivəsində öz öhdəliklərimizin artıq icrasına başlamışıq.

Qeyd etdiyim kimi, Avropa İttifaqı ilə Azərbaycanın əlaqələri artıq yeni bir mərhələyə qədəm qoyur. Bu, qarşılıqlı səmərəli olan əməkdaşlıq əlaqələridir. Bu əlaqələr qarşılıqlı hörmət və ehtiram üzərində qurulmuşdur. Burada qarşılıqlı anlaşma, qarşılıqlı mənfəət və səmərəlilik də mühüm amillərdəndir. Biz bundan sonra elə bir inkişaf yolu keçəcək, bizim ideyalar və Avropa tərəfdaşlarımızın ideyaları əsasında elə bir əməkdaşlıq yaradacağıq ki, bunun hansı formada həyata keçiriləcəyi ilə bağlı heç bir sual olmayacaqdır.

Qeyd etdiyim kimi, 20 ildir müstəqilik. Biz tariximizlə, mədəniyyətimizlə qürur duyuruq. Bu gün müstəqil və azad xalq kimi yaşamağımız ən böyük qürurverici amildir. Azərbaycanın gələcəyi Azərbaycan xalqının əlindədir. Bu, əsrlər boyu belə olmamışdır. Bu gün isə belə bir amil bizi çox sevindirir. Gənc nəsil hərdən keçmişlə bağlı söhbətləri eşidəndə o zamankı çətinlikləri, məhdudiyyətləri o qədər də dərk eləmir. O zaman biz heç xarici qonşu ölkələrə səfərlər edə bilmirdik. O zamankı sosialist qonşularımıza da qonaq gedə bilmirdik. O ki qaldı hər hansı qərarların qəbul edilməsinə, bu o zaman mümkün olmamışdır. Mən çox şadam ki, bu gün gənc nəsil artıq bunu dərk edir. Bizim isə daha böyük təcrübəmiz vardır. Çünki biz o dövrdə yaşamışıq və həmin dövrün müsbət və mənfi cəhətlərinə yaxşı bələdik. Bu gün qeyd etmək istəyirik ki, bizim ən böyük nailiyyətimiz – bizim müstəqilliyimizdir, azadlığımızdır. Bu,

Azərbaycan xalqı üçün ən böyük sərvətdir. Çunki əsrlər boyu Azərbaycan xalqı müstəqilliyindən məhrum olmuşdur. Ona görə bu gün mən qeyd etmək istəyirəm ki, müstəqilliyimiz ən böyük nailiyyətimizdir. Dövlətimiz bu gün müstəqil, dostcasına və proqnozlaşdırıla bilən bir siyasət yürüdür. Bu bir daha onu sübut edir ki, Azərbaycan Avropa üçün inamlı və güclü tərəfdaş ola bilər. Bu gün Avropa strukturları, institutları ilə Azərbaycanın əlaqələri məhz bu amil üzərində qurulub və əminəm ki, bu, əlaqələrimizin inkişafının möhkəm təməli olacaqdır.

Bir daha, hörmətli dostlar, sizi ölkəmizdə salamlayıram! Dövlətimiz adından sizə təşəkkür edirəm ki, bu gün çox mötəbər tədbirə qatılmısınız. Bu günlərdə Azərbaycanda bir sıra beynəlxalq tədbirlər, konfranslar, seminarlar keçirilir. Lakin bugünkü tədbir xüsusi əhəmiyyətə malikdir. Sizin bu gün Azərbaycana, Bakı şəhərinə səfəriniz, bu tədbirdə iştirakınız bizim üçün mühüm əhəmiyyət kəsb edir. Biz bunu sizin dostluq və tərəfdaşlıq töhfəniz kimi qəbul edirik. Sizin bir çoxunuz ilk dəfə deyil ki, ölkəmizdəsiniz. Amma ölkəmizə ilk dəfə səfərə gələn qonaqları xüsusi salamlayıram. Ümid edirəm ki, siz təkcə müzakirələr aparmayacaqsınız, eyni zamanda, Azərbaycanın görməli yerləri ilə tanış olacaqsınız.

Təşəkkür edirəm və konfransınıza uğurlar arzu edirəm!

## XAÇMAZ, QUBA VƏ QUSAR RAYONLARINA SƏFƏR

*Xaçmaz*

*23 sentyabr 2011-ci il*

*Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xaçmaz rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında yaradılmış şərait barədə məlumat verildi. Qeyd edildi ki, şəhərin mərkəzi olan bu ərazidə geniş abadlıq işləri aparılmış və park salınmışdır. Burada sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılmışdır.*

### Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanışlıq

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev Xaçmaz rayonuna səfəri çərçivəsində yenidənqurma işlərindən sonra Heydər Əliyev Mərkəzində yaradılmış şəraitlə tanış oldu.*

*Bildirildi ki, Xaçmazda 2005-ci ildə inşa edilmiş Heydər Əliyev Mərkəzində 2010-cu ildə əsaslı bərpa və yenidənqurma işləri aparılmışdır. Binanın dam hissəsi günbəz formasında yenidən inşa edilmiş, pəncərələri şəbəkə üslubunda düzəldilmişdir. Mərkəz 1 zaldan, 6 guşədən və 3 əlavə otaqdan ibarətdir. Burada Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto və eksponatlardan bir daha aydın olur ki, ulu öndər ölkəmizin beynəlxalq nüfuzunun, müstəqilliyinin möhkəmləndirilməsi üçün əvəzsiz işlər görmüşdür.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan*

*bölmələrdə ulu öndərin uşaqlıq və gənclik dövrlərini əks etdirən fotoşəkillər, 1969–1982-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı və digər sahələrdə reallaşdırdığı tədbirlər, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatındakı quruculuq işlərindən bəhs edən materiallar toplanmışdır.*

*Prezident İlham Əliyevə Xaçmazda görülmüş abadlıq-quruculuq işləri haqqında məlumat verildi.*

## Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də əsaslı təmirdən sonra istifadəyə verilmiş Xaçmaz Rayon Mərkəzi Xəstəxanası ilə tanış olmuşdur.*

*Xəstəxananın kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezident İlham Əliyevə məlumat verdi ki, xəstəxana 110 çarpayılıqdır. Burada rentgen, ultrasəslə müayinə, stomatoloq, otorinolarinqoloq, terapevt və digər kabinetlər vardır. Bütün kabinetlər ən müasir tibbi avadanlıqlarla təchiz edilmişdir.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, rayon sakinlərinin sağlamlıq kartlarının hazırlanması prosesinə başlanılmışdır. Bu kartlarda hər bir sakinin sağlamlığına dair bütün məlumatlar öz əksini tapacaqdır. Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının bu cür müasir şəraitlə təmin edilməsi, ilk növbədə burada tibbi müayinələrin və müalicə işinin ən yüksək səviyyədə təşkili və aparılması üçün hərtərəfli imkanlar yaradır.*

*Səhiyyə ocağında yaradılmış şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev xəstəxananın kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

# XAÇMAZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2011-ci il*

**İ l h a m   Ə l i y e v:** Xoş gördük. Sizi rayon xəstəxanasının yeni korpusunun əsaslı təmirdən sonra açılışı münasibətilə təbrik edirəm. 2 il bundan əvvəl xəstəxananın digər korpusları təmir edilmişdir, şərait yaxşıdır. Bu korpus qalmışdı, indi bu da artıq həll olundu. Həkimlərin iş şəraiti yaxşıdır və burada xəstələrə də yaxşı xidmət göstərilməlidir. Beləliklə, Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının əsaslı şəkildə təmiri başa çatmışdır. Bütün şimal zonasının səhiyyə problemləri öz həllini tapmaqdadır. Bakıdan Xaçmaza qədər bütün rayonlarda – Siyəzəndə, Şabranda səhiyyə ocaqları tikilmişdir. Bu yaxınlarda Xızıda gözəl Müalicə-Diaqnostika Mərkəzi tikilmişdir. Qubada da Müalicə-Diaqnostika Mərkəzi tikilib və rayon xəstəxanası təmir edilib. İndi Xaçmazın, demək olar ki, səhiyyə ilə bağlı bütün əsas məsələləri öz həllini tapır. Qusarda böyük xəstəxana tikilir, yaxın zamanlarda istifadəyə veriləcəkdir. Xəritəyə baxsaq görərik ki, Bakıdan ta sərhədə qədər bütün rayonlarda ya mərkəzi rayon xəstəxanaları əsaslı təmir edilmişdir, ya da ki, yeni diaqnostika mərkəzləri tikilmişdir. Bütün başqa bölgələrdə də buna oxşar işlər gedir. Bütün bölgələrdə səhiyyə ocaqları tikilir, xəstəxanalar təmir edilir, avadanlıqlar quraşdırılır. Azərbaycanda səhiyyə ilə bağlı problemlər uğurla həllini tapır. Bunu həm Azərbaycan vətəndaşları görür, həm də beynəlxalq təşkilatlar bu sahədə aparılan islahatlara yüksək qiymət verirlər.

Bu yaxınlarda Bakıda Dünya Səhiyyə Təşkilatının Avropa Regional Komitəsinin konfransı keçirildi. Avropanı təmsil edən bütün ölkələrdən nümayəndələr gəlmişdi. Konfransda Dünya Səhiyyə Təşkilatının rəhbərliyi tərəfindən Azərbaycanda

səhiyyənin vəziyyəti ilə bağlı çox müsbət rəylər səslənmişdir ki, Azərbaycanda bütün sahələr kimi, səhiyyə sahəsi də inkişaf edir. Son illərdə bu sahəyə qoyulan sərmayə bir neçə dəfə artmışdır. Dövlət büdcəmizdə səhiyyə məsələlərinə ayrılan xərclər də bir neçə dəfə artmışdır. Bu vəsaitin hesabına bütün bölgələrdə xəstəxanalar, müalicə-diaqnostika mərkəzləri tikilir. Qaldı ki, gərək bu mərkəzlərdə, xəstəxanalarda yaxşı tibbi xidmət göstərilsin. Onun üçün həkimlərin həm peşəkarlığı yüksəlməlidir, həm də onlar öz biliklərini artırmalıdırlar. Beynəlxalq əlaqələr də genişlənməlidir. Bizim həkimlər xarici klinikalarda təcrübə toplamalıdırlar. Biz dünyanın aparıcı tibb mərkəzlərindən Azərbaycana həkimlərin ezam edilməsi məsələləri ilə məşğuluq. Bir sözlə, Azərbaycanda insanların sağlamlığı üçün bütün lazımi məsələlər həll olunur.

İnsanın sağlamlığı üçün vacib olan digər amillər də var – ekologiya, içməli su, təmiz hava, idman. Bütün bu amillər də çox vacibdir. Biz elə etməliyik ki, Azərbaycanda bütün bu sahələr dünya standartları səviyyəsində olsun. İndi həm Bakıda, həm bölgələrdə içməli su ilə bağlı layihələr həyata keçirilir. Veriləcək suyun keyfiyyəti Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun olmalıdır. Azərbaycanda bütün işlər dünyanın ən gözəl təcrübəsinə uyğun olmalıdır. O cümlədən səhiyyə məsələləri ilə bağlı olan vəziyyət də bu istiqamətdə inkişaf etməlidir.

Mən çox şadam ki, həm bölgələrdə, həm Bakıda böyük, yeni, müasir səhiyyə ocaqları tikilir. Bu proses uğurla davam edir və davam edəcəkdir. Azərbaycanda səhiyyə sistemi dünyanın aparıcı ölkələrinin səviyyəsinə qalxmalıdır və qalxacaqdır. Bu günə qədər görülən işlər bunu deməyə əsas verir.

Eyni zamanda, bu gün Xaçmazda digər tədbirlər də vardır. Bu tədbirlərdə, açılışlarda iştirak edəcəyəm. Çox şadam ki, yenidən Xaçmazdayam. Xaçmaz rayonunda dəfələrlə olmuşam, vəziyyətlə tanışam. Bilirəm ki, burada son illər ərzində yaxşı işlər gedir, müsbət dəyişikliklər həyata keçirilir. Bu gün yenidənqurmadan sonra Heydər Əliyev Mərkəzi ilə tanış oldum. Xalça Muzeyi tikilibdir, gedib baxacağam. Şahmat məktəbi,

kitabxana, zavodlar fəaliyyətə başlayır. Müdafiə sənayesi zavodları tikilir. Xaçmazın böyük turizm potensialı var və bu potensialdan Azərbaycan vətəndaşları istifadə edirlər. Çox istərdim ki, burada fəaliyyət göstərən turizm obyektləri də dünya səviyyəsində olsun. Həm xidmət, həm də ki, orada yaradılan şərait baxımından.

Xaçmazda çox böyük abadlıq işləri aparılır. Siz xaçmazlılar bunu yaxşı görürsünüz və bütün bu işlərin iştirakçılarısınız. Yeni gözəl binalar tikilir, köhnə binalar təmir edilir. Mən görürəm ki, xaçmazlılar və yerli icra orqanları bu işlərə çox böyük məhəbbətlə, zövqlə yanaşırlar. Çox istəyirlər ki, Xaçmaz daha da gözəlləşsin. Ancaq onu da deyə bilərəm ki, bu gün Xaçmaz Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Mən ölkəmizin bütün yerlərində olmuşam. Elə bir yer yoxdur ki, orada olmayım. Bəzi yerlərdə dəfələrlə olmuşam. Əlbəttə, deyə bilərəm ki, son illər ərzində Xaçmazda abadlıq işlərinə göstərilən diqqət öz nəticəsini verir. Siz xaçmazlılar haqlı olaraq fəxr edə bilərsiniz ki, şəhəriniz gözəlləşir, abadlaşır. Hazırda həm abadlıqla, həm infrastruktur layihələri ilə bağlı həyata keçirilən layihələr gələcəkdə daha da yaxşı vəziyyətə gətirib çıxaracaqdır.

Xaçmazda olimpiya kompleksi tikilir. Göstərişi mən vermişəm. Çünki Xaçmaz kimi böyük rayonda mütləq müasir olimpiya kompleksi olmalıdır. Qazlaşdırma gedir, kəndlərə qaz çəkilir. Qaz proqramını da biz 2013-cü ilə qədər həll etməliyik. Bütün kəndlərə qaz verilməlidir. Su layihəsi icra ediləcəkdir. O layihə də 2 il ərzində, bəlkə ondan da tez öz həllini tapacaqdır. Yəni bütün məsələlər – səhiyyə, təhsil, infrastruktur, qazlaşdırma, içməli su, yol çəkilişi. Bakı–Xaçmaz yolunun böyük hissəsi artıq istismara verilib, qalan hissə də çəkiləcəkdir. Beləliklə, hökumətin üzərinə düşən bütün vəzifələr icra edilir. Mən çox şadam ki, xaçmazlılar da bütün bu işlərdə fəal iştirak edirlər. Xaçmaz rayonu da, şəhəri də gözəlləşir, abadlaşır. Bu xəstəxana da indi yaxşı səviyyədədir. Arzu edirəm ki, heç kim xəstələnməsin, hamı sağlam olsun. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

## Şəxsiyyətlər Muzeyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Xaçmaz rayonuna səfəri çərçivəsində şəhərdəki Şəxsiyyətlər Muzeyi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Xaçmazda Şəxsiyyətlər Muzeyi 2006-cı ildə yaradılmışdır. O vaxt muzeydə 15 görkəmli şəxsiyyətin büstü var idi. 2010-cu ildə muzey genişləndirilərək yenidən qurulmuşdur. Hazırda iki hektaradək ərazisi olan açıq səma altındakı muzeydə dahi Nizami Gəncəvinin abidəsi ucaldılmış, Azərbaycanın 39 şair və yazıçısının, mədəniyyət və incəsənət xadiminin büstü qoyulmuşdur. Muzeydə olan beş fəvvarə yenidən qurulmuş, ərazidə bulaq kompleksi inşa edilmişdir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Xaçmaz Şahmat məktəbinin açılışı mərasimi

*Sentyabrın 23-də prezident İlham Əliyev Xaçmaz Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı şahmat məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, prezident İlham Əliyevin «Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında» sərəncamı və «2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı»na uyğun olaraq Xaçmaz rayonunda da beynəlxalq standartlara uyğun yeni şahmat məktəbi inşa edilmişdir. Qısa zamanda tikilmiş məktəbin ümumi sahəsi 720 kvadratmetrdir. Dizaynında şahmat fiqurlarından və digər şahmat elementlərindən istifadə olunan binanın tikintisi zamanı yüksək memarlıq quruluşuna nail olunmuşdur. İkimərtəbəli binanın ətrafında yaşıllıq zolağı salınmış, abadlıq işləri görülmüşdür.*

*Məktəbdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın, o cümlədən şahmatın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılmışdır.*

*Bildirildi ki, məktəbin əsas vəzifəsi idmanın bu intellektual növünün kütləviliyini, şagirdlərin asudə vaxtlarının səmərəli keçməsini təmin etməkdir. Burada şahmat üzrə müxtəlif səviyyəli yarışlar keçirmək mümkündür.*

*Şahmat məktəbində yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev tövsiyə və tapşırıqlarını verdi.*

## Xalça Muzeyinin açılışı mərasimi

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev Xaçmazda Xalça Muzeyinin açılışında iştirak etmişdir.*

*Əvvəlcə muzeyin yerləşdiyi Mədəniyyət və istirahət parkı ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada əhalinin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, muzeydə daha çox ölkənin şimal bölgəsi üzrə xalçaçılıq məktəbinin 60-dək nümunəsi sərgilənir. Muzeyin eksponatları arasında məşhur xalçaçı rəssam Kamil Əliyevin «Heydər Əliyevin xalça portreti» əsəri xüsusi əhəmiyyət kəsb edir. Ekspozisiyadan aydın görünür ki, bu gün Azərbaycanda xalçaçılıq məktəbi özünün inkişaf dövrünü yaşayır. Xalqımızın milli sərvəti olan bu sahənin inkişafı ilə bağlı ölkədə həyata keçirilən tədbirlər, ilk növbədə bu qədim el sənətinin yaşadılmasına göstərilən diqqətdən irəli gəlir. Bu gün xalçalarımız Azərbaycan mədəniyyətinin ən böyük hamisi olan Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrlə daha da zənginləşir, bu sənətin inkişafı ilə bağlı görülən işlər xalçalarımızın milli və dünyəvi dəyərini daha da artırır.*

*Sonra prezident İlham Əliyev Xalça Muzeyinin yerləşdiyi binada yaradılan Uşaq-gənclər kitabxanasının fəaliyyəti ilə tanış oldu.*

*Bildirildi ki, kitabxanada xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə sənət adamları, şair və yazıçılarla görüşlərini əks etdirən fotolar sərgilənir. Bununla yanaşı, prezident İlham Əliyevin Xaçmaza səfərlərinin əks olunduğu fotolar da kitabxanaya gələnlərə təqdim edilir. Bildirildi ki, 1200 kvadratmetr sahəsi olan kitabxanada uşaq və gənclər üçün hər cür şərait yaradılmışdır. Burada toplanan müxtəlif mövzulara aid kitablar ölkəmiz haqqında məlumatları əldə etmək, dünyada baş verən elmi-texniki yeniliklərdən xəbər tutmaq baxımından əhəmiyyətlidir. Burada quraşdırılan kompyuterlərin internetlə təchiz olunması da elektron ədəbiyyatının istifadəsi baxımından müstəsna imkanlar açmışdır. Bundan əlavə, burada sərgi zalı, gənclər kitabxanası, kitab fondu yerləşir. Fondda 29 min kitab qorunur. Kitabxanada oxu və konfrans zalları, balacalar üçün nağıl otağı da yaradılmışdır.*

## Heydər Əliyev seyrəngahı ilə tanışlıq

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev Xaçmaz rayonuna səfəri çərçivəsində Heydər Əliyev seyrəngahında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Bildirildi ki, seyrəngaha Heydər Əliyev bulaq kompleksi, İlham Əliyev bulaq kompleksi, Heydər Əliyev prospektinin giriş qapısı kompleksi daxildir. İlham Əliyev bulaq kompleksində 15 metr hündürlüyündə bir bulaq, üç süni şəlalə və 48 fəvvarə quraşdırılmışdır. Kompleks müasir qaydada işıqlandırılmışdır.*

*Qeyd olundu ki, Heydər Əliyev bulaq kompleksi 2011-ci ilin mayında istifadəyə verilmişdir. Kompleksdə 21 metr hündürlüyündə bulaq, 3 süni şəlalə, 80 fəvvarə quraşdırılmışdır. Kompleksin ərazisində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin mozaika ilə portretləri işlənmişdir. Hər iki kompleksin arasında olan Bakı prospekti boyunca 5 hektar*

ərazidə xiyaban salınmış, 12 metr hündürlüyündə samovar kompleksi yaradılmış, burada fəvvarə quraşdırılmışdır. Bakı prospektində avtomobillərin həddən artıq intensiv hərəkəti nəzərə alınaraq, adamların sərbəst və təhlükəsiz hərəkətini təmin etmək məqsədi ilə xüsusi mozaika ilə işlənən 24 metr uzunluğunda iki yerüstü piyada körpüsü tikilmişdir.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, milli memarlıq elementlərinin geniş tətbiq olunduğu seyrəngahda daha çox buta naxış kompozisiyalarından istifadə edilmişdir. Bu da seyrəngahın ümumi görünüşünə xüsusi yaraşıq verir.

Seyrəngahla tanış olan prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.

## Kondensator zavodunun yenidənqurmadan sonra açılışı mərasimi

Sentyabrın 23-də prezident İlham Əliyev Xaçmaz Kondensator zavodunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin burada ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Müdafiə Sənayesi naziri Yavər Camalov Azərbaycan prezidentinə məlumat verdi ki, son illərdə Xaçmazda müxtəlif təyinatlı istehsal müəssisələrinin yaradılması diqqət mərkəzindədir. Bu sırada rayonda yenidən qurulan kondensator zavodu da mühüm əhəmiyyət kəsb edir. Xaçmaz Kondensator zavodu 1981-ci ildə Rusiyanın Tula şəhərində yerləşən Severo-Zadonsk hərbi təyinatlı zavodun tabeliyində olmuşdur. Əvvəllər kiçik sex kimi fəaliyyət göstərmiş, 1983-cü ildə burada zavod tikilmiş, müəssisə 1987-ci ildən tam fəaliyyətə başlamışdır.

Zavodun əsas fəaliyyəti kondensatorlarla yanaşı, xalq istehlak mallarının istehsalı və əhaliyə pullu xidmət göstərməkdən ibarətdir.

*Sonra dövlətimizin başçısı zavodun əvvəlki vəziyyətini əks etdirən filmə baxdı.*

*Prezident İlham Əliyev müəssisədə yaradılmış Heydər Əliyev Muzeyi ilə də tanış oldu. Burada ulu öndərin Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlərə və dövlətimizin başçısının bu siyasəti davam etdirərək ölkənin müdafiə sənayesinin inkişafı istiqamətində gördüyü işlərə dair fotolar nümayiş etdirilir.*

*Dövlətimizin başçısı müəssisədə istehsal olunan məmulatın sərgisinə baxdı.*

*Müəssisə ilə tanışlıq zamanı bildirildi ki, zavodun ümumi sahəsi 24 min kvadratmetrdir. 3690 kvadratmetrlik istehsal sahəsində 2010–2011-ci illərdə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Diqqətə çatdırıldı ki, mexaniki istehsal və optika sexlərindən əlavə, zavodda sənaye məhsulları hazırlayan sex də fəaliyyət göstərir. Burada əsasən məişətdə istifadə olunan məmulatlar hazırlanır. Bildirildi ki, bu il müəssisədə yeni açılan iş yerlərinin sayı 76-ya çatdırılmışdır. Bütün bunlar göstərir ki, ölkəmizin müdafiə sənayesinin gücləndirilməsi Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Əvvəlki illərdə olduğu kimi, 2011-ci ildə də Dövlət Müdafiə Sənayesi Proqramının icrası təmin olunmuş, bir sıra yeni təyinatlı məmulatın istehsalı mənimsənilmişdir.*

*Prezident İlham Əliyev zavodun kollektivinə uğurlar arzuladı, tövsiyə və tapşırıqlarını verdi.*

## QUBADA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*23 sentyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Quba rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Azərbaycan prezidenti abidənin ətrafında aparılmış abadlıq-quruculuq işləri ilə tanış oldu. Məlumat verildi ki, ulu öndərin abidəsinin ucaldığı Heydər Əliyev adına Mədəniyyət və istirahət parkı 1998-ci ildə ümummilli liderin 75 illik yubileyi ərəfəsində istifadəyə verilmişdir. Ötən müddət ərzində park şəhər əhalisinin sevimli istirahət guşələrindən birinə çevrilmişdir. Aparılan yenidənqurma işləri nəticəsində park daha da müasirləşmiş və gözəlləşmişdir. Burada müasir işıqlandırma sistemi yaradılmış, yaşıllıq zolağı daha da genişləndirilmişdir. Parkda ulu öndər Heydər Əliyevin abidəsinin yaxınlığında təbii və dekorativ daşlardan istifadə olunmaqla, möhtəşəm şəlalə kompleksi yaradılmışdır.*

*Dövlətimizin başçısı Heydər Əliyevin abidəsinin müəllifi, Xalq rəssamı, akademik Ömər Eldarov ilə görüşdü.*

*Bildirildi ki, ulu öndərin abidəsi Ukraynadan gətirilən qırmızı qranitdən hazırlanmışdır. Parkın ərazisində ümummilli lider Heydər Əliyevin adının əbədiləşdirilməsi və onun əvəzolunmaz xidmətlərinin təbliği və gələcək nəsillərə çatdırılması üçün Heydər Əliyev Mərkəzi də inşa olunmuşdur.*

*Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Diqqətə çatdırıldı ki, milli memarlıq elementlərindən istifadə olunmaqla, müasir tikinti texnologiyalarına uyğun inşa olunan dördmərtəbəli Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzey fəaliyyət göstərir. Burada ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illərdə ölkəmizin müxtəlif bölgələrinə səfərləri, o cümlədən Quba rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotoguşələr yaradılmışdır. Ümummilli liderin irsinin gənc nəsillərə çatdırılması üçün Mərkəzdə virtual tədris sinifləri, üç konfrans zalı, kompyuter mərkəzi, kitabxana vardır. Bundan əlavə, Mərkəzdə xarici dillər mərkəzi, 3D kinozalı, ədəbiyyat dərnəyi, kulinariya məktəbi, heykəltəraşlıq, xalça və rəsm studiyaları, fotostudiya da yerləşir. Burada gənc nəslin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına və onların bilik və bacarıqlarının daha yaxşı inkişaf etdirilməsinə yönələn kurslar təşkil olunacaqdır. Mərkəzdə yeməkxana, mətbəx, milli rəqs studiyası da yaradılmışdır.*

*Heydər Əliyev Mərkəzi ilə tanış olan dövlətimizin başçısı Quba rayon ictimaiyyəti nümayəndələri ilə görüşdü.*

## QUBA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2011-ci il*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, sizi ürəkdən salamlayıram. Bu gün həm Quba, həm ölkəmiz üçün çox gözəl bir gündür. Qubada gözəl, əzəmətli, möhtəşəm Heydər Əliyev Mərkəzi açılır. Bu münasibətlə hamınızı ürəkdən təbrik edirəm. Deyə bilərəm ki, ölkəmizdə son illər ərzində tikilən Heydər Əliyev mərkəzlərinin bəlkə də ən yaraşıqlısı, möhtəşəmi və funksional baxımdan ən gözəli Qubadadır. Bu Mərkəz həm şəhərə əlavə yaraşıq verir, həm də burada müxtəlif tədbirlərin keçirilməsi üçün bütün şərait vardır. Mərkəzlə tanış olarkən gördüm ki, konfrans zalı, kinoteatr, dərnəklər, kafe fəaliyyət göstərir. Elə etməliyik ki, Mərkəzdə daim iş getsin, Quba sakinləri, qonaqları Mərkəzdən səmərəli şəkildə istifadə etsinlər.

Bu il biz müstəqilliyimizin bərpasının 20-ci ildönümünü qeyd edirik. Ölkəmiz 20 il ərzində imkanlarını xeyli dərəcədə genişləndirə bilmişdir. 20 il əvvəl – müstəqilliyimizin ilk illərində sual meydana çıxırdı ki, Azərbaycan necə inkişaf edəcək? 10 ildən, 20 ildən sonra necə ölkə olacaq? Bildiyimiz kimi, müstəqilliyimizin ilk illəri bizim üçün ağır illər kimi yadda qalıb, tarixdə qalıb. Ulu öndərin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra – 1993-cü ildə ölkəmizdə yeni dövr başlandı. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başladı və qısa müddət ərzində vəziyyət sabitləşdi, iqtisadi tənəzzülə

son qoyuldu, inkişaf başlandı. Ölkəyə investisiyalar gəldi. Azərbaycan dünya birliyində özünə layiq yerini tuta bildi.

O vaxt Azərbaycan xalqı ulu öndərə müraciət edərək onu hakimiyyətə dəvət etmişdi və nəticədə 1993-cü ildən bu günə qədər Azərbaycan yalnız inkişaf yolu ilə gedir. Bizim inkişafımız həm ölkə vətəndaşları tərəfindən qiymətləndirilir, həm də nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanda gedən prosesləri yaxından izləyir və yüksək reytinqlər verir. Əlbəttə, bu çox sevindirici haldır, bizi daha da ruhlandırır. Ancaq ən əsası Azərbaycan xalqının bu işlərə verdiyi qiymətdir.

20 ildir müstəqil ölkə kimi yaşayan Azərbaycan gələcəyə çox böyük ümidlərlə və nikbinliklə baxır. Bu günə qədər qəbul edilmiş bütün proqramlar icra edilir, yubanma, geriləmə yoxdur. Hər bir sahəni əhatə edən konkret proqramlar ölkəmizin hərtərəfli inkişafına xidmət göstərir. Bu proqramlardan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını xüsusilə qeyd etmək istərdim. 2004-cü ilin fevralında qəbul edilmiş bu proqram ikinci mərhələsinə qədəm qoyubdur. Proqramın icrası nəticəsində Azərbaycanın bölgələri xeyli inkişaf edibdir. Bölgələrin inkişafı bizim üçün əsas məsələ kimi, 2004-cü ildə qarşıya qoyulmuşdur, bu gün də belədir.

Bu gün bölgələrdə görülmüş işlər deməyə imkan verir ki, proqramın böyük hissəsi icra edilib, 100 minlərlə iş yeri açılıbdır. Bütün şəhərlərimiz, rayon mərkəzlərimiz abadlaşıb, gözəlləşib. İnfrastruktur layihələri, yol çəkilişi layihələri icra edilir. İndi hər bir rayon mərkəzində, hər bir şəhərdə içməli su, kanalizasiya layihələri icra edilir, qazlaşdırma prosesi uğurla gedir. İnsanların normal yaşaması üçün lazım olan bütün tədbirlər görülür. Xəstəxanalar, məktəblər, idman qurğuları, idman kompleksləri yaradılır. Bu inkişafı qubalılar öz rayonlarının timsalında da görə bilirlər.

Qubada çox gözəl Olimpiya İdman Kompleksi, ən yüksək standartlara cavab verən Müalicə-Diaqnostika Mərkəzi, möhtəşəm Heydər Əliyev Mərkəzi tikilmişdir. Bakı–Quba avtomobil yolu istismara verilmişdir və çox rahat, gözəl, beynəlxalq

standartlara uyğun bir yoldur. İndi Bakıya və qonşu rayonlara çox rahat getmək mümkündür.

Kəndlərdə abadlıq işləri aparılır. Qubanın çox böyük turizm potensialı vardır. Əfsuslar olsun ki, əvvəlki dövrdə biz bu imkanlardan lazımi səviyyədə istifadə edə bilməmişik. İndi turizmin inkişafına daha da böyük diqqət göstərilir. Qubada beşulduzlu mehmanxananın tikintisi gedir, digər turizm kompleksləri yaradılır və yaradılmalıdır. Bir sözlə, Quba rayonunun hərtərəfli inkişafı üçün son illər ərzində kifayət qədər diqqət göstərilmişdir, vəsait ayrılmışdır. Yaxın zamanlarda əlavə vəsait ayrılacaqdır.

Quba Azərbaycanın qədim şəhəridir, qədim diyarımızdır. Azərbaycanın qədim şəhərlərinə dövlət tərəfindən diqqət də xüsusi məna daşımalıdır.

Bizim bütün şəhərlərimiz abadlaşır. Hər bir rayonda, hər bir qəsəbədə inkişaf gedir. Hər bir rayonun, şəhərin inkişafı prezident kimi, mənim üçün əhəmiyyətlidir və vacibdir. Ancaq tarixi nöqteyi-nəzərdən Azərbaycanda elə qədim diyarlar, şəhərlər var ki, onların adları qədim xəritələrdə də göstərilir. Quba da o şəhərlərin sırasında özünə layiq yer tuta bilmişdir. Buna görə Qubaya xüsusi diqqət göstərilməlidir.

Gələcəkdə rayonun sosial-iqtisadi inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Burada iş yerləri yaradılır və yaradılmalıdır, sosial infrastruktur yenilənməlidir, məktəb tikintisi gedir, daha da sürətlə getməlidir. Məktəb tikintisi bütün ölkəmizdə geniş vüsət almışdır. Elə etməliyik ki, ən ucqar kənd məktəbi də yüksək səviyyədə tikilsin.

Kənd yollarına xüsusi diqqət göstərilir. Son vaxtlar prezidentin ehtiyat fondundan müxtəlif kənd yollarının tikintisi üçün vəsait ayrılmışdır. Quba rayonuna isə bəlkə də hamıdan əvvəl vəsait ayrılmışdır. Yadınızdadır, bir neçə il əvvəl Quba–Xınalıq yolu əsaslı şəkildə tikilmişdir və daim nəzarətdə saxlanılmalıdır. Orada təbii şərait elədir ki, bəzi hallarda yol sıradan çıxır, dərhal bərpa olunmalıdır. Bütün yollarımız

tikilməlidir, insanların normal yaşaması üçün bütün şərait yaradılır və yaradılmalıdır.

Azərbaycan bölgədə ən güclü dövlətdir. Cənubi Qafqaz iqtisadiyyatının 75 faizi bizim ölkədə formalaşır. Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır və əhalimiz ildən-ilə artır. Artıq 9 milyon 100 min əhalimiz var və getdikcə daha da artacaqdır. Əlbəttə ki, təbii sərvətlərimiz bizə inam, əlavə qüvvə verir. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. Hər bir vətəndaş bu müsbət dəyişiklikləri öz həyatında görməlidir və biz bunun üçün çalışırıq.

Beləliklə, bölgələrin inkişafı və qeyri-neft sektorunun artması nəticəsində işsizlik kimi böyük bir bəla aradan qaldırılır. Bu il Azərbaycanın iqtisadi inkişafı, inkişaf templəri o qədər də yüksək deyildir. Bunun da səbəbi ondadır ki, neftin hasilatı bir qədər azalmışdır və bu, ümumi göstəriciyə dərhal təsir göstərir. Əsas məsələ ondadır ki, qeyri-neft iqtisadiyyatımız artır. Bu onu göstərir ki, vaxtilə neft sənayesinə qoyulan vəsait artıq qeyri-neft sənayesinin inkişafı üçün işləyir. Bu onu göstərir ki, düşünülmüş proqramların icrası nəticəsində biz iqtisadiyyatımızın şaxələndirilməsi məsələlərinə də nail ola bilmişik. Gələcəkdə biz hər bir bölgənin özünə xas olan xüsusiyyətlərindən səmərəli şəkildə istifadə etməliyik. Turizm, kənd təsərrüfatı, yüngül sənaye, emal sənayesi – bu sahələr bu bölgə üçün daha da önəmlidir və əminəm ki, gələcəkdə bu məqsədlərə çatmaq üçün əlavə tədbirlər görüləcəkdir.

Mən dəfələrlə Qubada olmuşam və vəziyyətlə maraqlanmışam. Bu gün də bəzi tədbirlərdə iştirak edəcəyəm. Demək istəyirəm ki, əmin ola bilərsiniz, Qubada gedən proseslər daim mənim nəzarətim altındadır, mən burada gedən işlərlə daim maraqlanıram. Burada yenilikləri, gözəl binaları, abadlığı görəndə mən də sizin kimi sevinirəm.

Mən bir daha sizi bu gözəl hadisə – ulu öndərin adına layiq olan möhtəşəm Mərkəzin açılışı münasibətilə təbrik edirəm. Sizə cansağlığı və uğurlar arzulayıram. Sağ olun.

# QUBA SOYQIRIMI MƏZARLIĞI ABİDƏ KOMPLEKSİNİN VƏ İNZİBATİ BİNANIN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 sentyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Qubaya səfəri çərçivəsində kütləvi soyqırımı məzarlığında abidə kompleksinin və inzibati binanın tikintisi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də torpaq işləri görülərkən aşkar edilmişdir. Həmin ilin iyulundan etibarən Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işlərinə başlanılmış, 2008-ci ilin sentyabrında isə tədqiqat işləri başa çatdırılmışdır. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilmişdir. Kütləvi məzarlığın ümumi sahəsi 514 kvadratmetrdir. Onun 494 kvadratmetrində tədqiqat işləri aparılmış, 20 kvadratmetr ərazi isə beynəlxalq tədqiqat işləri üçün saxlanılmışdır. Tədqiqat işlərinin nəticəsində məzarlıqda təxminən 400-dən artıq insan cəsədinin qalıqları aşkar edilmişdir. Onlardan 50-dən çoxu uşaq, 100-dən çoxu qadın, qalanları isə yaşlı kişilərdir. Müəyyən olunmuşdur ki, məzarlıqda*

*azərbaycanlılarla bərabər, Qubada sıx yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilmişdir.*

*Qeyd edildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə kütləvi soyqırımı məzarlığında abidə kompleksi inşa olunur. Kompleksin yaradılmasında məqsəd ermənilərin vaxtilə Qubada törətdikləri vəhşilikləri beynəlxalq ictimaiyyətə çatdırmaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirməkdir.*

*Bildirildi ki, Nazirlər Kabinetinin qərarı ilə «Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair Tədbirlər Planı» təsdiq edilmiş və ərazidə xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin görülməsi nəzərdə tutulmuşdur. Dövlətimizin başçısı 2009-cu ildə Qubaya səfəri zamanı kütləvi məzarlığın yerləşdiyi ərazidə olmuş, tapşırıq və tövsiyələrini verərək həmin ərazidə «Soyqırımı memorial kompleksinin yaradılması barədə» sərəncam imzalamışdı. 2010-cu ilin noyabr–dekabr aylarında başlanan tikinti işlərinin 2012-ci ilin avqust–sentyabr ayınadək yekunlaşdırılması nəzərdə tutulmuşdur. İndiyədək kütləvi məzarlığın yerləşdiyi ərazini sel sularından qorumaq məqsədilə Qudyalçayın məcrasında uzunluğu 400 metr olan qoruyucu beton bənd inşa olunmuş, ərazidə terras yaradılmışdır. Burada 3 qalereya inşa olunacaqdır. Hər birinin uzunluğu 18 metr olan piramidaşəkilli iki kompleksdən ibarət Soyqırımı memorial kompleksində qranitdən xüsusi xatirə abidəsi ucaldılacaqdır. Bundan əlavə, kompleksdə inzibati mərkəz də yaradılacaqdır. Hazırda plana uyğun olaraq binanın yerin altında yerləşən hissəsi tikilir.*

*Dövlətimizin başçısı Soyqırımı memorial kompleksinin tikintisi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Nizami adına Mədəniyyət və istirahət parkında aparılmış yenidənqurma işləri ilə tanışlıq və Şahmat məktəbinin açılışı mərasimi

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev Quba rayonuna səfəri çərçivəsində Nizami adına Mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olmuş, Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Nizami adına Mədəniyyət və istirahət parkında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur. Bildirildi ki, parkda ictimai iaşə və sosial obyektlərin yenidən qurulması və fasad hissələrinin piltələrlə üzlənməsi işləri görülmüşdür. Parkın ərazisinə daxil olan və Quba şəhəri ilə Qırmızı qəsəbəni birləşdirən pilləkən kompleksi yenidən qurulmuşdur. Burada açıq havada xalqımızın görkəmli şəxsiyyətlərinin heykəllərindən ibarət Şəxsiyyətlər Muzeyi yaradılmış, həmçinin Nizami Gəncəvinin əsərlərinin reproduksiyası əsasında 16 panno, yeni işıqlandırma və suvarma sistemləri qurulmuşdur.*

*Prezident İlham Əliyev Şahmat məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Top fiquru formasında inşa olunmuş Şahmat məktəbinin binası parka xüsusi gözəllik verir. Məktəbin birinci mərtəbəsinin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə şahmatın inkişafına və şahmatçılara göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotoguşələr yaradılmışdır. Burada 1983-cü ildə fəaliyyətə başlayan Quba Şahmat məktəbinin və onun yetirmələrinin əldə etdikləri nailiyyətlər, kubok və diplomlar nümayiş olunur.*

*Məktəbin birinci mərtəbəsində kompyuter salonu və 6 məşğələ otağı fəaliyyət göstərir. Bütün otaqlar simsiz internet şəbəkəsi ilə təmin edilmişdir. İkinci mərtəbədə 300–350 idmançının eyni vaxtda mübarizə apara biləcəyi zal vardır. Zalda keçirilən yarışları monitorlar vasitəsilə də izləmək mümkündür. Burada məşğələ otaqları və inzibati otaqlar yerləşir.*

*Diqqətə çatdırıldı ki, Quba Şahmat məktəbinin rayondakı 11 ümumtəhsil məktəbində nümayəndəlikləri də fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Quba avtovağzalının yeni binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Quba avtovağzalının yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, son illər ölkənin nəqliyyat sisteminin təkmilləşdirilməsi, sərnişin-daşımaların beynəlxalq səviyyədə qurulması istiqamətində mühüm layihələr icra olunur. Bu istiqamətdə nəinki paytaxt Bakıda, regionlarda da müasir standartlara cavab verən avtovağzalların tikintisinə başlanılmışdır. Bunlardan biri də Quba avtovağzalıdır.*

*Diqqətə çatdırıldı ki, müasir memarlıq üslubunda inşa olunmuş avtovağzal binasının fasiləsiz elektrik enerjisi və daimi su ilə təmin olunması məqsədilə transformator stansiyası, su anbarı və nasosxana tikilmişdir. Avtovağzal kompleksinin ərazisində əsas və köməkçi binalar inşa olunmuşdur. Binanın birinci mərtəbəsi ana və uşaq otağından, perrona iki çıxışdan, kassa otağından, kafedən və gözləmə zalından ibarətdir. İkinci mərtəbədə iclas zalı, istirahət guşəsi və inzibati otaqlar yerləşir.*

*Diqqətə çatdırıldı ki, avtovağzal paytaxt Bakıya və əks istiqamətdə, o cümlədən Rusiyaya gedən avtobusların və sərnişinlərin buradan yüksək səviyyədə istifadəsi üçün bütün lazımi avadanlıqlarla təchiz edilmişdir. 2011-ci ilin «Turizm ili» elan edilməsi və Quba rayonunun da turizm baxımından cəlbedici ərazi olması buraya turistlərin axınını surətləndirmişdir. Yeni avtovağzalın inşası isə rayona gələn turistlərin də rahatlığına xidmət edəcəkdir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Əski İqrığ kəndində beşulduzlu «Rixsos» otelinin tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Qubanın Əski İqrığ kəndində beşulduzlu «Rixsos» otelinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı otelin tikinti layihəsinə baxdı. Bildirildi ki, obyektin ərazisi 65 hektardır. Baş plana əsasən ərazidə otel kompleksinin zirzəmi ilə birlikdə 8 mərtəbəli binası, 16 kottec, ümumi sahəsi 30 min kvadratmetr olan süni göl, helikopterlərin enməsi üçün meydança və digər yardımçı binalar inşa ediləcəkdir. 200 yerlik otel kompleksində restoranlar, hovuz, idman meydançası və köməkçi obyektlər də olacaqdır.*

*Prezident İlham Əliyev otelin tikintisini əks etdirən videoçarxa baxdı.*

*Dövlətimizin başçısı, həmçinin tikintidə istifadə olunan materialların nümunələrinə baxdı və inşası başa çatdırılan kotteclərdən birinin şəraiti ilə tanış oldu. İkimərtəbəli kottec bütün lazımi avadanlıq və məişət əşyaları ilə təmin olunmuşdur.*

## Su və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Quba şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanış olmuşdur.*

*Prezidentin diqqətinə çatdırıldı ki, dövlət büdcəsinin vəsaiti hesabına Quba şəhərinin su və kanalizasiya şəbəkələri və qurğularının yenidən qurulması məqsədilə bu ilin avqustunda işlərə başlanılmışdır. Layihəyə uyğun olaraq Qudyalçay çayı hövzəsində yeni horizontal su mənbəyinin tikintisi, Qəçrəş yolu yaşayış massivində 5 min kubmetr, Dəvədabanı yaşayış massivində 20 min kubmetr, Nügədi yolu ərazisində isə 5 min kubmetr tutumu olan su anbarlarının tikintisi, şəhər daxilində 152 kilometr yeni magistral su və 147 kilometr yeni kanalizasiya xətlərinin çəkilişi nəzərdə tutulmuşdur.*

*Bildirildi ki, layihəyə əsasən Quba şəhərini içməli su ilə təmin edəcək xəttin üzərində 5 min kubmetrlik su anbarı inşa olunacaqdır. Burada toplanan su növbəti mərhələdə tikiləcək 3 min kubmetrlik iki anbara ötürüləcəkdir. Bu isə həm Quba şəhər əhalisini, həm də rayonun bəzi kəndlərini fasiləsiz içməli su ilə təmin edəcəkdir. Yeni inşa olunacaq kanalizasiya xətti də şəhərin mövcud kanalizasiya probleminin həllində mühüm rol oynayacaqdır. Burada toplanan kanalizasiya suları Xaçmaz çirkab sutəmizləyici qurğusuna ötürüləcəkdir.*

*Prezident İlham Əliyev «Azərsu» Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkəmizin su və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilmiş işləri əks etdirən stendə baxdı.*

*Sonra prezident İlham Əliyev 5 min kubmetrlik su anbarının təməlini qoydu.*

## Quba–Qəçrəş–Qımılqazma yolunun açılışı mərasimi

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev əsaslı yenidənqurmadan sonra Quba–Qəçrəş–Qımılqazma yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, uzunluğu 22 kilometr, eni 7 metr olan Quba–Qəçrəş–Qımılqazma yerli əhəmiyyətli avtomobil yolunun əhatə etdiyi yaşayış məntəqələrindəki əhalinin sayı 26 min nəfərdir. Həmin yol uzun müddət istismarda olduğundan təmirə ehtiyacı var idi. Yol yenidən qurularkən alt qatı 7, üst qatı 5 santimetr olmaqla, ikiqat asfaltla örtülmüşdür.*

*Dövlət başçısının tapşırıqlarına əsasən regionlarda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər silsiləsinə daha yeniləri əlavə edilir.*

*Prezident İlham Əliyev yolda kənd sakinləri ilə söhbət etdi. Qəçrəş kəndinin sakini Həzrətəli Xanmədov bu yolun yenidən qurulmasını əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında*

*atılan mühüm addım kimi dəyərləndirdi və kənd sakinlərinin minnətdarlığını dövlətimizin başçısına çatdırdı.*

**H ə z r ə t ə l i X a n m ə d o v:** Bu yoldan 15-dək yaşayış məntəqəsinin əhalisi, bir də qonaqlar istifadə edirlər. Sizin qayğınız nəticəsində bu yol çox yüksək səviyyədə təmir olunub. Möhtərəm Prezidentimiz! Göstərdiyiniz diqqət və qayğıya görə camaatımız adından, yəni bu yolun üstündə olan bütün camaat adından Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirirəm. Allah Sizi qorusun! Dədə-babadan qalan sözdür: Yol çəkdirmək savab işdir. Allah Sizdən razı olsun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən sizi bu yolun açılışı münasibətilə təbrik edirəm. Doğrudan da bu yolun çox böyük əhəmiyyəti vardır. Hər bir yolun əhəmiyyəti vardır. Xüsusilə indi bu şəkillərdə göstərilir və mən də əvvəllər bu yolla getmişəm. Yol çox bərbad vəziyyətdə idi. Torpaq yol idi, sıradan çıxmışdı, camaat əziyyət çəkirdi. İndi gözəl yol çəkilib, insanlar üçün çox gözəl şərait yaradılıb. Artıq gediş-gəliş asanlaşacaq, turistlər gələcək. Qubanın inkişafı üçün bu yol çox böyük əhəmiyyət daşıyır. Əvvəlki dövrdə biz Xınalığa yol çəkdirdik. İndi Xınalıqdan gələn dostlarımız buradadır. Xınalıqlıları salamlayıram.

**X ı n a l ı q s a k i n i:** Xınalıqlıların salamını Sizə yetiririk. Sizə uzun ömür, cansağlığı arzu edirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. İndi başqa kəndlərə də yollar çəkilir – həm Qubada, həm də ölkəmizin hər bir yerində. Kənd yollarının çəkilişi hazırda bizim üçün ön plana çıxır. Çünki biz əsas magistral yolları çəkmişik, ya da ki, tikinti gedir və başa çatmaq üzrədir. Bütün magistral yollar, Bakı–Quba yolu necə də gözəl olubdur. Rahat, tez gəlmək olur. Dördzolaqlı yoldur, həm təhlükəsizdir, həm də rahatdır. Şəhərlərarası yollar çəkilir və çəkiləcəkdir. İndi növbə gəlib kənd yollarına. Biz bu məsələ ilə ciddi məşğuluq. Bütün ölkə üzrə kənd yolları çəkilir. Dövlət büdcəsində də vəsait vardır. Harada ki, vəsait çatışmır, prezidentin ehtiyat fondundan vəsait ayrılır və bu il, gələn il yenə də ayrılacaqdır. Elə etməliyik ki, bütün kənd yollarımız bu

səviyyədə olsun. Camaat əziyyət çəkməsin. Rahat yaşasın, işləsin, qonaq getsin qonşu kəndlərə. Elə kəndlər var ki, orada, misal üçün, tibb məntəqəsi tikmək bəlkə də lazım deyil, yol yaxşı olarsa, gedib qonşu kənddə müalicə almaq olar. Məktəb də həmçinin. Ona görə bu doğrudan da gözəl hadisədir. Quba, ümumiyyətlə, gözəlləşir, siz də görürsünüz ki, abadlaşır. Gözəl binalar tikilir, müəssisələr açılır, inkişaf gedir. Sizi bir daha təbrik edirəm, cansağlığı arzulayıram.

## Bağçılıq, meyvələrin çeşidlənməsi və saxlanması üçün soyuducu anbar kompleksi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də «İKAR-S» MMC tərəfindən Qubada inşa edilmiş bağçılıq, meyvələrin çeşidlənməsi və saxlanması üçün soyuducu anbar kompleksi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, «2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»na uyğun olaraq Sahibkarlığa Kömək Milli Fondu respublikanın regionlarında meyvə-tərəvəz məhsullarının saxlanılması üçün ümumi dəyəri 114,8 milyon manat, kredit tələbatı 64,3 milyon manat və tutumu 108,1 min ton olan 32 soyuducu anbar kompleksini maliyyələşdirmişdir.*

*Dövlətimizin başçısı kompleksin ərazisinin yaxınlığındakı alma bağı ilə tanış oldu. Bildirildi ki, sahibkarlıq subyekti tərəfindən 145 hektar ərazidə məhsuldar alma bağları salınmışdır. Bu bağlardan ildə 45–50 tonadək yüksək keyfiyyətli alma yığılır. Hazırda Quba rayonunda alma istehsalı 110 min ton təşkil edir.*

*Prezident İlham Əliyev anbarda yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən bu layihənin maliyyələşdirilməsinə 2,9 milyon manat güzəştli kredit verilmişdir. İnvestisiya layihəsi üzrə rayonun Vəlvələ kəndinin 3,2 hektar ərazisində Almaniya istehsalı olan soyutma sistemləri və Hollandiyanın «ULO» sistemləri ilə*

*təchiz edilən,* tutumu 6 min ton olan soyuducu anbar, laboratoriya *və digər köməkçi* binalar *tikilmişdir. Layihənin icrasına* 2010-cu ilin *yanvarında başlanılmış,* bu ilin *sentyabrında başa çatdırılmışdır. Layihənin icrası nəticəsində* 54 *nəfər işlə təmin edilmişdir.*

*Komplekslə tanış* olan *dövlətimizin başçısı tapşırıq və tövsiyələrini* verdi.

## Daxili Qoşunların «N» saylı hərbi şəhərciyinin açılışı mərasimi

*Sentyabrın 23-də Azərbaycan prezidenti İlham Əliyev Quba rayonuna səfəri çərçivəsində Daxili Qoşunların «N» saylı hərbi şəhərciyinin açılışında iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı hərbi şəhərciyin maketi ilə tanış oldu.*

*Bildirildi ki, hazırda Daxili Qoşunların maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Quba rayonunun Aşağı Atuc kəndi ərazisində inşa olunmuş Daxili Qoşunların «N» saylı hərbi şəhərciyində yaradılan şərait də bunun əyani nümunəsidir. İnşasına 2010-cu ilin martında başlanılan və 20 hektar ərazidə salınan hərbi şəhərcikdə beşmərtəbəli qərargah və əsgər yataqxanaları və 60 mənzilli altımərtəbəli zabit yataqxanası yerləşir.*

*Sonra dövlətimizin başçısı hərbi şəhərcikdə yaradılmış şəraitlə tanış oldu. Qərargahın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Silahlı Qüvvələrin inkişafına göstərdikləri diqqət və qayğını, Daxili Qoşunların fəaliyyətini əks etdirən fotostendlər və dövlət atributlarının əks olunduğu lövhələr vurulmuşdur. Diqqətə çatdırıldı ki, əsgərlərin geyimləri ayrıca yaradılan əmlak otağında lazımi şəraitdə saxlanılır, silah-sursat üçün xüsusi otaq yaradılmışdır. Binada əsgərlərin bilik və bacarıqlarının artırılması üçün ictimai-siyasi və mədəni-maarif işləri otağı da fəaliyyət göstərir.*

*Silahlı Qüvvələrin Ali Baş Komandanı Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinin şəxsi heyətinin silahlanması, texnika və xüsusi vasitələrin təqdimatı ilə tanış oldu.*

*Prezident İlham Əliyevə Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinin baş geyimi hədiyyə edildi.*

*Hərbi şəhərciyin fəaliyyəti ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Qırmızı qəsəbənin sakinləri ilə görüş

*Prezident İlham Əliyev sentyabrın 23-də Qubada Qırmızı qəsəbənin sakinləri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** İşlər yaxşı gedir, bütün bölgələr inkişaf edir, Quba da. İndi Qubada yeni su layihəsi başlayır. Qəsəbədə də olacaqdır. Qubada da, başqa bölgələrdə də içməli su, kanalizasiya problemi vardır. Əminəm ki, yaxın zamanlarda, bir il, il yarım ərzində su problemi tamamilə aradan qaldırılacaqdır. Kanalizasiyaya gəldikdə, bu, ümumiyyətlə, heç vaxt olmamışdır.

**S a k i n:** Azərbaycanın hər yerində olduğu kimi, Qubada da çox iş görülür.

**İ l h a m Ə l i y e v:** Mənə dünən dedilər ki, bizim açdığımız Müalicə-Diaqnostika Mərkəzi indi tam gücü ilə işləyir. Camaat da gedir, orada müalicə olunur. İndi Qubanın su-kanalizasiya təchizatını biz əhalinin artımını nəzərə almaq şərti ilə 2035-ci ilə qədər hesablamışıq. «Şahdağ», «Xaçmaz» elektrik stansiyalarını tikdik. İndi bu bölgədə işıq problemi yoxdur. Burada, qəsəbədə qaz təchizatı necədir?

**S a k i n:** Qaz yəqin ki, olacaqdır. Çünki təzə xətlər çəkilir.

**İ l h a m Ə l i y e v:** Başlayıblar?

**S a k i n:** Bəli, başlayıblar, iş gedir.

**İ l h a m Ə l i y e v:** Tamamilə qazlaşdırma olmalıdır. Ətraf kəndlərdə də borular yeni üsulla çəkilir. Bu, müasir yanaşmadır. Dünən qubalılar məsələ qaldırdılar ki, o köhnə körpünü də bərpa edək.

**S a k i n:** Biz ona «Dostluq» körpüsü deyirik. Quba ilə qəsəbəni birləşdirən bu körpünün 150 illik tarixi vardır.

**İ l h a m Ə l i y e v:** Qədim körpüdür. İndi mənə deyirlər ki, ancaq piyadalar keçə bilər. Mən dünən Nəqliyyat nazirinə göstəriş verdim ki, onu gözəl tiksinlər. Həm tarixi abidə kimi,

həm də maşınlar da keçə bilsin. Tapşırıq vermişəm. Onu da edəcəyik. Sağ olun.

## QUSARDA ŞAHDAĞ QIŞ-YAY TURİZM KOMPLEKSİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 sentyabr 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Qusarda Şahdağ qış-yay turizm kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı Şahdağ qış-yay turizm kompleksinə gələrkən yolboyu görülmüş işlərin gedişi ilə tanış oldu. Məlumat verildi ki, kompleksə yeni yol çəkilir, çayların üzərində körpülər salınır, torpaq sürüşməsi hallarının qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görülür.*

*Şahdağ qış-yay turizm kompleksinə gələn prezident İlham Əliyevə məlumat verən Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev bildirdi ki, ölkəmizin ən böyük infrastruktur layihələrindən olan bu kompleksin yaradılmasına 2006-cı ildən başlanılmışdır. Dövlətimizin başçısının diqqət mərkəzində olan bu nadir kompleksin tikintisinə nəzarəti həyata keçirmək üçün Mədəniyyət və Turizm Nazirliyinin tərkibində Şahdağ qış-yay turizm kompleksinin müdiriyyəti yaradılmışdır. 2006-cı ildə elan edilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlmişdi. Kompleksin tikintisinə 2009-cu ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə başlanılmışdır. Bu kompleks Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşir. Kompleksin ümumi ərazisi 2 min 58 hektardır. Tikinti aparılan ərazi ekoloji sistemi, təmiz flora və faunası ilə məşhur olan Şahdağ Milli Parkının ərazisində yerləşir. Kompleks dəniz səviyyəsindən 1300–2351 metr hündürlükdədir. Turizm komplek-*

*sinin əsas hissəsi isə dəniz səviyyəsindən 1640 metr hündürlükdəki təbii yaylaqda yerləşir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, artıq kompleksdə tikinti işlərinin böyük hissəsi həyata keçirilmişdir. Lift bazasında inşaat işlərinin gələn ilin əvvəlinədək başa çatdırılması nəzərdə tutulur. 18 min 327 kvadratmetr ərazisi olan lift bazasında üçmərtəbəli bina da tikilmişdir. Bu binada inzibati mərkəzlə yanaşı, restoran, otel və digər yardımçı xidmətlər yerləşəcəkdir. Bundan əlavə, bazanın ərazisində avtomobillər üçün dayanacaq, uşaq bağçası, xizək icarə xidməti, terras, mağazalar da fəaliyyət göstərəcəkdir. Burada həmçinin ümumi sahəsi 37,6 hektar olan 6 eniş zolağı da qurulacaqdır.*

*Prezident İlham Əliyev kompleksə gələn yolların genişləndirilməsi, ümumiyyətlə, burada yol infrastrukturunun mükəmməl formada qurulması ilə bağlı tapşırıqlarını verdi. Dövlətimizin başçısı kompleksdə uşaqların dağ-xizək idmanı ilə məşğul olmaları üçün də yüksək şəraitin yaradılmasına dair göstəriş verdi.*

*Bildirildi ki, hazırda tikintinin birinci mərhələsi çərçivəsində turistlərin xizək enişinə çatdırılması üçün kanat yolları inşa olunur. 2, 4 və 9 saylı liftlərin quraşdırılması başa çatdırılmışdır. Uzunluğu 1484 metr olan 3 saylı liftin tikintisi də başa çatmaq üzrədir. Qar generatoru stansiyasının, yolların, elektrik xətlərinin, kanalizasiya sisteminin, rabitə və içməli su kəmərlərinin çəkilməsi də həyata keçirilir. Artıq kompleksdə kommunikasiya işlərinin 80 faizi yerinə yetirilmişdir. Turistlərin xizəkdə sürüşməsi üçün süni qarlaşdırma sistemi yaradılır. Bununla əlaqədar bütün enişlərdə qar generatorları quraşdırılmışdır. İndi bu sistemin sınaqdan keçirilməsi üçün hazırlıq işləri aparılır. Qarın yığılması və bərkidilməsi üçün xüsusi maşınlar da alınmışdır.*

*Prezident İlham Əliyevə kompleksdə çalışacaq heyət üçün inşa olunmuş 26 mənzilli dördmərtəbəli yaşayış binasının tikintisi barədə məlumat verildi. Qeyd olundu ki, burada bütün xidmətlərin göstərilməsi üçün tədbirlər həyata keçirilir. Belə ki, burada*

*camaşırxana, 44 yerlik avtodayanacaq, idman mərkəzi və digər yardımçı sahələr yerləşəcəkdir.*

*Bildirildi ki, turizm kompleksini xarici kommunikasiya ilə təmin etmək üçün bir sıra obyektlərin inşası nəzərdə tutulmuşdur. Buraya 35 kilometrlik kanalizasiya sistemi, təmizləyici qurğusu olan içməli su kəməri, 29 kilometrlik fiber lifli rabitə xətti, 31 kilometr uzunluğunda 110 kilovoltluq elektrik xətti, 35,7 kilometrlik orta təzyiqli qaz kəməri daxildir. İkinci mərhələdə isə 10–14 saylı kanat yollarının, qolf meydançası və restoranı olan klubun, dördulduzlu mehmanxananın, heyət üçün binanın, xırda mehmanxanaların, pansionat və idman qurğularının daxil olduğu «Şahdağ» Gənclər Mərkəzinin, 900 nömrəlik «Relaks» mehmanxana şəbəkəsinin, at fermasının, 200 nəfərlik diskoteka binasının tikintisi nəzərdə tutulmuşdur. Üçüncü və dördüncü mərhələdə yol, istirahət və əyləncə yerləri şəbəkələrinin genişləndirilməsi planlaşdırılmışdır.*

*Sonra dövlətimizin başçısı kompleksə daxil olan dördulduzlu «Resort» oteldə tikinti işlərinin gedişi ilə tanış oldu. Bildirildi ki, iki mərtəbəsi yerin altında olmaqla, ümumilikdə yeddimərtəbəli otel 340 nəfər üçün nəzərdə tutulmuşdur. Bundan əlavə, SPA mərkəzi, hovuz, xizək məktəbi, idman avadanlığının kirayəsi mərkəzi, kafe, bar, konfrans zalı da bu oteldə fəaliyyət göstərəcəkdir. Otelin 149 avtomobil üçün dayanacağı da tikiləcəkdir.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, bu otelin yaxınlığında daha bir beşulduzlu otel inşa ediləcəkdir. Bununla əlaqədar indi torpaq işləri görülür, yaxın gələcəkdə tikintiyə başlanılacaqdır.*

*Bildirildi ki, Şahdağ qış-yay turizm kompleksinin birinci mərhələsi üzrə tikinti işləri dövlət tərəfindən maliyyələşdirilir.*

*Turizm kompleksinin tikintisi ilə tanış olan dövlətimizin başçısı daha sonra inşaat işlərini həyata keçirən yerli və xarici şirkətlərin rəhbərləri ilə müşavirə keçirdi.*

## ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RUUTEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Estoniya Respublikasının sabiq Prezidenti Arnold Ruuteli qəbul etmişdir.*

*Sabiq prezident Arnold Ruutel Azərbaycan ilə Estoniya arasında uzun müddət yaxşı əlaqələrin olduğunu vurğuladı. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan qonaq bunun ölkələrimiz arasında münasibətlərin gələcək inkişafı baxımından önəmini qeyd etdi. O, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümünə həsr olunmuş beynəlxalq tədbirin yüksək səviyyədə təşkil edildiyini bildirdi. Arnold Ruutel dünyanın müxtəlif ölkələrini, eyni zamanda, Avropa parlamentini təmsil edən nümayəndə heyətlərinin tədbirdə iştirakını Azərbaycanın son 20 ildə əldə etdiyi nailiyyətlərlə yaxından tanış olmaq baxımından əhəmiyyətli olduğunu dedi. Estoniyalı qonaq Azərbaycanın əldə etdiyi nailiyyətləri bir çox ölkələr üçün yaxşı nümunə kimi qiymətləndirdi.*

*Dövlətimizin başçısı Estoniya Respublikasının sabiq Prezidenti Arnold Ruutelin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü ilə bağlı Bakıda keçirilən beynəlxalq tədbirdə iştirakından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev bu tədbirin parlamentlərarası əlaqələrin genişləndirilməsi işinə xidmət etdiyini dedi. Azərbaycan ilə Estoniya arasında münasibətlərin yaxşı səviyyədə olduğunu*

*deyən prezident İlham Əliyev Estoniyaya səfərini xatırladaraq bu səfərin uğurlu olduğunu vurğuladı.*

## BAKIDA BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*25 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində boks üzrə dünya çempionatının təntənəli açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan Respublikasının Dövlət bayrağı, Beynəlxalq Boks Assosiasiyasının və çempionatın bayraqları, eləcə də iştirakçı ölkələrin adları yazılan xüsusi lövhələr Heydər Əliyev adına İdman-Konsert Kompleksinin zalına gətirildi.*

*Paytaxt Bakı daha bir mötəbər idman tədbirinə ev sahibliyi edir. Sentyabrın 26-dan oktyabrın 8-dək davam edəcək boks üzrə dünya çempionatında 113 ölkədən 570 boksçu mübarizə aparacaqdır. Bu, ölkələrin və idmançıların sayına görə rekord göstəricidir. Bakı çempionatında, həmçinin Azərbaycanın paytaxtına gəlmiş dünyanın ən güclü boksçuları 2012-ci il London Olimpiya oyunlarına lisenziya uğrunda mübarizə aparacaqlar. Dünya birinciliyində dörddəbir finala çıxan boksçular olimpiya lisenziyaları əldə edəcəklər. Azərbaycan Respublikası Gənclər və İdman naziri Azad Rəhimov mərasimdə çıxış etdi.*

**Azad Rəhimov:** Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar, əziz idmançılar!

Sizin hamınızı bu möhtəşəm Heydər Əliyev adına sarayda salamlayır və boks üzrə XVI dünya çempionatının təntənəli

açılışı münasibətilə təbrik edirəm. Bu gün Azərbaycanın idman tarixində ən əlamətdar günlərdən biridir. Fərəhli haldır ki, beynəlxalq yarışların respublikamızda keçirilməsi son illər ənənə halını almışdır. Bu unudulmaz idman tədbirləri həm də mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Xalqlar arasında sülh, əməkdaşlıq rəmzi olan idman bəşəriyyəti yüksək ideallar ətrafında daha sıx birləşdirməyə qadirdir. Sözsüz ki, ölkəmizdə bədən tərbiyəsinin və idmanın inkişafına göstərilən diqqət və qayğı idmanın bütün növləri kimi, boksun da inkişafında özünü göstərir.

Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin başladığı məqsədyönlü idman siyasəti bu gün dövlətimizin başçısı, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə olimpiya hərəkatı ildən-ilə geniş vüsət alır. Dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında idmançılarımızın parlaq qələbələri buna əyani sübutdur. Dövlətimizin başçısının idman sahəsinə göstərdiyi böyük qayğı idmançılarımızın da yarışlara daha inamla, əzmlə qatılmasına böyük təkan verir.

Hazırda Azərbaycanda idmanın boks növünə diqqət və maraq artmışdır. Federasiyanın səmərəli fəaliyyəti, yaradıcılıq axtarışları nəticəsində boks özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Bu gün boks üzrə XVI dünya çempionatına Bakı ev sahibliyi edir. Bu çempionatda 100-dən artıq ölkənin idmançılarının medallar və London Olimpiya oyunlarının lisenziyası uğrunda mübarizə aparması yarışın maraqlı, gərgin keçəcəyini təsdiq edir. İnanırıq ki, boks üzrə XVI dünya çempionatının bütün iştirakçıları öz ölkələrinin idman şöhrətini daha da yüksəklərə qaldıracaqlar. Qoy güclülər qalib gəlsin! Diqqətinizə görə sağ olun.

**Ç i n q – K u o V u** *(Beynəlxalq Boks Assosiasiyasının prezidenti):* Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli Azərbaycan Boks Federasiyasının prezidenti cənab Heydərov!

Hörmətli qonaqlar, boksçular, məşqçilər, rəsmilər, boks üzrə XVI dünya çempionatının qonaqları!

Bakı olduqca mühüm bir şəhərdir. Bakıda – Azərbaycanın paytaxtında bir çox beynəlxalq idman turnirləri keçirilmişdir. Bunların sırasında biz gənclər arasında dünya çempionatını xüsusi xatırlatmaq istəyirik. Bu gün isə Bakıda boks üzrə dünya çempionatı keçirilir. Əslində bu bizim idman sahəsində apardığımız işin çox mühüm bir hissəsidir. Çünki bu, ixtisaslaşmış idman turniri olacaqdır və 2012-ci ildə Londonda keçiriləcək Olimpiya oyunlarına açılan bir yoldur.

2006-cı ildən etibarən bizim Beynəlxalq Boks Assosiasiyası (AİBA) çərçivəsində bir çox islahatlar həyata keçirilmiş, təşkilati dəyişikliklər aparılmışdır. Bizim üçün ən yüksək tutduğumuz amallar – təmiz iş, dəqiqlik, şəffaflıq kimi amallardır. Bütün bunlar keçirdiyimiz idman yarışlarının əsasını təşkil edir. Bu işi biz yeganə bir məqsədlə apardıq ki, dünyanın bütün yerlərindən olan boksçuların mənafeyi qorunsun və ədalətli idman oynanılsın.

Fürsətdən istifadə edib, Beynəlxalq Boks Assosiasiyası adından Azərbaycan prezidenti cənab Əliyevə boksun, həmçinin idmanın bir çox növlərinin inkişafına verdiyi dəyərli dəstəyinə görə minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli cənab Prezident, Sizi əmin edirəm ki, boks üzrə bu dünya çempionatı AİBA-nın qaydalarına, yüksək tutduğu amallara uyğun keçiriləcəkdir. AİBA əlindən gələni edəcək ki, bizim formalaşan prinsiplərimiz əsasında yüksək səviyyədə keçiriləcək bu idman turniri lazımi səviyyədə baş tutsun. Tam əminəm ki, keçirilən bu beynəlxalq turnirin səviyyəsindən boks həvəskarları da razı qalacaq, onlar bundan çox məmnun olacaqlar. Bütün tamaşaçılara tam zəmanət verə bilərəm ki, rinqdə ən dəyərli, ən yaxşı nəticələri ilə seçilən boksçu qələbə çalacaqdır. Bütün boksçulara uğurlar, xoşbəxtlik arzulayıram.

Sonda icazə verin sizə deyim: «Sağ ol, Azərbaycan! Sağ ol, Bakı!»

**K ə m a l ə d d i n  H e y d ə r o v** *(Azərbaycan Boks Federasiyasının prezidenti):*Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, əziz boksçular, xanımlar və cənablar!

İcazə verin boks üzrə 2011-ci il dünya çempionatı münasibətilə Bakı şəhərinə təşrif buyurmuş bütün qonaqları səmimi-qəlbdən salamlayaraq hər birinizə «Xoş gəlmisiniz!» – deyim.

İdmanın insanın fiziki və mənəvi tərbiyəsində oynadığı müstəsna rolu nəzərə alan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev sosial-iqtisadi həyatın bütün sahələri kimi, idmanın inkişafını da daim diqqətdə saxlamış, gənclərin sağlamlığına, fiziki hazırlığına xüsusi qayğı ilə yanaşmışdır. Ulu öndərin bu mütərəqqi münasibətini böyük əzmkarlıqla davam etdirən Milli Olimpiya Komitəsinin prezidenti, Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyevin idmanın inkişafı istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ölkəmiz beynəlxalq idman mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycanda gənclərin sevimli idman növlərindən biri də olimpiya idman növü olan boksdur. Azərbaycan boksunun zəngin tarixi ənənələri, beynəlxalq səviyyədə ciddi uğurları vardır. Məhz bu ənənələrə yiyələnən, uğurlardan ruhlanan boksçularımız beynəlxalq yarışlarda və turnirlərdə müvəffəqiyyətlə çıxış edir, Vətənimizin idman şərəfini uca tuturlar. Dövlət qayğısı sayəsində boksçularımız üçün müasir standartlara cavab verən təlim-məşq qurğularının tikilib istifadəyə verilməsi, ölkəmizdə yüksək səviyyəli beynəlxalq yarışların və turnirlərin keçirilməsi, boksçularımızın dünya arenasında qazandıqları qələbələr idmanın bu növünün də ölkəmizdə uğurlu inkişafından xəbər verir. Azərbaycan boksunun inkişafı naminə göstərdiyi xüsusi diqqət və qayğıya görə bütün boksçular adından möhtərəm prezident cənab İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

Bu günlərdə Bakı AİBA-nın bayrağı altında ən möhtəşəm yarışlardan birinə ev sahibliyi edəcəkdir. Bu yarışlarda dünyanın 113 ölkəsindən 570 boksçu iştirak edəcəkdir. Boks üzrə dünya çempionatı ən ali idman yarışlarından biri hesab olunur və təbii ki, bu yarışda uğur qazanmaq hər bir boksçunun arzusudur. Yarışın London–2012 Olimpiya oyunlarına lisenziya xarakterli olması isə yarışa marağı daha da artırır.

Fürsətdən istifadə edərək belə bir əhəmiyyətli yarışın təşkilatçılığını bizə etibar etdiyinə görə Beynəlxalq Boks Assosiasiyasının rəhbərliyinə, şəxsən doktor Çinq-Kuo Vuya dərin təşəkkürümü bildirirəm. Həmçinin bu gün burada iştirak edən Beynəlxalq Olimpiya Komitəsinin üzvlərinə Bakıya təşrif buyurduqları və yarışlara qatıldıqları üçün minnətdarlığımı bildirirəm. Bir daha bütün qonaqları Odlar yurdu Azərbaycanda salamlayır, məşqçilərə və boksçulara qələbə sevinci, azarkeşlərə isə unudulmaz yarış günləri arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə boks üzrə XVI dünya çempionatını açıq elan edirəm!

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Yəhudi xalqının milli Yeni il bayramı – Roş-Ha-Şana münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələri, o cümlədən yəhudi vətəndaşlarımız yüz illərdir ki, əmin-amanlıq şəraitində yaşayaraq ölkəmizin ictimai-siyasi və elmi-mədəni həyatında yaxından iştirak edirlər. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin təşviq edilməsi, milli azlıqların dil və mədəniyyətinin inkişafı, adət-ənənələrinin qorunub saxlanması dövlətin daimi himayəsi altındadır və bu siyasət gələcəkdə də ardıcıl olaraq davam etdiriləcəkdir.

Yeniliyin, mənəvi saflığın, həmrəylik və xeyirxahlığın rəmzi olan Roş-Ha-Şana münasibətilə bir daha hamınızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 sentyabr 2011-ci il*

## ABŞ-ın KALİFORNİYA SENATININ ƏTRAF MÜHİTİN KEYFİYYƏTİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ SENATOR COZEF SİMİTİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da ABŞ-ın Kaliforniya Senatının Ətraf mühitin keyfiyyəti üzrə Komitəsinin sədri senator Cozef Simitianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi. ABŞ-ın nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına ümidvar olduğunu bildirən dövlətimizin başçısı bu səfərin nümayəndə heyəti üzvlərinin ölkəmizi daha yaxından tanıması üçün yaxşı imkan yaradacağını dedi.*

*ABŞ-ın Kaliforniya Senatının Ətraf mühitin keyfiyyəti üzrə Komitəsinin sədri senator Cozef Simitian Kaliforniya ştatının qanunverici orqanını təmsil edən nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən məmnunluğunu bildirdi. Cozef Simitian nümayəndə heyətinin tərkibində Kaliforniya ştatının müxtəlif bölgələrini təmsil edən senatorların olduğunu dedi. O, ölkəmizi yaxından tanımaq baxımından səfərin əhəmiyyətini yüksək dəyərləndirdi.*

## «MÜSTƏQİL AZƏRBAYCAN 20 İLDƏ» ADLI MİLLİ SƏRGİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*27 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Bakı Sərgi Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş «Müstəqil Azərbaycan 20 ildə» adlı milli sərgi ilə tanış olmuşdur.*

*Sərgidə 130-dan çox müəssisə, təşkilat və şirkət iştirak edib. Ümumi sahəsi 11 min kvadratmetr olan sərgidə Azərbaycanın son 20 ildə qazandığı uğurlar, o cümlədən ölkəmizin sənaye, yanacaq-energetika, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat, ekologiya, turizm, tikinti, səhiyyə, təhsil, mədəniyyət və digər sahələrdəki nailiyyətləri nümayiş olunub.*

*Sərgidə, həmçinin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən eksponatlar da təqdim edilib.*

*Prezident İlham Əliyev 20 ildə ölkəmizin iqtisadiyyatında əldə olunmuş nailiyyətləri əks etdirən pavilyona baxdı. Pavilyonlardakı ekspozisiyalar inkişafımızın müxtəlif dövrlərini əhatə etməklə tərtib olunmuşdur.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev ölkəmizin sürətli iqtisadi inkişaf dövrünün – 2003–2011-ci illərin göstəricilərindən danışaraq məlumat verdi ki, həmin illərdə ümumi daxili məhsulun (ÜDM) orta illik artımı 14 faiz, o cümlədən qeyri-neft sektorunda 9 faiz olmuşdur. ÜDM-də özəl sektorun payı 81,7 faizə çatmışdır. İqtisadiyyata investisiya qoyuluşu 2,4 dəfə, o cümlədən xarici investisiya qoyuluşu 1,5, daxili investisiya qoyuluşu isə 5,5 dəfəyədək artmışdır. 2010-cu ilin sonuna*

*ölkənin strateji valyuta ehtiyatları 14 dəfədən çox artaraq 29 milyard dolları ötmüşdür.*

*Prezident İlham Əliyev dövlət proqramlarının idarə olunması mexanizminə baxdı. İqtisadiyyatın müxtəlif sahələri üzrə həyata keçirilən layihələr dövlətimizin başçısına ən müasir texnologiyalar əsasında təqdim edildi.*

*Sərgidə maraq doğuran pavilyonlardan biri də Dövlət Neft Fondunun fəaliyyətinə həsr olunmuşdur. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan fond neftdən əldə olunan gəlirlərin ədalətli və şəffaf şəkildə xərclənməsinə əlverişli imkan yaratmışdır. Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, Bakı–Tbilisi–Ceyhan neft kəməri, Oğuz–Qəbələ–Bakı su kəməri və Samur–Abşeron suvarma sistemi üzrə layihələr, Bakı–Tbilisi–Qars dəmiryol layihəsi və digər mühüm proqramlar fondun vəsaiti hesabına reallaşdırılmışdır və reallaşdırılır.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin təmsil olunduğu sərgidə 20 il ərzində ölkənin su təchizatı sektoru ilə bağlı geniş məlumatlar verilir. Ölkəmizin müstəqillik tarixində su təchizatı sektoru ilə bağlı da mühüm layihələr həyata keçirilmişdir. Ötən ilin sonunda istismara verilən Oğuz–Qəbələ–Bakı su kəməri müstəqillik illərində bu sahədə həyata keçirilən ən böyük layihədir.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkəti sərgidə daha geniş ekspozisiya ilə təmsil olunmuşdur. Burada ölkəmizin neft-qaz, neft kimyası sahəsində əldə etdiyi nailiyyətlər əksini tapmışdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində müstəqillik dövründə respublikamızda neft hasilatı 6,1 dəfə, qaz hasilatı isə 3,1 dəfə artmış, «Azəri–Çıraq–Günəşli» layihəsi üzrə birinci mərhələnin əvvəlindən 247 milyon ton neft və 62,7 milyard kubmetr qaz hasil edilmişdir. Neft sənayesinə 35,8 milyard dollar, o cümlədən «Azəri–Çıraq–Günəşli» layihəsi üzrə 24,4 milyard dollar xarici sərmayə*

*qoyulmuşdur. Əldə edilən uğurlar artıq Dövlət Neft Şirkətinə Türkiyə, Gürcüstan, Ukrayna, Rumıniya, Moldova və digər ölkələrə sərmayə yatırmağa imkan vermişdir. Respublikada zəngin təbii qaz yataqları aşkar edilmişdir.*

*Sərgidə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən nümayiş olunan ekspozisiya qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində dövlətimizin gördüyü işləri mərhələlər üzrə əks etdirir.*

*Pavilyonla tanış olan dövlətimizin başçısına məlumat verildi ki, buradakı stendlərdə Azərbaycan ərazilərinin işğal vəziyyəti, məcburi köçkünlərin həmin dövrdə ilkin məskunlaşma obyektləri öz əksini tapmışdır. Buradakı fotostendlərdən biri məcburi köçkünlərin məskunlaşdıqları çadır düşərgələrinin ləğvi prosesini əks etdirir. «Yeni qəsəbələrin salınması» adlı stenddə isə Azərbaycan hökuməti tərəfindən məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün bütün infrastruktur obyektləri ilə birlikdə salınmış qəsəbələrin fotoşəkilləri və maketləri göstərilir.*

*«Heydər Əliyev Fondunun məcburi köçkünlərə qayğısı» adlı fotostenddə fond tərəfindən məcburi köçkün ailələrinə göstərilmiş dövlət qayğısı öz əksini tapmışdır. Sərgidə 1988–1993-cü illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələrini özündə əks etdirən xəritə də nümayiş olunur.*

*Dövlət Sosial Müdafiə Fonduna ayrılan pavilyonda 20 il ərzində qurumun gəlir və xərcləri, əhaliyə göstərilən xidmətlər, fərdi uçot sistemi haqqında ətraflı məlumat verilir. Müstəqillik illərində fondun ümumi gəlir və xərcləri 1,765 milyard manat təşkil etmişdir. Hazırda ölkə üzrə pensiya alanların 99,4 faizinə ödənişlər plastik kartlar vasitəsilə həyata keçirilir. Bu illər ərzində qurumun maddi-texniki bazası da xeyli təkmilləşdirilmişdir.*

*Prezident İlham Əliyev «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin pavilyonuna baxdı. Bildirildi ki, «Azərenerji» regionun ən iri enerji istehsalçısı olmaqla yanaşı, paylayıcı şəbəkələr və elektrik xətlərinin uzunluğuna görə də regionda*

*lider mövqeyə malikdir. Hazırda respublikamızın elektrik enerjisi sisteminin tərkibində 13 istilik və 7 su- elektrik stansiyası fəaliyyət göstərir ki, onların ümumi gücü 6,4 min meqavatdan çoxdur. Respublikamızın enerji sisteminin tərkibinə müxtəlif gərginlikli 200-dən çox yarımstansiya daxildir. Enerji sistemində hər il orta hesabla 18 milyard kilovat/saatdan artıq elektrik enerjisi istehsal edilir.*

*Əmlak Məsələləri Dövlət Komitəsinin pavilyonunda müstəqillik dövründə Azərbaycanda həyata keçirilən özəlləşdirmə, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və daşınmaz əmlakın kadastrı sahələrində əldə edilən nailiyyətlər geniş əks olunmuşdur. Ulu öndər Heydər Əliyev və prezident İlham Əliyev tərəfindən müstəqillik illərində iqtisadi islahatların vacib tərkib hissəsi kimi, dövlət əmlakının özəlləşdirilməsi istiqamətində tarixi addımlar atılmışdır. Bu illər ərzində 45 minədək müəssisə və obyekt özəlləşdirilmiş, 1600-dək dövlət müəssisəsi səhmdar cəmiyyətinə, 500 mindən çox əmək kollektivinin üzvləri və vətəndaşlar əmlak mülkiyyətçilərinə və səhmdarlara çevrilmişlər.*

*Müstəqilliyin 20 ili ərzində Xəzər Dəniz Gəmiçiliyi də uğurlu yol keçmişdir. Donanmanın ümumi dedveyti 520,7 min ton təşkil etmişdir. Xəzər Dəniz Gəmiçiliyinin sahib olduğu 84 nəqliyyat gəmisi Avropa, Asiya və Afrikanın 130-dan çox limanına yan alır. Xəzər Dəniz Gəmiçiliyinin nəzdində Elmi-Tədqiqat İnstitutu, Dövlət Dəniz Akademiyası, Gəmiqayırma zavodu fəaliyyət göstərir. Bütün bu uğurlar gəmiçiliyin pavilyonunda geniş əks olunmuşdur.*

*Müstəqil Azərbaycanda kənd təsərrüfatının inkişaf dinamikasını əks etdirən pavilyondan aydın görünür ki, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi istiqamətində dövlətimizin siyasəti uğurla həyata keçirilir. Kənd təsərrüfatında ümumi məhsulun artım dinamikası 20 il ərzində 3 milyard 877,7 milyon manat təşkil etmiş, məhsul istehsalçılarına ümumilikdə 109,3 milyon manat subsidiya verilmişdir.*

«Azərbaycan Hava Yolları» QSC-nin təqdim etdiyi pavilyonda müstəqillik illərində təyyarə parkının yenilənməsi, əhaliyə göstərilən xidmətlərin daha da yaxşılaşdırılması, daxili və beynəlxalq uçuşların artırılması istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verilir. İldə bir milyondan çox sərnişin daşıyan «Azərbaycan Hava Yolları» QSC-nin təyyarələri həftədə 150-dən çox uçuş həyata keçirir. Tam yenilənmiş təyyarə parkında «Boing-767», «Boing-757», «Airbus» və ATR tipli sərnişin təyyarələri vardır. Ölkədə müasir hava limanları şəbəkəsi yaradılmışdır. Lənkəran, Zaqatala, Gəncə və Naxçıvanda fəaliyyət göstərən müasir hava limanları hətta beynəlxalq reysləri də rahat şəkildə qəbul edir.

Nəqliyyata həsr olunan pavilyonda ölkənin nəqliyyat sisteminin inkişaf dinamikası nümayiş etdirilir. Azərbaycanın avtomobil yolları şəbəkəsinin yenidən qurulması ilə bağlı görülən genişmiqyaslı tədbirlər nəticəsində ölkəmizin, demək olar ki, bütün əsas yolları yüksək səviyyədə inşa olunmuşdur. Artıq Bakı şəhərində nəqliyyatın intellektual idarə edilməsi sisteminin reallaşdırılmasına başlanılmışdır.

Dövlət başçısına məlumat verildi ki, müstəqilliyin bərpasının 20 illiyi münasibətilə təşkil edilmiş milli sərgidə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyəti də geniş əks olunmuşdur. Sərgidə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, o cümlədən əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyasına diqqət və qayğısını əks etdirən fotostend və film nümayiş olunur. Sərgidə əlil və şəhid ailələri üçün müxtəlif bölgələrdə inşa edilən çoxmənzilli və fərdi yaşayış binaları, əlillərin regional bərpa mərkəzləri, Sumqayıt Paralimpiya İdman Kompleksi, əhalinin sosial müdafiəsi mərkəzləri üçün yeni tikilən inzibati binalar, habelə müharibə əlillərinə dövlət hesabına verilən minik avtomobillərini əks etdirən fotolar yer almışdır. Sərgidə elektron xidmətlərin tətbiqi sahəsində əldə olunan nailiyyətlər də nümayiş etdirilir.

*Ölkəmizdə baş verən fövqəladə halların* aradan *qaldırılması istiqamətində əməli fəaliyyət göstərən Fövqəladə* Hallar Nazirliyinin *təmsil olunduğu* pavilyonda *əsasən* elektron idarəetmə sistemi *sərgilənir. Burada* nazirliyin *bütün* struktur *və bölmələrində idarəetmənin təşkili, əlaqələndirmə və məlumatlandırma* vahid *mərkəzdən idarə* olunur. *Ötən ilin* aprel–may *aylarında Kür və* Araz *çaylarında baş vermiş təbii fəlakətin* aradan *qaldırılması istiqamətində həyata keçirilmiş tədbirlər* nazirliyin *bütün qüvvələrinin yüksək peşə hazırlığından xəbər* verir.

*Vergilər* Nazirliyinin *təqdim* etdiyi pavilyonda *müstəqil Azərbaycanın* vergi sistemi *təmsil* olunur. Burada *ümummilli* lider *Heydər Əliyevin müasir* vergi sisteminin *yaradılması və* prezident *İlham Əliyevin rəhbərliyi ilə ölkənin* vergi sisteminin *modernləşdirilməsi sahəsində görülən işlər nümayiş* etdirilir.

*Gömrük* sisteminin *təkmilləşdirilməsi və fəaliyyətinin genişləndirilməsi istiqamətində görülən tədbirlər ayrıca* pavilyonda *nümayiş* olunur. Pavilyonda *gömrük* sisteminin *inkişaf* etdirilməsi *ilə əlaqədar beynəlxalq təcrübənin tətbiqi, əməkdaşlıq məsələləri, həyata keçirilən layihələr haqqında məlumatlar* da *əksini tapmışdır.*

*Sənaye və* Energetika Nazirliyinin Alternativ *və Bərpa* Olunan Enerji *Mənbələri üzrə Dövlət* Agentliyinin *təmsil* olunduğu pavilyonda bu enerji *mənbələrindən istifadə olunması sahəsində görülən işlər öz əksini tapmışdır.* Burada Qobustanda *istifadəyə verilən* Eksperimental Poliqon *və Tədris Mərkəzi barədə ətraflı məlumat* almaq *mümkündür.*

Meliorasiya *və* su *təsərrüfatı sahəsində həyata keçirilən layihələr də ayrıca* pavilyonda *nümayiş* olunur. *Müstəqillik illərində dövlətimizin həyata keçirdiyi əsas işlərdən* biri *də* yeni su *anbarlarının* tikintisi *ilə bağlı olmuşdur. Hazırda Dünya Bankının* krediti *ilə respublikamızın* 8 rayonunda *içməli* su *təchizatı və* kanalizasiya *sistemləri* infrastrukturunun *bərpası və tikintisi istiqamətində müvafiq işlər görülür.*

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin stendinə baxan prezident İlham Əliyevə müstəqilliyimizin 20 ili ərzində rabitə və informasiya texnologiyaları sahəsində həyata keçirilən layihələr, əldə edilən nailiyyətlər, həmçinin perspektiv inkişaf istiqamətləri barədə məlumat verildi. Qeyd olundu ki, yalnız son 7 il ərzində rabitə sektorunda əldə olunan gəlirlərin həcmi beş dəfə artmış, internet istifadəçilərinin və mobil abunəçilərin sayı dəfələrlə çoxalmışdır.*

*Dövlətimizin başçısı ölkəmizin ilk telekommunikasiya peykinin orbitə çıxarılması istiqamətində görülən işlərlə də tanış oldu.*

*Azərbaycanda təhsil sahəsində əldə olunan nailiyyətlər, tətbiq olunan yeniliklər və beynəlxalq təhsil sisteminə inteqrasiya geniş şəkildə nümayiş olunur. Stendlərdə təhsil sisteminin informasiyalaşdırılması, ali məktəblərə qəbul prosesi, inşa olunan və yenidən qurulan məktəblərin siyahısı, Heydər Əliyev Fondunun təhsilə qayğısı, təhsil sahəsində islahatlar, xaricdə təhsillə bağlı geniş məlumatlar verilmişdir.*

*Səhiyyə sahəsinə həsr olunan pavilyonda ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin, həmçinin Heydər Əliyev Fondunun bu sahəyə göstərdikləri diqqət və qayğının təzahürü kimi, yeni inşa olunan və əsaslı təmir edilən səhiyyə ocaqları barədə məlumatlar əks olunmuşdur.*

*«Ekol Mühəndislik Xidmətləri» QSC respublikamızda ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində aktual ekolojiyönümlü layihələri müasir texnika və texnologiyalarla həyata keçirən şirkətdir. «Təmiz şəhər» ASC-nin təmsil olunduğu pavilyona baxan dövlətimizin başçısına məlumat verildi ki, tullantıların yerləşdirilməsini və utilləşdirilməsini müasir standartlar səviyyəsində həyata keçirən qurum paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görür.*

*Sərgidə Naxçıvan Muxtar Respublikasının 20 il ərzində əldə etdiyi nailiyyətlərə ayrıca guşə həsr olunmuşdur. Bu müddətdə muxtar respublikada 432 sənaye müəssisəsi yaradılmışdır. Ümumi daxili məhsulda özəl bölmənin payı 85,9 faiz*

*təşkil edir. Hazırda Naxçıvanda 305 növ və 807 çeşiddə məhsul istehsal olunur. Ötən dövrdə 120 yeni məktəb binası tikilmiş, 58 məktəb əsaslı təmir edilmişdir. 3 min kilometrədək avtomobil yolu salınmış və ya yenidən qurulmuş, 125 körpü tikilmiş, yaxud əsaslı təmir olunmuş, 180 səhiyyə obyekti istifadəyə verilmiş, 164 meqavat gücündə 4 elektrik stansiyası inşa edilmişdir.*

*Muxtar respublikanın meliorasiya və su təsərrüfatının təkmilləşdirilməsi sahəsində görülən işlər də miqyasına görə seçilir. İndiyədək 160-dək nasos stansiyası qurulmuş, 360 subartezian quyusu qazılmışdır. Naxçıvanda 68,7 minədək yeni iş yeri açılmışdır.*

*Prezident İlham Əliyev özəl sektorun təmsil olunduğu pavilyonlarla da yaxından tanış oldu. Bildirildi ki, son illərdə Azərbaycanda yeni səhiyyə ocaqlarının, sanatoriyaların, mehmanxanaların inşası, kurort zonalarının inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.*

*«Chinar Hotel & SPA Naftalan» kompleksi bu ilin fevral ayında prezident İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamışdır. Bu günədək kompleks 1450 xəstə qəbul etmişdir ki, onların da 15 faizi xarici vətəndaşlardır.*

*Azərbaycanın müstəqilliyi ilə yaşıd olan «Azersun Holdinq» şirkətlər qrupu ölkədə qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən qabaqcıl şirkətdir. «Azersun Holdinq» tərkibində fəaliyyət göstərən zavodların güclü istehsal potensialı ilə yanaşı, geniş ixracat şəbəkəsinin sahibidir.*

*2003-cü ildə fəaliyyətə başlayan «AtaHoldinq» ASC iqtisadiyyatın müxtəlif sahələrində investisiya qoyuluşunu, maliyyə vəsaitlərinin, habelə intellektual sərvətlərin idarə olunmasını və korporativ idarəetməni həyata keçirir.*

*Dövlət Şəhərsalma və Arxitektura Komitəsi də milli sərgidə öz pavilyonu ilə təmsil olunmuşdur. Prezident İlham Əliyevə məlumat verildi ki, qurum şəhərsalma və milli memarlıq ənənələrinin qorunub saxlanılmasını, yaşayış məskənlərinin ərazilərindən səmərəli istifadə olunmasını təmin edir. Komitənin sifarişi ilə 18*

*şəhərin Baş planı işlənmişdir. Hazırda komitənin sifarişi ilə Böyük Bakının regional inkişaf planı, Aran, Gəncə–Qazax, Quba–Xaçmaz, Şəki–Zaqatala və Lənkəran iqtisadi rayonlarının planlaşdırma layihəsi, Gəncə, Sumqayıt, Xırdalan, Dübəndi və Türkanın Baş planlarının layihələri üzərində iş gedir.*

*«Naiqin Ko. Tovuz–Baltiya» MMC 1993-cü ildən fəaliyyət göstərir. İstehsal gücü sutkada 30 min şərti butulka olan müəssisənin buraxdığı məhsulun 95 faizi ixrac edilir. «Caspian Coast» şirkəti sərgidə şərablarını nümayiş etdirir. Şirkət ildə 7 min tonadək üzüm emal edir.*

*Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatın digər sahələri kimi, elektroenergetika sənayesində də yeni infrastruktur layihələri həyata keçirilir. Sumqayıt Texnologiyalar Parkı belə layihələrdəndir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müəssisədə müasir texnologiyalar əsasında respublikamız üçün mühüm əhəmiyyət kəsb edən və ixrac potensialına malik elektroenergetika və maşınqayırma sənayesi məhsullarının istehsalı nəzərdə tutulmuşdur.*

*Ölkəmizdə istehsal olunan ayaqqabılar artıq xaricə ixrac olunur. Belə şirkətlərdən biri də «Daimoni» ayaqqabı fabrikidir. Dörd aydır fəaliyyət göstərən fabrik kişi və qadın ayaqqabıları istehsal edir. Hazırda müəssisədə ayda 26 min cüt ayaqqabı hazırlanır.*

*Son illər ölkəmizdə makaron istehsal edən fabriklərin sayı da artır. Bunlardan biri də 2006-cı ildən fəaliyyət göstərən «Karmen» makaron fabrikidir.*

*Prezident İlham Əliyev «Mətanət A» şirkətinin pavilyonu ilə də tanış oldu. Bildirildi ki, «Mətanət A» uzun müddətdir ki, milli şirkətlər içərisində aparıcı mövqeyə malikdir. Şirkətin ən son texnologiyalarla təchiz olunan zavodlarda istehsal edilən məhsulları artıq ölkəmizdə və onun hüdudlarından kənarda istehlakçıların rəğbətini qazanmışdır.*

*Son illər ölkəmizdə süd və süd məhsulları emalı sahəsində canlanma müşahidə olunur. Bu sahədə fəaliyyət göstərən müəssi-*

*sələrdən biri də «Atena» süd məhsulları kombinatıdır. Burada 42 çeşiddə ağartı məhsulları istehsal olunur.*

*Ölkəmizin iri şirkətlərindən olan «Gilan Holdinq» 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra fəaliyyət sahələrini sürətlə genişləndirmiş və ölkədə aparıcı şirkətlərdən birinə çevrilmişdir. «Gilan Holdinq» prezident İlham Əliyevin regionlarımızın sosial-iqtisadi inkişafı ilə bağlı sahibkarlara tövsiyələrini rəhbər tutaraq bölgələrdə iqtisadi inkişafın yüksəldilməsində fəal rol oynayır. Şirkət müəssisələrinin xeyli hissəsini məhz regionlarda açmışdır.*

*«Baku Steel Company» MMC regionda ən iri müasir polad istehsal edən müəssisədir. Şirkətin nominal istehsal gücü ildə 770 min ton təşkil edir.*

*Sonra dövlətimizin başçısı sərginin açıq havada nümayiş olunan hissəsinə baxdı.*

*«Azneftemaş» ASC-nin təşkil etdiyi sahəyə gələn prezident İlham Əliyevə müasir qazma qurğuları barədə məlumat verildi. Bildirildi ki, «Ruslan UP 130/170» qazma qurğusu ilə 3,2 min metr dərinlikdə qazma işləri aparmaq mümkündür. Mingəçevirdə yerləşən «Azneftemaş» ASC Özbəkistan, Türkmənistan, Rusiya və digər ölkələrdən sifarişlər qəbul edir.*

*Sumqayıt Texnologiyalar Parkı və Gəncə avtomobil zavodu da sərgidə öz məhsullarını nümayiş etdirir. Gəncə avtomobil zavodunda «MAZ» markalı müxtəlif təyinatlı yük avtomobilləri istehsal olunur.*

*Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə, Dövlət Sularda Xilasetmə, Tibb, Dövlət Yanğından Mühafizə xidmətləri və «İzotop» Xüsusi Kombinatı texnika və avadanlıqlarını açıq havada nümayiş etdirir.*

*Prezident İlham Əliyev sərginin işinə uğurlar arzuladı.*

## NOBEL MÜKAFATÇILARI ERİK MASKİN, FİNN ERLİNQ KİDLAND VƏ KRİSTOFER ANTONİU PİSSARİDES İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ-ın Harvard Universitetinin professoru, Nobel mükafatçısı Erik Maskini, Norveçin Karneqi-Melon Universitetinin professoru, Nobel mükafatçısı Finn Erlinq Kidlandı və London İqtisadiyyat Məktəbinin kafedra müdiri və proqram direktoru, Nobel mükafatçısı Kristofer Antoniu Pissaridesi qəbul etmişdir.*

*Görüşdə elmin inkişafı ilə bağlı məsələlərə, qonaqların təmsil etdikləri elm və təhsil müəssisələrinin Azərbaycanla əməkdaşlığına dair fikir mübadiləsi aparılmışdır.*

# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALLIĞININ ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ ÇARLZ HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 sentyabr 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Böyük Britaniya və Şimali İrlandiya Krallığının Energetika üzrə Dövlət naziri Çarlz Hendrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya və Şimali İrlandiya Krallığı arasında əlaqələrin bütün sahələrdə yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın uğurla davam etdiyi vurğulandı və bu əməkdaşlığın qeyri-neft sektorunda da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

## QEYDLƏR

**1. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 8,10,11,46,47,50, 62,66,77,81,91,93,95,96,101,111,114,132,133,180,261,291, 292.

**2. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 8,9,12,66,101,292.

**3. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə

aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 8,9.

**4. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 9,50.

**5. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 9,10,50,196,335,346.

**6. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min $km^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 9,10,226.

**7. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 9.

**8. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 9,10,66,83,109–112,188,196,201,202.

**9. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 9,10,109–112,188,201.

**10. Hillari Klinton** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 9.

**11. Avropa İttifaqı** (Aİ) – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 11,14,43,45,56,61,62,64,67,68,75,80,81,180,200,215,262,263.

**12. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 24,287.

**13. Həmid Kərzai** (d.1957) – 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri, 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 24,267.

**14. Peru,** P e r u  R e s p u b l i k a s ı – Cənubi Amerikanın qərbində dövlət. Sahəsi 1285,2 min km$^2$, əhalisi 30,7 milyon nəfərdir. İnzibati ərazisi 12 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Konqresdir. Paytaxtı Lima şəhəridir. – 25.

**15. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 26,85.

**16. VI Məhəmməd,** b i n  ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 26,85.

**17. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 30,44,46,62, 81,114,116,165.

**18. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekin şəhəridir. – 36,285.

**19. Hu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002–2012-ci illərdə ÇKP MK-nın Baş katibi, 2003–2013-cü illərdə ÇXR-nın sədri, 2004–2012-ci illərdə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. – 36,285.

**20. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriy-

yə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 37,41,127,161,194–198,236,254,275.

**21. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının

inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 37,42,78,100,126,129,132,134, 135,141,142,143,144,199,214,236,239,254,266,272,282,309, 310,330.

**22. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 43–47,179,283.

**23. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 45,262.

**24. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 32,3 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 48,114,123.

**25. İslam Kərimov,** İslam Əbduqəni oğlu (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 48,123.

**26. Norveç,** Norveç Krallığı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral,

qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 49,67,94,346.

**27. V Harald** (d.1937) – 1991-ci ildən Norveç kralı. Kral V Ulafin oğlu. – 49.

**28. Sinqapur,** S i n q a p u r  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 $km^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 51,171.

**29. Sellapan Ramanatan** (1924–2016) – 1999–2011-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 51.

**30. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1.919,4 min $km^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 52.

**31. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziya Respublikasının Prezidenti olmuşdur. – 52.

**32. Makedoniya,** M a k e d o n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min $km^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 53.

**33. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 53.

**34. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min $km^2$, əhalisi 7,1 milyon nə-

fərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 54,178.

**35. Mişelin Kalmi - Re** (d.1945) – İsveçrənin dövlət və siyasi xadimi. 2003–2007-ci illərdə İsveçrənin Xarici İşlər naziri, 2007-ci və 2011-ci illərdə prezidenti olmuşdur. – 54.

**36. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 55–82,196.

**37. Bronislav Komorovski** (d.1952) – Polşanın siyasi xadimi. 2010–2015-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 55–82.

**38. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 59.

**39. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 61,68,297.

**40. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 61,68,297.

**41. Avropa parlamenti,** A v r o p a r l a m e n t – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 62,81,91,293,328.

**42. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyət-

lərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 62,65,91,117,292,293.

**43. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 62,65,81,91,169,292,293.

**44. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 78,127,161,176,194,236,264.

**45. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 79.

**46. Ploşko İosif** (1867–1931) – memar. Milliyyətcə polyakdır. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının layihəsini vermişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı və Venesiya qotikası üslubunda inşa edilən «İsmailiyyə» (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası) binasıdır. – 79.

**47. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlü-

kəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 81,91,46,117, 261,292.

**48. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 84.

**49. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 86–101.

**50. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 86–101.

**51. Mustafa Kamal Atatürk,** Q a z i  M u s t a f a  K a- m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni

parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 100.

**52. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 66,102,107.

**53. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i k a- s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 103,121.

**54. Çionq Tan Şanq** (d.1949) **–** 2011–2016-cı illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 103,121.

**55. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 104.

**56. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona

bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 106.

**57. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 106.

**58. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin Birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf», «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 109,112.

**59. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ- l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 109,112.

**60. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 113.

**61. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 114,236.

**62. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b l i- k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı

prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 120.

**63. Dilma Roussef** (d.1947) – braziliyalı siyasətçi. 2011–2016-cı illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 120.

**64. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 24,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 122.

**65. Kim Çen İr** (1941 və ya 1942–2011) – 1994–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş Komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur. – 122.

**66. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 124.

**67. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. – 124.

**68. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalq-

ları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 125–128.

**69. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 128.

**70. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 145,290.

**71. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 164.

**72. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 165.

**73. Nigeriya,** Nigeriya Federativ Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 181,5 milyon nəfərdir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abuca şəhəridir. – 165,167.

**74. Meksika,** Meksika Birləşmiş Ştatları – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1973 min km$^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli

Konqresdir. (Deputatlar Palatası və  Senat). Paytaxtı Mexiko şəhəridir. – 166,192.

**75. Felipe Kalderon İnoxosa** (d.1962) – Meksikanın siyasi xadimi. 2006–2012-ci illərdə Meksikanın prezidenti olmuşdur. Prezident seçildikdən sonra narkotik mafiyaya qarşı qətiyyətlə mübarizə aparmışdır. – 166,192.

**76. Qudlak  Conatan** (d.1957) – Nigeriyanın siyasi və dövlət xadimi. 2010–2015-ci illərdə Nigeriya Respublikasının Prezidenti olmuşdur. – 167.

**77. Estoniya,** E s t o n i y a   R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Tallinn şəhəridir. – 170,328.

**78. Toomas İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞPA-nın sabiq üzvü. 2006–2016-cı illərdə Estoniya Respublikasının Prezidenti olmuşdur. – 170.

**79. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$,  əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 172,276–282.

**80. Yaşihiko Noda** (d.1957) – Yaponiya siyasətçisi. 2011–2012-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 172.

**81. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə   Ə r ə b i s t a -n ı   K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 173,189,190.

**82. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 174.

**83. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 174.

**84. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğlu. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 189.

**85. Mali,** M a l i R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1240 min km$^2$, əhalisi 16 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Bamako şəhəridir. – .191.

**86. Ture Amadu** (d.1948) – general. 2002–2012-ci illərdə Mali Respublikasının Prezidenti olmuşdur . – 191.

**87. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$, əhalisi

430 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 193.

**88. Corc Abela** (d.1948) – Maltan siyasətçisi. 2009–2014-cü illərdə Maltan Respublikasının Prezidenti olmuşdur. – 193.

**89. «Total»** – məşhur fransız neft şirkəti. 1924-cü ildə təşkil edilmişdir. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 212–213,214.

**90. Cənub qaz dəhlizi** – Azərbaycanda hasil olunan enerji-daşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 215,297.

**91. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 66,227,286.

**92. Yoşka Fişer** (d.1948) – alman siyasətçisi. 1998–2005-ci illərdə Almaniya Xarici İşlər naziri və vitse-kansleri olmuşdur. – 227.

**93. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

tərəfindən tarixi-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 235–237.

**94. Sabir**, M i r z ə Ə l ə k b ə r Z e y n a l a b d i n o ğ- l u T a h i r z a d ə (1862–1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 237.

**95. Şamaxı Astrofizika Rəsədxanası,** N ə s i r ə d d i n T u- s i a d ı n a Ş a m a x ı A s t r o f i z i k a R ə s ə d x a n a -s ı – Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun «Astrofizika» sektoru bazasında 1960-cı ildə yaradılmışdır. Şamaxı Astrofizika Rəsədxanası dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Bu rəsədxana çətin müşahidə edilən cənub göyünün öyrənilməsində dünyanın bir çox rəsədxanası ilə müqayisədə müəyyən üstünlüklərə malikdir. Burada aydın gecələrin sayı 190–200-ə çatır. – 241–246.

**96. Yusif Məmmədəliyev,** Y u s i f H e y d ə r o ğ l u (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Y.Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsində aviasiyanın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 241,242.

**97. Həsən Əliyev,** H ə s ə n Ə l i r z a o ğ l u (1907–1993) – görkəmli alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin

Birinci müavini və Azərbaycan KP MK-nın katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin (10–11-ci çağırış) deputatı olmuşdur. – 241.

**98. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu (d.1956) – fəlsəfə doktoru. 1994- 2006-cı illərdə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. – 259,325.

**99. Qara Qarayev,** Qara Əbülfəs oğlu (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 267–268,272.

**100. Fikrət Əmirov,** Fikrət Cəmil oğlu (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarda səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. – 269–275.

**101. Fərhad Bədəlbəyli,** Fərhad Şəmsi oğlu (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbə-

yov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 274.

**102. Niyazi,** T a ğ ı z a d ə - H a c ı b ə y o v N i y a z i Z ü l- f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması, inkişafı Niyazinin adı ilə bağlıdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 274.

**103. Kristian Vulf** (d.1959) – alman siyasətçisi . 2010–2012-ci illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 286.

**104. Burhanuddin Pəbbani** (1940–2011) – Əfqanıstanın siyasi və dövlət xadimi. İlahiyyat elmləri doktoru, professor. 1979–89-cu illərdə sovet ordusuna qarşı vuruşmuşdur. 1992–2001-ci illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 287.

**105. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 288.

**106. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 288.

## Şəxsi adlar göstəricisi


**Abasov İsmət** – 59
**Abdullayev Rövnəq** – 37
**Abela Corc** – 193
**Abutalıbov Hacıbala** – 109,112
**Al Səud Abdullah** – 189
**Al Səud Sultan** – 173
**Anji Kasprşik** – 34
**Atatürk Mustafa Kamal** – 100
**Ayan Tomaş** – 35
**Barrozu Joze** – 43,61,68,297
**Behbudov Rəşid** – 274
**Berti Mariya** – 156
**Bədəlbəyli Fərhad** – 274
**Billah Şah Tuanku** – 104
**Borrell Maykl** – 212
**Bradtken Robert** – 34
**Camalov Yavər** – 307
**Cankorel Bilge** – 169
**Cavanşir Rəşid** – 33
**Conatan Qudlak** – 167
**Çan Marqaret** – 220,225
**Çinq Kuo Vu** – 330–332
**Çionq Tan Şanq** – 103,121
**Dadaşov Namiq** – 269
**Eşton Ketrin** – 180
**Əhmədova Firəngiz** – 274
**Əliyev Heydər** – 37,42,78,100,126,129,132, 134, 135,141,142,143,144, 199, 214,236,239,254,266, 272,282,309,310,330

**Əliyev Həsən** – 241
**Əliyeva Mehriban** – 37,41,127,161,194–198,236, 254,275
**Əliyeva Zərifə xanım** – 128
**Əmirov Cəmil** – 275
**Əmirov Fikrət** – 269–275
**Ərdoğan Rəcəb Tayyib** – 86–101
**Fasye Bernar** – 34
**Fişer Hayntz** – 200
**Fişer Yoşka** – 227
**Gəncəvi Nizami** – 304
**V Harald** – 49
**Hendri Çarlz** – 347
**Heydərov Kəmaləddin** – 332–333
**Hu Szintao** – 36,285
**Xalid ibn Vəliyəd** – 235
**Müslüm ibn Vəliyəd** – 235
**İlves Toomas** – 170
**İnaxosa Felipe** – 166,192
**İvanov George** – 53
**Jilkin Aleksandr** – 199
**Kalmi-Re Mişelin** – 54
**Kasprşik Anji** – 34
**Kavariç Vladimir** – 259
**Kərimov İslam** – 48,123
**Kərzai Həmid** – 24,287
**Kim Çen İr** – 122
**Klinton Hillari** – 9
**Kidland Finn** – 346
**Komorovski Bronislav** – 55–82
**Qarayev Əbülfəs** – 259,325
**Qarayev Qara** – 267–268,272
**Qoslovski** – 79
**Lefort Filip** – 80
**Li Men Bak** – 288

**Lupu Marian** – 106
**Mariani Tierri** – 226
**Maskin Erik** – 346
**Medvedev Dmitri** – 9,10,109–112,188,201
**VI Məhəmməd** – 26,85
**Məmmədəliyev Yusif** – 241,242
**Məmmədov Fazil** – 238
**Məmmədyarov Elmar** – 59
**Miçinoviç Bronislav** – 259
**Mikayılov Xıdır** – 245
**Mirzə Ələkbər Sabir** – 237
**Munirə bint Əbdüləziz** – 173
**Mustafayev Şahin** – 259,336
**Nəsirov Məmmədağa** – 145
**Niyazi** – 274
**Noda Yoşihiko** – 172
**Novruzov Novruz** – 151
**Nobel Lüdviq** – 197
**Obama Barak** – 9,50
**Otunbayeva Roza** – 105
**Pan Gi Mun** – 165
**Paşazadə Allahşükür** – 125–128
**Pırvanov Georgi** – 284
**Pissarides Antoniu** – 346
**Pirqurides Kristos** – 179
**Pirverdiyev Etibar** – 276
**Pomyanovski Yeji** – 59
**Popov İqor** – 34
**Ploşko İosif** – 79
**Pototski Pavel** – 80
**Ramanatan Sellapen** – 51
**Rəbbani Buzhanuddin** – 287
**Rəhimov Azad** – 329–330
**Rəhmon Emoməli** – 124
**Roiss Günter** – 200

**Roussef Dilma** – 120
**Ruytel Arnold** – 328
**Rüstəmova Yazgül** – 211
**Sarkazi Nikola** – 9
**Serdyukov Anatoli** – 83
**Simitian Cozef** – 335
**Sarkisyan Serj** – 95
**Şirəliyev Oqtay** – 147,300
**Skerrit Ruzvelt** – 119
**Şan Conq** – 136
**Tadiç Boris** – 174
**Tamanini Filippo** – 156
**Tarqay Koray** – 169
**Tasso Olyanta** – 25
**Traykov Trayço** – 284
**Ture Amadu** – 191
**Umaxanov İlyas** – 202
**Uerke Nikolae** – 84
**Vidmer-Şlumpf Evelin** – 178
**Volter Robert** – 283
**Vulf Kristian** – 286
**Vuyanoviç Filip** – 256–266
**Voytoviç Yaroslav** – 59
**Yam Toni** – 171
**Yanukoviç Viktor** – 102,107
**Yatanabe Şusuke** – 281–282
**Yerqaşev İsmatilla** – 114,115–116
**Yeremıç Vuk** – 174
**Yudhoyono Susilo** – 52
**Yusifzadə Xoşbəxt** – 213

## Coğrafi adlar göstəricisi


**Abuca** – 165
**Ağrıdağ** – 95
**Almaniya** – 66,227,286
**Amerika Birləşmiş Ştatları** – 9,10,50,196,335,346
**Avropa** – 14,43,44,62,65,66,68,69,80, 99,132,220,223,295,296
**Avstriya** – 196,200
**Belarus** – 140
**Binəqədi** – 181–187
**Bolqarıstan** – 284
**Böyük Britaniya** – 347
**Braziliya** – 120
**Buzovna** – 177
**Cenevrə** – 254
**Cənubi Qafqaz** – 180,235
**Çexiya** – 76,140
**Çin** – 36,285
**Dağlıq Qarabağ** – 8,10,11,46,47,50,62,66,77, 81,91,93,95,96,101,111, 114,132, 133,180,261,291,292
**Dərbənd** – 128
**Dominika Birliyi** – 119
**Estoniya** – 170,328
**Əfqanıstan** – 24,287
**Əski İqrığ** – 318
**Fransa** – 8,10,226
**Gəncə** – 16,19,340
**Gürcüstan** – 92,128
**Hamburq** – 255
**Həştərxan** – 199

| | |
|---|---|
| **Xaçmaz** | – 299–308 |
| **Xəzər dənizi** | – 214–216 |
| **Xızı** | – 37–41,30 |
| **Xocalı** | – 12 |
| **Xınalıq** | – 321 |
| **İndoneziya** | – 52 |
| **İsveçrə** | – 54,178 |
| **İran** | – 196 |
| **Kaliforniya** | – 335 |
| **Kazan** | – 9 |
| **Koreya XDR** | – 122, |
| **Koreya Respublikasi** | – 288 |
| **Qafqaz** | – 131 |
| **Qala** | – 194–198 |
| **Qəbələ** | – 16,77 |
| **Qəçrəş** | – 320 |
| **Qırğızıstan** | – 105 |
| **Qobustan** | – 228–233 |
| **Quba** | – 301,309–324 |
| **Qusar** | – 325–327 |
| **Laçın** | – 198 |
| **Lahıc** | – 77 |
| **Lənkəran** | – 16,340 |
| **London** | – 346 |
| **Lökbatan** | – 248 |
| **Luqansk** | – 102 |
| **Mahaçqala** | – 128 |
| **Malayziya** | – 104 |
| **Mali** | – 191 |
| **Makedoniya** | – 53 |
| **Malta** | – 193 |
| **Meksika** | – 166,192 |
| **Mərakeş** | – 26,85 |
| **Mərdəkan** | – 31,217–218 |
| **Monteneqro** | – 256–266 |

**Montorrey** – 166
**Moldova** – 106
**Moskva** – 196
**Naxçıvan** – 16,114,340
**Naxçıvan MR** – 77,336,342
**Nigeriya** – 165,167
**Norveç** – 49,67,94,346
**Özbəkistan** – 48,114,123
**Peru** – 25
**Polşa** – 55–82,196
**Rumıniya** – 84
**Rusiya** – 9,10,66,83,109–112,188,199, 201,202
**Sabunçu** – 247
**San-Marino** – 156
**Sankt-Peterburq** – 10,196
**Səudiyyə Ərəbistanı** – 173,189,190
**Serbiya** – 174
**Sinqapur** – 51,171
**Siyəzən** – 134–140
**Soçi** – 10,109–112
**Sumqayıt** – 19
**Suraxanı** – 247
**Sürix** – 255
**Şabran** – 141–155
**Şağan** – 159–163
**Şamaxı** – 234–246
**Şəki** – 77
**Şimali Kipr Türk Respublikası** – 89,93,100
**Şüvəlan** – 276–282
**Şimali Afrika** – 14
**Tacikistan** – 124
**Tula** – 196
**Türkiyə** – 86–101
**Ukrayna** – 66,102,107

**Ural** – 196
**Varşava** – 76
**Vəlvələ** – 322
**Vyetnam** – 103,121
**Yaxın Şərq** – 14,235
**Yaroslavl** – 201
**Yaponiya** – 172,276–282
**Yeni Suraxanı** – 27–32
**Zaqatala** – 340

# MÜNDƏRİCAT

NAZİRLƏR KABİNETİNİN 2011-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA
NİTQ

*12 iyul 2011-ci il*........................................................................... *5*

YEKUN NİTQİ ........................................................................... *13*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*13 iyul 2011-ci il*........................................................................... *24*

PERU RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB OLYANTA MOYSES UMALA TASSOYA

*14 iyul 2011-ci il*........................................................................... *25*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*14 iyul 2011-ci il*........................................................................... *26*

BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI SURAXANI RAYONUNDA GÖRÜLMÜŞ ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*14 iyul 2011-ci il*........................................................................... *27*

«*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN RƏHBƏRİ RƏŞİD CAVANŞİR İLƏ GÖRÜŞ

*14 iyul 2011-ci il*.......................................................................... *33*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
İLƏ GÖRÜŞ

*15 iyul 2011-ci il*.......................................................................... *34*

BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASININ
PREZİDENTİ TOMAŞ AYAN İLƏ GÖRÜŞ

*15 iyul 2011-ci il*.......................................................................... *35*

ÇİNİN KOMMERSİYA NAZİRİNİN MÜAVİNİ, AZƏR-
BAYCAN–ÇİN HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİ-
SADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ
CONQ ŞAN İLƏ GÖRÜŞ

*18 iyul 2011-ci il*.......................................................................... *36*

XIZI RAYONUNA SƏFƏR

*19 iyul 2011-ci il*.......................................................................... *37*

NƏRİMANOV RAYONUNDA DƏDƏ QORQUD PARKI-
NIN SALINDIĞI ƏRAZİ İLƏ TANIŞLIQ

*19 iyul 2011-ci il*.......................................................................... *42*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 iyul 2011-ci il*.......................................................................... *43*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*21 iyul 2011-ci il*.......................................................................... *48*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*23 iyul 2011-ci il*........................................................................... *49*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*25 iyul 2011-ci il*........................................................................... *50*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMANATANA

*25 iyul 2011-ci il*........................................................................... *51*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ
YUDHOYONOYA

*25 iyul 2011-ci il*........................................................................... *52*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB GYORGE İVANOVA

*25 iyul 2011-ci il*........................................................................... *53*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
XANIM MİŞELİN KALMİ-REYƏ

*25 iyul 2011-ci il*........................................................................... *54*

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİNİN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*25 iyul 2011-ci il*........................................................................... *55*

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ
İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*25 iyul 2011-ci il*........................................................................... *56*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*25 iyul 2011-ci il*......................................................................... *57*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*25 iyul 2011-ci il*......................................................................... *59*

POLŞA PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*25 iyul 2011-ci il*......................................................................... *60*

AZƏRBAYCAN–POLŞA BİZNES-FORUMUNDA İŞTİRAK

*26 iyul 2011-ci il*......................................................................... *70*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*26 iyul 2011-ci il*......................................................................... *78*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*25 iyul 2011-ci il*......................................................................... *79*

RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOV İLƏ GÖRÜŞ

*25 iyul 2011-ci il*......................................................................... *83*

RUMINİYANIN ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞ

*26 iyul 2011-ci il*......................................................................... *84*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*27 iyul 2011-ci il*......................................................................... *85*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDO-
ĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*27 iyul 2011-ci il......................................................................... 86*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN
İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 iyul 2011-ci il......................................................................... 87*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*27 iyul 2011-ci il......................................................................... 88*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN
İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYA-
NATLARLA ÇIXIŞLAR

*27 iyul 2011-ci il......................................................................... 90*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ
İŞTİRAK

*27 iyul 2011-ci il......................................................................... 97*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*29 iyul 2011-ci il....................................................................... 102*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

*2 avqust 2011-ci il .................................................................... 103*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU
MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN
MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

*8 avqust 2011-ci il .................................................................... 104*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ
XANIM ROZA OTUNBAYEVAYA

*8 avqust 2011-ci il ........................................................................ 105*

MOLDOVA RESPUBLİKASI PREZİDENTİNİN
VƏZİFƏSİNİ MÜVƏQQƏTİ İCRA EDƏN
ZATİ-ALİLƏRİ CƏNAB MARİAN LUPUYA

*8 avqust 2011-ci il ........................................................................ 106*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*8 avqust 2011-ci il ........................................................................ 107*

YASAMAL VƏ NƏSİMİ RAYONLARINDA 225 VƏ
35 SAYLI ORTA MƏKTƏBLƏRDƏ APARILMIŞ ƏSASLI
TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ
TANIŞLIQ

*8 avqust 2011-ci il ........................................................................ 108*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*9 avqust 2011-ci il ........................................................................ 109*

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV İLƏ GÖRÜŞ

*9 avqust 2011-ci il ........................................................................ 110*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏL-
MAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ
VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏR-
LƏRİ İLƏ GÖRÜŞ

*10 avqust 2011-ci il ...................................................................... 113*

DOMİNİKA BİRLİYİNİN BAŞ NAZİRİ RUZVELT SKER-RİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 avqust 2011-ci il* ......................................................................... *119*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ XANIM DİLMA ROUSSEFƏ

*11 avqust 2011-ci il* ......................................................................... *120*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

*11 avqust 2011-ci il* ......................................................................... *121*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖV-LƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

*11 avqust 2011-ci il* ......................................................................... *122*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*11 avqust 2011-ci il* ......................................................................... *123*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*11 avqust 2011-ci il* ......................................................................... *124*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİNDƏ İŞTİRAK

*12 avqust 2011-ci il* ......................................................................... *125*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*12 avqust 2011-ci il* ........................................................................ *129*

SİYƏZƏN VƏ ŞABRAN RAYONLARINA SƏFƏR

*15 avqust 2011-ci il* ........................................................................ *134*

SİYƏZƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 avqust 2011-ci il* ........................................................................*136*

SİYƏZƏN UŞAQ İNCƏSƏNƏT MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİ

*15 avqust 2011-ci il* ........................................................................ *140*

ŞABRANDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*15 avqust 2011-ci il* ........................................................................ *141*

VƏLVƏLƏÇAY–TAXTAKÖRPÜ KANALI ILƏ TANIŞLIQ

*15 avqust 2011-ci il* ........................................................................ *152*

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENT-LƏRİ XANIM MARİYA LUİZA BERTİ VƏ ZATİ-ALİLƏRİ CƏNAB FİLİPPO TAMANİNİYƏ

*16 avqust 2011-ci il* ........................................................................ *156*

BAKIDAKI 189 VƏ 150 SAYLI MƏKTƏBLƏRİN BİNA-LARINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*16 avqust 2011-ci il* ........................................................................ *157*

ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI XƏZƏR RAYONUNUN ŞAĞAN QƏSƏBƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*17 avqust 2011-ci il* ........................................................................ *159*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*27 avqust 2011-ci il* ........................................................................ *164*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA

*27 avqust 2011-ci il* ........................................................................ *165*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXO-SAYA

*27 avqust 2011-ci il* ........................................................................ *166*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QUDLAK CONATANA

*27 avqust 2011-ci il* ........................................................................ *167*

BAKI–ƏLƏT AVTOMOBİL YOLUNUN BİR HİSSƏSİNDƏ HƏYATA KEÇİRİLMİŞ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*28 avqust 2011-ci il* ........................................................................ *168*

ATƏT-in BAKI OFİSİNİN YENİ RƏHBƏRİ KORAY TARQAY İLƏ GÖRÜŞ

*31 avqust 2011-ci il* ........................................................................ *169*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*1 sentyabr 2011-ci il* ........................................................................... *170*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KEN YAMA

*1 sentyabr 2011-ci il* ........................................................................... *171*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YOŞİHİKO NODAYA

*1 sentyabr 2011-ci il* ........................................................................... *172*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*1 sentyabr 2011-ci il* ........................................................................... *173*

SERBİYANIN XARİCİ İŞLƏR NAZİRİ VUK YEREMİÇ İLƏ GÖRÜŞ

*1 sentyabr 2011-ci il* ........................................................................... *174*

BAKIDAKI 160 SAYLI MƏKTƏBİN BİNASINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*1 sentyabr 2011-ci il* ........................................................................... *175*

NƏRİMANOV RAYONUNDAKI 259 SAYLI UŞAQ BAĞÇASINDA ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 sentyabr 2011-ci il* ........................................................................... *176*

BUZOVNA QƏSƏBƏSİNDƏKİ 33 VƏ 125 SAYLI ORTA MƏKTƏBLƏRİN, 244 SAYLI UŞAQ BAĞÇASININ BİNALARINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*2 sentyabr 2011-ci il* ........................................................................ *177*

İSVEÇRƏ KONFEDERASİYASININ VİTSE-PREZİDENTİ, MALİYYƏ FEDERAL DEPARTAMENTİNİN RƏHBƏRİ XANIM EVELİN VİDMER-ŞLUMPF İLƏ GÖRÜŞ

*2 sentyabr 2011-ci il* ........................................................................ *178*

AŞPA-nın KOMİTƏ SƏDRİ KRİSTOS PURQURİDESİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 sentyabr 2011-ci il* ........................................................................ *179*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2011-ci il* ........................................................................ *180*

BAKININ BİNƏQƏDİ QƏSƏBƏSİNDƏ DAXİLİ YOLLARDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*5 sentyabr 2011-ci il* ........................................................................ *181*

BİNƏQƏDİ QƏSƏBƏSİNDƏKİ 179 SAYLI MƏKTƏBİN BİNASINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*5 sentyabr 2011-ci il* ........................................................................ *187*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*7 sentyabr 2011-ci il* ........................................................................ *188*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*7 sentyabr 2011-ci il* ........................................................................... *189*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ŞAHZADƏ SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*7 sentyabr 2011-ci il* ........................................................................... *190*

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AMADU TUMANİ TUREYƏ

*7 sentyabr 2011-ci il* ........................................................................... *191*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

*7 sentyabr 2011-ci il* ........................................................................... *192*

MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

*7 sentyabr 2011-ci il* ........................................................................... *193*

QALA QƏSƏBƏSİNDƏKİ ARXEOLOJİ-ETNOQRAFİK MUZEY KOMPLEKSİNİN ƏRAZİSİNDƏ APARILMIŞ TİKİNTİ-QURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ VƏ ƏNTİQ ƏŞYALAR MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*7 sentyabr 2011-ci il* ........................................................................... *194*

QALA QƏSƏBƏSİNDƏKİ 92 SAYLI ORTA MƏKTƏBİN BİNASINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2011-ci il* ........................................................................... *198*

RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2011-ci il* ........................................................................ *199*

AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2011-ci il* ........................................................................ *200*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*8 sentyabr 2011-ci il* ........................................................................ *201*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ İLYAS UMAXANOV İLƏ GÖRÜŞ

*8 sentyabr 2011-ci il* ........................................................................ *202*

«BAKI» FUTBOL KLUBUNUN YENİ TƏLİM-MƏŞQ BAZASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*8 sentyabr 2011-ci il* ........................................................................ *203*

CEYRANBATAN ULTRASÜZGƏCLİ SUTƏMİZLƏYİCİ QURĞUNUN TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*8 sentyabr 2011-ci il* ........................................................................ *206*

«TOTAL» ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ MAYKL BORRELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2011-ci il* ........................................................................ *212*

XƏZƏRİN «ABŞERON» BLOKUNDA YENİ BÖYÜK QAZ YATAĞININ KƏŞFİ MÜNASİBƏTİLƏ MƏTBUATA AÇIQLAMA

*9 sentyabr 2011-ci il* ........................................................................ *214*

MƏRDƏKAN QƏSƏBƏSİNDƏKİ HACI ZEYNALABDİN TAĞIYEV ADINA 123 VƏ 181 SAYLI ORTA MƏKTƏB-LƏRİN BİNALARINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2011-ci il* ........................................................................ *217*

BAKIDA DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA REGİONAL KOMİTƏSİNİN 61-ci SESSİYASINDA İŞTİRAK

*12 sentyabr 2011-ci il* ........................................................................ *219*

DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU XANIM MARQARET ÇAN İLƏ GÖRÜŞ

*12 sentyabr 2011-ci il* ........................................................................ *225*

FRANSANIN NƏQLİYYAT ÜZRƏ DÖVLƏT KATİBİ TİERRİ MARİANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 sentyabr 2011-ci il* ........................................................................ *226*

ALMANİYANIN SABİQ XARİCİ İŞLƏR NAZİRİ YOŞKA FİŞER İLƏ GÖRÜŞ

*12 sentyabr 2011-ci il* ........................................................................ *227*

QOBUSTAN VƏ ŞAMAXI RAYONLARINA SƏFƏR

*13 sentyabr 2011-ci il* ........................................................................ *228*

QOBUSTAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏN-DƏLƏRİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2011-ci il* ........................................................................ *230*

ŞAMAXIDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*13 sentyabr 2011-ci il* ........................................................................ *234*

SABUNÇU, NİZAMİ, SURAXANI, NƏSİMİ VƏ QARA-
DAĞ RAYONLARINDA ORTA ÜMUMTƏHSİL MƏK-
TƏBLƏRİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA-
DAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*14 sentyabr 2011-ci il* ........................................................................ *247*

BAKIDAKI 6 SAYLI MƏKTƏBİN YENİDƏNQURMADAN
SONRA AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*15 sentyabr 2011-ci il* ........................................................................ *250*

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇİN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*16 sentyabr 2011-ci il* ........................................................................ *256*

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*16 sentyabr 2011-ci il* ........................................................................ *257*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*16 sentyabr 2011-ci il* ........................................................................ *258*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*16 sentyabr 2011-ci il* ........................................................................ *259*

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ
BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*16 sentyabr 2011-ci il* ........................................................................ *260*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*16 sentyabr 2011-ci il* ........................................................................ *264*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*16 sentyabr 2011-ci il* ........................................................................ *265*

BAKIDA QARA QARAYEV ADINA 8 SAYLI ONBİRİLLİK MUSİQİ MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*19 sentyabr 2011-ci il* ........................................................................ *267*

BAKIDA GÖRKƏMLİ BƏSTƏKAR FİKRƏT ƏMİROVUN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*19 sentyabr 2011-ci il* ........................................................................ *269*

ŞÜVƏLANDA «ŞİMAL» ELEKTRİK STANSİYASININ İKİNCİ BUXAR-QAZ ENERJİ QURĞUSUNUN TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*21 sentyabr 2011-ci il* ........................................................................ *276*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DEMOKRAT QRUPUNUN SƏDRİ ROBERT VOLTER İLƏ GÖRÜŞ

*21 sentyabr 2011-ci il* ........................................................................ *283*

BOLQARISTAN RESPUBLİKASININ İQTİSADİYYAT, ENERGETİKA VƏ TURİZM NAZİRİ TRAYÇO TRAYKOV İLƏ GÖRÜŞ

*21 sentyabr 2011-ci il* ........................................................................ *284*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*22 sentyabr 2011-ci il* ........................................................................ *285*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA

*22 sentyabr 2011-ci il* ........................................................................ *286*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*22 sentyabr 2011-ci il* ........................................................................ *287*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*22 sentyabr 2011-ci il* ........................................................................ *288*

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏ-
QİLLİYİNİN XX İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ BEY-
NƏLXALQ BAYRAM
TƏDBİRİNDƏ NİTQ

*22 sentyabr 2011-ci il* ........................................................................ *289*

XAÇMAZ, QUBA VƏ QUSAR RAYONLARINA SƏFƏR

*23 sentyabr 2011-ci il* ........................................................................ *299*

XAÇMAZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏN-
DƏLƏRİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2011-ci il* ........................................................................ *301*

QUBADA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN
ABİDƏSİNİ ZİYARƏT

*23 sentyabr 2011-ci il* ........................................................................ *309*

QUBA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*23 sentyabr 2011-ci il* ........................................................................ *311*

QUBA SOYQIRIMI MƏZARLIĞI ABİDƏ KOMPLEKSİ-
NİN VƏ İNZİBATİ BİNANIN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 sentyabr 2011-ci il* ........................................................................ *315*

QUSARDA ŞAHDAĞ QIŞ-YAY TURİZM KOMPLEK-
SİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 sentyabr 2011-ci il* ........................................................................... *325*

ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
ARNOLD RUUTEL İLƏ GÖRÜŞ

*24 sentyabr 2011-ci il* ........................................................................... *328*

BAKIDA BOKS ÜZRƏ XVI DÜNYA ÇEMPİONATININ
TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*25 sentyabr 2011-ci il* ........................................................................... *329*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*26 sentyabr 2011-ci il* ........................................................................... *334*

ABŞ-ın KALİFORNİYA SENATININ ƏTRAF MÜHİTİN
KEYFİYYƏTİ ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ SENATOR
COZEF SİMİTİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2011-ci il* ........................................................................... *335*

«MÜSTƏQİL AZƏRBAYCAN 20 İLDƏ» ADLI MİLLİ
SƏRGİ İLƏ TANIŞLIQ

*27 sentyabr 2011-ci il* ........................................................................... *336*

NOBEL MÜKAFATÇILARI ERİK MASKİN, FİNN ER-
LİNQ KİDLAND VƏ KRİSTOFER ANTONİU PİSSARİDES
İLƏ GÖRÜŞ

*27 sentyabr 2011-ci il* ........................................................................... *347*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALLI-
ĞININ ENERGETİKA ÜZRƏ DÖVLƏT NAZİRİ ÇARLZ
HENDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*28 sentyabr 2011-ci il* ........................................................................ *347*

QEYDLƏR ........................................................................ *348*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *374*

*Coğrafi adlar göstəricisi* ........................................................................ *378*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompyuter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.